## QƏNİ CAMALZADƏ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

## 15 cilddə

## VI cild

ROMAN

«ŞEYTANA DAŞ ATANLAR»

# ŞEYTANA DAŞ ATANLAR

ROMAN

**Hacı Qəni Camalzadə. ŞEYTANA DAŞ ATANLAR** (roman). VI cild
Bakı, Qanun nəşriyyatı, 2022, 268 səh.

Korrektor: Əyyar Tahir

Yazıçının seçilmiş əsərlərinin altıncı cildinə daxil edilmiş "Şeytana daş atanlar" romanı 2022-ci ildə çapdan çıxıb. Roman bir dəstə zəvvarın Məkkə ziyarətindən bəhs edir. Yazıçı müqəddəs məkana səfər edən mömünlərin başına gələnləri qələmə alıb. Təəssüflər olsun ki, zəvvarların arasında İslam dini ilə əlaqəsi olmayanlar, cinayətkarlar, şan-şöhrət aludələri də olur. Belələrinin faciəli aqibəti də romanda öz əksini tapır, bəd əməlləri ifşa edilir.

ISBN 978-9952-38-

© Hacı Qəni Camalzadə, 2022
© Qanun nəşriyyatı, 2022

Qanun nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

*Bu, müəllifin sayca on üçüncü kitabıdır.*

*"Şeytana daş atanlar" romanı bir dəstə zəvvarın Məkkə ziyarətindən bəs edir. Yazıçı müqəddəs məkana gedən mömünlərin başına gələnləri qələmə alıb. Təəssüflər olsun ki, zəvvarların arasında İslam dini ilə əlaqəsi olmayanlar da olur. Onların faciəli aqibəti romanda öz əksini tapır. Yazıçı belələrinin bəd əməllərini ifşa edir.*

## Müəllifdən

Uşaq yaddaşı möhkəm olur, indiyə qədər yadımdadır. Rəhmətlik anam Xanımnaz xanım dua edəndə, söz deyəndə, and içəndə sol çiyni Günəşə dayanar, başını göyə qaldırardı. Soruşurdum: "Dodo, əminsən Məkkə ordadı?" Əminliklə deyirdi: "İnşallah, bu yol səni düz Kəəbəyə aparacaq!"

Anamızı "dodo"[1] çağırırdıq. O, azsavadlı bir qadındı, namaz qılar, oruc tutar, Aşura günlərində məscidə gedər, pirə-ocağa nəzir verərdi. Təqaüdə çıxandan sonra mollalıq edən qonşumuz Əliyar müəllimə hər ayın axırıncı cüməsi üç manat verib dünyadan köçmüş valideynlərinə "Yasin" oxutdurardı. Rəhmətlik atam Oruc kişi də namaz qılıb oruc tutardı, amma namaz-ibadətlərinə barmaqarası baxardı. Kişinin şəkkaklığı vardı, ibadətinə arada fasilə verirdi. Bir müddət milisdə işləməyi təsirsiz ötüşməmişdi.

Altı uşaq idik, hamımızın oxumağını tələb edən atam böyük külfəti dolandırmaqda çətinlik çəkirdi, əlimizin çörəyə çatmağını səbirsizliklə gözləyirdi.

[1] "Dodo" – Talış dilində "bacı" deməkdir.

Əlbəttə, məktəbdə valideynlərimin dindarlığını car çəkmirdim, əksinə, gizlətməyə çalışırdım. Gizlədə-gizlədə pionerə, sonra komsomola keçdim. Uzaq dağ rayonundan şəhərə təzə köçmüşdük. Sənaye yönümlü bir qəsəbədə yaşayırdıq. Qonşuluğumuzda rus da vardı, erməni də. Qəsəbədə İslam dininə rəvac verilmirdi, hər yerdə dinsizlik, ateizm təbliğ olunurdu. Təzadlı bir həyat yaşayırdıq. Evdə Allah sevgisi hökm sürürdü, məktəbdə Allahsızlıq. Qəlbimdə bir natamamlıq vardı.

Kitabları uşaqlıqdan çox sevirdim. Mütaliə hər şeyi yerbəyer elədi, həqiqətin harda olduğunu anladım, natamamlıq hissi keçdi.

Bir gün anamın uşaqlıqda nişan verdiyi yol məni Məkkəyə apardı. Dəruni arzularımdan birinə çatdım, Allahın Evini təvaf elədim. Bu ziyarət mənə çox təsir elədi. Gördüklərimi, eşitdiklərimi qələmə almaq fikrinə düşdüm. “Şeytana daş atanlar” romanı belə ərsəyə gəldi.

## Hədislər:

***Məhəmməd peyğəmbər (s.ə.a.s) bir hədisində belə buyurur:***

*"Hər kəs ki sağlığımda, və ya ölümümdən sonra ziyarətimə gəlsə Qiyamət günü yanımda olacaq, həmişə şəfahətimi görəcək".*

***Məhəmməd peyğəmbər (s.ə.a.s) başqa bir hədisində belə buyurur:***

*"İnsanlar Həcərül-Əsvədə əl basmaqla Allah-Təala ilə əhdi-peyman bağlayırlar".*

***Müəllifi naməlum bir hədisdə buyurulur:***

*"Hər kəs ki müqəddəs Kəbəni təvaf edər, Həzrəti İbrahim məqamında iki rükət namaz qılar, sonra Zəm-Zəm quyusundan su içər, Allah-Təala onun günahlarından keçər".*

# ŞEYTANA DAŞ ATANLAR

( r o m a n )

## -1-
## Dəstəbaşı Hacı Sarvan

Hacı Sarvanın tələsməklə heç arası yox idi. Dəstəmazı, iqaməsi, salamları, zikrləri, hətta dua-sənası ilə beş dəqiqəyə qılınan iki rükətlik sübh namazını belə on dəqiqəyə qılırdı. İndi də bayırda onu gözləyən taksinin siqnalını eyninə almadan Allah qarşısında borcunu arxayın yerinə yetirdi. Sonra ayaqüstü qəlyanaltı eləyib qazı-işığı söndürdü, əl çantasını çiyninə atıb mətbəxi tərk elədi, dəhlizdə axşamdan qabladığı çamadanın qulpundan yapışıb bayıra sürüdü. Mənzilin dəmir qapısını bağladı, kiçik bağçadan keçdi, darvazanı da qıfılladı. Hər iki açarı çantasının dərin ciblərinin birində gizlətdi.

Sübh toranlığında şosenin kənarında dayanan taksiyə tərəf çamadanını dığırlatdı. Yarıya qədər aşağı endirilmiş şüşədən başı görünən sürücüyə irad tutdu:

– Nə əl qatmısan özünə, qonşu? – dedi. – Siqnalınla camaatı dərbədər elədin ki!

Sürücü, doğurdan da, qonşusu idi, toranlıqda dişini ağartdı:

– Hacı, yerişinə haram qatsan dünya dağılmaz ki! – deyə daimi müştərisinin astagəlliyinə lağ elədi. – Gözləməkdən gözümün kökü saraldı, axı!

Hacı Sarvan onu zarafatla hədələdi:

– Kefinə bax, özünü yaxşı aparmasan səni gələn il özümlə həccə aparmayacağam! – dedi.

Hədə yerinə düşdü, qonşunun səsi batdı, sallaq bığlarını sığalladı. Hacı Sarvan çamadanla çantanı arxa oturacağa atdı, sürücünün yanında oturdu. Barışdırıcılıqla:

– Sür, qonşu, – dedi. – Sür, amma tələsən təndirə düşər məsəlini yaddan çıxarma.

Yuxudan kal durmuş sürücü hacının sözünü daha çevirmədi, daimi müştərisinin könlünü almaq üçün şirin dillə:

– Deyinməyimə baxma, hacı, xətrini çox istəyirəm. Səfərdən dönəndə zəng elə, səni özüm qarşılayacağam, – dedi, sonra maşını yerindən tərpətdi, hava limanına yol aldı.

Hacı yetmişi xırdalasa da canı hələ sulu idi, cavan oğlan kimi şax gəzirdi. Arvadı Hacıxanım Allahın dərgahına qovuşandan sonra ətrafı bağlı-bağatlı, üçotaqlı kiçik mənzildə tək yaşayırdı. Oğul-uşaq sarıdan binəsib idi, qohum-qardaşla yaxınlıqdan isə özü qaçırdı. Artıq təkliyə öyrəşmişdi. Düzdü, biş-düşdə çətinlik çəkirdi, amma şikayətlənmək fikrində deyildi. Taleyin zərbələri-

ni Allahın inayəti sayırdı. Üzündən xoş ifadə, xırda gözlərindən təbəssüm əskilmirdi.

Hacı kifayət qədər təcrübə sahibi idi, hər işinə sahmanlı yanaşırdı. Aeroporta vaxtından azca tez gəlmişdi. O, gözləmə zalının ortasında, giriş qapısı ilə üzbəüz özünə yer seçdi ki, gəlib-gedən gözündən yayınmasın. Elə bu arada da köməkçisi Gülü gəldi, çamadanları üst-üstə qoydu, səyyar bir "masa" quraşdırdı. Hacı Sarvan siyahını çantasından çıxartdı. Köməkçisi kiçik ölçülü Azərbaycan bayrağını çamadanlardan birinin qulpuna bağladı. "Masa" rəsmi görkəm aldı.

Gülü həm də hacının qonşularındandı, onun sayəsində səfərə çıxırdı. Nisbətən cavan idi, dindirməsən danışmazdı. Laübalı görkəmi ən acıqlı adamı da sakitləşdirirdi, bu da, yəqin ki, peşəsindən irəli gəlirdi.

– Deyəsən, hacı, biz tez gəlmişik, axı, – dedi.

Hacı Sarvan razılaşmadı:

– Mən elə deməzdim, molla Gülü, – dedi və bu vaxt gözləmə zalına təkərli çamadanlarını diyirlədərək girən bir neçə tanış simaya işarə elədi. – Odur ha, o gələnlər bizim dəstədəndir...

Gülü kişi gələnləri qarşılamağa dikəldi. Hacı ona hörmət əlaməti olaraq molla desə də, əslində, Gülü kişi İmam Rza məscidində mürdəşirlik eləyirdi, amma əlimyandıda mollalığı da vardı. "Yasin" surəsini, tilavətləri bilirdi. Həm də, Allah tərəfi, gözəl avaz sahibi idi.

Çox keçmədi ki, iki bir, üç bir gələn dəstə üzvləri gözləmə zalını doldurdular. Hacı Sarvan onları bir-bir ümumi siyahıya salmaqla kifayətlənirdi, hərəsinə də bir soraq kitabçası verirdi. Pasportlar, uçuş biletləri, ödəniş qəbzləri çantasında idi. Hər zəvvara bir-bir tapşırırdı ki, gözləmə zalından aralanmasın. Kağız qolbaqları köməkçisi paylayırdı. Bu bir ehtiyat tədbiri idi. Şəxs, ziyarət vaxtı azanda, çaşanda, itəndə, ya huşu üstündə olmayanda barəsində vacib məlumatlar qeyd olunmuş kağız qolbaq dadına yetirdi. Mətn üç dildə, Azərbaycan, ingilis və ərəb dillərində tərtib olunmuşdu.

Tədricən səs-küy gözləmə zalını bürüdü.

Dəstəbaşı qismində bu Hacı Sarvanın iyirminci həcc səfəri idi. Bir neçə dəfə də vəzifəli, imkanlı şəxslərin ümrə ziyarətlərinə başçılıq eləmişdi. Demək olar ki, saçı-saqqalı Məkkə-Mədinə yollarında ağarmışdı. Əlbəttə, dəstəbaşılıq İdarədə sıravi bir vəzifə sayılırdı. Hər il həcc ziyarətinə Azərbaycandan üç-dörd min zəvvar gedərdi. Bu il də elə idi. İki-üç gün ərzində on doqquz təyyarə reysi Səudiyyə Ərəbistanına yollanacaqdı.

Hacı arada gözləmə zalına göz gəzdirirdi. Maşallah, yaddaşı yaxşı idi. Dəstəsindəki adamları uzaqdan seçirdi. İşdi, soruşan olsaydı gələnlərin adını-soyadını, hətta, təvəllüdünü söyləyərdi.

Ziyarətə hazırlıq aydan da çox çəkirdi. Həftədə bir-iki dəfə dəstə üzvlərini təhkim olunmuş məscidlərə toplayıb təlim keçirdi ki, səfərdə əziyyət çəkməsinlər.

İdarənin tələbi belə idi. Zəvvarlara ehram bağlamağın, ehrama girməyin və çıxmağın şərtlərini öyrədirdi. Müqəddəs şəhərlər barəsində ətraflı məlumat verir, onlara qalacaqları mehmanxanaların qaydalarından danışırdı. Səfər vaxtı lazım olan əşyaların, əyin-başın siyahısını yazdırırdı. Dəstə üzvlərinə təlbiyyəni, məşhur mərsiyələri əzbərlətdirirdi.

Artıq gözləmə zalında ağız deyəni qulaq eşitmirdi. Siyahıdan keçməyən bir-iki adam qalırdı. Dəstənin ərkəsöyün üzvləri hacının xoş münasibətindən istifadə edib "masaya" yaxınlaşmağa tələsmirdilər.

Hacı Sarvan köməkçisinə buyurdu:

– Molla Gülü, dəstəmizin ərkəsöyünlərini çağır, – dedi. – Daha vaxtdır.

Mürdəşir Gülü öz vəsaiti ilə yox, Hacı Sarvanın tapdığı ianələrin hesabına səfərə çıxdığından bir az dili qısa idi. Özünü borclu saydığından himayədarının buyruqlarını qaça-qaça yerinə yetirirdi.

Məkkə ziyarətinə gedənlər arasında mürdəşir Gülü kimiləri çox idi. Hacı Sarvana Allah-Təala vergi vermişdi. Pullu kişiləri asanlıqla inandırır, onları İmam Rza məscidinin ehtiyaclarını ödəməyə təşviq edirdi. Sayəsində arzularına çatan möminlərin sayı günü-gündən artırdı.

O, axır ki, işini başa vurdu. Siyahıda yalnız üç boş, adsız-soyadsız xana qalırdı. Bu ehtiyat yerlər idi. Çox vaxt bu xanalar elə boş da qalırdı. Köməkçisinə səsləndi:

– Molla Gülü, hazırlaş, gedirik, – dedi.

## -2-
## Yeni gələnlər

Bir saatdan çox dizi üstə oturduğundan Hacı Sarvanın qıçları keyimişdi. Ayaqlarının uyuşuğunu açmaq üçün qalxacaqdı ki, "masanın" önündə peyda olan balacaboy, yanaqları işıldayan kişini görüb fikrindən daşındı.

Gələn salamlaşdı, sonra kefiköklüklə:

– Hacı, hara gedirsən, dayan, həccə gedən mömin müsəlmanın biri qaldı... – dedi, sənədlərini uzatdı.

Hacı Sarvan təzə gələnə zənn ilə baxdı, salamı cavablandırdı, uzadılmış pasportu, uçuş biletini və səfər üçün İdarənin hesabına ödənilmiş məbləğin bank qəbzini aldı. Hər şey yerli-yerində idi. Təzə zəvvarın kimliyinə təkrar göz gəzdirib:

– Balaca qardaş, Allah ziyarətini qəbul eləsin, – dedi.

Ziyarətçi özündən razı halda köməkçinin doldurduğu kağız qolbağı qoluna keçirtdi, soraq kitabçasını götürdü:

– Görüşərik, – dedi və "masadan" aralandı.

Molla Gülü astadan soruşdu:

– Bu, kim ola?

Hacı Sarvan fikirli halda:

– Tanımıram, yəqin vəzifə adamıdı, – dedi.

– Hardan bilirsən ki, vəzifə adamıdı? – Gülü aydınlaşdırmağa çalışdı.

– Görmürsən, özünü necə arxayın aparır, – deyə hacı Sarvan mızıldandı. – Elə bil alçaq dağları bu yaradıb...

– Vəzifəli də olsa əhlikef adama oxşayır. – Gülü ehtimalla dilləndi. – Burnu xoruz pipiyi kimi qızarır. Yəqin ki, araq-çaxır həvəskarıdır.

Hacı Sarvan qımışdı:

– Gözündən heçnə qaçmır, molla. – dedi.

Söhbətlərini yarımçıq qoymalı oldular. Daha iki nəfər adamları yara-yara "masaya" yaxınlaşdı. Onların da əlində pasportdan savayı uçuş bileti, bir də bank qəbzi vardı. Gələnlərin birinin iri cüssəsi, div kimi bədheybət görkəmi vardı. O birisi balacaboy idi, üzü də boz rəngdə idi, elə bil heç vaxt Günəş işığı görməmişdi. İstiyə baxmayaraq hər ikisinin əynində bahalı kostyum, boyunlarında qırmızı qalstuk vardı.

Təzə gələnlərin zahiri görünüşü hacı Sarvana qəribə gəldi. Təəccübünü zorla boğub onları da qeydiyyatdan keçirtdi, sənədlərini alıb çantasına qoydu. Köməkçisi, nədənsə, yetiklik elədi. Gələnlərdən soruşdu:

– Bir yerdəsiz?

Boz rəngli kişi dərhal, həm də ətraflı cavab verdi:

– Xeyr, bir yerdə deyilik, aeroportda tanış olmuşuq. Mən hüquqşünasam, vəkillik edirəm, – dedi, hələb-həlbət özünü təqdim elədi. – Adım da Fəxrəddindi, vəkil lazım olsa, qulluğunuzda hazıram.

Div görkəmli kişi hırıldadı.

– Mən də Qurd qapısındakı qəbiristanda qəbirqazanam. Adım Rəhimdi, – dedi, hüquqşünası yamsılayaraq təbəssümlə əlavə elədi. – Elə mən də qulluğunuzda hazıram, özüm də dost-tanış qədri bilənəm.

Özünü vəkil təqdim edən kişi qəbirqazana kəc-kəc baxdı, amma heç nə demədi.

Onun baxışlarından cücə kimi büzüşən qəbirqazanın halı hacı Sarvanı düşündürdü, amma gələnlərə daha vaxt sərf eləməyi lüzumsuz saydı. "Masanın" üstündəki kağız-kuğazı yığışdırdı, çantasını çiyninə atdı. Çamadanını götürdü, eskalatora tərəf gedəndə köməkçi onun qulağına pıçıldadı:

– Deyəsən, mən bu adamları görmüşəm.

Hacı Sarvan dayandı:

– Harda görmüsən?

– Zonda görmüşəm, – deyə köməkçi dəqiqləşdirdi. – Hər ikisi tanış gəlir, amma yada sala bilmirəm.

– Sənin ki yaddaşın yaxşı idi, molla, – deyə hacı Sarvan onu qınadı. – Sənə nə oldu belə? Yoxsa qocalırsan?

Gülü günahkar halda:

– Üstündən otuz il keçib, hacı, – dedi. – Buna yaddaş neynəsin...

Hacı Sarvan Gülünün tərcümeyi-halından xəbərdar idi. Bilirdi ki, cavanlıqda onun əlindən bir müxtəsər xəta çıxıb, tikdiyi hasar aşıb, qonşunun azyaşlı uşağını şikəst eləyib, bunun cəzasını çəkib, bir neçə il ağzıbirdə oturub. İndi ətçimçəşdirən bir sənətlə məşğul olmağına

baxmayaraq, ailəcanlı idi, bir sürü oğul-uşaq sahibi idi. Necə tərbiyə vermişdisə çolma-çocuğu İmam Rza məscidinin hər işinə yarıyırdı. Axund Əmirxanın dili ağzına sığmırdı, onları tərifləməkdən yorulmurdu.

Gülünün söylədikləri marağına səbəb olsa da, dəstəbaşı yolundan qalmadı:

– Yaxşı, molla, indi vaxt yoxdu, bu barədə sonra danışarıq, – dedi. – Amma axırda gələnləri gözündən qoyma.

Köməkçi arxada bir az yubandı, sonra gəlib hacıya çatdı. O, əlində dalğalanan kiçik Azərbaycan bayrağını yuxarı qaldırmışdı. Abuzər-həkim dəstəbaşıdan bir dirsəklik məsafədə qərar tutmuşdu. Bu vaxt Səudiyyə Ərəbistanının Mədinə şəhərinə uçan təyyarəyə minik elan olundu. Hacı Sarvan tələsik eskalatora mindi, köməkçinin dalğalandırdığı bayrağın fonunda qayım səslə hamını dalınca gəlməyi tapşırdı.

## -3-
## Neytral zonada

Demə, tələsməyinə dəyməzmiş, uçuş yubanırdı. Neytral zonada ilişib qalmalarının səbəbini aydınlaşdırmaq üçün hacı Sarvan bir neçə yerə zəng etdi, amma gecikmənin səbəbini dəqiq deyən olmadı. İdarədən aldığı başdansovdu cavablardan rəncidə oldu. Amma mübahisə eləmədi, bilirdi ki, rəislər həmişə haqlıdır. Sonra

bir daha zəng elədi. Birbaşa rəhbərinə yeni gələn zəvvarlar barəsində məlumat verdi. Xəttin o başında xəbər sakit qarşılandı. Səlahiyyət sahibi bir az susdu, deyəsən kiminləsə məsləhətləşirdi, sonra tapşırdı ki, təzə gələnlərin işinə qarışmasın. Bu, hacıya qəribə gəldi. Axırda gələn zəvvarlar haqqında ətraflı məlumatdan sonra başqa söz gözləyirdi. Birbaşa rəisinin tapşırığı onu heç açmadı. Mobil telefonunu qapadı.

Uçuşun gecikməyi dəstəbaşını narahat eləmirdi. İldə bir neçə dəfə Səudiyyə Ərəbistanı Krallığına səfər eləməyə alışmışdı. Hər dəfə bir qənbərqulu çıxırdı. Bilirdi ki, dünyanın ən zəngin ölkəsinin vətəndaşları ləng tərpənməyə adət ediblər. İyirmi min kvadrat kilometr bir ərazisi olan Səudiyyə Ərəbistanı iyul aylarında istidən pörşələnirdi. Dəvədən düşüb bahalı maşınlara minmiş ərəblər maşınları dəvə kimi idarə edirdilər. Keçən əsrin əvvəllərində müstəqillik qazananda heç kimin ağlına gəlməzdi ki, Ərəbistan səhrasında neft tapılacaq, hamı varlanacaq, şəhərlər abadlaşacaq, əhali gen-bol yaşayacaq. Başçısı iki müqəddəs ocağın mühafizəçisi kimi tanınan ölkə Şərqin ən qüdrətli, ən zəngin dövlətinə çevriləcək. Otuz milyon əhalisinin doxsan faizi şəhərlərdə cəmləşmişdi. Daha dəvə quyruğundan tutub səhralıqda dolaşan qalmamışdı.

Bunları fikrindən keçirən dəstəbaşı geniş gözləmə zalına nəzər saldı. Dəstə üzvlərinin əksəriyyəti cavanlar idi. Neytral zonaya səpələnmişdilər. Qarşıdakı səfərin

ağır-sənginliyini nəzərə almadan bir-biri ilə zarafatlaşır, deyib-gülürdülər. Onların gəncliyə xas qayğısızlığına həsəd aparan hacı Sarvan gözləmə zalını dolanan molla Gülünü yanına çağırdı:

– Vaxtsız gələn zəvvarlarımız neynəyir?

– Vəkil qəhvəxana köşkünün arxasında oturub mürgüləyir, qəbirqazan fırfıra kimi zalı dolanır, Balaca isə gözə dəymir, – deyə molla Gülü ətraflı cavab verdi. – Gözləmə zalını neçə dəfə o baş-bu başa keçmişəm, amma o qırmızı burun kişiyə rast gəlməmişəm. Hara yoxa çıxıb, bilmək olmur.

Hacı Sarvan vəzifəsini canı-dildən yerinə yetirən mürdəşiri təriflədi:

– Afərin sənə! – dedi, sonra mülayimliklə xatırlatdı. – Neytral zonadan heç kim özbaşına çıxa bilməz, molla, sənədlər çantamdadı. Balaca buralarda olmalıdı. Sənədlərində bir uyğunsuzluq var, yanıma dəvət edərsən.

Gülü aralanmaq istəyəndə hacı soruşdu:

– Vəkillə qəbirqazanın kimliyini xatırlaya bildinmi?

– Hələ yox, elə bil beynim quruyub, – deyə Gülü başını buladı. – Amma hər ikisinin köhnə məhkumlardan olmasına şübhəm yoxdu.

## -4-
## Balaca

Balacanın beynində bir çaxnaşma vardı. Hələ də Məkkə səfərinin baş tutacağına şübhə edirdi. Doğurdan da, Balaca hara, müqəddəs Kəəbə hara! Yatsa yuxusuna girməzdi. Bütün həyatı yava-yava əməllərdə keçdiyindən hələ də inana bilmirdi ki, həcc ziyarətinə uçur.

Uçuşun yubadılması yerinə düşdü, Balaca mömin müsəlmanların arasında lafına uyğun yol yoldaşı seçmək fikri ilə zəvvarların arasında bir az gəzişdi. Cavanlardan xeyli aralı iki ağsaqqal çay dəsgahı açmışdı. Balaca ərkyanalıqla onlara yan aldı:

– Baxıram, yaşıma uyğun yenə sizsiz... Güman ki, yoldaşlığımız tutar. Mənim adım Balacadır.

Ağsaqqallar Balacanı xoş qarşıladılar. Onlardan biri əlində termos tutmuşdu. Gələni diqqətlə gözdən keçirtdi:

– Sənin nə yaşın var ki, qardaş! Maşallah, saçların şəvə kimidir, – dedi. – Lap nahaq özünü biz qocalara tay tutursan.

Balaca qızarmış burnunu çəkdi:

– Saç-saqqalımın qaralığına baxmayın, yaşım əllini ötüb, – dedi, zarafat elədi. – Necə deyərlər, saçlarımın qaralığı cavanlığımdan deyil, bəlkə də arsızlığımdandı.

Əli termoslu ağsaqqal razılıqla:

– Hə, eləsə tanış olaq. Mənim adım Mirzəmməddi, – dedi, sonra yoldaşını təqdim elədi. – Qardaşımızın adı

isə Məftundu, hacıdı. Bu ikinci həcc ziyarətidi. Bir yol da ümrə ziyarətində olub.

Balaca əvvəl Mirzəmmədlə, sonra hacı Məftunla təmənləşdi. Qondarma bir heyranlıqla:

– Sizin kimi möminlərlə tanışlıqdan məmnun oldum, – dedi.

– Sənin şirindilliyin xoşuma gəldi! – Mirzəmməd gülümsədi. – Bizimlə çay içərsənmi?

Və razılıq gözləmədən çantasından bir açılıb-bağlanan fincan çıxartdı, çay süzdü, təzə tanışına uzatdı. Amma Balaca çayı içə bilmədi, mobil telefonuna zəng gəldi. Nə eşitdisə, ayağa qalxdı, yoldaşlarından aralananda üzr istədi:

– Vacib zəngdi,  – dedi.

## -5-
## Balaca və Əflan

Balaca telefonda aldığı təlimata uyğun neytral zonanın dərinliyində, üstündə "Giriş qadağandır!" yazılmış sarı rəngli qapını döymədən açdı, içəri girdi. Kiçik masanın arxasında külli-ixtiyar sahibi kimi oturmuş Əflanla təmənləşdi. O, təəccübünü gizlətmək üçün kobud bir zarafat elədi. Çiyninin üstündən bir sağa, sonra bir sola üfürdü:

– Fu! Fu! – dedi. – Əstəğfürullah! Qəsdin nədi, Əflan? Müqəddəs Məkkə səfərimizi batil eləmək fikrindəsən?

Əflan, bir yerdə işlədikləri Agentlikdə rəisin müşaviri idi. Çox böyük səlahiyyətləri vardı. Biliyi, bacarığı, hiyləgərliyi ilə kimə desən dov gələrdi, lazım gəlsə Şeytana da papış tikərdi. Hesabı ondan götür ki, rəis yerində olmayanda Agentliyi rəis müavinləri yox, Əflan idarə edirdi. O, Balacanın sözünə əyri-əyri gülümsədi, amma oturduğu yerdən hörmətlə dikəldi:

– Xoş gördük, Balaca müəllim, keç, əyləş, – dedi, amma onu qınamaqdan özünü saxlaya bilmədi. – Heç artistliyindən qalmadın da!

Əflan tək deyildi, arxasından idman hazırlıqlı iki cavan boylanırdı. Onlardan birinin hər iki qulağı qaxac ət kimi büzüşmüşdü, o birininsə burnu yastılanıb üzünə yapışmışdı. Bir sözlə, hər ikisi keçmiş rinq ustası idi.

Balaca idman hazırlıqlı "uşaqlarla" əlbəəl görüşmədi, başı ilə salamlaşmaqla kifayətləndi. Əflanla üzbəüz oturdu, həsədlə dilləndi:

– Maşallah, xoşbəxtsən, Əflan! – dedi. – Böyük xaloğlum, gör, qədrini necə bilir ki, sənə cangüdən qoşur.

Balaca "Böyük xaloğlum" deyəndə Agentliyin rəisi Böyüyü nəzərdə tuturdu. Onların xaloğluluğu heç kimə sirr deyildi. Həm də şəhərdə xaloğlusu elə Böyük Xaloğlu kimi ad çıxarmışdı. Özünə də bəzən Balaca Xaloğlu, bəzən də Kiçik Xaloğlu deyirdilər.

Əflan onu İblislə müqayisə edən Balacanı acılamaqdan özünü zorla saxladı, necə olsa, rəisin xalası oğlu idi. Etinasızlıqla dedi:

– Darıxma, Balaca müəllim, rəisimiz Məkkədə sənə də cangüdən qoşacaq.

– Nə baş verir? Niyə çağırmısan? – Balaca səbirsizliklə soruşdu. – Sözü telefonla demək olmazdımı?

– Olardı, amma sənin mübarək üzünü görmək istədim, – deyə Əflan istehza ilə Balacanın cavabını verdi. Sonra öz növbəsində heyrətləndi. – Ay zalım, bəyəm bilmirsən, mobil telefona etibar yoxdu? Başımıza gələnlər sənə dərs olmadı?

Balaca gəldiyi qənaətin düzlüyünə şübhə eləmədən:

– Deməli, uçuşun gecikməyinin səbəbi Agentlik deyil.

– Əlbəttə, biz deyilik. Fikrin köhnə vaxtlara getməsin. Xəncərimizin qabağı da kəsirdi, dalı da. İndi Agentliyin əli qısadı, milçəklərini zorla qovur, – deyə Əflan təəssüflə dilləndi.

– Bəs, neytral zonaya necə yol tapmısan? – Balaca soruşdu.

– Köhnə əlaqələrin köməyi ilə... – Əflan əlini yellətdi. – Elə təşkilatlar var ki, hələ də Agentliyin gözümçıxdıda olmasından xəbərsizdi.

– Bəlkə texniki səbəblərə görə yubanırıq? – Balaca dəqiqləşdirməyə çalışdı. – Bəlkə Agentlikdən də qüdrətli bir idarənin hökmü ilə uçuş yubadılır? Hə?

Əflan üzünü turşutdu:

– Səninçün nə fərqi var? Bəyəmləri mən bura uçuşun gecikməyini müzakirə eləməyə gəlmişəm? – Soruşdu. – Yaxından keçirdim, aeroportun məlumat bürosuna zəng elədim, uçuşun yubandığını öyrənib gəldim ki, rəisin sözünü sənə çatdırım.

Balaca onu tələsdirdi:

– Hə, eləsə söylə, – deyə narazılıqla çımxırdı.

– Balaca müəllim, qulaq as. – Əflan onun narazılığını eyninə almadı. – Həcc ziyarətinə gedənlərin siyahısını yoxlayırdıq. Maraqlı bir faktla üzləşdik. Səninlə eyni təyyarədə uçanlar arasında Mirzəmməd adında birisi var. Düzdü, yetmiş yaşı var, amma sizinlə bir qəsəbədə, bir küçədə doğulub.

– Nə olsun ki? – Balacanın heç tükü də tərpənmədi.

– Sənə bir sirr açım! – Əflan dodaqucu gülümsədi. – Kiçik bir qəsəbədə doğulmuş üç adamın eyni vaxtda həccə getməyi qəribə deyilmi?

Balaca razılaşdı:

– Qəribə olmağına qəribədi, – dedi. – Amma yetmiş yaşında adamdan mənə nə xətər toxunacağını anlamıram. Bəlkə xırdalayasan...

– Mirzəmməd Agentliyin zirzəmisində canını bizə tapşırmış milyonçu Sərhədin atalığıdır, – deyə Əflan təhlükənin üstündən pərdəni götürdü. – Bilirsən ki, Sərhədin Sərham adında bir qardaşı da var, hələ həbsxanadadı...

– İndi aydın oldu... – Balaca şümal yanağını sakitcə qaşıdı.

Əflan təhlükə qarşısında özünü itirməyən Balacaya hörmətlə:

– Rəis tapşırdı ki, qoy, xaloğlu gözdə-qulaqda olsun, əvvəlki vaxtlar deyil, – deyə Əflan Böyüyün istəyini ona çatdırdı, sonra idman hazırlıqlı uşaqları göstərdi. – Gör, iş nə yerdədir ki, daha mən də cangüdənsiz idarədən çıxmıram.

Balaca yekəpər Əflanın ağciyər olduğunu bildiyindən:

– Deyəsən, canına qorxu düşüb, axı! – deyə söz atdı.

Əflan birbaşa cavabdan qaçdı:

– Heç bir tikə də qorxmuram! – dedi və ayağa qalxdı. – Mən Böyük Xaloğlu olan yerdə niyə qorxmalıyam ki?

Balaca da qalxdı:

– Yaxşı. Söylə görüm, rəislər haçan səfərə çıxır?

– Biz üç gündən sonra, axırıncı reyslə uçacayıq, – deyə Əflan dilləndi, sonra yadında ikən əlavə elədi. – Hə, qocadan gözünü çəkmə, ha. Mirzəmmədi deyirəm. Əminəm ki, müəmmanın bir açarı ondadır. Özünü ondan qoru.

Balaca artıq Mirzəmmədlə tanış olduğunu gizlətmədi. Hər ehtimala qarşı:

– Mirzəmməd bayaqları bir yaraşıqlı xanımla vidalaşırdı. Həvəsin olanda xanımın kimliyini dəqiqləşdirərsən, bəlkə lazım oldu. – Sonra bayaqkı kobudluğunu

ört-basdır eləmək üçün üzrxahlıqla. – Dörd-beş saatdı içkisizəm, əsəblərim gərgindi, bəzən hətərən-pətərən danışıram, üzrlü say.

Əflanın acığı keçdi:

– Halına yanıram, Balaca müəllim, – deyə gülümsədi. – Amma dözmək lazımdı...

– Demək asandı! – deyə Balaca qalxdı, müsahibini cangüdənlərin əhatəsində qoyub otaqdan çıxdı.

## -6-
## Fəxrəddin və Rəhim

İtirdiyi ovun izinə düşməyə çalışan Rəhim ov tulası kimi neytral zonada xeyli vurnuxdu. Sonra yorğun halda qayıdıb Fəxrəddinin yanında oturdu. Günahkar halda astadan:

– Qədeş, Balaca haramzadə neytral zonanın axırına tərəf gedirdi. Düşdüm dalınca, birdən bir tikə əppək olub yoxa çıxdı, – dedi, acıqdan girdə gözləri daha da girdələndi. – Neynəyim? Nə məsləhət görürsən?

Fəxrəddin, əlbəttə, cinayət məcəlləsini əzbər bilirdi, amma vəkil deyildi, cinayət aləmində “qanuni oğru” kimi tanınan Lotu Faxı idi. Həcc səfərinə hazırlıq ərəfəsində onun ömürlük məhkumluğuna xitam verilmişdi, azadlığa buraxılmışdı. Əslində bu elə də əlamətdar hadisə deyildi. Ömrünün otuz ilini həbsxanada keçirən

Lotu Faxı istədiyi vaxt türmədən çıxa bilərdi, amma "oğru qardaşlığının" xətrinə boynuna götürdüyü təhəddüd əl-qolunu bağlamışdı. Heç özü də cinayət aləminin nizamnaməsini pozmaq fikrində deyildi. Elə həmin təhəddüdü yerinə yetirmək naminə indi azadlıqda idi.

O, ayağını ayağının üstünə aşırıb əşya çantasına söykənmişdi. Pencəyini, qalstukunu çıxarmışdı, köynəyinin qollarını çırmalamışdı. Vəziyyətini dəyişmədən söylənilənləri dinlədi. Ləng cavab verdi.

– Otur, dincəl, Domba, – dedi. – Balaca harda olsa, bura gələcək. Burdan hara gedəcək ki! Biz ki bir təyyarədə uçuruq.

Heç özünü qəbirqazan kimi təqdim edən Domba Rəhim də balaca adam deyildi. O da "qanuni oğru" titulu daşıyırdı. Lotu Faxının ən yaxın əlaltılarından idi, demək olar ki, vuran qolu idi. Hamisi ona bu ləqəbi domba gözlərinə görə yox, Pirallahı tərəflərdə Damba adlanan kiçik qəsəbədə doğulduğuna görə vermişdi. Amma hamı Rəhimi Damba yox, Domba çağırırdı. Lotu Faxı "saxlancın" vəsaiti hesabına onu cəza müddəti bitməmiş azadlığa buraxdırmışdı.

Altı ay bundan qabaq əfv olunmağının səbəbini Rəhim təzəlikdə anlamışdı. Lotunun yeddimərtəbəli gedişləri ona gec çatırdı. Oğrubaşının sözündən sonra rahat nəfəs aldı. İzlədiyi adamı əldən buraxdığına görə danlanılacağını gözünün altına almışdı. Sevinclə vəd elədi:

– Qədeş, Balacanın anasını ağlatmaq mənə borc olsun! – dedi.

– Görək də, Domba! – Lotu gülümsədi, mehribanlıqla dilləndi. – Yadında saxla, sən onun anasını ağlatmasan öz anan ağlar qalacaq!

Domba Rəhim Lotunun zahirən mehribanlıq yağan hədəsindən büzüşdü. Sözü dəyişməyə çalışdı:

– Bəs, Böyük Xaloğlu ilə kim məşğul olacaq?

– Onun halvasını dəli Məhər adında başqa bir dostumuz çalacaq, – deyə Faxı dilləndi.

– Mən dəli Məhəri tanıyıram, rəhmətlik Sərhədin qardaşıdı. Əsil adı Sərhamdı... – Domba dilləndi. – Keçənlərdə bir-iki ay mənimlə bir kamerada oturub, əliaçıq cayıldı, pay-puş alanda tək yeməzdi.

Lotunun əlaltısının məlumatlılığından xoşu gəlmədi, xəbərdar elədi:

– Sənə demişəm ki, hər şeyə burnunu soxma!

Domba Rəhim əlini gözünün üstünə qoydu:

– Oldu, – dedi, təkrar maraqlandı. – Görəsən, Böyük haramzadənin fitvadan xəbəri varmı?

– Olmamış olmaz! – Lotu söhbətə meyilli olmadığından ağızucu cavab verib gözünü yumdu.

Domba Rəhim əl çəkmədi:

– Deyirəm, qədeş, həcc ziyarətinə nahaq baş qoşduq. İşi belə çətinləşdirməyinə dəyməzdi. Gərək elə Bakıda Böyüyün axırına çıxaydıq.

Lotu gözünü açdı, pis-pis Rəhimə baxdı:

– Deyirsən, sənin qədər də ağlım yoxdu? – Soruşdu, özünü itirmiş Domba Rəhimə gözünü ağartdı. – Yadında saxla, Bakıda ona gücümüz çatmazdı. Xaloğlular göynən gedirlər. Yaşadıqları evlər qalaça, işlədikləri idarələr mühafizə altında, mindikləri maşınlar zirehli, özləri həmişə cangüdənlərin əhatəsində. Belə olanda "sxodkanın" hökmünü necə yerinə yetirmək olar? Yox, alınmayacaqdı. Ara yerdə qardaşlarımızı güdaza verərdik...

Domba Rəhim cibindən hacı Sarvanın verdiyi soraq kitabçasını çıxartdı:

– Burda yazırlar ki, həcc vaxtı ağcaqanadı-milçəyi belə öldürmək günahdı, – dedi. – Xaloğluları öldürməklə biz İslamın ehkamlarından birini pozmuruqmu?

Lotu Faxı razılaşdı:

– Əlbəttə, ağcaqanadı da, milçəyi də öldürmək günahdı, – dedi, sonra dişini qıcırdaraq fikrini tamamladı. – Amma Böyük kimisi həşəratdan da pisdi. Hətta, İslamın ehkamları pozulsa da, beləsinə aman vermək olmaz. Bu əbləh bizim saxlancımıza milyonlarla ziyan vurub, beləsini sağ saxlamağın özü günahdı.

– Bəli, qədeş, o, Sərhəd kimi bir qardaşımızın ölümünə baisdir, varidatını yağmalayıb... – deyə Domba Rəhim əlavə elədi. – Dostumuzun qisası alınmalıdı...

Rəhim Sərhədi uşaq kaloniyasından tanıyırdı. Dostluqları ordan başlamışdı. O vaxtlar düşərgədə əl-ələ verəndə heç kim onlara bata bilmirdi. Sərhəd kaloniyadan

canını tez qurtarsa da, arada gəlib Rəhimə baş çəkirdi, ona sovqat gətirirdi.

Lotu Faxı tərs-tərs əlaltısına baxdı:

– Ay sən öləsən! – dedi. – Elə bilirsən bu həngamə Sərhədə görədir?

Domba küt-küt ona baxdı:

– Mən elə bilirdim... – Mızıldandı.

Lotu onun sözünü kəsdi:

– Sən elə bilmə, belə bil! Məni ancaq "saxlancın" Sərhədin şirkətinə yatırdığı milyonlar maraqlandırır, – dedi, sonra deyindi. – Dostun Sərhəd adam deyildi, pul onu qudurtmuşdu, söz eşitmirdi. Dəfələrlə xəbər göndərdim ki, başını aşağı salsın, biznesi ilə məşğul olsun, məni eşitmədi, siyasətə qarışdı. Millət vəkilliyi eşqinə düşdü, hökumətin namizədləri ilə kəllə-kəlləyə çıxdı. Şirkətin əməkdaşlarını, kəndin camaatını yığdı rayon mədəniyyət sarayına, namizədliyini irəli sürdü, əlli minlik siyahı göndərdi seçki komissiyasına. Hökumətin namizədlərini rayonda biabır elədi. Onlar da Agentliyi qısqırtdılar üstünə, başına bu müsibəti açdılar. Qərəz, Sərhədə heç bir tikə də ürəyim yanmır. Onun günahından saxlancın milyonları Böyüyün güdazına getdi.

– Mən bunları bilmirdim... – Rəhim boynuna aldı.

– Daha bilirsən... – Lotu yenidən başını əşya çantasına söykəyib gözünü yumanda tapşırdı. – Sənin işin Balacadı. Bir az dincələndən sonra axtar tap onu...

Domba Rəhim Lotu Faxının meyit rəngində boz çöhrəsinə baxmağa qorxdu. Soraq kitabçasını açdı, mütaliə bəhanəsi ilə gözünün bərabərinə qaldırdı, amma oxuya bilmədi. Bütün həyatı gözünün qabağından keçdi.

## -7-
## Domba Rəhimin həyatı

Rəhimin doğulduğu Damba adlı qəsəbə dənizin sahilindəki xırda yaşayış məntəqələrindən biri idi. Sakinlərinin əksəriyyəti balıqçılıqla məşğul idi. Bir az aralıda iki hərbi hissə yerləşirdi. Hündür təpədə ucalan mayakdan aşağıda, düzənlikdə qəbiristan salınmışdı. Burada bir tərəfdə müsəlmanlar, o biri tərəfdə isə xaçpərəstlər ölülərini dəfn edirdilər.

Rəhimgilin evlərini qəbiristandan şose ayırırdı. Uşaqlar onun div görkəminə güldüklərinə görə məktəbə getmirdi, veyil-veyil gəzirdi. Yeniyetmə olsa da, üzdən çox yaşlı görünürdü.

Atası evlərinin yanındakı qəbiristanın keşikçisi idi. Miskin və şürbi bir adamdı, çibində araq şüşəsi gəzdirirdi. Cavanlıqda həbsxanada yatmışdı. Azadlığa çıxandan sonra evlənib dörd-beş uşaq əkmişdi. Bu başı əski təsəkli, əli təsbehli, saqqallı kişinin günü qəbiristanda keçirdi. Ailəsini bir təhər dolandırırdı. Ölüsünün üstünə gələnlərin buyruqlarını yerinə yetirir, beş-on manat qa-

zanırdı. Molla olmayanda dəftərini qoltuq cibindən çıxarır, kiril hərfləri ilə yazılmış "Yasin" surəsini tın-tın səslə oxuyur, küfr elədiyini belə anlamırdı. Yorulanda evə getmirdi, elə qəbiristanın girəcəyindəki xırda keşikçi köşkündə dincəlirdi.

Atası dünyadan köçəndə Rəhimin on beş yaşı vardı. Ailənin ağırlığı onun üstünə düşmüşdü. Qəbiristan keşikçiliyini onların əlindən almadılar, anasına tapşırdılar, amma bu iş üçün aldıqları cüzi maaş heç yeməklərinə çatmırdı. Atasından miras qalmış əski təsək, təsbeh, dəftər Rəhimin işinə yarıdı.

O, ölülərini müntəzəm yada salanları uzaqdan tanıyırdı. Yolunu səbirsizliklə gözlədikləri də vardı. Ən çox cavan qızla yaşlı qadının gəlişinə sevinirdi. Onlar mərmər başdaşına kişi portreti həkk edilmiş bir qəbri ziyarət edirdilər. Həmişə ağ paltarda gələn qızın iyirmidən çox yaşı olardı, gözəgəlimli idi, çöhrəsi məmnunluqdan parıldayırdı. Qadının üzü isə meyit rəngində idi, ağır-ağır yeriyirdi, səsi çıxmırdı, görünürdü ki, xəstədi.

Qız oğlanın hündür boyuna, kələ-kötür sifətinə baxır, çimçəşərək gülürdü, amma sərt danışırdı. Bir dəfə dediyini anlamayan Rəhimə acıqlandı:

– Belə sadə şeyi bilmirsən, – deyə soruşdu. – Neçə yaşın var, ay kişi?

Oğlanın yaşını biləndən sonra qızın ona yazığı gəldi, daha uşağı sıxma-boğmaya salmadı. Qəbir üstə gələndə

bəzən yaxına çağırıb iş tapşırır, haqqını səxavətlə ödəyirdi.

Onların ayağı birdən-birə kəsildi. Rəhim çox kədərləndi. Bir yol qəbiristanı boş-boşuna gəzəndə gördü ki, mərmər qəbrin yanında bir mərmər qəbir də peyda olub, üzü meyit rəngində olan qadının surəti daşdan boylanır. Tezliklə ağ paltarlı qızın ziyarətləri başladı. Çox vaxt onu arıq bir oğlan müşayiət edirdi. Hər ikisinin barmağındakı üzükdən belə məlum olurdu ki, nişanlıdırlar, amma bir-biri ilə soyuq davranırdılar. Bəzən də qız bazburutlu bir kişinin maşınında gəlirdi. Rəhim kimin kim olduğunu anışdıra bilmirdi. Kişinin qızla rəftarındakı məhrəmlik göz önündə idi. Maşını yolun qırağına verib saatlarla qol-boyun otururdular.

Bir dəfə qız yağışda gəlmişdi, qəbir üstə çox oturduğundan bərk islanmışdı, səndələyə-səndələyə yeriyirdi, halı üstündə deyildi, qəbiristanın çıxışında dayanan Rəhimi köməyə çağırdı. Oğlan onu qucağında isti köşkə apardı, yaş paltarlarını soyundurdu, taxta uzatdı, köhnə gödəkçəsini üstünə çəkdi, özü də yanına uzandı. Qız müqavimət göstərmədi, əksinə, yeniyetmənin çılğın arzularını həvəslə yerinə yetirirdi.

Axşam Rəhimin dalınca iki milis gəldi, qandallayıb apardılar. Məhkəmə uzun çəkmədi, amma zərərçəkənin hadisə baş verəndə bakirəliyi barədə iddiası qəbul olunmadı. Tibbi ekspertiza müayinəsi göstərirdi ki, iyirmi beş yaşlı zərərçəkən hadisə baş verəndə hamiləliyin ilk

mərhələsində olub. Məlum olurdu ki, qız ənənəvi əxlaq normalarına sadiq deyilmiş. Zorlamada günahlandırılan oğlan isə azyaşlı idi. Cəzası elə də sərt olmadı. Rəhimi uşaq əmək-islah müəssisəsinə göndərdilər.

## -8-
## Domba Rəhim kaloniyada

Rəhim dədə miraslarını da özü ilə götürdüyündən kaloniyada hörmətlə qarşılandı. Yaşıdları başında təsək, əlində təsbeh, qoltuğunda "Yasin" surəsi gəzdirən yoldaşlarına molla ləqəbi verdilər. Hətta, zorlamada günahlandırılmağı da şan-şöhrətinin üstünə kölgə sala bilmədi. Hündür boyundan, iri yumruqlarından, kələ-kötür sifətindən hamı çəkinirdi. Ondan qorxmayan davakar Sərhədlə isə tezliklə dostlaşdı. Rəhim bəzən otağında məclis qurur, sözü keçən uşaqları başına yığırdı. Amma kaloniyaya təzə rəis gələndən sonra qaydalar sərtləşdi. Nəzarətçilər toplantıların qabağını dərhal alırdılar. Daha günorta yeməyinə pərakəndə yox, hərbi sıra ilə gedirdilər. Bəzən rəis meydançada onları saatlarla ayaq üstə saxlayır, üst-başlarını, təmizliyini yoxlayır, natəmizləri cəzalandırırdı. Belə yoxlamaların birində rəisin diqqətini Rəhim cəlb elədi. Onun başındakı təsəyi başından, oynatdığı təsbehi əlindən aldı, çirkab axıdılan arxa atdı: "Ay idbar, bura sənin üçün nədir?" – deyə qışqırdı.

Hamının yanında təhqir olunması Rəhimə yer elədi, rəisdən qisas almaq fikrinə düşdü. Sərhəd ona kömək eləməyə söz verdi. Bir xeyli götür-qoy elədilər. Rəhim dedi:

– Bir itilənmiş armatur olsa, mən onun dərsini verərəm!

– Altı aydan sonra azadlığa çıxırsan, axı! – Sərhəd onun yadına saldı. – Rəisi öldürsən ömürlük zonlarda çürüyəcəksən.

– Nə olsun! Bu təhqiri ona bağışlasam kaloniyada hamı mənə güləcək. Özün bilirsən ki, başqa yolum yoxdur, – deyə Rəhim etiraz elədi. – Nə olar, olar!

Səhərisi gün onları qonşu baraka yasa çağırmışdılar. Uşaqlardan birinin atasının ölüm xəbəri gəlmişdi. Rəhim "Yasin" oxumaq fikrinə düşdü, dəftəri çıxartdı. Onun oxuduğuna diqqətlə qulaq asan Sərhəd dostunu xəlvətə çəkdi.

– Mənə elə gəlir ki, bu "Yasin" deyil, – dedi. – Dostum, bilən adamların yanında oxuyarsan, biabır olarsan. O, dəftəri at getsin...

– Nə bilirsən "Yasin" deyil? – Rəhimin iri gözləri parıldadı. – Nədi, mollasan?

– Molla olmağına molla deyiləm, amma atalığım Mirzəmməd kişi "Yasin" surəsini əzbər bilirdi. Məni də, qardaşımı da öyrətməyə çalışırdı. Əvvəli indiyə qədər yadımdadı. "Yasin" belə başlayır: "YaSin! Vəl quranil-hə-

kim. İnnəkə ləminəl mursəlin. Əla siratin mustəqim. Tənziləl əzizir rəhim". Dalı yadımda deyil.

– Bəs, mənim oxuduğum nədir? – deyə Rəhim çaşqın halda döyükdü. – Atam belə oxuyurdu, axı...

Sərhəd çiyinlərini çəkdi, könülsüz gülümsədi:

– Yəqin atan zarafatcıl kişi olub! – dedi.

Həmin gündən dostluqları bir az da möhkəmləndi. Rəhim dəftəri atmalı oldu. Bəlkə də onlar kaloniyada yeni uğurlara imza atacaqdılar, amma Sərhədi azadlığa buraxdılar.

## -9-
## Damba Rəhim həbsxanada

Cibgir İmir "Turşulu" zona təzə düşənləri dərhal yanlayırdı, tanışlıq qururdu. Amma Lotu Faxının təlimatından kənara çıxmırdı, bilirdi ki, hamisi özfəaliyyəti xoşlamır. Bir neçə gün Rəhimə göz qoydu, bu adlı-sanlı məhkumla tanış olmağın yolunu axtardı. Təzə dustağın uşaq kaloniyasının rəisini qətlə yetirdiyini deyirdilər. Tanışlıqdan sonra məlum oldu ki, söhbətləri tutur. Cibgir ona "Turşulu" zondakı qaydalardan danışdı, xırda-para xidmətlər göstərdi, tezliklə Rəhimin etibarını qazandı.

Bir dəfə Lotu Faxıdan söz saldı. Qanuni oğrunun Rəhimə kömək eləməyə hazır olduğunu dedi:

– Bilirsən ki, lotu zonda söz sahibidir. İstəsə toplantı keçirib səni qanuni oğru da elan edə bilər. – Cibgir Rəhimi şirnikləndirməyə çalışdı. – Hər şey Lotu Faxının əlindədi.

Rəhim zahirdə yaşlı görünsə də, hələ uşaq idi, amma qətiyyətli idi, kimi desən o dünyaya göndərməyə hazır idi. Cibgir qatilin ovurdları batmış yaraşıqsız sifətinə baxdı, cibinə bir dəstə pul qoydu:

– Bunu Lotu Faxı səninçün göndərib, – dedi, etiraza yol verməyən bir mehribanlıqla əlavə elədi. – Özünə yemək al, yoxsa həbsxana şorbası axırına çıxacaq.

Lotu Faxını tanıtmağa ehtiyac görmədi, onun kim olduğunu hər bir dustaq bilirdi. Rəhimin üzü güldü:

– Lotu Faxıya canım qurban! – dedi. – Mən onu görmək istəyirəm.

– İnşallah! İmkan olan kimi sizi görüşdürərəm, – Cibgir İmir vəd elədi. – Onun sənə bir işi düşüb...

– Mənə görə nə qulluğu var? – Rəhim düşünmədən soruşdu.

Cibgir onun qulluqdarlığından məmnun halda:

– Zonda bir nəfər var, ləqəbi “müəllimdi”, gərək onunla tanış olasan, dəstəsinə qoşulasan, etibarını qazanasan, – dedi.

– Niyə, bəs, mən? – Rəhim təəccübləndi. – Öz adamlarınız yoxdu?

– Var, amma “Müəllim” bizimkilərin hamısını tanıyır, yaxına buraxmayacaq, kənar adam lazımdı, – deyə cibgir izah elədi.

– Sonra?... – Rəhim səbirsizliklə soruşdu.

Cibgir sualı eşitmirmiş kimi:

– “Müəllim” cızığından çıxıb, Lotu Faxının əleyhinə dəstə toplayıb, özü də köhnə idmançıdır, – dedi. – Bizim qaydalara tabe olmaq istəmir...

– Sonra?... – Rəhim təkrar soruşdu.

– Sonra... onu kaloniya rəisinin dalınca göndərmək lazımdı... – deyə İmir axır sözünü dedi. – Lotu Faxı xidmətini unutmayacaq...

Rəhimlə Lotu Faxının tanışlığı belə başladı.

## -10-
## Qırğı bəd xəbərlə gəlir

Əflan Balacanı təlimatlandırandan sonra aeroportdan birbaş idarəyə gəldi. Səfərqabağı problemlərə baş vuran kimi hər şeyi unutdu. Hələ bir çox razılaşdırılmamış məqamlar qalmışdı. Amma onu işindən ayırdılar, təcili rəisin kabinetinə çağırdılar.

Böyüyü qayğılı gördü. Onun zərif cizgili çöhrəsində bir çaşqınlıq gözə çarpırdı. Binadən qələmlə çəkilmiş qaşları, artıq çallaşmış bığları yaraşığını itirmişdi.

Əflan dəvət gözləmədən keçib Böyüyün qarşısında oturanda gördü ki, içəridə daha iki adam var. Biri Qaflan idi. Rəis Agentlikdə mühafizə məsələlərini onun qardaşına tapşırmışdı. İndi Qaflan qapının böyründə hün-

dür bir yerdə oturmuşdu. Sağ əli görünmürdü, yəqin ki, barmağı dizinin üstünə atdığı qara örtüyün altındakı tapançanın tətiyində idi.

İkinci şəxs pəncərənin önündə yanpörtü dayanmışdı. Çəkdiyi siqaretin tüstüsünü açıq nəfəsliyə üfürürdü. Əflan ona nəzər salan kimi tanıdı, rəisin hüzurunda yalnız bir adamın siqaret çəkmək ixtiyarı vardı. Zarafatla dilləndi:

– Baho! Bu ki, bizim Qırğıdır! – dedi. – Dostum, səni hələ öldürməyiblər?

Zarafatlaşdığı adam elə ləqəbi ilə yadında qalmışdı. Adını yadına salmaq istədi, amma yadına düşmədi.

Qırğı qarmaq kimi əyilmiş burnunu, – güman ki, ləqəbi burdan yaranmışdı, – etinasızlıqla qırışdıraraq:

– Görürsən ki, öldürməyiblər! – dedi, nədənsə pıqqıldadı. – Balaca adamam, mənə nə olasıdır ki? Qoy, böyüklər qorxsun...

Deyimin ünvanı aydın olmasa da rəis, yalançı hədə ilə:

– Köhnə rəisinə sataşırsan? – Zarafatla soruşdu.

Qaflan da söhbətə müdaxilə elədi:

– Qardaşım Əflan, Qırğı kimilərinin üzü bərk olur, belələrini topa qoyub atmasalar, ölmürlər! – deyib hamını güldürdü.

Üzdən xortlamış adama oxşayan Qırğı idarənin çoxsaylı agentlərindən biri idi. Amma heç də sıravi əməkdaş deyildi, görk üçün zonların birində xırda bir vəzifə

tutsa da, arxasında Böyük kimi dağ dayandığından, lazım olanda, həbsxana rəhbərliyinin səlahiyyətlərinə də qarışırdı. Cinayətkarlar arasında yaxşı əlaqələri vardı, hətta, qanuni oğrular da, hər cür "avtoritetlər" də onun sözünü eşidirdilər. Toplayıb gətirdiyi məlumatlar həmişə dəqiqliyi ilə fərqlənirdi.

Qırğının gözləri qıyıldı, Agentlikdə hamının çəkindiyi Əflan-Qaflan qardaşlarından qorxmadan:

– Hələ məlum deyil kimi topa qoyacaqlar! – dedi.

Agentliyin səlahiyyətləri azaldılandan sonra agentlər şəbəkəsi başqa idarələrin ixtiyarına verilmişdi. Amma sədaqətli Qırğı keçmiş rəisini unutmurdu, arada ona baş çəkirdi.

O, siqaretini çəkib qurtarandan sonra gəlib qabaq masanın arxasına keçdi, Əflanla üz-üzə oturdu. Rəis ciddiləşdi:

– Əflan, Qırğı bəd xəbərlə gəlib üstümüzə! – dedi, sonra agentə buyurdu. – Mənə söylədiklərini təkrar elə.

Əflan Qırğıdan eşitdiyinə qətiyyən təəccüblənmədi. Axır vaxtlar Agentliyin ətrafında əcaib hadisələr baş verirdi.

Qırğının dediyinə görə "Turşulu" zonda oğru toplantısı, yəni "sxodka" keçirilib, Agentlik rəisinin ölümünə fitva verilib. O, sözünü üzrxahlıqla bitirdi:

– Əlbəttə, bəd xəbərdir, amma bilməyiniz yaxşıdır, – dedi.

Rəis acığını heç cür boğa bilmədi:

– Gör də, cəmiyyətin tör-töküntüləri də özlərini adam sayırlar, bizə meydan oxuyurlar, – deyə səsini ucaltdı.

Əflan Qırğının söylədiklərinə ciddi yanaşsa da saymazyana soruşdu:

– Məlumatı kimdən almısan? Sən başqa zonda oturub "Turşulu" zondan necə xəbər verə bilərsən, axı?

– Bizim zona təzə gələn dustaqların birindən eşitmişəm, – Qırğı baxışlarını müsahibinin diqqətli baxışlarından yayındırmadı, inamla dilləndi.

Əflan dərhal soruşdu:

– Dediyin dustaq etibarlı adamdır?

– Köhnə oğrulardandı, yalan-palanla arası yoxdur. Cinayət aləmində də dəsti-xətti olan adamdı. – Qırğı ətraflı izahat verdi. – Bədbəxt əlli illik ömrünün otuz beş ilini türmələrdə keçirib, azadlıqda yaşaya bilmir, həbsxanadan buraxılan kimi bir hoqqa çıxarır, yenidən barmaqlıq arxasına düşür.

– Bəs, dediyin dustaq xəbəri harada eşidib?

– O, bunu istintaq təcridxanasında, kamera yoldaşından eşidib.

Əflan onun sözünü kəsdi:

– Yəqin ki, təcridxanada olmusan...

– Əlbəttə! Həbsxana rəhbərliyinin razılığı ilə, dustağı da özümlə götürüb "Turşulu" zona getdim, amma dustaqların arasında onun dediyi adam tapılmadı. Aydınlaşdırdım ki, həmin dustağı məhkəmənin qərarı ilə təcridxanadan dəlixanaya göndəriblər.

– Yəni sənin ilkin məlumat mənbəyin dəlidir? – Əflan gülüşünü gizlətməyə çalışdı.

– Məhkəmənin qərarına inansaq, bəli. – Qırğı razılaşdı. – Sonra dəlixanaya getdim. Həmin adamın müalicəxanada saxlandığını biləndən sonra arxayın geri qayıtdım! Dəlinin sözünə baş qoşmağına dəyməzdi.

Əflan başa düşməyə çalışdı, durub gəzişdi, təzədən oturdu:

– Dəlinin sözü ilə bu boyda həngamə açmısan! Ağlın çaşıb nədi?

Qırğı sirli-sirli gülümsədi:

– İş də ondadır ki, söylədiklərim bir ay bundan qabaq olub, – dedi. – Əlbəttə, boş şeyə görə rəisi narahat eləmək fikrində deyildim, odur ki, topladığım çiy məlumatı gizlətməyi qərara aldım. Bir ay keçəndən...

Əflan macal vermədi, onun fikrini tamamladı:

– ...bir ay keçəndən sonra bilmisən ki, dəlidən də doğru xəbər olurmuş...

– Səhv eləmirsən, Əflan! – Qırğı dikbaşlıqla gülümsədi. – Bir ay keçəndən sonra “zonda” yeni bir dustaq peyda oldu. Onu başqa “zon”dan bura keçirmişdilər. Yeni dustaq xəbərlə, yəni “malyava” ilə gəlmişdi. Məlum oldu ki, gəldiyi həbsxanada, yəni “Turşulu” zonda toplantı keçirilib, Böyük Xaloğlunun ölümünə fitva verilib. Bu artıq zarafat deyildi, dəli söhbətinə oxşamırdı. Durub gəlməli oldum.

– Axı, fitvanın bir səbəbi olmalıdı? Soruşmadın? – deyə Əflan izahat gözlədi.

Qırğının cavabı hazır idi:

– Soruşdum. Deyilənə görə, "Turşulu" zonun oğru "obşakı" sərmayədar Sərhədin biznesinə külli miqdarda maya buraxıb, alış-verişinə şərik olub. Həmin sərmayədarın ölümü hər şeyin üstündən xətt çəkib. Bu da cinayət aləmini qəzəbləndirib. Onlar bizim rəisi Sərhədin ölümündə, "obşakın" milyonlarını mənimsəməkdə günahlandırırlar.

– Vəssalam? – Əflan soruşdu.

Qırğı tərəddüdlə:

– Vəssalam, amma bir şey də öyrənmişəm. Əgər məbləğ oğru daxılına qaytarılsa, fitva qüvvəsini itirir.

Böyük istehza ilə:

– Əflan, görürsən necə də zərif qəlbli qatillərimiz var! – dedi və ayağa qalxdı, Qırğı ilə xudahafizləşdi, onu qapıya qədər ötürdü, sonra kabineti dolanıb qapının arxasında oturmuş Qaflanın qarşısında dayandı. – Təcili aeroporta gedərsən, biletini axşam reysinə dəyişib Mədinəyə uçarsan. İndi eşitdiklərini Balacaya çatdırarsan. Daha yubanma.

Əflan rəisin yadına saldı:

– Biz onsuz da üç gündən sonra Mədinəyə uçuruq. Xəbəri Balacaya özümüz də çatdıra bilərik.

– Sən təhlükənin ciddiliyini anlamırsan, – deyə Əflana acıqlandı. – Cinayətkarlar mənə müharibə elan

ediblər. Qaflan təcili uçmalıdı, hər saat hesabdadı. Balaca təhlükədədi. Günahın hamısı məndədi, gərək onun tək uçmağına razı olmayaydım.

Qaflan daha gözləmədi, örtüyü atıb qalxdı, tapançanı kəmərinə keçirtdi, kabinetdən çıxdı. Bilirdi ki, rəis nə sözünü iki dəfə təkrar eləməyi, nə də dəyişməyi sevir.

## -11-
## Çaydan sonra

Ağsaqqallar çay süfrəsini yığışdırdılar. Mirzəmməd boş termosu əl çantasında gizlətdi. Dedi:

– Gedək, görək təyyarənin gecikməyi barəsində dəstəbaşı nə deyir...

Durmaq istəyirdilər ki, onlardan az aralı bir neçə cavan oturdu. Onlardan ikisi bərkdən deyişir, qalanları qulaq asırdı.

Mübahisə edənlərin biri taksi sürücüsü Muxtar idi. İnadkar, kürəyini yerə qoymağı xoşlamayan yaraşıqlı bir oğlandı, şəriətdən də azca anlayışı varda. Heç otuz yaşı olmazdı. O birisi çörəyini sahibkarlıqla qazanan Zakir kişi idi. Qırx yaşın işində olsa da, qısa saqqalı tamam ağarmışdı. Dindən yaxşı başı çıxırdı, "Quranın" surələrinin çoxunu əzbər bilirdi. Bunu bilə-bilə Muxtar inadından əl çəkmirdi:

– Allahın kəlamıdır, deyilir, mən insani faili-muxtar yaratdım. Yəni insana gedəcəyi yolu seçmək imkanı verdim. Bu ayə “alın yazısını” təkzib eləmir bəyəm?

Zakir dodaqucu gülümsədi:

– Sən birini bilirsən, birini yox. Faili-muxtar anlamı heç də sənin başa düşdüyün kimi deyil. Bəli, insan yaxşını, ya pisi seçməkdə muxtardı, azaddı. Qalan bütün əməllərində “alın yazısı” daxilində azaddı, – dedi, sonra ərəbcə ayələri əzbərdən təkrarladı.

Ağsaqqallar gözləşib cavanlardan aralandılar. Hacı Məftun böyük məmnunluqla:

– Cavanlarımızın dini savadı məni valeh edir! – dedi.

– Bəli, cavan möminlərimizin sayı gün-gündən artır, – deyə Mirzəmməd yol yoldaşının məmnunluğuna şərik oldu. – Sən haxlısan.

Hacı Məftun güldü:

– Məndən olsa yaşlı adamların həcc ziyarətinə məhdudiyyət qoyardım, cavanlara üstünlük verərdim, – dedi. – Sevinirəm ki, İslam bayrağı möhkəm əllərdədi.

Mirzəmməd bu dəfə razı olmadı:

– Sən bizi birəlli tutma, qardaş! – dedi. – Pionerin, komsomolun, partiyanın tüğyan elədiyi bir zəmanədə din-imanımızı qorumadıqmı?

Hacı Məftun razılaşdı:

– Deyəsən, düz deyirsən, axı... – dedi. – Maşallah, yaxşı fikirlərin var.

## -12-
## Domba Rəhim Balacanı tapır

Domba Rəhim dincini alıb qalxdı, mürgü döyən Lotunu narahat eləməmək üçün səssizcə aralandı, hər ehtimala qarşı neytral zonanı bir də dolandı, amma axtardığını tapmayıb "ovun" əlindən çıxdığı yerə getdi. Güman ki, Balaca bir-birinə oxşar qapılardan birinin arxasında idi. Sütuna söykənib bir az gözlədi. Gümanı onu aldatmamışdı, sarı qapıdan bayıra adlayan Balacanın neytral zonanın zəvvarlar yığışan hissəsinə tərəf getdiyini gördü. Onu izləməyinə dəyməzdi, hara getdiyini bilirdi. Bu vaxt sarı qapıdan daha üç nəfər çıxdı, amma heç birini tanımadı. Onları izləməyi qət elədi, amma bunlar zəvvar deyildilər, neytral zonanın girişinə tərəf gedirdilər. Domba Lotunun yanına qayıtdı. Onun sorğulu baxışlarını görüb:

– Balacanı tapdım, – dedi. – Bizdən bir az aralı iki ağsaqqalla söhbət edir.

Lotu Faxı yaxşı-pis heç nə demədi, yenidən gözünü yumdu. Amma yatmamışdı, ötən il baş verən hadisələri fikrən götür-qoy eləyirdi.

## -13-
## "Turşulu" zonda görüş

Lotu Faxı Sərhədin ölüm xəbərini alan kimi hərəkətə keçdi, dərhal Domba Rəhimi yanına çağırtdırdı. Xalq arasında "Turşulu" zon kimi məşhurlaşmış N saylı əmək islah cəzaçəkmə müəssisəsinin görüş otağında seyrəklik idi. Buna baxmayaraq onlar baş-başa verib pıçıldaşırdılar. Bu bir ehtiyat tədbiri idi. Hər ikisi bilirdi ki, özgələrinin sirlərinə yerikləyən çoxdu. Lotu eyni şeyi dörd-beş dəfə təkrarladı. Sonra tələbkarlıqla:

– Təkrar elə görüm, – dedi.

Domba təkrar elədi. Lotu razı qaldı:

– Pis deyil! – dedi. – İndi get, dediyimi elə. Çalış başa salasan, inandırasan. Həftənin axırı burda olarsan, gözləyəcəyəm.

Domba Rəhim həftənin axırı gəlməyinə gəldi, amma əliboş gəldi. O, danışmaqda elə də mahir deyildi, dəmrov basmış sifətini qaşıya-qaşıya mətləbə gələnə qədər dinləyəni hövsələdən çıxarırdı. Lotu Faxı xahiş elədi:

– Qısa elə, görüm! – dedi. – İsmarışımı Böyüyə çatdıra bildin?

– Əlbəttə. Sovxozda yaşayan Əlfiyyə qarının vasitəsi ilə çatdırdım. Qarının xaloğlulara qohumluğu çatır. – Domba Rəhim təsdiqlədi. – Keçmiş arvadının nənəsidi, evlərinə gedib-gələndi.

– Cavabları nə oldu? – Lotu səbrini zorla boğdu.

Domba dilini sürüdü:

– Cavabları bu oldu ki, Lotu Faxı zonda olanların lotusudu, azadlıqda olanların lotusu başqadır. Sərhədin pullarını hökumət müsadirə eləyib, bizim xəbərimiz yoxdu, dedilər. Davası varsa hökumətlə, eləsin, – deyə sözünü bitirdi.

Lotu üzünü turşutdu:

– Deməli, Böyük pullarımızı öz xoşu ilə qaytarmaq fikrində deyil, – dedi. – İstədim dincliklə məsələni yoluna qoyum, alınmadı.

– Sonrakı addımımız nə olacaq, qədeş? – Domba maraqlandı.

– Onu "sxodka" bilər, mən bilmərəm. Hər halda, Böyüyə Sərhədin milyonlarını heç kim bağışlamayacaq, – deyə görüşü yekunlaşdırdı. – Tezliklə məlum olacaq...

## -14-
## Lotu Faxı

Zonda otursa da, Lotu Faxının bir əli şəhərin nəbzində idi. Hər gün oğru "saxlancının" hesablarında minlərlə pul qərar tuturdu. Bu nəhəng "daxılı" idarə eləmək asan deyildi, təkcə yaddaşa güvənmək olmazdı. Lotu Faxı kompüter işini öyrənməli oldu. Artıq əlindəki milyonlarla vəsaiti dövriyyədə saxlayırdı. Şəhərin etibarlı sərmayədarlarına borc verirdi, gəlirlərinə şərik

olurdu. Himayə istəyənləri himayəsinə götürürdü. Bunun da müqabilində “saxlanca” diri vəsait daxil olurdu. Bir sözlə, lotu öz “oğru” səltənətini yaxşı idarə edirdi. “Saxlancın” gəlirlərindən gen-bol bəhrələnən qanuni oğrular Lotu Faxıdan razı idilər.

O, himayəsində olan sərmayədarların, şirkətlərin, iş adamlarının, işbazların fəaliyyətini nəzarətdə saxlayırdı. Agentliyin peyda olması vəziyyəti gərginləşdirdi. Əlbəttə, bu idarə əvvəllər də vardı, amma fəaliyyəti sıravi nəzarətdən o yana keçmirdi. Müfəttişlər aybaay sərmayədarlardan beş-on manat qırtmaqla kifayətlənirdilər. Əslində, bütün ölkədə nəzarət idarələrinin iş üslubu belə idi. Böyüyün Agentliyə təyinatı vəziyyəti köklü dəyişdi. Məlum oldu ki, təzə rəis ağzının dadını bilir, beş-on manatla kifayətlənmək fikrində deyil. Tezliklə paytaxt sahibkarlarını ucdantutma aylıq haqqa oturtdu.

Agentliyin əməkdaşları bir müddət “saxlancın”, yəni oğru dilində desək “obşakın” himayəsindəki iş adamlarına, sahibkarlara, şirkət sahiblərinə toxunmadılar. Bu, Lotu Faxını təmin eləsə də, təəccübü keçmirdi. Agentlik paytaxtın qalan sərmayədarları ilə elə cinayət aləminin qaydaları ilə rəftar edirdi. İdarənin Böyük Xaloğlu kimi tanınan rəisi özünü “qanuni oğru” kimi aparırdı. Asırdı, kəsirdi, bir sözlə, kefi istədiyini edirdi, sözünün üstündən söz deyən yox idi. Bilmək olmurdu ki, bu səlahiyyət hardandı onun üçün.

Sahibkarların arasına vəlvələ düşmüşdü. Artıq Lotu Faxının himayəsində olanlar da şikayətlənirdi. Agentlik get-gedə cızığından çıxırdı, ağına-bozuna baxmırdı, hara gəldi burnunu soxurdu.

Keçən ay mülki geyimli bir neçə nəfər sənəd-filan göstərmədən "Pəmbə" Hafizin bağ evində axtarış keçirmiş, həyətindəki meynəlikdə basdırılmış raket hissələrini aşkarlamışdı. Tapıntını aktlaşdırıb ev sahibini də özləri ilə aparmışdılar. Hafiz, "saxlancın" himayəsində olan Cinni Canının oğlu idi. Onlar varlı-hallı olsalar da, suyu üfürə-üfürə içirdilər. Raket nədir, heç ov tüfənginə də həvəs göstərmirdilər. Hafiz mülayimliyinə görə ətrafda "pəmbə" ayaması ilə tanınırdı. Kəndin kənarında nəhəng beton zavodu, rayonlarda qum, çınqıl karxanaları vardı. Vəziyyəti ağır görən Cinni Canı əsasına dirənə-dirənə "Turşulu" zona, Lotu Faxının görüşünə tələsmişdi.

Elə həmin günlərdə Lotu Faxının daha bir sərmayədarını "ilişdirmişdilər". Agentliyin əməkdaşları xaricdən qayıdan zərgər Zülfünün maşınını hava limanından aralanan kimi saxlayıb baxış keçirmişdilər. Çantasından yüz qram heroin tapılmışdı. Daş-qaş, qızıl məmulatı ilə dolu çamadanlarını əlindən alıb, özünü də həbs eləmişdilər. Daha sonra kənddəki qızıl mağazalarını, zərgərlik emalatxanalarını möhürləyib qapısına keşikçi qoymuşdular. Zülfü heroin nədir, heç siqaret tanımırdı, uşaqlıq-

dan sinəgirlik azarından əziyyət çəkirdi. Arvadı başılovlu Lotu Faxının üstünə yüyürmüşdü.

Lotu Faxı səbrli adam idi, hər işi danışıq yolu ilə həll eləməyə çalışırdı, amma Agentlikdə onun göndərdiyi ismarışlara məhəl qoymurdular. Bu ərəfədə Böyük daha bir qələt qarışdırmışdı, "saxlancın" qızıl yumurtlayan "toyuğunu", şəhərin bərkgedən sahibkarlarından birini, milyonçu Sərhədi Agentliyə aparmışdı.

Sərhəd isə sıravi sərmayədar deyildi, varidatının hesabı milyonlarla ölçülürdü. Ölkə müstəqillik qazanandan sonra varlananlardan idi. Bir vaxtlar "xalq malına" kəm baxdığına görə həbsxanada yatmışdı. Sovet hökuməti dağılandan bir neçə il sonra azadlığa çıxmışdı. Boş əllə neyləmək olardı ki? Lazımi maliyyə "Turşulu" zonun oğru "obşakın"da gen-bol var idi. O, Domba Rəhimin köməyi ilə Lotu Faxıya yol tapmışdı, "saxlancla" şərikliyə qol qoymuşdu. Sonra köhnə həmkarını, Suriyalı Kadırı Bakıya dəvət eləmişdi. Daha bir işbirliyi qurmuşdu. Kadırın ticarətdə təcrübəsi vardı. Ortaqlar tezliklə şəhərin tütün məmulatının topdan satışını əllərində cəmləşdirdilər. Suriyanın Hələb şəhərindən təyyarələrlə daşınan siqaretin gəliri şərikləri milyonçu elədi. Həm Bakıda, həm rayonlarda yüzlərlə ticarət obyekti açdılar. Emal zavodlarına, tikiş fabriklərinə vəsait qoydular. İndi onların əlinin altında xeyli adam çalışırdı. Ortaqları küçədə-bayırda cangüdənlə dolu bir neçə maşın müşayiət edirdi. Heç prezidentlərin belə mühafizəsi yox idi.

Bəlkə Sərhədin başına bəla açan səbəblərdən biri də bu idi.

Lotu Faxı əlindəki vəsaitin böyük bir hissəsini Sərhədin şirkətlərinə yatırmışdı. Daxılın milyonları milyonlarla gəlir gətirirdi. Qısa vaxtda "saxlanc" mayanı geri qaytardı. Sərhədlə işbirliyi riskli də olsa, cəlbedici idi.

## -15-
## Məhər Sərhədin ölümündən xəbər tutur

Sərhədin deputatlıq arzusu Məhərə baha oturdu. Yenə həbsxanaya düşmüşdü. Düzdü, günü heç burda da pis keçmirdi. Artıq qocalmış cibgir İmirin sayəsində oğru səltənətində doğma adam kimi qarşılanmışdı. Bayırdan gələn pay-puş zənbilləri də təsirsiz ötüşmürdü. Süfrəsinin artığına tamah salanlar çox idi. Həm də belə nəhəngin fiziki imkanları qarşısında kim dayana bilərdi?! Hamı onunla dostlaşmağa çalışırdı.

Mirzəmməd hər dəfə ona baş çəkəndə həyəcanlı xəbərlər gətirirdi. Gah "Sərhədin şirkətində yoxlama gedir", gah "Sərhədi sıxışdırırlar", gah da "İşçiləri onu məhkəməyə verir!" deyirdi. Beynini işlədəndə başı ağrıyan dəli Məhər bilmirdi neyləsin. Bir gün cibgir İmirdən xahiş elədi:

– Hırr! Mən Faxı-Maxı qədeşi görməliyəm, – dedi.

– Nə işin var onunla? – Cibgir maraqlandı, dərhal da xəbərdar elədi. – Sən canın, hırıltını sonraya saxla.

Məhər dilləndi:

– Sərhədlə bağlı söhbət eləyəcəyəm.

İmirin dişsiz ağzından kəlmələr fışıltı ilə çıxırdı:

– Gərək ki, qədeş elə Sərhədin işləri ilə məşğuldur, – dedi. – Amma xahişini çatdıraram.

Bu ərəfədə Sərhədin ölüm xəbəri həbsxanaya yayıldı. İtkinin ağırlığından Məhərin beyni çöndü, doğurdan da, dəliliyi tutdu. Gündə bir dustaqla dava salıb əzişdirirdi. Bir dəfə nəsə xoşuna gəlmədi, yeməkxanada döşəməsilənin payasını əlinə aldı, nəzarətçiləri qabağına qatdı, neçəsini şil-küt elədi. Onu çox çətinliklə ram elədilər, əl-qolunu bağladılar, həbsxana rəisinin əmri ilə karserə atdılar, yalnız on gündən sonra buraxdılar. Karser işini görmüşdü, Məhər əvvəlki Məhər deyildi, ayaqlarını dalınca zorla sürüyürdü. İki gündən sonra onu yenə karserə qaytardılar. Rəhbərlik nəzarətçilərə hücumu ona bağışlamaq fikrində deyildi.

## -16-
## Ölüm fitvası

Lotu kamerasını toplantı üçün cinayət aləminin generallarının ixtiyarına vermişdi. Cibgir İmir onların qulluğunda dururdu. Bu yığnağa, yəni "sxodkaya" göz yu-

man “Turşulu” zonun rəisi, əlbəttə, məsuliyyətin altına elə-belə girməmişdi, oğru “saxlancından” karlı mükafat almışdı.

Sərhədin ölümündən on gün keçəndən sonra baş tutan toplantının iştirakçıları Lotu Faxının yatırımların əldən çıxması barədə söylədiklərini birmənalı qarşılamadı. Əvvəl onu səhlənkarlıqda günahlandıranlar da oldu. Amma qoyulan yatırımın faiz şəklində “saxlanca” daxil olan məbləğdən qat-qat kiçik olduğunu aydınlaşdırandan sonra hamı sakitləşdi. Soyuq başla keçən müzakirələr çox çəkmədi. Onların haqqını mənimsəyən Agentlik rəisi barəsində ölüm hökmünə yekdilliklə səs verdilər. Fitvanı yerinə yetirmək Lotunun özünə həvalə olundu. Göründüyü kimi, iti öldürənə sürütdürərlər məsəli lap yerinə düşürdü.

## -17-
## Lotu Faxı və polkovnik

“Turşulu” zonun rəisi onu müşayiət edən zabitləri içəri qoymadı, nizamnaməni pozaraq dustaq kamerasına tək girdi, amma dəmir barmaqlıqlı qapını yarıaralı saxladı.

– Salam, Faxı qədeş! – dedi. – Dedilər, məni görmək istəmisən.

Lotu Faxı qıçlarını çarpayıdan yerə salladı:

– Xoş gəldin, polkovnik, – deyə ayağa qalxdı. – Səninlə vacib işim var.

Kamera bank əməkdaşının ofisinə oxşayırdı. Divara söykənmiş şkaflarda sıra ilə düzülmüş qovluqlar vardı. Dəftərxana masasının üstündə "Toshiba" markalı fərdi kompüter, "Canon" surətçıxaranı gözə dəyirdi. Döşəməyə bahalı xalça salınmışdı. İçərinin yaraşığını yalnız kobud, ikimərtəbəli yaylı dəmir çarpayı, bir də kameranın ortasında döşəməyə bərkidilmiş dəmir masa pozurdu.

Polkovnik özünü saxlaya bilmədi

– Həsəd aparılmalı kameran var, qədeş, – deyə söz atdı. – Vallah, yerin tamaşadır.

– Həsəd aparana qismət olsun, rəis! – Lotu söz altda qalmadı.

– Mənim kabinetimdən gözəldir. – Rəis lotunun hazırcavablığını kobudluq kimi qəbul eləmədi, qulaqardına vurdu. – Bəzi xırdalıqları kənara atsaq...

– Gözün düşübsə, başabaş dəyişə bilərik, rəis. – Lotu gülümsədi. – Mən dovtələb deyiləm.

– Dünənki "sxodkanız" necə keçdi? – Polkovnik maraqlandı. – Qan tökülmədi?

– Pis keçmədi, – deyə Lotu qısaca cavab verdi. – Yox, sakitlik idi.

– Sirr deyilsə, nə münasibətlə toplaşmışdınız?

Lotu Faxı ötəri danışdı, amma Agentliyin rəisinin ölümünə fitva verildiyini demədi. İstehza ilə yekunlaşdırdı:

– Gərək gələcəkdə sən də toplantılarımızda iştirak edəsən, rəis, – deyə irişdi. – Onsuz da hər qəpiyimizə şəriksən də. Sənsiz nə "sxodka"!

Polkovnik lotunun dediklərini bu dəfə də qulaq ardına vurdu, dəmir masanın arxasına keçdi:

– Qədeş, nəzərə al ki, vaxtımız məhduddur, – dedi, sonra Lotunun kamera yoldaşı cibgir İmirə əmr elədi. – Nə qulaqlarını şəkləmisən, çıx, bayırda gözlə.

Cibgir büzüşdü, amma polkovnikin tələb ilə kameradan çıxmadı, hamisinin qərarını gözlədi. Lotu Faxı barışdırıcılıqla:

– Mən İmirə etibar edirəm, – dedi.

Rəis tələbinə bəraət axtardı:

– Bu bir ehtiyat tədbiridir, qədeş. Bilirsən ki, bizim işdə əlavə şahidə ehtiyac yoxdur, – deyə lotuya baxdı, ondan tərəfgirlik görmədi, geri çəkildi. – Amma sən İmirə etibar edirsənsə, mənim onun qalmağına etirazım yoxdu.

Lotu Faxı axır nöqtəni qoydu:

– Bizə bir çay düzəlt, cibgir ağa! – Dedi.

İmir hamisinin əmrini yerinə yetirməyə tələsdikdə lotu polkovniklə üzbəüz oturdu, qısaca xahişini bildirdi. Rəis heç düşünmədən:

– Bu mümkün deyil! Mən səni iki-üç aylığa zondan buraxa bilmərəm. Sənə ən çoxu on iki saat icazə verərəm.

Faxı anlamadı:

– Niyə ki? Yanında etibardan düşmüşəm? – Soruşdu.

– Etibarın bura nə dəxli var, qədeş! Təsadüfən başına bir iş gələr, paqonlarımı sökərlər. Bu boyda riskin altına girə bilmərəm, – deyə polkovnik dilini sürüdü. – Sən hesabda olan məhkümlardansan, adi adam deyilsən.

– Hər ay daxıldan aldığın məbləğə görə hərdən risk eləmək də lazımdı. – Lotu istehza ilə qeyd elədi. – Quru maaşa yaşamaq fikrindəsən? Çörəyinə çəkdiyin yağ-baldan imtina edirsən?

Hədədən polkovnik duruxdu, gülümsəməyə cəhd elədi:

– Qədeş, cin ayrı, şeytan ayrı! Dediyim odur ki, mən qərarlarımda elə də sərbəst deyiləm, buyruq quluyam. Rəhbərliyin icazəsi lazımdı, – dedi, cibgirin uzatdığı buğlanan fincanı aldı.

– Onda rəhbərlikdən icazə al! Nəyi gözləyirsən? – Lotu səbirsizliklə ayağını yerə döydü və fincanı dodağına apardı, bir qurtum alıb masaya qoydu. – İmir, zəhmət olmazsa üstünə su al, çox tünddü.

– Rəhbərlik təzədi, hələ ki, heç kimi yaxına buraxmır. – Polkovnik izah elədi. – Bir az gözləməlisən.

– Gözləmək nədi, ay kişi? – Lotunun üzü bomboz bozardı. – Söhbət milyonlarla puldan gedir, qəpik-quruşdan yox! “Sxodkada” mənə vəkalət verən qardaşlarımın ümidlərini doğrultmalıyam. Ya “saxlancın” pullarını geri qaytarmalıyam, ya da pulları mənimsəmiş adamları cəzalandırmalıyam. Başqa yolum yoxdu...

Həbsxana rəisi qurumuş dodaqlarını dili ilə islatdı:

– Yəni, doğurdan belə böyük məbləğdən söhbət gedir? – Şübhə ilə soruşdu. – Goplamırsan ki?

– Əlbəttə, yox! – Lotu Faxı polkovnikin üzündə dolaşan tamah işartısını görmürmüş kimi vəd etdi. – Bu milyonlarda sənin də payın ola bilər.

Polkovnik bir az düşündü:

– Uzun müddətli icazə verməkdənsə səni əfv siyahısına salmaq mənim üçün daha asandır... – dedi. – Bir başa generala çıxacağam.

– Həə? Bəs, bu neçəyə başa gələcək? – Lotu soruşdu. – Dəqiqləşdirə bilərsən?

– Hər halda, ucuz oturmayacaq... – Polkovnik gülümsədi. – Gərək kisənin başını açasan. Azadlıq şirin şeydi.

Lotu Faxı etinasızlıqla:

– Mənə heç burda da pis keçmir. On səkkiz yaşından zondayam, artıq öyrəşmişəm, – dedi, sonra boynuna aldı. – Amma “sxodkanın” hökmü tələb edir ki, azadlıqda olum. Odur ki, tələb elədiyin məbləğ istədiyin vaxt ixtiyarında olacaq.

## -18-
## Lotu Faxı ilə Məhərin görüşü

Lotu Faxı işə qarışmasaydı dəli Məhərin canı elə karserlərdə də çıxacaqdı. Onun xahişi ilə əlaltısını cibgir İmirin kamerasına keçirtdilər.

Çox keçmədi ki, tox yeməkdən, isti yatacaqdan, dava-dərmandan Məhər özünə gəldi. Canına təpər gələn kimi xahiş elədi:

– Mənə qardaşımın qisasını almaqda kömək elə, İmir, – dedi.

Cibgir onu Lotu Faxının kamerasına apardı. Karser dəli Məhəri necə ağıllandırmışdısa səsi çıxmırdı. Qanuni oğrunun söylədiklərinə dinməz qulaq asırdı. Hətta, himayədarı susandan sonra da bir müddət danışmadı. Sonra uzun-uzadı hırıldadı. Lotu Faxı maraqlandı:

– Sənin şənliyinin səbəbi nədi, Məhər qardaş? – Soruşdu.

– Faxı-Maxı qədeş, səni ağıllı deyirdilər, demə, səhv edirlər. Sən məndən də zırrama imişsən! – deyə Məhər başını tavana qaldırdı, bir də hırıldadı. – Ağıllıma baxın da!

Söhbətə kənardan qulaq asan cibgir İmir ona acıqlandı:

– Axmaq-axmaq danışma! – dedi. – Üzr istə.

Lotu Faxı isə incimədi, əksinə, gülümsədi:

– Niyə bu fikrə gəlmisən, dəli Məhər?

Dəli Məhər İmirin sözünü yerə salmadı, lotudan üzr istədi:

– Bağışla, qədeş, könlünə dəymək istəmirdim, amma sənin təklifin ağılsızlıqdı, axı, – dedi. – Bilirsən ki, Agentlik dövlət idarəsidir, oğru yığnağı deyil! Nə topumuz var, nə topxanamız. Böyük nə qədər Bakıdadı, ona gücümüz çatmaz. “Sxodka”nın hökmü havada qalacaq...

Lotu Faxı heyrətini zorla boğdu, tam ciddi soruşdu:

– Bəs, Agentlik özünü elə oğru yığnağı kimi aparırsa, onda necə?

Dəli Məhər başını buladı:

– Fərqi yoxdu, qədeş, – dedi, əvvəl dediyini təkrarladı. – Bakıda Böyüyə gücümüz çatmaz.

Lotu onu təriflədi:

– Afərin, Məhər! – dedi, üzünü İmirə çevirdi. – Görürsən, cibgir ağa, bizim dəlimizin başı necə gözəl işləyir? Beləsinə dəli deyənin dili qurusun!

Məhər tərifə laqeydlik göstərdi, səbirsizliklə:

– Eləsə, qərarın nə olacaq, qədeş?

Lotu Faxı əlini qaldırdı:

– Bir az səbr eləməlisən. Xaloğlular barəsində bəzi xəbərlər çatıb mənə. Səhihliyini yoxlayandan sonra qərarım məlum olacaq, – dedi. – Amma hökmü yerinə yetirmək bizim boynumuzdadı.

– Maraqlıdı, qədeş, zonda otura-otura hökmü necə yerinə yetirmək olar? Rəml atacayıq? – Məhər lağ elədi. – Yəni...

Lotu işgüzarlıqla onun sözünü kəsdi:

– Hələ dayan, – dedi. – Sənə bir şad xəbər verəcəyəm. Vəkil Ənnağı bizim işlərimizlə məşğuldu. Bir-iki günə səni dəlixanaya qaytaracaqlar, ordan da azadlığa buraxacaqlar, amma tanış-bilişdən uzaq durmalısan, qoy, hamı səni zonda bilsin.

– Bəs, sən? – Məhər soruşdu. – Mən sənsiz bu işi aşıra bilmərəm.

– Mən səni tək qoymaram. – Lotu onu arxayın elədi. – Yaxınlarda mən əfv olunmalıyam. Sənədlərim artıq hazırdır...

## -19-
## Lotu Faxının həyatı

Lotu Faxı cəmi on səkkiz il azadlıqda yaşamışdı. Qalan ömrü həbsxanada keçmişdi. Azad günlərinin xatirələri bütöv deyildi, qırıq-qırıq idi.

Atası İgid ortaboylu, ağır sümüklü, əzələli, sarışın bir kişi idi. Qırx yaşı vardı, amma yaşından çox cavan görünürdü. İyirmi il idi ki, sovxozda baş mühasib vəzifəsində çalışırdı. Etibarlı əməkdaşlardan sayılırdı. Sovxoz yaranandan direktorluq edən Rəsul müəllimin artıq yetmiş beş yaşı vardı, ayağını dalınca zorla sürüyürdü. Bacarıqlı təsərrüfatçı olduğundan təqaüdə çıxandan sonra da vəzifəsində saxlamışdılar. Xəstəlikləri tez-tez onu yatağa yıxırdı, direktorun vəzifəsini çox vaxt İgid yerinə yetirirdi.

Atası həvəskar ovçu idi. Bazar günləri evdə tapılmazdı. Qoşalülə tüfəngi çiynində, patrondaş belində, rezin çəkmə ayağında gününü meşədə-dağda keçirirdi. Heç vaxt əliboş qayıtmazdı. Hərdən onuncu sinifdə

oxuyan Fəxrəddini də özü ilə ova aparırdı. Bildiyi hər şeyi, maşın sürməyi, nişangah seçməyi, tüfəng atmağı, quş quşlamağı, dovşan ovlamağı, tülkü vurmağı, hətta mühasibliyi də ona öyrədirdi. Bir dəfə tüfəng Fəxrəddinin əlində idi. O, zarafatla çöldə qoyun otaran məktəb yoldaşını nişan alanda atası ona acıqlandı:

– Heç vaxt tüfəngi adama tuşlama! – dedi. – Bunu sənə qadağan edirəm.

– Niyə? – Fəxrəddin təəccübləndi.

İgid izah eləmədi:

– Olmaz, vəssalam! – dedi, sonra izah elədi. – Allah eləməmiş, əlindən xəta çıxar, qan tökərsən, sonra ömrünün axırına qədər əzab çəkəcəksən.

İgid yeganə oğlunu sevirdi, onunla dost kimi rəftar edirdi, heç vaxt üstünə qışqırmırdı.

Direktorun "Volqa"sını ilimiz on iki ay İgid sürürdü. Nə məsələdisə, işə götürülən sürücüləri Rəsul müəllimin arvadı Bağda xanım yola vermirdi, burunlayıb işdən çıxartdırırdı. Direktor cavan xanımının nazı ilə oynayırdı, bir sözünü iki eləmirdi.

İgid səhərlər direktoru iş yerində düşürür, sonra onun on beş yaşlı qızı Nərmini dərsə aparırdı. Qız kənd məktəbində yox, rayon mərkəzindəki məktəbdə oxuyurdu. Yoldan qayıdandan sonra bir neçə saat idarədə birbaşa vəzifəsi ilə məşğul olurdu. Direktor ora-bura maşın sürdürməyi xoşlamırdı. Lazımi adamları kabinetinə çağırtdırırdı. Nahardan sonra İgid Bağda xanımın ixtiyarına

keçirdi. Qadını ya dərziyə, ya gözəllik salonuna, ya mağaza, ya rəfiqəsi gilə, ya..., bir sözlə, arzuladığı hər yerə aparırdı. Bir qayda olaraq xanım qabaqda, sürücü ilə yanaşı otururdu. Bu balaca boy, zərif, gözəl qadın ərindən iki dəfə kiçik idi. Çox hökmlü xanım idi. Adamların yanında İgidlə çox kobud davranırdı. Fəxrəddin bir neçə dəfə bunun şahidi olmuşdu. Amma görürdü ki, atası xanımın kobudluğundan incimir, bəlkə də, ləzzət alır.

Atası evdə-eşikdə, demək olar ki, az tapılırdı. Amma bu az vaxt da ailənin artımına kifayət eləyirdi. Fəxrəddinin bir-birindən kiçik altı bacısı vardı. Böyüyü on altı yaşında idi. Adı da Nərmin idi. Otuz beş yaşlı anası uşaqların biş-düşünü, geyim-kecimini, təmizliyini zorla çatdırırdı. Hələ, üstəlik, sovxoz işinə də gedirdi. Zəhmətdən, qayğılardan yun çubuğuna dönmüşdü. O qədər arıq idi ki, burnunu sıxsaydın canı çıxardı.

Atasını bəzən gecələr də direktorun malikanəsinə çağırırdılar. Adətən zəng edən malikanədə qulluqçuluq edən Bahar olurdu. O, kişi kimi bərkdən danışırdı. Səsindən telefonun mikrofonu gumbuldayırdı:

– İgid ölmüş, səni direktor istəyir. Təcili gəl.

Atası öz ailə üzvlərini direktorun “Volqasına” heç vaxt mindirməzdi. Yeganə oğlunu, ya da qızlarını yolda görəndə də yanına oturtmazdı.

Bir dəfə “Volqa” xarab olmuşdu. Maşının altında qurdalanan atası Fəxrəddindən xahiş etdi ki, arxa oturacaqdakı bağlamanı malikanəyə çatdırsın. Oğlu soruşdu:

– Kimə verim?

– Kim darvazanı açsa, ona da verərsən, – deyə atası dilləndi. – Bir də soruşarsan, gör, Bağda xanım rayona haçan gedəcək?

Malikanənin qabağında bir "Jiquli" dayanmışdı. Fəxrəddin darvazanı zəngini basdı. Bir azdan alaqapı açıldı, direktorun qızı Nərmin iyirmi-iyirmi beş yaşlı bir gənclə bayıra çıxdı. Kənddə xəbər gəzirdi ki, direktor qızını rayon mərkəzində yaşayan qardaşı oğluna nişanlayıb. Yəqin qardaşoğlu bu gənc idi.

– Kimsən? Nə istəyirsən? – Gənc oğlan Fəxrəddindən sərt soruşdu. – Qapının zəngi ilə oynayan avaralardansan?

Nərmin onun sözünü kəsdi:

– Əsəd, işin yoxdu, bizim şoferin oğludu, – deyib əlini qabağa uzatdı, bağlamanı Fəxrəddindən aldı, nişanlısına izah elədi. – Səhər məktəbə gedəndə yadımdan çıxıb maşında qalmışdı.

Fəxrəddin Nərmini heç belə yaxından görməmişdi. Deyilənlər düz idi, direktorun qızı onun böyük bacısı Nərminə oxşayırdı. Elə bil bir alma idi, yarı bölmüşdülər. Təəccüblənsə də, bunu bir yerə yoza bilmədi. Atasının sözünü çatdırdı:

– Nərmin xanım, atam soruşurdu ki, Bağda xanım rayona gedəcəkdi, haçan gəlim?

Suala bu vaxt qızını, gələcək kürəkənini yola salmağa çıxmış Bağda xanım özü cavab verdi:

– İgidin sürücülüyünə daha ehtiyacımız yoxdu, – deyə Fəxrəddinə kəc-kəc baxdı. – Lazım olsa, məni kürəkənim rayona aparar.

Bağda xanım keçib Əsədlə Nərmini qucaqladı. Sonra cavanların “Jiquli”yə minməyini gözlədi. Daha sonra rəngli xalatını yellədərək malikanənin darvazası önündə dayandı. “Jiquli” uzaqlaşandan sonra hələ də getməyib gözləyən Fəxrəddinə baxmadan:

– Bayaq dediyimi unut, atana deyərsən axşam düşəndə gəlsin, gedən yerim var, – dedi və alaqapıdan malikanəyə girdi.

Bu olaydan sonra Fəxrəddin “Jiquli”ni tez-tez kənddə görürdü. Əsəd, yəqin ki, adaxlıbazlığa gəlirdi.

Atası axır vaxtlar qanı qara dolanırdı. Bakıdan təftişçilər gəlmişdi, sovxozun təsərrüfat fəaliyyəti yoxlanılırdı. Direktor xəstə yatdığından hər sənədə qol çəkdirmək üçün idarədən malikanəyə maşın sürürdü. Evə bivaxt qayıdırdı.

Bir gün nahara gəlmədi, vay xəbəri gəldi. Kənd camaatı direktorun malikanəsinə axışmışdı. Milislər tikilini əhatəyə almışdılar. Bir azdan İgidin xərəyə qoyulmuş meyiti darvazadan çıxarıldı. Təcili yardım maşınına qoyanda nəşin üstünə atılmış mələfəni külək araladı, mərhumun qanlı çılpaq bədəni göründü. Meyiti rayon mərkəzinə apardılar.

Daha sonra milislər qolu qandallı sovxoz direktorunu gətirdilər. Kişi ayaq üstə ölmüşdü, qolundan tutma-

saydılar yıxılacaqdı. Üst-başı laxtalanmış qan içində idi. Onu pəncərəsində dəmir barmaqlıq olan UAZ markalı maşına mindirdilər.

Bir neçə gündən sonra İgidin nəşini milislər kəndə gətirdilər, ailəsinə təhvil verdilər. Həyətdə xalça-palazdan çadır quruldu, iri qazanlarda su qızdırıldı. Fəxrəddin meyiti özü yudu. Atasının başı geri tərəfdən parçalanmışdı. Yəqin qatil üz-üzə vuruşmaqdan qorxub, girəvə tapıb zərbəni arxadan endirmişdi. Atasının meyitini yuya-yuya qərarını verdi, qatil bir gün də yaşamamalıdı.

## -20-
## Hacı Sarvanın dəstəsi Mədinə şəhərində

Hacı Sarvan neytral zonada da dinclik tapmadı. Qəflətən zəvvarlardan birinin, Rəfiqə xanımın halı qarışmışdı. Dəstənin həkimi Abuzər-loğman əlinin altında olan dava-dərmanı ortaya tökmüşdü, amma əlac tapa bilmirdi.

– Bəlkə iynəsini vaxtında vurmayıb. Rəfiqə şəkərdi, axı, – deyə Şərqiyyə xanım xatırladı.

O, qadının çantasını eşələdi, lazım olanı tapdı, qadına insulin vurdu. Xəstə tədricən özünə gəlirdi ki, reysə minik elan olundu.

Təyyarə bələdçiləri sərnişinləri təkrar-təkrar səsləyir, reysə tələsdirirdilər. Molla Gülünü dəstənin qabağın-

da göndərən Hacı Sarvan özü lap axırda, siyahı adbaad tamamlanandan sonra təyyarəyə mindi. Uçuş vaxtı başqa fövqəladə hadisə baş vermədi, amma ilk dəfə hava gəmisindən istifadə edənlərin problemləri qurtarmırdı. Gah ona, gah buna kömək eləmək lazım gəlirdi. Bir sözlə, zəvvarlar onu nə yerdə, nə də göydə darıxmağa qoymurdular. Üç saatlıq uçuş bir anda keçdi. Təyyarə Mədinə şəhərinə enəndə nahar vaxtı idi. Hava limanından çıxan kimi Ərəbistanın qızmar istisi dərhal zəvvarların canına işlədi, öyrəşməyənləri halbahal elədi. Avtobuslara minmələri xeyli çəkdi. Mehmanxanaya axşamüstü, yorğun-arğın çatdılar. Amma foyedəki kondisionerlərin sərinliyi zəvvarları dərhal dirçəltdi. Hacı dəstədəki adamları otaq-otaq yerbəyer eləməzdən qabaq yeməkxanaya apardı. Şam yeməyindən, sərinlikdən kefi kökəlmiş zəvvarları mehmanxana növbətçisinə tapşıranda Hacı Sarvanın daha bir keyfiyyəti üzə çıxdı. Demə, ərəbcə rahat danışırmış.

Balaca, Hacı Məftun və Mirzəmməd kişi bir otağa düşdülər. Onların arzusu nəzərə alınmışdı. Dəstəbaşı nömrələrə dağılışan zəvvarlara tapşırdı:

– İndi yoldan gəlmisiz, dincəlin. Səhər yeməyindən sonra hamı foyedə olsun. Müqəddəs məkanların ziyarətinə bir yerdə gedəcəyik, – dedi. – Getdiyimiz yerlərdə sıxlıq olur. Biləziyi qolunuzdan heç vaxt çıxartmayın. Azanda köməyinizə çatacaq.

## -21-
## Üçlük

Üçlük liftlə otaqlarına qalxarkən Hacı Məftun dedi:

– Sizə deyim ki, Mədinə şəhərini yaxşı tanıyıram. Ümrə ziyarətində məhəllə-məhəllə gəzmişəm. Açığı, dəstə ilə ziyarət adamı yorur. Üçümüz bir yerdə getsək yaxşıdı...

Hacının təklifi Mirzəmmədin döşünə yatdı. Balaca tərəddüd elədi:

– Dil problemi qarşımıza çıxsa, neyləyərik? – Soruşdu.

Hacı Məftun təvazökarlıqla:

– Mən də bir az ərəbcə bilirəm, çulumu sudan çıxarıram, – dedi, sonra gülərək əlavə elədi. – Bir Hacı Sarvan poliqlot deyil ki...

## -22-
## Balacanın ilk namazı

Şam namazının vaxtı idi. Yoldaşları hamam otağında dəstəmaz alanda Balaca qulağının ardını qaşıdı, dirənə-dirənə dedi:

– Allahdan gizli deyil, sizdən nə gizlədim, mən namaz qıla bilmirəm, – dedi, daha sonra sual gözləmədən

boynuna aldı. – Lap açığı, İslamın vacib ehkamlarından tamam xəbərsizəm.

Onun etirafı yoldaşlarının dilini-ağzını necə bağladısa, bir neçə dəqiqə heç birinin səsi çıxmadı. Handan-hana Hacı Məftun maraqlandı:

– Balaca qardaş, soruşmaq ayıb olmasın, şəriətdən uzaq bir adamın həcc ziyarətində nə işi var? Hacı titulundan belə xoşun gəlir?

Balaca boynunun ardını qaşıdı:

– Desəm, qəflətən dinə-imana gəlmişəm, yəqin ki, inanmayacaqsınız, hacı, – dedi. – Təsadüf belə gətirib...

Hacı Məftun təsadüfün təfərrüatına varmadan:

– Neynək! – dedi. – Öyrənmək istəsən, namaz vaxtı arxamızda dayanarsan, dediklərimizi təkrar edib tezliklə əzbərləyərsən...

– Təhsilim nə qədər çəkəcək? – Balaca zarafat eləməyə çalışdı.

Hacı Məftun şövq ilə dedi:

– Allahın kəlamında elə bir qüdrət var ki, qısa zamanda təhsilin başa çatacaq.

Mirzəmməd kişi dəqiqləşdirməyə çalışdı:

– Qardaşımız şiə namazı qılacaq, ya sünni?

Balacanın müsəlmanlığı bünövrəsiz ev qismində idi. Altı yaşı olanda bir imam Hüseyn təəssübkeşliyi yaşamışdı. Uşaqlıqda yaşadıqları qəsəbənin klubunda keşikçi vəzifəsində çalışan Fəridə arvad Aşura günü hamıya şərbət paylayırdı. Yekə alümin qazan boşalana qədər

uşaqlar onun ətrafında atılıb-düşür: "Yezidə nəhlət!" qışqırır, Fəridə arvad da: "Nuşi imamət!" – deyib şərbət dolu taxta çömçəni uzadırdı. Xeyli keçsə də, həmin şərbətin dadı hələ də Balacanın damağında olduğundan dedi:

– Şiə namazı qılacağam, – dedi. – Mən İmam Əli tərəfdarlarındanam.

Cavabı otaq yoldaşlarını məmnun elədi. Hacı Məftun ona niyyət tutmağı, dəstəmaz almağı başa salıb yerdəki xalçanın üstünə bir döşəkağı atdı. Özü ilə gətirdiyi canamazı açdı, ehtiyat möhürlərdən birini Balacanın qabağına qoydu, yanaşı yer göstərdi:

– İndi dediklərimi təkrar eləyərsən, – dedi.

Balaca həyatının ilk namazını qılmağa başladı, amma İlahi kəlmələr dilindən şövqlə çıxmırdı. Bu otaq yoldaşlarının qulaqlarından yayınmadı.

## -23-
## Rəislə müşavirinin mübahisəsi

Qırğı ilə Qaflanı yola salandan sonra nə rəis, nə də onun müşaviri yerindən tərpəndi. İkisini də eyni fikir məşğul edirdi. Əflan, nəhayət, sükutu pozmaq fikrinə düşdü:

– Hələ iki günümüz var, – dedi.

Böyük anlamağa çalışdı:

– Nə olsun ki? – Soruşdu.

– Dediyim odur ki, həcc səfərini sonraya da saxlaya bilərik... – deyə Əflan astadan dilləndi. – Bəla sovuşandan sonra gedərik.

Böyük bunu gözləyirmiş kimi:

– Bu mümkün deyil, – dedi. – Səfərə öz xoşumuzla getmirik ki! Komitə sədri Mizi Mətişoğlunun təhlükəsizliyi bizim boynumuzdadı, biz də borcumuzu yerinə yetirməliyik. Bilirsən ki, onun vasitəçiliyi olmasaydı Agentliyi çoxdan bağlamışdılar. Biz fəaliyyətimizə görə ona minnətdarıq. Sərhədin ölümündən sonra arxamızda kişi kimi dayandı, qoymadı çaqqal-çuqqala yem olaq.

Əflan narazılığını gizlədə bilmədi:

– Gərək Sərhədin ölümünə qol qoymayaydın, rəis.

Böyük ayağa qalxdı, yuxarıdan aşağı Əflana baxdı:

– Özünü gicliyə qoyma! – dedi, – Sərhədlə aramızda bir köhnə ədavət olsa da, bilirsən ki, onun ölümünü arzulamırdım. Beş-on manatını qırtıb buraxacaqdım.

– Bədbəxtliyin qarşısını almaq olardı, – deyə Əflan təkid elədi.

– Nə təhər, axı? – Böyük hirsləndi. – Sərhədin öz əməlləri öz başına bəla açmışdı, qabağını almaq mümkün deyildi. Yox canım, onun ölümü mənlik deyildi, yuxarıların sifarişi idi. Hətta, dindirdiyimiz adamların dilini açmaq üçün işlətdiyimiz həbləri belə dəyişmişdilər. Sən ki, bunlardan agahsan... – Yenə nəsə demək istəyən Əflanın sözünü ağzında qoydu: – Kiri! Sərhəd-

dən qopartdığımız pulun on faizi sənə çatmadımı? Cibini dolduranda heç belə danışmırdın! – dedi. – Yadından çıxıb?

Hər şey Əflanın yadında idi. Olan hadisələri lap təfərrüatı ilə xatırlayırdı. Hadisələrin istiqamətini dəyişməyə cəhd eləsə də, buna nail ola bilməmişdi.

## -24-
## Milyonçu Sərhəd Agentlikdə

Elə ilk dəqiqədən məlum oldu ki, Sərhəd ipə-sapa yatmaq fikrində deyil. Heç kim milyonçudan belə bir inadkarlıq gözləmirdi. Agentliyin doğanağından keçən sərmayədarların əksəriyyəti özünü qurbanlıq quzu kimi sakit aparırdı. Milyonçu Sərhəd isə tələb olunan məbləğin qədərini belə müzakirə eləmək istəmirdi. Hətta hədələyirdi:

– Nə Böyüyün, nə Balacanın qabağından qaçan deyiləm, – dedi. – Axıra qədər varam.

Rəis Sərhədi "yumşaltmağı" müşavirinə tapşırmışdı. Əflan məntiq və inandırma ustası idi, amma onun bir neçə saat davam edən hərbə-zorbası nəticəsiz qaldı. Əflan məsləhətləşmək üçün rəisin yanına gəldi. Sual gözləmədən Böyüyü məlumatlandırıb:

– Susur, rəis, hədə-qorxunu da eyninə almır! Bir saat qaranlıq kamerada saxladım, təsir eləmədi, – dedi.

Rəis onun sözünü kəsdi:

– Bizim vaxtımız azdır! – dedi. – Nə qədər qənbərqulu çıxmayıb, əməliyyatın başını bağlamalıyıq.

– Deyirəm, izin versəydin...

Böyük müşavirinin nə istəyəcəyini bildiyindən barmağını onun üstünə silkələdi:

– Olmaz! Dindirilən şəxsin vücuduna xətər yetirmək, üz-gözünü korlamaq fikrinə düşsən canını alaram! – dedi və gülümsədi. – Amma tapşırıq yerində qalır! Onun xarici banklardakı hesablarının nömrələri masamın üstündə olmalıdır. Artıq məsələ əndazədən çıxıb, məni yuxarıdan tələsdirirlər, daha gözləmirlər.

Əflanın rəngi qaçdı, qəzəbini zorla boğaraq şikayətləndi:

– Rəis, adamı bitməz işə göndərirsən, sonra da adını yarıtmaz qoyursan! Əlimi-qolumu bağlamısan, neyləyə bilərəm, axı! – dedi, ürəyini boşaldan kimi sakitləşdi, zarafat elədi. – Üz-gözü korlansa, nə olar ki? Kino artisti-zadı deyil ki! Allahın alverçisidi də!

– Alverçi olmağına alverçidi, amma onunla maraqlanan çoxdu. Təzyiq eləsələr, buraxdıracaqlar, arada bizim yaxamız əllərdə qalacaq.

Əflan təklif elədi:

– Bəlkə onu dilləndirmək üçün ailəsinə qarmaq ataq...

– Uzunqulaqsan lap! – Böyük müşavirini söydü. – Sərhədin arvad-uşağı artıq xaricdədi. Bir gün əlimizə düşəcəyini bilirmiş!

– Bəlkə baş mühasibini, katibəsini silkələyək?

– Sənsiz silkələyiblər! – Böyük dilləndi. – Hesablardan xəbərsizdilər.

Ayağa qalxıb kabineti o baş-bu başa dolandı, ağlına nə gəldisə:

– Sən daha Sərhədlə məşğul olmursan, – dedi və susdu.

Əflan özünü itirdi, rəis gözlənilməz qərarları ilə Agentliyin əməkdaşlarını çaşdırmaqda usta idi. Çəkinə-çəkinə soruşdu:

– Bəs, mənə tapşırığın nədir? – Əflan xallı yanağını sığalladı.

– Sərhədin şirkəti ilə məşğul olacaqsan, – deyə rəis öz müşavirinə tapşırdı. – Bax ha, hazır ssenaridən kənara çıxma. Vəkalətnamə hazırlayarsan, bir neçə uşaq götürüb baş ofisə gedərsən, dərhal şirkətdə xəzinənin başını bağlayarsan. Bildiyimə görə, Sərhədin orada karlı pulu var. Bir həftə şirkətdə otursan, şirkətin gündəlik dövriyyəsini yığsan, bəsimizdir. Xarici banklardakı hesabını isə yuxarıya ötürərik.

Əflanın üzü güldü, rəisin dərrakəsinə valehliklə:

– Elə bildim yanında etibarımı itirmişəm. – dedi, sonra ehtiyatla soruşdu. – Bəs, Sərhəd özü nə olsun?

– Qoy, onunla Qaflan məşğul olsun, – deyə rəis əmr elədi. – Bəlkə qardaşın dindirmənin daha təsirli üsulunu tapdı.

Qaflan kor-kobud, qəddar adamdı. Əflan qardaşının "təsirli" üsullarını bəyənmirdi:

– Rəis, qardaş mənimdi, bilirəm, hır-zır qanan deyil, – dedi. – Aləmi qarışdıracaq...

Rəis gülümsədi:

– Mənə elə beləsi lazımdı. Vaxtımız azdı. Qaflan səndən səriştəlidi, baxarsan, ona açar tapacaq, – deyə söhbəti yekunlaşdırdı, hələ də mütərəddid dayanan müsahibinə acıqlandı. – Nəyi gözləyirsən?

Əflan az qala qaça-qaça kabinetdən çıxdı. Böyük qardaşlarla tanışlığının müxtəsər tarixçəsini xatırlayıb gülümsədi.

## -25-

## Əflanla Qaflanın idman klubu

Səksən yeddinci il sovet döneminin bütün paxırını açdı. Mağazaların rəfləri boşalmışdı, heç nə tapılmırdı, sovet pul vahidi əski parçasına dönmüşdü, alıcılıq gücünü gün-gündən itirirdi. Ölkədə hərki-hərkilik başlamışdı. Varidatın, gəlirlərin, yaşayış imkanlarının yenidən bölgüsü gedirdi. Hər sahədə cinayətkar ünsürlərin diktəsi güclənirdi.

Əflanla Qaflan qardaşları cavanlıqda üç-dörd il güləşlə məşğul olmuşdular, yarışlarda uğur qazanmışdı-

lar, bədən tərbiyəsi institutunu qurtarandan sonra hər ikisi məktəbdə çalışırdı. Əvvəl vəziyyətləri pis deyildi, səksən yeddinci ildən sonra isə daha müəllim maaşı ilə dolanmaq olmurdu.

Qaflan Əflana hey şikayətlənirdi:

– Ehtiyac bizi məhv eləyəcək, qardaş. Bir başını işlət.

O, öz başına çox da güvənmirdi, qardaşını özündən daha ağıllı bilirdi.

– Bəlkə bir ödənişli idman klubu açaq? – Əflan təklif elədi. – Necə bilirsən?

– Bəs, avadanlığı nə ilə alaq? – Qaflan könülsüz zarafat elədi. – Bismillah ilə? Ya dümbəkçi dədəmizdən xəzinə qalıb sənə, mənim xəbərim yoxdu?

Haqq dünyasında olan nağaraçalan atalarını Qaflanın hörmətsiz yada salması Əflanın xoşuna gəlmədi:

– Ölülərimizi dinc qoysan, yaxşıdı! – dedi. – Hələlik məktəbin avadanlığından istifadə edərik, sonra baxarıq...

Elə də elədilər. Bir zirzəmi icarəyə götürdülər, elan vurdular. Qısa vaxtda xeyli müdavim yığdılar. Əlbəyaxa döyüşün həvəskarı çox idi. Say-seçmə işinə Əflan baxırdı. Tədricən uşaq-muşağı klubdan uzaqlaşdırdı, ancaq cinayətkar keçmişi olanları, vurub-yıxanları saxladı.

Bu, Qaflanın xoşuna gəlmədi:

– Niyə köhnə məhkumları kluba yığırsan? – dedi, sonra lağ elədi. – Nədi, bunlardan dünya çempionları yetişdirəcəksən?

Neçə vaxt ürəyində bəslədiyi fikirləri, nəhayət, Əflan qardaşı ilə bölüşdü. Qaflan onun məqsədini biləndə, əvvəl inanmadı:

– Yəni alınar?

– Əlbəttə, alınar! – Əflan onu inandırmağa çalışdı. – Məşhur qanuni oğru Lotu Faxının adından istifadə edərik. Onsuz da şəhərdəki obyektlərin çoxu onun himayəsindədi, haqq verirlər. Bir dəfə qulağımla eşitdim ki, bir mağaza müdiri sahə müvəkkilini söyürdü: "Niyə gəlmisən? – Soruşurdu. – Sənə demişdim, axı! Bir də mağazaya girsən, Lotu Faxıya çatdıraram, dərini boğazından çıxardar!"

– Bəs, işin üstü açılsa? – deyə Qaflan soruşdu. Onun şübhələri heç cür keçmirdi. – Lotu Faxı ilə oyun oynamaq olmaz, nəslimizin kökünü kəsər.

– Açılmaz, indi it yiyəsini tanımır. – Qardaşı onu sakitləşdirdi. – Ölkə qaynayır.

– Bilsələr, vallah, başımızı sığallamazlar. – Qaflan inad elədi.

– Bəs, nə təklifin var? – Əflan qızğınlıqla deyindi. – Acından ölməliyik? Aldığımız maaşa yaşamaq olar? Qiymətlər od tutub yanır. Özümüz cəhənnəmə, bəs, ailəni nə ilə saxlayaq?

Qaflan daha müqavimət göstərmədi, Əflanla razılaşmalı oldu.

## -26-
## Qardaşlarla xaloğluların qiyabi tanışlığı

Səksəninci illərdə Bakı şəhərinin rayonlarından birinin ticarət-iaşə obyektlərinə nəzarət edən Böyük dilemma qarşısında qalmışdı. O, sosialist əmlakının oğurlanmasına qarşı mübarizə şöbəsinə başçılıq edirdi. Ordan-burdan qırtdığı pulları, əlbəttə, tək yemirdi, bir hissəsini vəzifə pillələri ilə yuxarı ötürürdü. Axır vaxtlar bu vəsait rəislərin artan ehtiyaclarını ödəmirdi. Balacanı məsləhətə çağırdı.

– Neyləyək, qardaş? – Soruşdu. – Ərazimizdəki obyektlərin çoxu nəzarətimizdən çıxıb. Biri Lotu Faxı ilə bizi hədələyir, o biri Sanı Abşeronski ilə. Bir az sıxan kimi zəng zəng üstündən gəlir... Ona dəymə, buna dəymə, bəs, başımızı necə dolandıraq?

Başı kefdən ayılmayan Balaca uzaqdan başladı:

– Yaxşı bilirsən ki, ticarətçinin gözünü qorxutmasan, dədəsi də gəlsə, manatından keçməz, – dedi.

– Nədi, rüşvət almağa milis nəfərlərini göndərək? – Böyük istehzasını gizlətmədi. – Bu da mənim ağıllım. Verdiyi məsləhətə bax...

Balaca fikrini çözdü:

– Mən elə demirəm, – dedi. – Bizə bir neçə qolu zorlu adam lazımdı.

– Yəni belələrinin yerini dəqiq bilirsən? – Böyük maraqla soruşdu.

– Əlbəttə, bilirəm, – deyə Balaca biliciliklə dilləndi. – Belələrini idman klublarında tapmaq olar.

Balacanın söylədiyi Böyüyün ağlına batdı, amma şübhəsini gizlətmədi:

– Nəzərə al ki, biz hər adamı işimizə cəlb eləyə bilmərik... – Qeyd elədi. – Etibarlı adamlar lazımdı.

Elə bu vaxt köhnə ticarətçilərdən biri, Əhlimən kişi kabinetə girdi. Onun gözünün altı göyərmişdi. Böyük sataşdı:

– Gözünün altını arvad göyərdib, Əhlimən kişi?

Əhlimən "Altıncı mədən" adlanan ərazidə yeməkxana işlədirdi. Müştəriləri neft buruqlarının təmirində çalışan fəhlələr, yoldan keçənlər, qəsəbənin adda-budda sakinləri idi. "Aylığı" həmişə vaxtında gətirərdi, heç vaxt gecikdirməzdi. Böyüyün sözünə bir neçə yerdən göyərmiş üz-gözünü qırışdırdı:

– Böyük Xaloğlu, zarafatlıq halım yoxdu! – dedi, sonra başına gələnləri təfsilən söylədi.

...Əhliman kişi axşam daxıldakı pulu çinləyib belini bağlayırdı, iki nəfər içəri girdi. Biri sarışın idi, elə hey gülümsəyirdi, o biri qaraşın idi, üzündən zəhrimar yağırdı. Hər ikisi cavan idi, köynək altından əzələləri qabarırdı. Sarışın müqəddiməsiz dedi:

– Kişi, bu gündən hər ay bizə əlli manat pul verəcəksən.

Əhliman elə bildi gələnlər zarafat edir. Gülə-gülə soruşdu:

– Verməsəm nə olacaq?

– Pis olacaq, kişi! – Sarışın səmimiyyətlə gülümsədi. – Versən rahat işləyəcəksən. Daha səni narahat edən olmayacaq. Sənə dəyib-dolaşanla biz məşğul olacağıq...

Əhlimən maraq üçün soruşdu:

– Kimin adından gəlmisiz?

– Lotu Faxının... – Sarışın dilləndi.

Söylənilən ad şəhərdə məşhur idi. Əhlimən bir az acıqlı:

– Mən Lotu Faxıdan himayə istəməmişəm, – dedi, sonra onları başından eləmək arzusu ilə mülayimliklə əlavə elədi. – Amma təklifinizi götür-qoy eləyərəm, sabahda-zadda gələrsiz söhbət edərik...

Qaraşın oğlan qoymadı söz sona çatsın, əlini uzadıb Əhlimənin yaxasından yapışdı, sürüyə-sürüyə piştaxtanın arxasından çıxartdı.

Maraqla qulaq asan Böyük qaş-qabağını tökdü. Balacanınsa üzündə əhli-keflikdən əsər qalmadı:

– Sonra nə oldu? – Soruşdu.

– Sonra da gördüyün kimi! – deyə Əhlimən üzünü göstərdi. – Sarışın arxadan qollarımı yanıma sıxdı, o biri sifətimə dalbadal iki yumruq vurdu, ağrıdan az qala ağlım başımdan çıxsın. Gedəndə sarışın astadan dedi ki, hər ay əlli manat verəcəksən, işdi, verməsən yeməkxananı başına uçuracağıq. Məni buraxıb piştaxtanın arxasına keçdi, daxılı açdı, pul baratının içindən düz əlli ma-

nat götürdü, qalanını daxıla atdı. Sonra yeməkxananı tərk elədilər.

Böyük Əhlimən kişini sakitləşdirib yola saldı, sonra Balaca ilə oturub xeyli götür-qoy elədilər. Rayon ticarət-iaşə obyektlərini "sağan" qüvvələrə qarşı dəyanət göstərmək fikrinə düşdülər. Yoxsa hər şey əldən gedəcəkdi. Əhlimən kişinin yeməkxanasında pusqu qurdular. Ayın axırında "sağıcılar" gəldilər. Milis nəfərləri hər iki qolu zorlunu asanlıqla zərərsizləşdirib bölməyə gətirdilər. Dindirilmədən sonra onların başçılarını tapmaq elə də çətin olmadı.

## -27-
## Xaloğluların qardaşlarla tanışlığı

Bölməyə dəvət olunmuş qardaşların dindirilməsi bir nəticə vermədi. Deyəsən, bir gün ilişəcəklərini nəzərə almışdılar. Hər şeyi inkar edir, heç nəyi boyunlarına almırdılar. Böyük fikrən hər iki təqsirlinin verilən suallara cavablarını müqayisə elədi, anladı ki, qardaşlardan dərrakəlisi Əflandı, Qaflan isə əzələ yığınıdı, başı zəif işləyir.

Dindirmədə iştirak edən Balaca onları yola gətirməyə çalışdı:

– Səfehlik eləyirsiz ha, üzünüzə iki nəfər durur, dirənməyin nə mənası var?

– Məhkəmədə o üzə duranların halına baxarıq. Görək, iki idman müəlliminin dediyi keçərli olacaq, ya iki keçmiş məhkumun. – Əflan güldü.

– Hə də, görək kimə inanacaqlar... – Qaflan da dişini ağartdı.

– Siz belə düşünürsünüz? – Balaca soruşdu.

– Əlbəttə, bizi bir-iki ay təcridxanada saxlaya bilərsiz, vəssalam. O da məhkəməyə qədər. – Əflan istehza ilə burnunu çəkdi. – Özünüzü ağıllı sayırsız da?

Böyük əl çaldı, Balacaya müraciətlə:

– Xaloğlu, görürsən də, müəllimlər dərslərini yaxşı əzbərləyiblər, – dedi, irişərək əlini Əflanın çiyninə qoydu. – Amma elə iki aylıq təcridxana kifayətdi ki, sizin aşınızın suyunu versinlər.

– Baho! Qorxutma görüm. – Əflan yenə güldü. – Məhkəmədə məlum olacaq.

Böyük qısaca dedi:

– Məhkəməni görməyəcəksiz... Çalışarıq işinizi izafi rəsmiyyət olmadan həll edək.

Əflan duruxdu:

– Təcridxanadan çıxandan sonra... – dedi.

Böyük onun sözünü yarıda kəsdi:

– Deyəsən anlamadın. Siz təcridxanadan sağ çıxmayacaqsınız. – Böyük yaraşıqlı gözlərini yuxarı qaldırdı.

Əflan çaşqınlıqla susdu, Qaflan tələsik:

– Niyə? – Soruşdu.

– Lotu Faxı sizi sağ buraxmayacaq. Bilsə ki, siz onun adından pul yığmısız, işiniz xarabdı. – Balaca ləzzətlə qımışdı. – Onda görüm nə hava çalacaqsız...

– Lotu Faxı hardan biləcək ki? O ki, "Turşulu zondadı".

Böyük vəd elədi:

– Biz bunun qeydinə qalarıq, – dedi. – Hətta, qatilləri təcridxanaya buraxmağın yolunu da taparıq.

Söhbətin ciddiləşdiyini görən Əflan köksünü ötürdü. Soruşdu:

– Siz bizdən nə istəyirsiz? – Təklif elədi. – Bəlkə bir orta məxrəcə gələk...

Böyük Balaca ilə gözləşib dedi:

– Bu başqa məsələ...

Əflanla Qaflan qardaşlarının xaloğlularla əməkdaşlığının bünövrəsi belə qoyuldu.

## -28-
## Lotu Faxı və mürdəşir Gülü

Lotu Faxı Mədinə şəhərindəki mehmanxanada birinci gecəni narahat keçirtdi, dincələ bilmədi. Gözündən yuxu tökülsə də Dombanın div xorultusu onu çimir eləməyə qoymadı. Qalxıb gecə lampasının zəif işığında otaqda gəzişdi. Birdən qapının arxasından bir xışıltı səsi gəldi. O, idman kostyumunu əyninə çəkdi, cəftəni çəkdi, qapını zərblə açdı. Bayırda heç kim yox idi. Meh-

manxana sükut içində idi. Fikirləşdi ki, xışıltı qulağına dəyib, geri qayıtmaq istədi.

Elə bu vaxt gündüz kimi işıqlı dəhlizin dərinliyində bir kölgə keçdi, sonra liftin səsi eşidildi. Yuxusu qaçmış Lotu dəhlizdə bir az var-gəl elədi, sonra ikinci lifti çağırdı.

Hər mərtəbədə dayanır, başını uzadıb dəhlizə boylanır, yenidən düyməni basırdı. Mehmanxana yeddi mərtəbə idi. Kabinə axırıncı mərtəbəni keçib mansardda dayandı. Düşüb gecənin sərinliyində damı dolandı. İşıqlara qərq olmuş Peyğəmbər məscidinə açılan mənzərə onu valeh elədi. Ala-toranlıqda salavat çevirdi, həmdi-səna oxudu.

Mehmanxananın mansardında çoxlu paltaryuyan maşın vardı. Sütunlar arasında zivələr çəkilmişdi. Məlum oldu ki, dam camaşırxana kimi istifadə olunur.

Lotu Faxı sütunların birinin arxasında özünə yer elədi. Yarım saat keçəndən sonra liftlərdən biri damda dayandı. Kabinədən düşən adam Gülü idi. Lotu işığa çıxıb salamlaşdı:

– Hə, molla Gülü, məni güdürsənsə, deməli, tanımısan. Xoş gördük, – dedi.

Gülü duruxmadan:

– Xoş gördük, Qıvırcıq, – dedi. – Səni aeroportda tanımadım, amma sonradan yadıma düşdün.

Əvvəllər zonda saçları zənci saçı kimi qıvrım olan Fəxrəddin Qıvırcıq kimi tanınırdı. Amma “qanuni oğru”

kimi taclanandan sonra özünə Lotu Faxı adını götürmüşdü.

O vaxt yaşıdı, yaraşıqlı, fağır Gülünü görən kimi bildi ki, cinayət aləminə təsadüfi düşənlərdəndi, həbsxana bu adamın yeri deyil. Ona yazığı gəldi, nədənsə gözəl oğlanı zondakı özbaşınalıqlardan qorudu, qoymadı əldən-ələ keçsin. Həmin ərəfədə Gülünün işinə yenidən baxılırdı. Tezliklə onu yarım müddətə azad elədilər. Gülü xudahafizləşəndə demişdi ki, bir gün borcundan çıxaram. Lotu fağır oğlanın sözünə gülmüşdü.

İndi Lotu Faxı köhnə həbsxana yoldaşının yadına saldı:

– Gülü, onda mən olmasaydım başına min oyun gətirəcəkdilər, rüsvayi-cahan olacaqdın, – dedi.

Qaranlıq keçmişinin xatırlanması Gülünün xoşuna gəlmədi, mağmın sifəti qaraldı, Lotunun üzünə ağ olmaqdan özünü zorla saxladı:

– Qıvırcıq, təfərrüata ehtiyac yoxdu, – dedi, əminliklə əlavə elədi. – Mən yaxşılığı unudan deyiləm.

Lotu məmnun halda:

– Eləsə bir məsələdə sənin köməyinə ehtiyacım olacaq. Sənə bir sirr açacağam, – dedi, hələb-həlbət hədələdi. – Amma sirrimizi kimsəyə açsan nəslini yer üzündən sildirəcəyəm.

Maymaq Gülü gözlənilməyən bir dərrakə ilə:

– Mən kiminlə bostan əkdiyimi bilirəm, Qıvırcıq, – dedi. – Lotu Faxını satan deyiləm.

Lotunun üzü güldü, özünə daha bir sadiq köməkçi tapmağına sevindi. Dedi:

– Eləsə qulaq as.

## -29-
## Sərhədin ölümü və ya Agentliyin süqutu

Qaflanın iki günlük zəhməti hədər getdi. Sərmayədara açar tapmaq cəhdi uğursuz oldu, Sərhədin ölümü ilə nəticələndi.

Böyük özündən çıxdı, qarşısında suya basılmış cücə kimi dayanmış Qaflana olmazın hədyanını dedi, yenə ürəyi soyumadı, səbəbsiz yerə Əflanı da ona qatdı. Ürəyini boşaldandan sonra sakit səslə günahkara:

– Bütün planlarımızı pozdun. Sənə demişdim, axı, bu həbdən ehtiyatla istifadə elə, təsirli dərmandı. Kimə versən bülbül kimi oxuyacaq. Sən isə gör neylədin! Bizə onun xarici banklardakı hesab nömrələri lazım idi, ölüsü yox, – dedi, təzədən qızışıb Qaflanı təhqir elədi. – Görünür, anadangəlmə əbləhsən!

Qaflanın enli alnında tər damcıları parıldadı, cəsarətsiz bir səslə:

– Rəis, vallah, onun qəhvəsinə həbi bütöv atmadım, yarısını atdım, – dedi. – Heç iki qurtum içməmişdi ki, kəlləsini yerə qoydu.

– Həbi verməzdən qabaq gərək həkimlə məsləhətləşəydin. – Rəis çımxırdı. – Ağlına gəlmirdi?

Qaflan mızıldandı:

– Elə Agentliyin həkimi məsləhət görən həbi verdim. Olsun ki, Sərhədin ürək çatışmazlığı varmış, – dedi və susdu.

– Mən verən həbi yox, həkimin verdiyi həbi vermisən Sərhədə? – Rəis şübhə ilə soruşdu.

– Bəli, rəis, – deyə Qaflan başını tərpətdi.

Rəis fikrə getdi. Qardaşını danlaqdan qurtarmaq üçün Əflan söhbətə müdaxilə eləməyə girəvə tapdı:

– İndi nə olacaq, rəis? – Soruşdu.

Rəis qaşqabağını tökdü. Agentliyin həkimi nazir köməkçisinin adamı idi. Həbin nə üçün dəyişdirildiyini dərhal anladı. Deyəsən, Sərhədin siyasi fəallığı başına bəla açmışdı. Deyindi:

– Hər şey ola bilər! – dedi, qısa fasilədən sonra buyurdu. – Uşaqları Sərhədin şirkətindən geri çağır. Qol çəkdiyin sənədləri, vəkalətnaməni yandır, pul kisələrini burda saxlamayın, bağıma daşıyın. Tez olun!

Rəis daha yubanmadı, şələ-küləsini yığdı, ürəyini tutub katibəsinin çağırdığı təcili yardım maşınında xəstəxanaya yollandı.

Bunu gözləyirmişlər kimi, maskalı adamlar günün günorta çağı binaya soxuldular, əməkdaşları bayıra qovdular, şəxsi əşyaları belə götürməyə izn vermədilər, otaqların qapılarını möhürlədilər, mühafizəçiləri dəyiş-

dirdilər, sonra Agentliyin ləğv olunması barədə əmri giriş qapısına yapışdırıb getdilər.

## -30-
## Agentliyin yenidən bərpası

Bundan pisini gözləyən Əflan sevindi, Qaflanla yoldaşlı xəstəxanaya, rəisin yanına tələsdi. Balaca onları qabaqlamışdı, artıq Böyüyün çarpayısının böyründə yerini rahatlamışdı. Rəis həyəcanlı işçilərini sakitləşdirdi:

– Onlara bizim arxivlərimiz, qovluqlarımız, fayllarımız lazım idi, onu da aldılar, – dedi. – Ola bilsin ki, günü sabahdan fəaliyyətimiz bərpa olunsun.

Rəis haqlı çıxdı. Heç bir həftə keçməmişdi ki, Agentliyin qeyri-rəsmi fəaliyyətinə icazə verildi. Səlahiyyətləri əlindən alınmış, ştat cədvəli "yüngülləşdirilmiş", texniki işçiləri ixtisara salınmışdı. Düzdü, aparıcı qüvvə yerində qalmışdı, amma gur-gur guruldayan Agentlikdən agentlik qalmamışdı. Onlara əvvəl çalışdıqları binanı qaytarmadılar, ehtiyat mənzil-qərargaha köçürtdülər. Stasionar şəhər telefonları əllərindən çıxsa da, hesabı mühasibat tərəfindən ödənilən mobil telefonlarla limitsiz danışmaq imkanı əldə elədilər. Qeyri-rəsmi fəaliyyətin öz tələbləri vardı, əməkdaşlar xidməti geyimlərini soyunmalı oldular.

Məchulluq hamını sıxırdı, heç kim işindən əvvəlki kimi zövq almırdı. Hamı qanıqara gəzirdi. İndi pulu alanda məvacib cədvəlinə yox, qaytanlı-surğuclu dəftərxana kitabına qol çəkirdilər. Düzdü, vəzifə maaşları iki dəfə artmışdı, amma bağlı zərflərdə aldıqları "mükafat" əllərindən çıxmışdı.

Yeni binada fəaliyyətləri nizama düşmürdü, gündə bir qənbərqulu çıxırdı. Arxivlər, kompüterlər, məlumat bazaları möhür altında qalmışdı, yenisini yaratmağa isə vaxt lazım idi.

Rəis bir müddət gözə görünmədi, heç Balaca da onun haralarda olduğunu bilmirdi. Soruşanda çiyinlərini çəkməklə kifayətlənməyib:

– Məlumatsızam, – deyirdi.

## -31-
## Səfər xəbəri

Bir gün rəis Agentlikdə kefi kök peyda oldu. Axşamüstü Əflanı, Qaflanı, Balacanı kabinetinə çağırdı. Dedi:

– Hazırlaşın, yaxınlarda Məkkəyə, həcc ziyarətinə gedirik.

Xəbər o qədər gözlənilməz idi ki, otağa sükut çökdü. Balaca özünə gələn kimi həyəcanla dedi:

– Sən həcc ziyarəti ilə zarafat eləmə, xaloğlu! Sən getsən də mən getmərəm. Mən içkiyə aludə adamam, Məkkədə nə işim var?

Qaflan da Balacanın tərəfini saxladı:

– Balaca düz deyir, rəis! – dedi. – Namaz qılmırıq, üsuli-din bilmirik, kəlmeyi-şəhadətdən xəbərsizik, günah-qəbahət içində üzürük, bizdən hacı çıxar?

Əflan səsini çıxartmadı, Böyüyü otaqdakılardan daha yaxşı tanıyırdı. Dərhal bildi ki, bu həcc ziyarətinin arxasında başqa bir şey dayanır.

Balaca ilə Qaflanın təlaşı Böyüyü şənləndirdi, dodaqucu güldü:

– Biz Səudiyyə Ərəbistanına işgüzar səfərə gedirik, ziyarətə yox, – dedi. – Nə əl-ayağa düşmüsüz, ziyarətə gedən dostumuz, xeyirxahımız, komitə sədri Mizi Mətişoğludu. Bizim işimiz isə onun təhlükəsizliyidir.

– Rəis, Azərbaycanda istənilən adamın təhlükəsizliyinə təminat verə bilərik. Bəs, Səudiyyə Ərəbistanında buna necə nail ola bilərik? – Əflan şübhə ilə dilləndi. – Yad ölkədi...

Bu vaxt qəbul otağından səs gəldi. Kabinetdəkilər susdular. Qaflanın çıxmağı ilə qayıtmağı bir oldu. Etinasız halda:

– Xadimədir, sil-süpürlə məşğuldu, – dedi.

– Bu nə vaxtın sil-süpürüdür? – Böyük soruşdu, hər ehtimala qarşı Əflana tapşırdı. – Sabah xadimənin kimliyini yoxlayarsan.

Əflan əlini gözünün üstünə qoydu:

– Baş üstə, rəis, – dedi. – Yoxlayaram.

Agentliyin təzə binası Böyüyün heç xoşuna gəlmirdi. Elə bil divarların qulağı vardı. İçəridə danışılanların sorağı başqa yerlərdən çıxırdı. O, qaşqabağını töküb bayaqkı söhbətinə aydınlıq gətirdi:

– Sizə deyim ki, Səudiyyə Ərəbistanında kral ailəsinə yaxın olan iki dostumuz var, bizə yardım edəcəklərinə söz veriblər.

Balaca soruşdu:

– Aişə ilə Məhəmmədi nəzərdə tutursan?

Böyük təsdiqlədi:

– Bəli, köhnə tələbə yoldaşlarımız indi neft şirkətində işləyirlər, AişəEməri həm də şahzadənin tərcüməçisidir.

Balaca təəccübləndi:

– Onların kral ailəsinə nə aidiyyəti var ki?

Böyük qondarma bir fərəhlə gülümsədi:

– Baho! Sən bilmirsən! Onlar təzəlikdə böyük qızlarını şahzadəyə ərə veriblər, kral ailəsinə daxil olublar, – dedi. – O gün Aişə Meməri ilə zəngləşmişəm. Kefləri kökdü, hər ikisinin sənə salamı var!

– Deyirsən, köhnə tələbə dostlarımız bizə kömək eləməyə razıdırlar? – deyə Balaca inamsız halda soruşdu. – Yadımdadı, Məhəmməd Xələf kurs işini kimsəyə havayı yazmazdı. Nə əcəb ondan? Belə dəyişilib?

– Mən Məhəmməddən çox, onun zövcəsi Aişə Məməriyə güvənirəm, – deyə Böyük ürəkdən güldü. – Sənə

demirdim, arada onunla zəngləşirdim, əlaqəni kəsmirdim.

Balaca da köhnələri yada salıb gülümsədi:

– Deyilənə inansaq, köhnə məhəbbət unudulmur, – dedi.

– Yadında saxla, Balaca, məhəbbətin təzəsi-köhnəsi olmur, – deyə Böyük güldü. – Məhəbbət varsa, deməli, əbədidi...

Əflanla Qaflan xaloğluların əlaqələrinə həmişə qibtə ilə yanaşırdılar. Hara çönürdülər, yapışmağa dəstək tapırdılar, elə bil öz əlləri ilə aparıb qoyublar.

## -32-
## Səfərə hazırlıq

Səfərə hazırlıq iki aydan çox çəkdi. Qarşıya çıxan çətinliklər qurtarmaq bilmirdi. Komitə sədri Mizi Mətişoğlunun tükənməyən arzuları həcc ziyarətinin əməlləri ilə, yumşaq desək, üst-üstə düşmürdü. Böyük bu işə girişməyinə peşman olmuşdu, amma geri çəkilə də bilmirdi, Agentliyin gələcək taleyi bu səfərdən asılı idi. O, dilemma qarşısında qalmışdı. Həcc ziyarəti bir həftəyə başa çatmalı idi, yoxsa səfər təxirə salınırdı. Mizi Mətişoğlu tez-tez təkrarlayırdı:

– Böyük, nəzərə al ki, mənim vaxtım məhduddur, uzun müddətə ölkədən çıxa bilmərəm, – dedi. – Gedib-gəlməyimiz bir həftədən çox çəkməməlidi...

Böyük Səudiyyə Ərəbistanı ilə əlaqə saxladı, xahişini elədi. Aişə Meməri əvvəl razı olmadı, sonra onun israrını görüb səlahiyyətli şəxslərlə məsləhətləşməyi söz verdi. Bir neçə gündən sonra bildirdi ki, dediyin mümkündü, altı gün müddətində ziyarəti başa vurmaq olar, amma səfərin mexanizmi xırdalığına qədər götür-qoy edilməlidi, hər detal elə cilalanmalıdı ki, kənara çıxma baş verməsin.

Əflan da, Balaca da, elə Qaflan da bacardığı qədər rəisə kömək eləməyə çalışırdılar. Başqa cür ola bilməzdi, Agentliyin taleyi hər birinin taleyi idi.

Nəhayət, səfərin həm görünən, həm də görünməyən tərəflərinin müzakirəsi bitəndən sonra Böyük idarənin maliyyə məsələlərinə baxan Balacaya tapşırdı ki, Aişə Mejmərinin həyat yoldaşı Məhəmməd Xələfin hesabına vəsait keçirsin. Xaloğlusu istehzasını gizlətmədi:

– Deyirsən, dostumuz pulsuz dostluq eləmək istəmir? – Soruşdu.

– Dostluğun imkanları məhdud ola bilər, pulun imkanları isə hüdudsuzdu! – Böyük başa saldı. – Vəsaiti təcili köçürməyi unutma. Məhəmməd Xələfin xasiyyətini bilirsən, dəbbələyə bilər.

## -33-
## Lotu Faxının Məkkə səfəri dəqiqləşir

Qoca cibgir İmir Lotu Faxının sayəsində rahat yer tapmışdı. “Turşulu” zondakı görüş otaqlarının təmizliyi, səliqəsi ona tapşırılmışdı. Mühafizəçilərdən, nəzarətçilərdən, qonaqlardan eşitdikləri dedi-qodu bəzən işə yarıyırdı. Bu gün görüşünə arvadı gəlmiş tanış məhkumdan vacib bir xəbər eşitdi. İşlədiyi Agentliyin rəisinin həccə gedəcəyini ərinə danışmışdı.

İmir işini yarımçıq qoyub ayaqları bir-birinə dolaşa-dolaşa kameraya tələsdi. Bir ara Lotu Faxı onu azadlığa buraxdırmaq fikrinə düşmüşdü, amma qoca cibgir razılaşmamışdı. Demişdi: “Qədeş, yaxınlarımın heç biri sağ deyil. Uzaq qohumlar isə məni çoxdan ölmüş bilirlər. Getməyə yerim yoxdu, bura yaxşıdı”.

Lotu Faxı kamerasında yır-yığış edirdi. Şey-şüyünü karton qutulara yığırdı. Sabah zindanda axırıncı günü idi, azadlığa çıxırdı. İmirin dişsiz ağzını marçıldada-marçıldada söylədikləri Lotu Faxının şadlığına səbəb oldu.

– Bu yaxşı xəbərdi, İmir! Neçə gündü baş sındırırdım, bu işin çəmini tapa bilmirdim, – dedi. – Düşmənimizin Məkkə səfəri bizə ərməğandır. Elə orda qisasımızı alarıq.

– Onda sən də həcc səfərinə çıxmalısan! – İmir qeyd elədi.

– Niyə də yox! Həm ziyarət, həm ticarət. Həcc ziyarəti çoxdankı arzularımdandı. – Lotu gülümsədi, sonra boynuna aldı. – Günahlarım mənə ağırlıq edir, daha çəkə bilmirəm, İmir, tövbə eləməliyəm.

Cibgir Lotunun günahlarının tarixini yaxşı bilirdi. Müzakirə açmadı.

– Dəlini də özünlə aparacaqsan? – Soruşdu.

– Əlbəttə, Məhərsiz mənim işim keçməz. – Lotu başını tərpətdi. – Bəlkə Dombanı da apardım özümlə...

– Mən də gedərdim... – İmir arzuladı, lotuya yalvardı. – Bəlkə məni də aparasan, qədeş.

Lotu laqeyd halda güldü:

– Yox, səni apara bilmərəm, yolda ölüb-eləyərsən, boynumda qalarsan, – dedi. – Günahımın biri də artar.

Bundan sonra Lotu Faxı söhbəti bitmiş saydı, rəflərdəkiləri yeşiklərə boşaltmağa başladı.

## -34-
## “Üçlük” Mədinədə şəhərində

Mədinədə qaldıqları birinci günü “üçlük” səmərəli keçirtdi. Hacı Məftunun bələdçiliyi ilə müqəddəs məkanları ziyarət elədilər. Hətta, Məhəmməd Peyğəmbərin (s.a.ə.s) xoşladığı xurma növünün yetişdirildiyi vadiyə də getdilər, bağda xurma dərib yedilər. Bəqi qəbiristanını ziyarət elədilər. Ürək ağrısı ilə İmam Həsə-

nin(ə.s), imam Zeynəl-Abdinin(ə.s), imam Baqirin(ə.s) və imam Sadiqin(ə.s) uyuduğu, yüzlərlə başqa qəbirdən seçilməyən qəbirlərinə uzaqdan baxdılar. Səudiyyə polisi dəmir barmaqlıqdan o yana heç kimi buraxmırdı.

Namazlarını, şəhərin kəhrəba rənginə bürünmüş, soba kimi isti küçələrindən keçib mehmanxanadan çox da uzaq olmayan Peyğəmbər məscidində qılırdılar. Şərtləşmişdilər ki, əgər sıxlıq yaransa, bir-birindən ayrı düşsələr Bəqi qəbiristanına baxan çıxışda görüşsünlər.

Onlar nəhəng məscidin xoş sərinliyində on minlərlə müsəlmanın nizamlı ibadətindən vəcdə gələrək, heyranlığını gizlətmədən təkrar-təkrar salavat çevirir, müqəddəs məkanla təmasdan ürəkləri qürurla dolurdu. Yaraşıqlı qızıl şəbəkənin lap yaxınlığında yer tapana qədər addım-addım irəlilədilər. Narahat elədikləri, dilini bilmədikləri dindarlardan əllərini sinələrinə qoymaqla üzr istəyirdilər, sonra namaza başlayırdılar.

Məhəmməd Peyğəmbərin (s.ə.a.s) müqəddəs qəbri qızıl şəbəkənin arxasında idi. Salnaməçilər deyirlər ki, həzrəti Məhəmməd xanımı həzrəti Aişənin evində, keçindiyi yatağın yerində dəfn olunmuşdu. Məscid qəbrin üstündə sonradan tikilmişdi. Sonuncu peyğəmbərin sağında və solunda xəlifə Əbu-Bəkrlə xəlifə Ömər dəfn olunmuşdu. Hacı Məftun dostlarına məsləhət gördü ki, salavat çevirərkən nəzərlərini şəbəkənin ortasına, Məhəmməd Peyğəmbərin (s.ə.s) qəbri olan yerə diksinlər: “Qoy, salamlarınızın kəramətindən Həzrəti Əlinin

(ə) haqqını tapdalayanların ruhu şadlanmasın", – deyə öyrədirdi.

Balaca yoldaşlarından geri qalmırdı, onların hərəkətini fikirləşmədən təkrarlayırdı, amma ziyarətdən vəcdə gəldiyini demək olmazdı. Özünü adi turist kimi aparır, laqeyd halda dolanırdı. Bu, hər iki yoldaşının təəccübünə səbəb olurdu.

Balacanın bir yerdə oturmaqla da arası yox idi. Telefon qulağının dibində tez-tez şəhərə gəzməyə çıxırdı. Özü ilə gəzintiyə yoldaşlarını dəvət eləmirdi, həmişə tək gedirdi.

Hacı Məftun bir dəfə onu izləmək fikrinə düşdü. Bunu Mirzəmməd kişidən gizlətmədi:

– Görək kiminlə oturub-durur... Otaq yoldaşımızı tanımalıyıq, ya yox? – deyə özünə bəraət axtardı, sonra sözünü dəyişdi. – Gedək ikiqibləli məscidi ziyarət edək. Bu, dünyada tayı-bərabari olmayan bir ibadətxanadı.

## -35-
## Cavan və qoca möminlər bir arada

İkiqibləli məscid Peyğəmbər məscidindən beş kilometr aralı olsa da, hava bürkü olduğundan yolda xeyli tər tökdülər. İbadətgahın həyətində dəstələrindən olan bir neçə cavanı gördülər. Zakirlə Muxtar aralarında idi. Ziyarət namazını bir yerdə qıldılar.

İslamın ilk dövrlərində müsəlmanlar namaz qılanda üzlərini Qüdsə, Beytül-Müqəddəs məscidinə tərəf çevirirdilər. Hicrətdən on səkkiz ay keçəndən sonra Məhəmməd Peyğəmbər (s.ə.a.s) məsciddə namaz qılarkən Allah-Təaladan vəhy gəlir: "Bundan sonra üzünü Məscidi-Hərama çevir!" Peyğəmbər üzünü Məkkəyə çevirib namazının ardını qılır.

Hacı Məftun namazdan sonra cavanlara vəcdlə:

– İslamın bünövrəsi qoyulmuş bir məkandayıq! Belə xoşbəxtlik hər adama qismət olmur... – dedi.

Mirzəmməd kişi istidən ləhləyirdi, hacı Məftunun qulağına pıçıldadı:

– Halım yaxşı deyil, hacı, – deyə mızıldandı.

Hacı Məftun əl-ayağa düşdü:

– Bu saat, qardaş, gedirik! – Cavanlara döndü. – Biz yorulmuşuq, mehmanxanaya qayıdırıq. Bəs sizin fikriniz nədir?

Zakir cavanlarla gözləşib:

– Siz gedin, biz şəhəri gəzmək fikrindəyik, – dedi.

Muxtar kefi köklüklə:

– Bizim marşrutumuz başqadı, ağsaqqal, – dedi.

Aralanacaqdılar ki, Zakir hacıdan soruşdu:

– Sizin otaq yoldaşınız Balaca kişi görünmür...

Hacı Məftun könülsüz gülümsədi:

– Onun da öz marşrutu var...

## -36-
## Hacı Məftunun həyatı

Məftun təbiətcə sadəlövh adam idi, uşaq vaxtı bayır-bacada, məktəbdə gülüş hədəfi idi, amma ibadətlə məşğul olması bu eybini örtürdü. Sovet hökuməti dağılandan sonra işlədiyi zavodda öyrəndiyi Məftunun karına gəldi. Şəhərin müxtəlif yerlərində açdığı tənəkə sexləri bəhrəsini verdi. Gözə çarpmayan biznesi karlı gəlir gətirirdi. Var-dövləti artdıqca hörməti də artırdı. Həcc ziyarətindən sonra izzət sahibi oldu, amma böyüməkdə olan kəndin bir məhəlləsinə çevrilmiş Kombinatdan ayrılmadı. Əlbəttə, əvvəlki kimi klubun böyründəki daxmada yox, ətrafı bağlı-bağatlı imarətdə yaşayırdı.

Uşaqlıqda Məftunun kitablara həvəsini Fəridə arvad bəyənmirdi. "Ay axmaq, oxumaq nədi, yaxşı bir sənət sahibi ol, pul qazan, adam arasına çıx! Nədi, mənim dilənçi maaşımla yaşamaqdan xoşun gəlir?" Söyməyinə söyürdü, danlamağına danlayırdı, amma axırıncı tikəsini ona yedirirdi. Özü əsgər şinelindən tikilmiş, qara boyağa salınmış paltarda gəzirdi, oğlunu isə yaxşı geyindirirdi.

Məftun həyatını ona sərf edən qadını başa düşmürdü, amma sevirdi. Bir neçə il qabaq öyrənmişdi ki, Fəridə əsl anası deyil, anasının rəfiqəsidir. Onu doğan qadının canı hələ də həbsxanalarda çürüyür, oğlunu on illərlə yada salmırdı.

Qırx yaşından sonra evlənmək fikrinə düşdü. Onun xoş gününə sevinən Fəridənin məsləhəti ilə kənddəki köhnə qonşularının dul qızını, Şərqiyyəni aldı. Bu gəlinin üstündə müharibədə şəhid olmuş polkovnik Sərtibin adı qaldığından Hacı Məftun dostu Hacı Sarvanın yanına getdi, bu izdivaca xeyir-dua istədi. Buna heç bir ehtiyac yox idi, sadəcə Şərqiyyənin şərtlərindən biri idi. Hacı Sarvan uşaqlıq dostunun sadəlövhlüyünə güldü, zarafata salıb bir az onu doladı, sonra razılığın verdi. Beləcənə, Məftun ailə sahibi oldu, amma arzusu gözündə qaldı. Neçə il idi ki, Allah-Təalanın ətəyindən yapışmışdı. Bütün iltimaslarının məğzi övlad idi, başqa istəyi yox idi. Sadəlövh olsa da arzularını heç kimlə bölüşmürdü, daxilində saxlayırdı.

## -37-
## Hacı Sarvan və mürdəşir Gülü

Ziyarətin birinci günü mənalı keçdi. Mədinə şəhərindəki bütün müqəddəs məkanları başa çıxan dəstə üzvləri mehmanxanaya yorğun qayıtdılar. Elə Hacı Sarvanın da canında bir əzginlik vardı, dincəlmək istəyirdi, amma macal tapmadı. Axşam Mədinəyə Azərbaycandan daha bir təyyarə zəvvar gəlmişdi. Adamların bir qismini onların qaldıqları mehmanxanaya yerləşdirdilər, qayğıları da Hacı Sarvanın boynuna qoyulmuşdu. Şam vaxtı

ötmüşdü. O, yeməkxana müdirini tapdı, şirin dilini işə saldı, bağlı qapıları açdırmağa müvəffəq oldu, dəstənin yeni üzvlərini yedirtdi. Sonra növbətçi ilə birlikdə baş sındırdı, təzə gələn zəvvarları otaqlara paylaşdırdılar, anbardan açılıb-bağlanan çarpayılar gətirdib yataq problemini də yoluna qoydular.

Asudəlik yaranan kimi geniş vestibülə düşdü. İşləmək üçün ən yararlı yer bura idi. Vestibüldə peyk gücləndiricisi olduğundan fasiləsiz mobil rabitə vardı. Yerini rahatlayıb idarə ilə əlaqə saxladı, səfərin birinci günü, himayəsindəki əlavə zəvvarlar barəsində növbətçiyə məlumat verdi, amma telefonu qapamadı, boynundan qaytanla asılmış eynəyini gözünə taxdı, internet-xəbərlərlə tanış oldu. Fikri dağınıq idi, gözləri yol çəkirdi, həyatı kino lenti kimi gözünün qabağında fırlanırdı, olub-keçənlər ona rahatlıq vermirdi.

Köməkçisi əlində siyahı ilə gəldi. Otaqları bir-bir yoxladığını bildirdi:

– Balacadan, taksi sürücüsü Muxtardan, bir də Hacı Məftundan başqa hamı yerindədir, – dedi. – Təzə gələnlərdənsə Qaflan adında birisi otağında yoxdu.

Dəstəbaşı məşğuliyyətindən ayrıldı, köməkçisinə təşəkkür elədi:

– Allah canına dəyməsin, Gülü qonşu, sən olmasaydın mən neyləyərdim? Hər işimə yarıyırsan! – Onu tərifləyib zarafat elədi. – Otur, dincəl. Görək azmışlarımız haçan şəhərdən qayıdırlar. On ikiyə hələ çox var...

Gülü gözlənilmədən deyindi:

– Vallah, hacı, zəvvarların içində elə azğınlar var ki, Bakıda Allaha bəndəlik eləmirlər, amma Allahın evinin ziyarətinə gəliblər.

– Hər bir insanın içində bir Allahdan qorxu xofu var, – deyə Hacı Sarvan başını işindən ayırmadan dilləndi.

Gülü fikrini tamamlamağa çalışdı:

– Mənə elə gəlir ki...

Hacı Sarvan məşğuliyyətinə qayıtmaq üçün başdansovdu söz atdı:

– Elə bilirdim səni ölülər daha çox maraqlandırır, nəinki dirilər.

Gülü söz altında qalmadı:

– Mən gələcək müştərilərimi tanımalıyam, ya yox? – Soruşdu.

Hacı köməkçisinin sərrast sözünə ürəkdən güldü:

– Yaman deyirsən, ha! – dedi, sonra eynəyi gözündən çıxarıb dalğın halda boylandı. – Sən işində ol, mən bir az dincəlim, yaman yorğunam.

## -38-
## Hacı Sarvanın həyatı

Qardaşı Sərtiblə aralarında bir il fərq vardı, amma Sarvan çox cılız idi, başı heç qardaşının sinəsinə çatmırdı. Allah-Təala onu bir boy-buxundan yox, hər şeydən

binəsib yaratmışdı, Sərtibə isə can-cüssə, güc-qüvvət, yar-yaraşıq, ağıl vermişdi. Qardaşı ürəyi həlim idi, həmişə Sarvana çöldə-bayırda dayaq dururdu, qoymurdu kimsə xətrinə dəysin.

Dörd bacısının heç biri Sarvanı sevmirdi, ondan uzaq qaçırdı. Bürüşük üzü, cılız görkəmi, ölüvaylığı xoşa gələn bir xüsusiyyət deyildi. Sarvan da borclu qalmırdı, ailə üzvləri ilə laqeyd davranırdı.

Evləri kəndin kənarında, kiçik bir hərbi şəhərciyin yanında yerləşirdi. Balaca Sarvan hasara dırmaşıb təlim keçən əsgərlərə tamaşa eləməkdən yorulmurdu. Böyüyüb hərbçi olmaq arzusunda idi, amma arzusu gözündə qaldı.

Atası qardaşını Cəmşid Naxçıvanski adına hərbi məktəbə göndərəndə Sarvan göz yaşı tökdü, yalvardı:

– Dədə, məni qaqaşımdan ayırma, mən onsuz neyləyərəm! – dedi.

Atası sərt adam idi. Göz yaşı tökən Sarvanı ovutmadı, əksinə, acıqlandı:

– Kiri, səfeh, bu can-cəsədlə səndən döyüşçü çıxmaz, ayaq alında qalarsan, – dedi, sonra fikrini sakit izah eləməyə çalışdı. – Bala, sən elə bir sənətin qulpundan yapışmalısan ki, qüvvən daxilində olsun. Sabahdan molla Şəhriyarın yanına gedərsən, "Quranı" öyrənərsən. Mollalıq pis sənət deyil. Məclislərdə aşdan-xuruşdan yeyərsən, bəlkə, gələcəkdə can-cəsədə gəldin.

Sarvan atasının sözündən çıxmağa cürət eləmədi, taleyi ilə barışmalı oldu.

## -39-
## Sarvan molla yanında

Mollanın evi kənd məscidinin arxasında idi. Dörd-beş şagirdi vardı. Hökumətin qorxusundan tədris gizli keçirilirdi. Sarvan Məftun adında bir uşaqla dostlaşdı. O, kənddən bir az aralı Kombinat adlanan kiçik qəsəbədə yaşayırdı. Piyada gedib-gəlirdi. Deyəsən, bir az səy idi. Yolda şüşə qab, butulka rastına düşəndə, yanından sakit keçməzdi, mütləq oturub sındırmalı idi. Qəribəliyinə baxmayaraq mehriban yoldaş idi. Molla məktəbini bitirəndən sonra Sarvana dedi:

– Ruhaniləri tüfeyli sayırlar, mən mollalıq eləmək fikrində deyiləm, gedib zavodda işləyəcəyəm. – dedi. – Amma sənin yaxşı avazın var, sən mütləq mollalığın dalınca getməlisən.

Doğurdan da, Sarvanın gözəl səsi vardı. Məclislərə ayaq açandan sonra tezliklə tanınmağa başladı, hər yerə onu dəvət edirdilər. Aşura günləri mərsiyələrindən doymaq olmurdu.

Atası haqlı çıxdı, məclislərdə yediyi aş-xuruşdan rəng-rufu üstünə gəldi, üzünün qırışları sığallandı, hətta, boyu da artdı. Bu illər ərzində universitetin ilahiyyat fakültəsini bitirdi, islam dini barəsində bir kitab da yazdı. Ruhani idarəsində kiçik bir vəzifəsi vardı, amma evinin dolanışığı yas məclislərindən gəlirdi.

Evlənəndən sonra ata mülkündə qalmadı, kənddən köçdü. Şəhər şosesinin kənarında kiçik bir ev tikdi. Arvadı da özü kimi dindar idi. Nə qədər sağ idi, can deyib, can eşidirdilər, amma övladları olmadı.

Atası ilə münasibəti elə uşaqlıqdan soyuq idi, elə soyuq da qaldı. Bir-birini arayıb-axtarmırdılar. Bacıları onu dindirib-danışdırmırdılar.

Həsədini çəkdiyi hərbçi qardaşı Sərtib artıq Sovet Ordusunun polkovniki idi, ailənin fəxarət yeri idi. Atası hərbçi oğlunun başına and içirdi. Sərtib Bakıya məzuniyyətə gələndə qohum-əqrəba polkovniki padşah kimi qarşılayırdı, qonaq aparmaq üçün növbəyə düzülürdülər

Qulluq illəri Rusiyada keçdiyindən Sərtib ruslaşmışdı, evlənmələrinin sayını itirmişdi, amma xidmət yerini Bakıya dəyişəndə Vətənə arvadsız qayıtmışdı. Atasının təkidi ilə qonşularının on səkkiz yaşlı qızı Şərqiyyə ilə nikaha girdi. Amma bu izdivac uzun çəkmədi. Doxsanıncı illərin qeyli-qalı başladı. Polkovnik könüllü batalyonların tərkibində döyüşlərə qatıldı. Çox tələbkar komandir idi. Ermənilərlə davanın qızğın vaxtı bir çovutma güllənin qurbanı oldu. Sərtibin ölümü ahıl atasının belini əydi, çox keçmədi ki, xiffətdən başını yerə qoydu.

Qardaşının ölümündə Sarvan özünü, illərlə içini gəmirən həsəd hissini günahkar sayırdı. Bu bəladan canını qurtara bilmirdi. Həsədin qəlbinə vurduğu damğanı iyirmi il idi dərgahda elədiyi tövbələr də silmirdi. Hər

gəlişində Kəəbə evinin divarları önündə saatlarla diz çökürdü, Allah-Təala ilə ixtilat edirdi, yalvarırdı, göz yaşı tökürdü, yenə kömək eləmirdi, qəlbi yumşalmırdı ki, yumşalmırdı. Bəlkə, Allah-Təala onun iltimaslarını eşitmək, tövbələrini qəbul eləmək istəmirdi? Bilmək olmurdu.

## -40-
## Qaflan

Qaflan növbətçidən açarı aldı, amma otağına qalxmadı, çamadanı-filanı yox idi, çantası çiynində mehmanxanadan bir tin aralı onu gözləyən Balacaya qoşuldu, yaxınlıqdakı qəhvəxanaya getdilər. Özünə qəhvə, soyuq su sifariş verdi. Kor-kobud bir adamın ingiliscə sərbəst danışmağını gözləməyən Balaca:

– Adam olmusan ha, Qaflan! – Heyrətini bildirdi. – Agentliyə işə düzələndə ət kötüyündən fərqlənmirdin.

Əslində, Qaflan özünü təqdim elədiyi kimi küt deyildi, qanmazlığı, bəlkə də, bir qılaf idi. Balacanın cavabını bir atalar sözü ilə verdi:

– Atı atın yanına bağlayanda həmrəng olmasa da, həmxasiyyət olur. Hamı necə, mən də elə, – dedi və gülümsədi. – Çox vacib bir ismarışla gəlmişəm. "Turşulu" zonun oğrubaşıları bizim rəisin ölümünə fitva veriblər. Hökmü yerinə yetirmək üçün muzdlu qatil tutublar.

Balaca qəhvədən vaz keçdi, sərinləşdiricilərin siyahısına baxdı, sifariş verəndən sonra boynunun ardını qaşıdı:

– Xəbər səhihdirmi? – Soruşdu.

– Qırğının məlumatıdı, – deyə Qaflan qısaca cavab verdi.

Balaca Qırğını, Agentliyin köhnə əməkdaşını tanıyırdı, bilirdi ki, çiy məlumatı üzə çıxaran adam deyil.

– Yəqin milyonçu Sərhədin milyonlarının məhəbbəti cinayət aləminə dinclik vermir, hə? – Soruşdu.

– Daha sən hər şeyi bilirsən də. – Qaflan qəhvə fincanını bir qurtuma boşaltdı. – Rəis tapşırdı ki, qoy, Balaca özünü qorusun.

Balacanın da sifarişi gəldi. Qaflan maraqla şüşənin üstünə baxıb gülümsədi:

– Bu sən xoşladığına oxşamır, axı! – Dedi. – Bircə adı pivədi.

Balaca da güldü:

– Bir nəfər məni güdür, ona dərs verəcəyəm... – deyə şüşələrdən birini açıb birnəfəsə içdi, qalan butulkaları xörəkpaylayanın gətirdiyi polietilen torbaya yığıb qalxdı. – Bizi bir yerdə görməsələr yaxşıdı.

Qaflanla xudahafizləşdi, qəhvəxananı tərk etdi.

## -41-
## Gecikənlər və ya "hacı" pivəsi

Gecikənlərdən ilk sürücü Muxtar gəldi. Salamlaşıb keçəcəkdi, hacının sorğulu baxışlarını görüb dayandı. Gecikməyini izah eləməli oldu:

– Azmışdım, hacı. Piyada gəzmək fikrinə düşmüşdüm, yolu itirdim, – dedi. – Bir taksiyə qolbağımı göstərdim, mindirib gətirdi mehmanxanaya.

Muxtardan sonra Hacı Məftun mehmanxananın girişində göründü. Hacı Sarvan telefonu bağladı, zarafatla:

– Şərqiyyə xanımın gözündən iraq. – Dedi. – Gecənin bu vaxtı olmuya ərəb qızları ilə eşqbazlıqdan gəlirsən, hacı can?

Məftunun zarafatlıq halı yox idi. Dəstəbaşının yanında oturdu, astadan:

– Balacanı güdürdüm... – dedi, əsəbi halda söyləndi. – Belə şey olar, hacı? Balaca qəhvəxanada oturub pivə içir. Tək deyildi, bizimkilərdən bir nəfər də yanında idi. Deyən lazımdı, ay əbləh, içki aludəsisən, həcdə nə ölümün var? Otur Bakıdakı xarabanda, iç də!

Səfərlərdə hər cür fövqəladə hadisəyə hazır olan Hacı Sarvan əl-ayağa düşmədi. Əsib-coşan məktəb yoldaşına acıqlandı:

– Kiri, hacı, pivə nədir? Bilmirsən ki, Səudiyyə Ərəbistanının heç bir şəhərində spirtli içki satılmır? Yox,

yox, otaq yoldaşınızın kafedə pivə içdiyinə heç cür inana bilmirəm, – dedi.

Bu vaxt Balaca vestibüldə göründü. Hacı Sarvanla Hacı Məftuna yaxınlaşdı, soyuq bir gülüşlə əlindəki polietilen torbanı yellətdi:

– Hacılar, "hacı" pivəsinin yerini tapmışam, buyurun. Alkoqolsuzdu, əla sərinləşdiricidi, – dedi, sonra qondarma bir incikliklə əlavə elədi. – Hacı Məftun, güdükçülük sənin işin deyil, daha dalımca düşmə, bir verstdən özünü büruzə verirsən.

Balaca cavab gözləmədi, başını aşağı salmış Hacı Məftuna baxmadan dəstəbaşı ilə sağollaşdı, əlindəki polietilen torbanı yellədə-yellədə liftə tərəf getdi.

Hacı Sarvan tüllablıq yoldaşının naqolay vəziyyətə düşməyinə gülümsəyib xüsusi bir maraqla Balacanın dalınca uzun-uzadı baxdı. "Xatalı adama oxşayır. – Fikirləşdi. – Görəsən nəçidi?"

## -42-
## Mürdəşir Gülü və Balaca

Camaşırxana axşam saat altıdan on ikiyə qədər zəvvarların ixtiyarına verilirdi. Hamı öz tərli əyin-başını damdakı paltaryuyanlarda yaxalayır, zivələrə sərirdi. Qızmar Günəşin altında camaşırın quruması çox çəkmirdi.Hacı Sarvanın dəstəsi bu axşam Mədinədən çıxa-

caqdı. Hamını əyin-baş qayğısı götürmüşdü. Camaşırxanada növbə düzülmüşdü.

Gülü xeyli vaxt idi dəhlizdə narahat halda gəzişirdi. Bir azdan Mirzəmmədlə Hacı Məftun əli torbalı keçdilər. Onların dalınca Balaca qapıda göründü. Onun da bir əlində yekə torba, o bir əlində də telefon vardı. Gülü uzaqdan salamlaşıb:

– Balaca müəllim, mən də camaşırxanaya gedirəm, ver, torbanı götürüm, telefonla rahat danış, – dedi.

– Sənə zəhmət olar, molla... – Balaca boyun qaçırtmaq istədi.

– Nə zəhmət, borcumuzdu. – Gülü torbanı onun əlindən alanda xəbərdar elədi. – Yuxarıda növbə uzundu, ha. Deyəsən, paltaryuyan maşınların hamısı işləmir.

Balaca tərəddüdlə:

– Mənim bir saatlıq təcili işim vardı. Heç cür gecikdirə bilmərəm, – dedi. – Qoy paltar yumaq sonraya qalsın.

Gülü təklif elədi:

– Balaca müəllim, ayıb deyil, mən sizin camaşırı da maşına atıb yuyaram, ziVəyə sərərəm, işinizi qurtarandan sonra gedib yığarsız, – dedi.

– Təşəkkür, Gülü qardaş, – deyə Balaca daha müqavimət göstərmədi, minnətdarlıqla gülümsəyib telefon qulağında danışa-danışa uzaqlaşdı.

## -43-
## Mirzəmmədin iltiması

Bu gün Mədinə şəhərini tərk eləməli idilər. Mirzəmməd kişi yoldaşlarına tək qalıb tövbə eləmək istədiyini söylədi.

– Məscidin Bəqi qəbiristanına açılan çıxışında görüşərik, – dedi, salonun dərinliyinə tərəf irəlilədi.

Daxilən Sərhədin ölümündə özünü günahkar sayırdı. Qəlbindəki səs deyirdi: "Dilə tutmalı idin, yalvarmalı idin, yolundan döndərməli idin". Bu səs ona əzab verirdi, susdurmaq mümkün deyildi. O, Məhəmməd Peyğəmbərin (s.ə.a.s) qəbrinin tuşunda ibadətə dayandı: "İlahi, bu müqəddəs zatı-pakə xatir günahlarımı bağışla!" – dedi və səcdəyə getdi. Uzun müddət alnını fərşdən qaldırmadı.

Keçən il baş verənləri təkrar xatırladıqca için-için yanırdı.

## -44-
## Sərhədin arzusu

Mirzəmməd, qurama yorğan üzünə oxşayan ailəsini arada bir yerə toplamağa müvəffəq olurdu. Həmişə Sərhədi süfrənin başında oturdurdu. Onlar köhnələri unudub barışmışdılar. İndi aralarındakı mehribanlığa doğma ata-oğul da həsəd aparardı.

Sərhəd milyonçu olsa da, məsləhətə həmişə Mirzəmmədin yanına gəlirdi. Onun fikrini öyrənməmiş addım atmazdı. İndi arzusunu bildirdi:

– Deputat olmaq fikrindəyəm, – dedi. – Bu il namizədliyimi irəli sürəcəyəm.

Mirzəmməd artıq rəyasətə can atan Sərhədi dilə tutmağa çalışdı:

– Oğlum, hara tələsirsən? Bu il olmasın, beş il sonra olsun, hələ cavansan, nə vacib düşüb, axı? – deyə Bakının qüdrətli sərmayədarını inandırmağa çalışdı. – Yadında saxla, səlahiyyət sahiblərinin razılığını almadan bir addım da atmaq olmaz, əks halda, uduzarsan.

– Mənə xalqın razılığı kifayətdir, – deyə Sərhəd etiraz elədi. – Heç kimin bığının altından keçən deyiləm.

Ailə toplantısının əsas iştirakçılarında biri, əlbəttə, Məhər idi. Bu gün hallı olduğundan açıq-aşkar Sərhədin arzusuna güldü:

– Hırr! Atam, qaqaşımın milyonları onu dingildədir, – dedi.

– Sən mumla! – Sərhəd qardaşına məsləhət gördü.

– Ay əbləh, necə mumlayım? Hamımız sənin kölgəndə yaşayırıq. – Məhərin sərxoş hırıltısı otağı başına aldı. – Sənə bir şey olsa, biz batarıq, axı. Niyə özünü də, bizi də bəlaya salırsan?

– Camaatın mənafeyindən söhbət gedir, ay axmaq, sən isə ancaq özünü düşünürsən, – deyə Sərhəd qızışdı.

– Biz də camaatdan biri deyilikmi? – Məhər etiraz elədi.

Sərhəd onun məntiqi qarşısında geri çəkilmədi:

– Bunun dilinə bax da! O boyda vəzifə tapşırmışam buna, veyil-veyil gəzir, – deyə neçə vaxtın narazılığını onun üzünə vurdu. – Bütün günü sərxoşluq edir.

Məhər şirkətin mühafizə rəisi idi, amma vəzifəsinə barmaqarası baxırdı. Sərhədin verdiyi pulları sağa-sola xərcləməkdən zövq alırdı. Kənddə baş tutan kef məclislərinin birini də əldən buraxmırdı. Qardaşı haqlı idi, o, günahkar halda burnunu çəkdi:

– Kiçik qardaşının kef çəkməyi, gör, necə bunun gözünə girir ey, – deyə mızıldandı, sonra tənbəl-tənbəl qalxdı. – Gedim bir az dincəlim, qalsam dalaşarıq.

– Hə, yeri, get, yat, sərxoşluğun keçsin, bir azdan gedən yerimiz var. – Sərhəd qardaşının otaqdan çıxmağını gözlədi, sonra Mirzəmmədə xitabən. – Daha beş il dözməyə halım yoxdu, atam! Camaat bizdən hərəkət gözləyir! Gör, kəndimiz necə bərbad gündədir?

– Sən üstündəki məhkumluğu unutma, bala, – deyə Mirzəmməd onu inandırmağa çalışdı, sonra divanda oturub onlara qulaq asan Kəmaləyə buyurdu. – Ay xanım, bizə bir çay ver.

Kəmalə sinninə görə çox cavan görünürdü, geyinib-kecindiyindən çilçırağın gur işığında lap təzə gəlinə oxşayırdı. Qalxdı:

– Baş üstə! – deyə dərhal buyruğu yerinə yetirməyə tələsdi. Mətbəxin qapısında çevrildi, Sərhədə xitabən, – Mirzəmmədə qulaq as, nə deyirsə, sənin xeyrinə deyir.

Sərhəd zarafatla əlini gicgahına apardı:

– Baş üstə, bibi, – dedi.

Onun üzüyolalığı heç birini aldatmadı, hər ikisi bilirdi ki, Sərhədi fikrindən daşındırmaq mahal işdir. Mirzəmməd masanın o biri başında oturmuş oğulluğuna baxmadan bir də cəhd elədi:

– Yadında saxla, oğlum, rəyasətə gedən yollar bataqlıqdan keçir, ehtiyatlı ol, – dedi.

Sərhəd onun ehtiyatkarlığını bəyənmədi:

– Atam, qorxmağına dəyməz! Gör, nə qədər tərəfdarım var! Kəndin yarısı mənim hesabıma çörək qazanır, evinə azuqə aparır! Zavodlarımın, fabriklərimin, ticarət şirkətlərimin qabağında kim dayana bilər? Seçkiyə bir ay qalmış adamlarım ev-ev, məhəllə-məhəllə gəzəcək, hamını təşviq edəcək. Söz keçməyən yerdə pullarım danışacaq. Kisənin başını açmışam, – deyə güldü. – Rəyasət şirin şeydi. Dadsaydın məni çəkindirməzdin...

Mirzəmməd istehza:

– Çayçılığıma baxma! Mənə də böyük vəzifə təklif ediblər, – dedi.

Sərhədin ağzı açıla qaldı:

– Doğurdan? Danış görüm, bu necə oldu? – Soruşdu.

Mirzəmmədin əlinin duzu vardı, yeməkləri həm ucuz, həm də dadlı olurdu. Yaxşı müştəri toplamışdı.

Bakının təlatümlü günlərində Mirzəmməd Meydana qazan-qazan yemək göndərirdi. Əliaçıqlığı ilə məşhurlaşmışdı. Xalq hərəkatının başında dayananlar kəndə gələndə onun çayxanasına düşürdülər. Cəbhə hakimiyyəti ələ alanda Mirzəmmədin xidmətləri yada düşdü. Amma təklif olunan vəzifədən imtina elədi: "Mənim sənətim aşbazlıqdır, məndən icra başçısı çıxmaz".

Sərhəd ürəkdən:

– Lap nahaq imtina eləmisən! – dedi, bibisinin gətirdiyi çayı qabağına çəkdi.

– Hər kəs qandığı işlə məşğul olmalıdı, oğlum. – Mirzəmməd etiraz elədi, çaydan bir qurtum aldı, Kəmaləni tərifədi. – Çay dəmləməkdə lap ustalaşmısan, ha!

Kəmalə gülümsədi, amma bir söz demədi. Sərhəd söhbətin yayınmasına imkan vermədi:

– Atam, ölkədə qanmadığı işlə məşğul olanların sayı bilirsən nə qədərdi? – deyə başını buladı. – Pul hər şeyi həll edir.

– Təəssüf ki, hamını pulla satın almaq olmur, oğlum!

– Səhvin var, – Sərhəd qızğınlıqla dilləndi. – Kəttilərimizin hərəsinə yüz manat versəm oynaya-oynaya mənə səs verəcəklər.

– Seçiciləri nəzərdə tutmuram! – Mirzəmməd onun sözünü kəsdi. – Başda dayananlardan söhbət gedir. Bizim dairədən seçiləcək şəxslərin kimliyini bilirsən, onların dalında dayananları da tanıyırsan!

– Heç onları da satın almaq mənə baha oturmayacaq. Onların zər-zibalı rəyasət kürsülərinə baxma, milyonun ucunu göstərən kimi qabağımda mil dayanacaqlar, – dedi.

Mirzəmməd oğulluğunu çox dilə tutdu, amma inandıra bilmədi.

Bu söhbətdən heç bir ay keçməmişdi ki, Sərhəd namizədliyini qeydiyyatdan keçirtdi. Artıq onun etibar elədiyi adamlar kəndi qapı-qapı gəzir, təşviqat aparırdılar.

Gözlənilmədən aləm bir-birinə qarışdı. Polislər Məhərin, onun tabeliyindəki adamların cibinə nəşə atıb tutdular. Məhkəmələri də uzun çəkmədi, hamısını zona basdılar. Məhərə heç 9B maddəsi də kömək eləmədi, onu da mühafizəçilərin dalınca göndərdilər.

Sərhədin başı üstündə qara buludlar sıxlaşırdı.

## -45-
## Üçlük vida namazında

Mirzəmməd kişi tövbədən sonra bir az yüngülləşdi, şap-şupları qoyulmuş polietilen torbanı götürdü, salavat çevirə-çevirə müqəddəs qəbirdən aralandı.

Yoldaşları ilə sözləşdikləri kimi, məscidin Bəqi qəbiristanına açılan çıxışına doğru irəlilədi. Zəvvar axını onu təyin olunan yerə səhvsiz çatdırdı.

Mirzəmməd kişi çıxışda gözləyən Hacı Məftuna yanaşdı:

– Bağışla, bir az gecikdim! – Üzr istəyib soruşdu. – Bəs, Balaca qardaş hardadı?

Hacı Məftunla meydanı kölgələyən nəhəng çətirin altında dayanmışdı. Turp kimi toppuş sifətini sütuna bərkidilmiş iri sərinkeşə tərəf tutmuşdu. Dözülməz isti kölgədə də adamı pörşələyirdi. Sərinkeşin sıçratdığı su şırnağı isti havada dərhal sərin buxara çevrilir, azacıq da olsa, cana rahatlıq gətirirdi.

Hacı Məftun Balaca ilə elə araları dəydiyi axşam barışmışdı. Hər ikisi səhvini boynuna almışdı. Balaca özü ilə otağa gətirdiyi alkoqolsuz pivə butulkalarını zibil yeşiyinə atmışdı. Aralarında mehribanlıq bərqərar olmuşdu.

Mirzəmmədin sualına başını döndərmədən:

– Nə bilim, Balacanın da sənin kimi qəflətən yoxa çıxmağı var, – dedi, istehza ilə gülümsədi.

Hacı Məftun deyinəndə də üzündəki mehriban ifadə çəkilmirdi. Bu vaxt onlara yaxınlaşan Balaca sual gözləmədən izah elədi:

– Köhnə tanışlarıma rast gəlmişdim! – dedi. – Söhbətə başım qarışdı.

Buna heç biri təəccüblənmədi. Azərbaycandan Məkkəyə, həcc ziyarətinə yollanan zəvvarların hamısı Mədinə şəhərindən keçirdi. Vətəndə illərlə rastlaşmayanların burada üz-üzə gəlməyinin də bir özəlliyi vardı. Heç

şübhəsiz ki, hacıların Qiyamət günündəki yoldaşlarını Allah-Təala özü seçirdi. Başqa cür ola da bilməzdi.

Təbii ki, Balaca tanışlarının kimliyini açıqlamadı, yoldaşlarını tələsdirdi:

– Tez olun, mehmanxanaya gedirik.

Mirzəmməd kişi təəccüblə:

– Elə niyə, Balaca qardaş? – Soruşdu. – Danışmışdıq, axı, Bəqi qəbiristanına gedəcəyik, vida namazı qılacağıq, sonra mehmanxanaya qayıdacağıq.

– Hacı Sarvan zəng eləmişdi! Dedi ki, tez gəlin, avtobuslarımız yaxın saatlarda Mədinədən çıxacaq. – Balaca çiyinlərini çəkdi. – Gedək, hələ pal-paltarımızı da yığmalıyıq.

Balacanın mobil telefonu həmişə açıq idi, baha da olsa, Azərselin rouminq xidmətindən bəhrələnirdi. Xərclərini Agentlik ödədiyindən vecinə deyildi, saatlarla danışırdı. Simiclik eləmirdi, istənilən vaxt telefonu zəng eləmək istəyən otaq yoldaşlarının ixtiyarına verirdi.

Tədbirli Hacı Məftun nə fikirləşdisə, şap-şuplarını çıxarıb üzü Qibləyə dayandı, yoldaşlarına inamla dedi:

– Vida namazını burda da qıla bilərik! – dedi və əllərini irəli uzatdı. – Bəqi qəbiristanında dəfn olunmuş məsumların, imam Həsən(ə), imam Zeynalabidin(ə), imam Baqir(ə), imam Sadiq(ə), Fatimeyi-Zəhra(ə) ruhunun səlamətliyi üçün salavat zikr edirik! Allahum-məsəli ali Muhəmmədin və ali-Muhəmməd!

Sonra Peyğəmbər Məscidinin çıxışından bir az aralı üçü də vida namazına dayandı. Tapdanmaqdan qorxmurdular, bilirdilər ki, namaza dayananları gözü alan zəvvar axını dərhal həmrəyliklə aralanacaq, ibadət əhlinə yer açacaq.

İki rükət namazı qurtarıb salamları deyərkən Mirzəmməd adamların arasında nə gördüsə, quruyub qaldı. Balaca da onun baxdığı tərəfə boylandı:

– Qoca, gedək, xəyala dalmaq vaxtı deyil! – dedi.

Yoldaşları tərəfindən bəzən zarafatla "qoca" çağırılan Mirzəmməd kişi cəld ayağa qalxdı, onu tələsdirən Balacaya:

– Sən mənə "qoca" deyirsən? Hələ, gör, mənə çata bilirsənmi? – dedi və dərhal təəccüb içində qalan dostlarından qaçaraq aralandı, zəvvar axınına qarışdı.

Balaca təəccüblə otaq yoldaşına baxdı:

– Buna nə oldu birdən-birə? – Soruşdu.

Hacı Məftun çiyinlərini çəkdi.

## -46-
## Mirzəmmədlə Məhər

O, yaşına yaraşmayan bir cəldliklə irəliləyir, qabaqda gedən hündürboy, enlikürək, mavi köynəkli kişiyə çatmağa çalışırdı. Gördü çata bilmir, bərkdən çağırdı:

– Ədə, Məhər, dayan.

Məhər deyə səslədiyi kişi dayanmadı, amma hər vitrinin qabağında, qəsdən yubanır, Mirzəmməd özünü yetirəndə yenidən arxaya baxmadan iri addımlarla irəliləyirdi. Mehmanxanaya bir tin qalmış mavi köynəkli kişi kütlənin içində yoxa çıxdı. Mirzəmməd təngnəfəs halda özünü binanın kölgəsinə verib səkidə oturdu. Nəfəsini təzəcə dərmişdi ki, yoldaşları gəlib çıxdılar. Qondarma bir qürurla:

– Hə, kimdi qoca? – Soruşdu.

Hacı Məftun keçib Mirzəmməd kişinin yanında oturdu, qolunu boynuna saldı, zarafat elədi:

– Maşallah, yorğa at kimi gedirdin, ha! – dedi. – Dalınca çatmaq olmurdu!

Balacanın şübhəsi keçmədi, güman ki, Mirzəmməd kişi kiminsə dalınca düşmüşdü, çata bilməmişdi. Nə baş verdiyini aydınlaşdırmağı sonraya saxladı, səbirsizliyini gizlədərək mülayimliklə:

– Qardaşlar, gedək, dəstəbaşı bizi gözləyir, axı! – dedi.

## -47-
## Mirzəmmədin həyatı

Mirzəmməd zillət içində böyümüşdü, anasını heç xatırlamırdı, onu tez itirmişdi. Atası Sülü müharibədən başıhavalı qayıtmışdı. Sovxozdan bir neçə hektar torpaq icarəyə götürmüşdü, əkib-becərirdi. Məhsulun bir

hissəsini sovxoza icarə haqqı kimi təhvil verir, qalanını bazara çıxarır, satıb başını dolandırırdı. Sovxozun malikanəsində bir koma qaraltı eləmişdi, elə burada da Mirzəmmədlə yaşayırdı.

Sülü gözünün qurdunu öldürmək istəyəndə kombinatda işləyən, Abşerona sürgün olunmuş sahibsiz moldavan qadınlarını yanlayırdı. Bununla kifayətlənmir, arada xırlarda, bostanlarda işləyən kəndin dul qadınlarına da qarmaq atırdı. Bu da onun axırına çıxdı. Kənd qadınları sahibsiz deyildi. Bir gün Sülünün meyitini Abşeron suvarma kanalında tapdılar.

On yaşlı Mirzəmmədi ana nənəsi yanına apardı. Qarı Bakının Çəmbərəkənd məhəlləsində yarızirzəmi bir otaqçada tək yaşayırdı. Namaz qılan, ağzı dualı, qıvraq bir qadın idi. Hıqqana-hıqqana "Quran" oxuyurdu, "Yasin" surəsini isə əzbər bilirdi. Avazla oxuyur, Mirzəmməddən də tələb edirdi ki, təkrarlasın. Nəvəsinin tələffüzünü bəyənirdi, həmişə tərifləyirdi. Qarı aldığı cüzi təqaüd olmasa da keçinərdi. Kənddən gilabı adlanan gil gətirdir, rəng qatır, yoğurub qəlibləyir, qurudur, hamamçılara satır, başını dolandırırdı. Mirzəmmədin oxumaqla arası yox idi, nənəsinə gilabı qəlibləməkdə kömək edirdi. Qarı nəvəsindən razı idi, bircə qız-qadına marağını bəyənmirdi. "Ay sənin əkəninin hərçi-betərini! Oxşamışlarına oxşadın? – Söyürdü. – Bir də xalxın arvad-uşağına başını qaldırıb baxsan gözünü tökərəm".

Mirzəmməd pis uşaq deyildi. Səhər-səhər nənəsi ilə

namaza durur, oruc tuturdu. Bir qıçı o biri qıçından azca qısa olduğundan əsgər aparmadılar. Nənəsinin xahişi ilə Mirzəmmədi yaxındakı mağazaya qarovulçu götürdülər.

Bir gün milislər gəldilər, növbədən sonra dincələn Mirzəmmədi qandallayıb apardılar. Keşik çəkdiyi mağaza yarılmışdı. Oğruları tuta bilmədilər, amma Mirzəmmədin oğrularla əlbir olduğunu asanlıqla sübut elədilər, yeddi il cəza kəsdilər. Maymaqlığına görə həbsxanada da işinin üstünə iş gəldi. Türmədən çıxanda qırxa yaxın yaşı vardı, saçı-saqqalı ağarmışdı. Canıyanan nənəsi dünyadan köçmüşdü, artıq Çəmbərəkənd qəbiristanında yatırdı. Bir qədər götür-qoydan sonra nənəsindən miras qalmış "Quranı" dəsmala büküb qoltuğuna vurdu, mənzilinin qapısını qıfılladı, özünü dədə-baba kəndlərinə verdi.

## -48-
## Mirzəmmədin çayçılığı

Ağsaqqalın-qarasaqqalın köməyi ilə "raypo"nun kənddəki çayxanasına işə düzəldi. Qapıları çoxdan qıfıllı olduğundan köşk yaman gündə idi. İçəridə düz-əməlli heç nə yox idi, samovarın böyrü batıq, masa-kürsüsü sınıq-salxaq, stəkan-nəlbəki qırıq, bir sözlə, sıfırdan başlamaq lazım idi.

Bir neçə aya Mirzəmməd çayxananı qaydaya saldı, yeməkxanaya çevirdi. Gecə-gündüzü burada keçdi, əlinə qəpik-quruş gəldi, maddiyyəti düzəldi.

Artıq tək çatdırmırdı, ona xörəkpaylayan, aşbaz lazım idi. Hara baxırdın arvad səliqəsi tələb olunurdu.

Mirzəmməd rayondan şəhərə gəlmiş Kəmalə adında bir gəlini çayxanasına aşbaz götürdü. Qadının himayəsində iki uşaq vardı. Dediyinə görə, qəzada ölmüş qardaşının oğlanlarıdı. Böyüyünün adı Sərhəd, kiçiyininki isə Sərham idi, amma yaxınları onu Məhər çağırırdı. Qalmağa yerləri yox idi. Mirzəmməd ev tapana qədər onlara çayxananın arxasındakı əşya anbarında qalmağa izn verdi.

Gəlini həyat necə sıxmışdısa üzü kösöv kimi qaralmışdı. İş tapdığına sevinir, başını qaldırmadan çalışır, istirahət nə olduğunu bilmirdi. Yöndəmsiz geyinirdi, başına doladığı köhnə çarğatın altından ancaq gözləri görünürdü. Altı yaşlı Məhərin bir az dəlisovluğu vardı, amma ilk gündən çayçıya isinişmişdi, buyruqlarını həvəslə yerinə yetirirdi, on yaşlı qardaşı Sərhəd isə qaraqabaq idi, söz eşitmirdi.

Çayçının uşaqlara quşu qonmuşdu. Onları balaları kimi istəyirdi. Bildiklərini öyrətməyə çalışır, qayğılarına qalırdı. Təşviq edirdi ki, namaz qılsınlar, ibadət eləsinlər. Axşamlar bir yerə yığışanda onlara “Yasin” surəsini əzbərlətdirməyə çalışırdı.

Oğlanlar bir-biri ilə yola getmirdilər, elə hey deyişib-dalaşırdılar. Məhər kiçik də olsa, güclü idi, bəzən Sərhədi altına basıb döyürdü. Qardaşlar bir məsələdə həmrəy idilər, Kəmaləni Mirzəmmədə qısqanırdılar. Qadını mətbəxdə tək qoymurdular, həmişə biri yanında keşik çəkirdi.

Sərhəd zehinli olsa da, oxumurdu, bir ayağı küçədə idi, şər-şəbədə əməllərə həvəsi vardı. "Sovxozdan" məktəbə gələn uşaqların gününü qara eləmişdi. Bir dəfə Mirzəmmədi direktorun yanına çağırdılar. Demə, sovxozdan Fəridə adında bir qadın şikayətə gəlibmiş, Sərhəd onun yetimlərini incidirmiş. Amma uşaq evdə Mirzəmmədin danlağını eyninə almadı. Üzünə qayıtdı: "Sən kimsən ki, mənə ağıl verirsən! – dedi. – O bic-vələdizinaların anasını ağladacağam".

Bu uşaqdan xəta əskik deyildi. Heç bir il keçmədi ki, qələmlə şagirdlərdən birinin gözünü tökdü. Onu uşaq kaloniyasına göndərdilər. Bəlkə elə oralarda da canı çürüyəcəkdi, Mirzəmmədin hər gün göz yaşı tökən Kəmaləyə yazığı gəldi, beş-on manat xərclədi, bir ildən sonra Sərhədi kaloniyadan çıxartdı.

On iki yaşlı Məhərin dünya-aləm vecinə deyildi, yaşından böyük görünürdü. Yeməklə də arası saz idi, doymaq bilmirdi, daşdan yumşaq nə versən ötürürdü. Mirzəmmədin buyruqlarını həvəslə yerinə yetirir, onu: "Atam!" – deyə çağırırdı. Elə çayxana həndəvərində fırlanırdı, məktəbə-zada getmirdi. Əsəbiləşəndə bir az də-

liliyi tuturdu, hərdən qızışıb özündən çıxırdı, amma lap zırrama deyildi, tez soyuyurdu.

Sərhəd isə ortaboylu idi, pişik cəldliyi vardı. Bibisini Mirzəmmədə bərk qısqanırdı, çayçının mətbəxə girib-çıxmağına darılırdı.

## -49-
## Mirzəmmədin sevdası

Mirzəmmədin əliaçıqlığı sayəsində kimsəsiz ailənin dolanışığı düzəldi. Yemək bolluğuna düşmüş Məhər yekəlib kələ boyda olmuşdu. O, özünü böyük kimi aparır, küçədə-bayırda Sərhədə qahmar çıxır, acıdil qardaşını heç kimin ayağına vermirdi. Bir dəfə Məhər əndazəni aşdı, uşaqlardan birinin başın partlatdı. İş milisə düşdü. Xahiş-minnət kömək eləmədi, xəsarət alan uşağın ailəsi şikayətini geri götürmədi. Mirzəmməd tanış-bilişin vasitəçiliyi ilə oğlanı kənddəki dəlixanaya saldırdı. Məhər bir az müalicəxanada yatdı, sonra 9B maddəsi ilə buraxıldı, canını cəzadan qurtardı. O vaxtdan məhəllədə hamı ondan çəkinirdi, daha heç kim dəliyə baş qoşmaq istəmirdi.

Tox həyatdan Kəmalənin də görkəmi dəyişmişdi. Quru taxtadan seçilməyən əndamı ətə-qana gəlmiş, qaməti dikəlmiş, çiyinləri yumrulanmışdı. Üzündəki qırışlar sığallanmış, yanaqları allanmışdı. Həmişə başıaşa-

ğı gəzən gəlin daha iri, yaraşıqlı gözlərini Mirzəmməddən gizlətmirdi.

Çayçı bu dəyişikliyə heyran qalmışdı, amma gəlinə tərəf baxmaqdan çəkinirdi. Yaşı qırxı ötsə də, hələ də qadınlardan qaçırdı, həbsxanadakı məhrumiyyətlər nəticəsiz qalmamışdı, özünə etibar eləmirdi. Amma axır vaxtlar canında bir sızıltı gəzirdi. Bir gün damarlarındakı qan coşdu, hər şeyi unutdu, Kəmalənin iri gözlərinin çağırışına səs verdi.

Sevdaları hər ikisini məmnun elədi, amma ehtiyatı əldən vermirdilər, münasibətlərini gizlədirdilər. Bu da səbəbsiz deyildi. Sərhədlə Məhər böyüyüb yekə kişi olmuşdular, onların əlaqələrinə necə baxacaqlarını bilmirdilər.

Sərhəd uşaq kaloniyasından çıxandan sonra məktəblə üzülüşmüşdü, demək olar ki, böyük sözü eşitmirdi. Bazarlarda itib-batırdı, alverə qurşanmışdı, bivaxt gedib-gəlirdi. O, bir dəfə evə günorta qayıtdı, bibisi ilə Mirzəmmədi yataqda tutdu. Qəzəbdən gözünü qan örtdü, masanın üstündən çörək bıçağını götürüb Mirzəmmədin üstünə cumdu. Qışqırdı:

– Köpək oğlu, səni öldürəcəyəm!

Mirzəmməd alt tuman-köynəkdə quruyub qalmışdı. Döşü-başı açıq Kəmalə Sərhədin bıçaq tutan əlindən sallandı, qışqırdı:

– Bala, əl saxla, kişi halal ərimdi, – deyə yalvardı. – Axund kəbinimizi kəsib.

Bayırdan qışqırığa özünü yetirmiş yekəpər Məhər Sərhədin qolunu burub bıçağı əlindən aldı.

– Nədi, ay axmaq, təzəcə ata tapmışıq, sən yenə bizi atasız qoymaq istəyirsən? – deyə hırıldadı, sonra qardaşını qoltuğuna vurub otaqdan çıxartdı, danladı. – Sən məndən də zırramasan ki! Yazıq bibi özünə bir gün ağlamalıdı, ya yox? Nə qədər kişisiz yaşayacaq? Onu Mirzəmməddən yaxşısına ərə verəcəksən?

## -50-
## ərhəd bazarda

Həmin hadisədən sonra Sərhəd evdən didərgin düşdü. Dörd-beş ay keçdi. Kəmalənin ürəyi dözmədi, Mirzəmmədlə məsləhətləşdi, Məhərin cibinə bir az pul qoydu, Sərhədin yanına yolladı.

– Onu bazarda taparsan. Deyirlər, alış-verişlə məşğuldu, kirədə qalır. Bəlkə əli aşağıdı, pulu ona verərsən, – dedi, sonra əlavə elədi. – Özün də qardaşınla barış, bizə baxma.

Məhər Sərhədi düymə, sancaq, iynə, üskük kimi xırdavat düzülmüş piştaxtanın arxasında tapdı. Camaat arasında buna cuhud alveri də deyirdilər. Sərhəd qardaşı ilə barışmağına barışdı, amma gətirdiyi pulu götürmədi:

– Öz puluma nə gəlib! – dedi.

Məhər inamsız halda hırıldayıb soruşdu:

– Hırr! Nədi, xəzinə tapmısan?

Sərhəd istehzanı qulaqardına vurub:

– Bəlkə yanımda qalasan? – Təklif elədi. – Kəndin kənarında bir bağ evi kirələmişəm. Yerim gen-boldu.

– Fikirləşərəm. – Məhər söz vermədi.

Sərhəd onu dilə tutdu:

– Boy-buxununa yaraşan bir iş tapmışam sənə, – dedi.

Məhər maraqlandı:

– İşimin adı nə olacaq? – Soruşdu, amma yenə onu gülmək tutdu. – Müdirlik deyil ki?

Sərhəd ciddi:

– Hırıldama! – dedi. – Sən uşaqlıqda gördüyün işi görəcəksən, məni qoruyacaqsan.

Məhər daha hırıldamadı:

– Sən belə vacib adam olmusan, qardaş? – Təəccüblə soruşdu. – İynə-düymə alverində belə böyük pul var?

Sərhəd gözaltından ətrafa bir nəzər salıb piştaxtanın gizli siyirməsini çəkdi. Məhər çeşid-çeşid xarici siqaretləri, brellokları, alışqanları, rəngli polietilen torbaları, saqqızları, üstü yazılı rəngbərəng maykaları, "Levis" şalvarlarnı görüb udqundu.

– Baho, lap univermaqdı ki! – dedi. – Hardandı sənin üçün?

Qardaşı siyirməni yerinə itələdi:

– Malı bir ərəb dostum gətirir. Adı Kadırdı, özü də tələbədi. Şərikinə satırıq. Bazarkomla dil tapmışam,

mane olmur, – dedi, dilini sürüdü. – Sənin yanımda olmağın mənə vacib lazımdı.

Məhər başa düşmədi:

– Adə, tapmaca danışma, onsuz da başım ləng işləyir. Sözünü açıq de, – deyə acıqlandı.

– Bilirsən, keçən ay ilişmişdim, bir az pul verdim, məhkəmə şərti iş kəsdi mənə, – deyə Sərhəd dilləndi. – İndi kölgədə qalmaq istəyirəm ki, müddət tamam olsun. Səni özümə şərik götürürəm. Bundan sonra piştaxta arxasında sən oturacaqsan, mənim işim sənə mal daşımaq olacaq.

Təklif çox cəlbedici idi, Məhər razılaşdı.

## -51-
## Sərhədin xaloğlularla birinci "görüşü"

Məhəri alverə cəlb eləyəndən sonra Sərhədin biznesi daha da canlandı. Daimi müştəriləri bəzən az tapılan xarici mal sifariş verəndə özünü şəhərin mərkəzindəki Kömürçü meydanına verirdi. Burda nə desən tapmaq olardı. Artıq Sərhəd alverçilər arasında tanınırdı, ona etibar edirdilər, istədiyini tapıb verirdilər.

Yay gələndən sonra kəndin bazarı lap gurlaşırdı. Dəniz yaxında idi. Şəhərdən gəlib çimərliyə gedənlər alverlərini burda edirdilər.

Sərhəd bir dəfə qoltuğunda müştərisinin sifariş elədiyi "Levis" şalvarı geri, kəndə qayıdırdı. Sabunçu vağzalında elektrik qatarına minəndə əlində çamadan olan qısa paltarlı bir qız ona yanaşdı, Sovxoza getmək istədiyini söylədi. Sərhəd izah elədi. Qız yollarının bir olduğunu eşidib sevindi. Moskvadan nənəsinə qonaq gəldiyini söylədi. Uşaqlıqda "Sovxozda" tez-tez olduğundan Sərhəd onun nənəsini, Tosya xalanı tanıdı. Bundan hər ikisi məmnun oldu. Qızın adı Vera idi. Azca çəp gözləri ona xüsusi yaraşıq verirdi. Sərhədin Moskvalı qıza quşu qondu. Veranın çamadanını götürüb qabağa düşdü. Elektrik qatarında üz-üzə oturdular. Yarım saatdan sonra Sovxoz stansiyasına çatdılar. Sərhəd kəndə gedəcəkdi, təzə tanışını yola sala bilmədi, müştərisinin sifarişini çatdırmalı idi. Ayrılanda görüşmək istədiyini bildirdi. Vera dərhal razılaşdı, sabah günorta bu stansiyada gözləyəcəyini söylədi. Oğlan inamsız halda ona baxdı, amma qız sözübütöv çıxdı, gəldi. Bir neçə görüşdən sonra açılışdılar. Sərhəd Veranı şəhərdə gəzdirirdi, görməli yerləri göstərirdi. Hətta, kənd bazarına aparıb qardaşı ilə də tanış elədi.

Yay isti keçdiyindən tez-tez çimərliyə gedirdilər. Bir dəfə axşamüstü qızı evə ötürürdü. Vera dedi ki, hara desən səninlə gedərəm. Sərhəd işarəni başa düşdü. Onu qaldığı bağ evinə apardı.

Sərhədin vurğunluğu Məhərin gözündən qaçmadı.

– Hırr! Urus qızı sənin axırına çıxacaq, – dedi. – Özünü gözlə.

– Çıxmaz! – Sərhəd etiraz elədi. – Alacağam onu.

– Axmaqsan ha! – Məhər lağ elədi. – Görmürsən, urus qızının gözləri qaynayır, ondan sənə arvad çıxmaz.

Sərhəd acıqlandı:

– Yum ağzını, axmaq, – dedi. – Bu da mənə qız tanıyan olub!

Məhər daha bir söz demədi, dinməz təhqirə dözdü, gördü, sevgi macərası qardaşının ağlını əlindən alıb. "Başı daşa dəyəndə ağlı yerinə gələcək!" – fikirləşdi.

Vera ilə Sərhəd açılışandan sonra vaxtları çox şən keçirdi. Bir gün çimərlikdə idilər. Qayalıqda qol-boyun oturub Xəzərin dalğalarına baxırdılar. Sərhəd köynəyini çıxarmışdı, amma suya baş vurmaq istəmirdi. Külək əsirdi, çimməli hava deyildi. Şirin söhbət edir, gələcək planlarından danışırdılar ki, başlarının üstünü aldılar. O, xaloğlulardan yox, onların arxasında dayanan milis nəfərindən qorxdu. "Bölməyə aparsalar heç nədən ilişdirəcəklər, – deyə fikirləşdi. – Şərti məhkumluğumun üstünə yeni bir məhkumluq gələcək". Fövrən aradan çıxmaq qərarına gəldi. Qayadan suya atılanda bilirdi ki, Vera onu satmayacaq, qaldığı yeri deməyəcək!

Kirayədə qaldığı bağ evinə gecə qayıtdı. Köynəksiz idi. Bədəninin hər yeri qançır idi, göm-göy idi, elə bil çomaq altından çıxmışdı. Onun halı Məhəri qorxutdu.

Maşın tutub huşsuz qardaşını həkimə apardı. Sərhəd bir ay xəstəxanada yatdı, sətəlcəmdən müalicə aldı.

Sağalan kimi Veranı axtardı, onun nənəsi ilə Moskvaya köçdüyünü eşitdi. Daha sonra Böyüyə ərə getdiyini bilib çox kədərləndi.

## -52-
## Sərhədlə xaloğluların ikinci "görüşü"

Sovet hökuməti artıq çökürdü, dağılmağına heç kim inanmasa da, artıq dağılırdı. Azərbaycan nehrə kimi çalxalanırdı. Qoruq-qadağalar aradan qalxmışdı, bənd-bərə açılmışdı, ölkəyə xaricdən xırdavat gətirənlərin sayı durmadan artırdı.

Vaxtında sahibkarlıq fəaliyyətinə başlamış Sərhədin gəliri gün-gündən artırdı, pulu gizlətməyə yer tapmırdı. Kefi kök idi, böyük arzularla yaşayırdı.

Sevgilisi Vera yanına qayıdalı könlü lap ala buludda gəzirdi. Bu aşiq-məşuqluq onu qanadlandırırdı. Düşməninin arvadı ilə yatağa girməkdən böyük zövq alırdı. Vera: "Böyük ölüvay şeydi, aylarla mənə yaxın gəlmir. Sən isə əsl ayğırsan!" – deyəndə Sərhəd məst olurdu. Vera ilə əlaqələrini gizlətməyə çalışsa da Məhər hardansa xəbər tutmuşdu. Ona məsləhət gördü:

– Qardaş, bu qadından xəta əskik deyil, boşla getsin, – dedi. – Ərinə xəyanət edirsə, bir gün sənə də xəyanət edəcək.

– Bəlkə də! – Sərhəd qardaşı ilə razılaşdı. – Amma Böyüyün namusunu tapdalamaqdan gözəl məşğuliyyət yoxdu.

Məhər başını buladı, amma daha qardaşının işlərinə qarışmadı. Öz qayğıları başından aşırdı.

Sərhəd qabağından yeyən deyildi. Bəzən bazarda alverçilər arasında rəqabət qarşıdurmaya qədər gedib çıxırdı. Rəqibləri ilə sözü çəp gələndə özü kənara çəkilir, Məhəri qabağa verirdi.

Qardaşının yumruq-şapalağı həmişə uğur gətirirdi. Bir dəfə dava-dalaş qan çıxana qədər uzandı, hamını milisə apardılar. Asayişi pozanların bəzilərinə iş kəsdilər, bəzilərinin pulunu alıb buraxdılar, Məhəri sənədlərindəki 9B qeydinə görə, dəlixanaya göndərdilər.

Qardaşının yoxluğu tezliklə özünü bildirdi. Başı rəqiblərə qarışmış Sərhəd izlənməyindən gec duyuq düşdü. Bir gün başının üstünü aldılar. Mənzilinə təpilənlərdən birini dərhal tanıdı. Bu, Balaca idi. Yəqin ki, Böyük də, hardasa, buralarda idi. Onun xaloğlularla qarşıdurması qurtarmaq bilmirdi, tale onları hər dəfə rastlaşdırırdı.

Balaca Sərhədin mənzilinə əməliyyat qrupu ilə gəlmişdi. Axtarış apardılar, kifayət qədər əşyayi-dəlil tapdılar. Sərhəd həbsxanaya düşmək istəmirdi, Balacadan xahiş elədi:

– Burax gedim, məni türməyə göndərmə.

Balaca güldü:

– Ay sən öləsən! Xalxın arvadını yoldan çıxaranda nə fikirləşirdin? Elə bilirdin başını sığallayacaqlar?

Sərhəd özünü itirmədi:

– Bəs, Böyük xalxın sevgilisini özünə arvad edəndə nə fikirləşirdi? Elə bilirdi Vera ona sadiq qalacaq?

Balaca məntiq qarşısında çaşdı, amma Sərhədi hədələməkdən əl çəkmədi:

– Sən bizimlə kəllə-kəlləyə gələ bilməzsən! Çalış bundan sonra rastımıza çıxma, çıxsan bundan da pis olacaq! Yazıqsan! – Balaca qondarma canıyananlıqla məsləhət gördü.

Xaloğluların səyi ilə Sərhəd ancaq qaçaqmalçı kimi mühakimə edilmədi, həm də oğurluq malların satışında günahlandırıldı, uzun müddətə "Turşulu" zona göndərildi.

## -53-
## Sərhəd həbsxanada

Həbsxana Sərhədi qorxutmurdu, uşaq kaloniyasından təcrübəsi vardı. Məhkumlar arasında özünü inamla aparırdı. Tutulan vaxt illərlə yığdığı pulları da, malları da əlindən çıxmışdı, hamısı xaloğluların badına getmişdi. Qardaşı Məhər hələ dəlixanada idi. Görüşünə arabir bibisi gəlirdi. Hər dəfə onu bol pay-puşla yad edirdi. Bibisi gizlətsə də, Sərhəd bilirdi ki, xərci Mirzəmməd çəkir. Atalığına qarşı olan acığı çoxdan keçmişdi, özünə

söz vermişdi ki, azadlığa çıxacağı gün onunla barışsın. Vaxt isə ləng gedirdi. Mirzəmmədin tutduğu vəkil bacarıqlı hüquqşünas çıxdı, doxsan ikinci ildə şad xəbərlə gəldi. Məlum oldu ki, yaxınlarda baş tutacaq məhkəmə Sərhədin işinə xitam verəcək, vaxtından qabaq azadlığa buraxacaq.

Bu arada daha bir şad xəbər aldı. Hardasa başqa bir həbsxanada yatan "qanuni oğru" Domba Rəhimi "Turşulu" zona keçirmişdilər. Köhnə uşaqlıq dostlarının görüşü təsirli oldu. Artıq türmələrdə söz sahibi olan Domba onu Lotu Faxı ilə tanış eləmək fikrinə düşdü. Sərhəd şübhə ilə:

– Onun mənə nə köməyi dəyə bilər ki? – Soruşdu. – Ömürlük həbsdədi, özünə kömək eləyən lazımdı.

Domba Rəhim dostunun sadəlövhlüyünə güldü:

– Uşaqsan elə bil! Onun məhkumluğunun adı var, istədiyi vaxt zondan çıxa bilir, – dedi. – Mən dostluqda sadiq adamam, sənin qeydinə qalaram. Bu gün-sabah azadlığa çıxırsan, sənə biznes üçün pul-para lazımdı, ya lazım deyil?

– Lazımdı. – Sərhəd təsdiqlədi.

– Odu ha! – Domba barmağını qaldırdı. – Saxlancın milyonları Lotu Faxının əlindədir. Sənə köməyi dəyə bilər.

Həbsxanadan çıxmazdan bir gün qabaq dostu onu Lotu Faxının kamerasına apardı. Onları tanış elədi. Sərhəd gördüyü dəbdəbə qarşısında mat qaldı. Kame-

ra dustaq kamerasına yox, varlı-hallı bir sərmayəçinin mənzilinə oxşayırdı. Kostyum-qalstuklu ömürlük məhkumla söhbəti xeyli çəkdi. Lotu Faxı Domba Rəhimin zaminliyini qəbul elədi, Sərhədin biznesinə vəsait qoymağa razılaşdı.

Onun milyonlara doğru irəliləyişinin bünövrəsi belə qoyuldu.

## -54-
## Camaşırxanada

Domba Rəhimlə Lotu Faxı camaşırxanada şam namazına kimi keşik çəkdilər. Balaca zivədən asılmış pal-paltarının dalınca gəlmədi ki, gəlmədi. Daha gözləmək olmazdı, namazdan dərhal sonra dəstə yola çıxırdı.

Kor-peşman geri qayıtdılar. Tez-tələsik namazlarını qılandan sonra Domba Rəhim keçib çarpayıda uzandı. Ləzzətlə gərnəşib:

– Bəlkə duyuq düşüb? – Soruşdu. – Ya mürdəşir Gülü səhv eləyib?

Lotu Faxı əhvalını dəyişmədən:

– Məlum olacaq, – dedi, sonra buyurdu. – Uzanmaq vaxtı deyil, çamadanları yığ, gedirik. Avtobuslar indi tərpənəcək.

Domba tənbəl-tənbəl qalxdı, yır-yığış eləyə-eləyə:

– Qədeş, deyirlər, oğrunun evi həbsxanadır, amma yalan sözdür, azadlıq gözəl şeydir, – dedi.

Lotu köksünü ötürdü, amma dinmədi. Əlaltısı onun ürəyindən keçənləri deyirdi. Sonra Domba çamadanları götürüb qabağa düşdü:

– Mən hazıram, qədeş, gedək, – dedi.

## -55-
## Lotu Faxının həyatı

Doxsanıncı illərin qarmaqarışıq vaxtı idi. Lotu Faxı həbsxanaya görüşünə gələn böyük bacısı Nərminə dedi:

– Elə keçən həftə gəlmişdin ki, bacı! – Zarafatla narazılığını malalamağa çalışdı. – Yoxsa "zonun" havasından xoşun gəlir?

Bacısı gülümsədi:

– Deyəsən, minnətdarlıq hissi sənə yaddı. – Dedi, cavab gözləmədən mətləbə keçdi. – Şad xəbər gətirmişəm. Adlı-sanlı bir vəkil tutmuşam. Bakıda çəkisi olan bir hüquqşünasdır. Deyir, təzə hökumət ömürlük məhkumluğu qardaşının üstündən götürməlidi.

Lotu Faxı qətiyyətlə:

– Daha tutduğun vəkillərə ehtiyacım yoxdu. Vaxtı çatanda ömürlük məhkumluğu üstümdən götürəcəklər, hətta, əfv də edəcəklər, – dedi, sonra qürurla gülümsədi. – Mən indi istədiyim vaxt "zondan" çıxa bilirəm. Əlbəttə, uzun müddətə yox, bir neçə saatlığa icazə verirlər.

Bir vaxtlar cinayət aləmi on səkkiz yaşlı Fəxrəddini təntənə ilə qarşılamışdı. Həbsxana tarixində görünməmiş bir hadisə baş verdi. Cavan oğlan tezliklə "taclandı", "qanuni oğru" titulu aldı. Fəxrəddin kənardan qatilə oxşamırdı, xasiyyətdə mühasib atasına çəkmişdi, maliyyə məsələlərində səriştəsi vardı. "Turşulu" zonun oğru toplantısı ona oğru "saxlancını" etibar elədi. Bu Fəxrəddinin istehzasına səbəb oldu. "Saxlanc" demək olar ki, boş idi. Çox keçmədi ki, onun sayəsində saxlancın gəlirləri artdı. Kişinin bankçılıqda fitri istedadı vardı. O, gələn pulun bir hissəsini altdan-altdan ətrafına topladığı qoluzorlu dəstəyə xərcləyirdi. Bunsuz keçinmək mümkün deyildi. Ayrı-ayrı oğru saxlanclarının ümumi saxlanca qatmaq istəyi cinayət aləminin nəhənglərinin etirazı ilə qarşılaşırdı. Onların müqavimətini qırmaq üçün qoçularını göndərir, etiraz mənbəyini kökündən qoparırdı.

Məhkumluğunun ilk illərində ona tez-tez baş çəkən yaxınlarının ayağını görüş otağından özü kəsmişdi. Gələnlərin gətirdiyi azadlıq havası Fəxrəddinin qəlbini parçalayırdı. Yalnız böyük bacısına qadağa qoymurdu. Yazıq qızın ömür-günü məhkəmə hakimlərinin qəbul otaqlarında keçirdi. Qardaşının üstündən ömürlük məhkumluğu götürməyi qarşısına bir vəzifə qoymuşdu.

Bacısı qardaşının dediyinə inana bilmədi:

– Bu necə olur? Sən, axı, ömürlük həbsdəsən. Kimdi səni burdan buraxan... – Soruşdu.

Lotu Faxı izah elədi:

– “Turşulu” “zonun” bütün oğru saxlancları mənim sərəncamıma keçib, bacı! İndi mən, loru dildə desək, oğru bankının böyüyüyəm. Bundan sonra türmədən çıxmağıma qadağa yoxdu, – dedi.

Nərmin tələsik:

– Qaça bilərsən?

Bacısının sadəlövhlüyünə gülmədi:

– Bu mümkün deyil. Qaçan yerim yoxdu. Bədbəxt qardaşlarım mənə görə zamin dururlar. Mən onların ümidlərini puç edə bilmərəm, – dedi, sonra xahiş elədi. – Bilirəm ki, bura səbəbsiz gəlməmisən. Daha uzatma, gəlişinin əsl səbəbini de.

Kişi kimi kobud, nəvaziş bilməyən Nərmin nala-mıxa döyməyi kənara qoydu, mətləbə keçməli oldu:

– Malikanədə qırğındı, qardaş. Bağda xanımla sərxoş kürəkəni arasında dava düşüb. Əsəd qayınanasını kötəkləyib. Hətta, paltarını başına keçirib biədəb hərəkət edib. Qışqırığa gələn qonşular Bağdanı onun əlindən zorla alıblar. Polis, təcili yardım çağırıblar. Bağdanın həkim işləyən qardaşı hamını inandırıb ki, Əsəddə psixi pozğunluq var, müalicə almalıdı. İndi, o Bakıda, yaxınlıqdakı dəlixanada yatır.

– Bəs, Bağdanın qızı kimin tərəfini tutub? – Fəxrəddin maraqla qabağa meyilləndi.

Bacısı dərhal:

– Adaşım Nərmin Bağdanın tərəfini saxlayıb, – dedi və susdu.

Lotu Faxı bacısına sitayiş edirdi. Bu kor-kobud qız indiyə qədər özünə bir gün ağlamamışdı. Anaları vaxtsız dünyadan köçəndən sonra ailənin yükünü boynuna götürmüş, həyatını bacılarına qurban vermişdi, beşini də yerbəyer eləmişdi, ərə vermişdi.

Səbirsizliklə Nərmini tələsdirdi:

– Hə? Hə? Sonra? – Soruşdu.

Nərmin tələsmədən davam elədi:

– Elə sonrası maraqlıdı, – dedi. – Qalmaqal vaxtı Bağdanın ağzından çıxıb ki, İgidin qatili Əsəddi. Rəsul müəllim qardaşı oğlunun günahını boynuna götürübmüş.

Lotu Faxının rəngi ağardı. Elə bil canından yüksək gərginlikli cərəyan keçdi. O, daha 18 yaşlı sadəlövh, ata sevgisi ilə alışıb-yanan cavan deyildi. On ildən çox idi ki, hər gün bu barədə fikirləşirdi. Öldürdüyü adamların qanı ona rahatlıq vermirdi. Kənardan sal qaya kimi görünsə də, qəlbi səhra kimi bomboş idi.

– Belə! – dedi, əvvəl atasının qarpız kimi bölünmüş başı, sonra Rəsul müəllimin gllədən qaralmış çöhrəsi gözünün önünə gəldi. – Yəni günahsız adamı öldürmüşəm?

– Əlbəttə, qardaş, əldən düşmüş, xəstə bir qoca baltanı elə zərblə endirə bilməzdi. – Nərmin onun fikirlərindən keçənləri təsdiqlədi.

Atasının uzun illər direktorun arvadı ilə alışıb-verişməsi daha onlara sirr deyildi. İki Nərminin oxşarlı-

ğından da böyük sübut ola bilməzdi. Yəqin ki, atası ilə Bağdanın aşiq-məşuqluğu malikanədə məskən salan Əsədin xoşuna gəlməyib. Qoca əmisinin namusunu qorumaq fikrinə düşüb. Sevgililəri güdmüş, onların yatağa girməyini gözləmiş, sonra baltanı işə salmışdı. Atasının çılpaq meyiti də bunu deyirdi.

– Belə çıxır, mən iki günahsız adamı qətlə yetirmişəm. Allah günahımdan keçsin, – deyə Fəxrəddin köks ötürdü.

Məhkəmə zalında qoca direktoru lülələri kəsilmiş ov tüfənginin bir gülləsi ilə yerə sərəndən sonra isti tüfəngi yerə atacaqdı, üzündə təbəssümü donmuş milis nəfərinin əlini tapançaya atdığını görmüşdü, heç fikirləşmədən qoşalülənin ikinci patronunu onun sinəsinə boşaltmışdı. Hakimin əlində taxta çəkic döşəmədə süründüyünü, kargüzar qızın başını qovluqların arxasında gizlətdiyini, salondakıların bir-birini yıxaraq bayıra qaçdığını xatırlayırdı. Bundan sonra Fəxrəddin lazımsız tüfəngi yerə atmışdı. Çöhrəsi atəşdən qaralmış, yanpörtü yerə yıxılmış, qan gölməçəsində üzən Rəsul müəllimə baxmadan keçib pilləkəndə oturmuşdu.

Nərmin də qardaşının sözünü təkrarladı:

– Amin! Allah günahından keçsin.

Fəxrəddin xırıltılı səslə soruşdu:

– Hansı dəlixanada yatır Əsəd?

Bacısı udqundu, dili-dodağı əsə-əsə:

– Bunu eləmə... – deyə kəkələdi. – Bəlkə Bağda xanım yalan deyir. Üçüncü adamın ölümünə bais olma.

Lotu Faxı bacısının əl-ayağa düşməyinə güldü:

– Sən dəlixananın yerini de, qatili sağ buraxmaq olmaz, – dedi. – Qorxma, ona əziyyət vermərəm, mənim məhkəməm uzun çəkmir.

## -56-
## Lotu Faxı ilə Dəli Məhərin dostluğu

Lotu Faxı bacısı Nərmindən ayrılıb görüş otağından çıxdı. Qolları arxasında, ədliyyə zabiti ilə əli karabinli əsgərin qabağına düşəndə xahiş elədi:

– Təcili cibgir İmiri yanıma buraxın, – dedi.

İki barmağının arasında tədavülə təzə daxil olan iri nominallı Azərbaycan əsginası peyda oldu. Zabit məmnunluqla pulu cibinə qoydu. Karabinli əsgər qaça-qaça onlardan aralandı. Hər ikisi adlı-sanlı oğrunun qulluğunda dayanmaqdan həm maddi, həm də mənəvi zövq alırdı.

Lotu Faxı kamerasına girəndə artıq cibgir İmir burada idi. Dustaq yoldaşı ilə salamlaşıb bir kağız parçasını ona uzatdı:

– Cibgir ağa, gör, bu dəlixanada etibarlı bir adam varmı?

İmir kağızı alıb gözünə yaxınlaşdırdı:

– Qədeş, etibarlı adamı dəlixanada axtarmazlar ki! – deyə İmir ehtiyatla zarafat elədi.

Cibgir İmir cinayət aləmində tanınmış şəxs, həm də sinədəftərlərdən idi. Ömrü həbsxanalarda keçdiyindən bilmədiyi şey yox idi. Qanuni oğru onu tez-tez məsləhətə çağırırdı. Lazım olanda həbsxana rəisi Lotu Faxının xahişini yerə salmırdı, qaydaları pozaraq cibgiri qanuni oğrunun kamerasına ötürürdü.

Kamera sahibi həmkarının zarafatına baş qoşmadı, keçib çarpayısında oturdu, səbrlə gözlədi. Cibgir dişsiz ağzını nırçıldatdı:

– Dəlixananın qapıçısı qardaşlarımızdandı, adı Sərhamdır. Bir az ağıldan kəmdi, amma işini biləndi. Oğurluq mal alverinə görə həbsxanada yatan Sərhədin qardaşıdı, ya qohumudu, dəqiq bilmirəm.

Lotu Faxının göstərişləri cibgir İmir vasitəsi ilə zondan çölə ötürülürdü. Çox etibarlı bir mexanizm yaradılmışdı. Zərbə qrupları havayı çörək yemirdi, lotu Faxının himayəsində olan sərmayədarları doxsanıncı illərin hərc-mərcliyindən, başıpozuqluğundan qoruyurdular. Ara-sıra cızığından çıxanlara da əl "gəzdirirdilər".

– Bu hansı Sərhəddi? – Lotu Faxı dəqiqləşdirməyə çalışdı.

– Domba Rəhimin dostu Sərhədi deyirəm... – Cibgir onun yadına saldı. – Gərək ki, onu yaxınlarda azadlığa buraxacaqlar.

Lotu Faxı xatırladı:

– Həə... Sərhədin qardaşının adı dəli Məhərdi, axı! Bu Sərham hardan çıxdı?

– Düz deyirsən, Sərhamı dəli Məhər də çağırırlar, – dedi. – Tanıyırsan?

– Əlbəttə, Məhər dediyin qəribə məxluq tanınmış vücuddur. Türmənin bu başında hırıldayanda o başında səsi eşidilirdi. Altı-yeddi il bundan qabaq “Turşulu” zonda yatırdı, nə hoqqa çıxartdısa, dəlixanaya keçirtdilər. Açığı, bu Məhər dəli-zad deyil, özünü dəliliyə qoyur. Məni Faxı-Maxı qədeş çağırırdı.

– Daha özün tanıyırsan da...

Lotu ayaqlarını çarpayıda altına yığdı:

– Ona bir vacib tapşırığım olacaq, – dedi. – Görəsən, yerinə yetirə bilərmi?

Cibgir İmir inamla:

– Əlbəttə, ağzı nədir yerinə yetirməsin, – dedi. – Kimi xosumvay eləməlidi?

– Dəlixanada yatan Əsəd adında bir dəlinin işini bitirməlidir. – Lotu Faxı tapşırdı. – Əməliyyat tapançasız, bıçaqsız başa gəlməlidir.

Cibgir İmir dərhal:

– Problem yoxdu, qədeş, – deyə hiyləgərliklə gülümsədi. – Məhərə deyərəm, bu işdə yastıqla kifayətlənsin.

– Lap yaxşı. – Lotu gülümsədi. – İşi bitirəndən sonra Məhəri yanıma gətirərsən. Onunla söhbətim olacaq.

Elə o vaxtdan Lotu Faxı ilə Məhərin dostluğu başlandı.

## -57-
## Dəstə üzvləri ehrama girirlər

Hacı Sarvanın dəstəsi Mədinə şəhərindəki mehmanxana kompleksini şam namazından sonra tərk elədi. Onların mindiyi avtobus Məkkə şəhərinə doğru istiqamətlənən, uzunluğu beş yüz kilometr olan şoseyə çıxdı, ala-toranlıqda sürətini artıraraq irəli şığıdı. Maşın saz olduğundan yol boyu uşaq nənnisi kimi ahəstə-ahəstə yırğalanırdı. Bir azdan kondisionerlərin sərinlətdiyi salona sakitlik çökdü, səhərin şirin yuxusu hamının əhdini kəsdi.

Sübh namazını kiçik bir dayanacaqda qıldılar. Burada, səhranın ortasında olsalar da, dəstəmaz almağa su, təbii ehtiyacların ödənildiyi məkan, qida məhsulları satılan mağaza, dincəlməyə döşəməsinə xalça döşənmiş uzun eyvan var idi.

Balaca dəsmal üçün əşya çantasını açanda yadına düşdü ki, yumağa verdiyi əyin-başı, camaşırı yadından çıxıb Mədinədəki mehmanxanada qalıb. Hacı Məftun işi biləndə dedi:

– Məndə üç dəsmaldır, birini götür işlət, – dedi, Balacanın minnətdarlığını qəbul eləmədi. – Boş şeydir...

Qısa fasilədən sonra zəvvarlar yenidən miniklərdəki yerlərini tutdular. Oturan kimi də hamını yuxu apardı.

Zöhr namazına bir az qalmış avtobus zəvvarları Zul-Huleyfa adlı yaşayış məntəqəsinə çatdırdı. Artıq

Məkkə şəhərinin əlli kilometrliyində idilər. Balaca əlində olan məlumat kitabçasından bilirdi ki, Zul-Huleyfada çox qalmayacaqlar. Yaşayış məntəqəsindəki miqatda (ehram bağlanan məkan) ehrama girəndən sonra zöhr namazını qılıb yenidən avtobusa minəcəklər, müqəddəs şəhərə yola düşəcəklər.

Maşının sərin salonunu aramla tərk edən möminlər hələ mürgülü idilər. Açıq havaya çıxan kimi bürküdən hamının nəfəsi tıncıxdı, ürəyi sıxıldı, mürgüsü qaçdı. Günəşin hərarətinə kölgədə də dözmək olmurdu, amma heç kim şikayətlənmək fikrinə düşmədi. Bir neçə saatdan sonra yaşanacaq xoşbəxt anlar ziyarətçiləri həyəcanlandırır, ürəyini qürurla doldururdu. Onlar tezliklə Allah-Təalanın dərgahına yetəcək, Allah-Təalanın qonağı olacaqdılar.

Möminlər səbirsizliklə miqata tərəf üz tutdular.

Müsəlmanlar arasında məşhur olan Şəcərə məscidi avtobus dayanacağından uzaqda deyildi, cəmi yüz-yüz əlli addım aralıda idi. Zəvvarların keçdikləri geniş meydanda yüzlərlə pal-paltar, suvenir köşkü var idi, amma piştaxtalarda dəyərli mal gözə dəymirdi. Azərbaycanın dükanlarında, bazarlarında bunlardan yaxşısını tapmaq olardı. Satılan xırdavat, rəngli muncuqlar, yaylıqlar, ucuz ətriyyat, ərəbi geyimlər zəvvarları hələ maraqlandırmadığından mərmər çınqılla örtülmüş meydanda yubanan tapılmadı.

Qabaqda gedən Hacı Sarvan dəstəni Şəcərə məscidinin dəstəmazxanasına apardı. Burada yüzlərlə hamam kabinəsi var idi. Ortalıqda quraşdırılmış su kranlarının isə sayı-hesabı yox idi. Minlərlə mömin eyni vaxtda öz təmizliyinə baxır, dəstəmaz alır, yuyunub sərinlənirdi.

Hacı Sarvan nizamsız halda ətrafında dayanmış həmvətənlərinə:

– Əziz qardaşlarım, bacılarım! Daha durmaq vaxtı deyil. Hamınız neyləməli olduğunuzu bilirsiniz. Qüsl edib ehram bağlayın ki, həcc ziyarətinin qalan əməllərini yerinə yetirək, – dedi, sonra təbəssümlə əlavə elədi. – Bilməyənləri bilənlərə, bilənləri də Allaha tapşırıram.

Hacı Sarvan dəstə üzvlərinə həftədə iki dəfə Bakı məscidlərinin birində təlim keçmişdi. Hesabla kimsə çətinlik çəkməməli idi.

## -58-
## Müqəddəs Məkkə şəhərinə doğru

Hacı Sarvanın döyülmüş mis kimi tutqun sifətində göy gözləri parıldayırdı. Hamı ağa büründüyündən adamları tanımağa çətinlik çəkirdi. Dəstənin toplaşdığını görüb həmişə özü ilə gəzdirdiyi Azərbaycan bayrağını açıb yellətdi, xırıltılı səslə dedi:

– Qardaşlarım, bacılarım! Ehrama girməyiniz münasibəti ilə hamınızı təbrik edirəm. Məlumat üçün söy-

ləyim ki, zöhr namazından sonra yola çıxacağıq. Hələ bir az vaxtımız var. Təlbiyə deyək ki, Allaha xoş getsin. "Ləbbeyk Allahümə ləbbeyk, ləbbeyk la şərikə ləkə ləbbeyk, innəl həmdə vənnimətə ləkə vəl mülk, la şərikə ləkə ləbbeyk!" Hə, təkrar edin, görüm.

Hacı Sarvan gəlir-çıxarını bilən adam deyildi, bəzən zəvvarlarla çox sərt davranırdı, kimsəni cızığından çıxmağa qoymurdu. Təcrübəsindən bilirdi ki, bəzi möminlərin ərköyünlüyünün həddi-hüdudu yoxdur, vaxtında qabağını almasan nizam-intizam əldən gedəcək, ziyarətin rövnəqi itəcək. Qaydaları sevirdi, elə uşaqlıqdan hərbi işə meyilli idi. Atası onu molla məktəbinə göndərməsəydi bəlkə o da polkovnik rütbəli böyük qardaşı kimi rütbə sahibi olacaqdı. Artıq dünyasını dəyişmiş atasını hər dəfə rəhmətlə xatırlasa da, dalınca deyinməyi də yaddan çıxarmırdı: "Gərək belə eləməyəydi. Məni qaqaşdan ayırmayaydı!" Yaşı yetmişə yaxınlaşsa da, incikliyi keçmirdi, ruhanilikdə uğurları olsa da, hələ də rəhmətə gedən polkovnik qardaşının həsədini çəkirdi.

O, təlbiyə deyən möminləri həvəsləndirməyə çalışdı:

– Kim ki, dalbadal yetmiş iki dəfə təlbiyə desə axirət günü cəhənnəm odunu özündən kənarlaşdırmış olur.

Bu sözdən zəvvarlar, doğurdan da, həvəsləndilər. Sonra Hacı Sarvan yetmiş iki dəfə təlbiyə deyib qəlbən rahatlanmış möminləri məşğul eləmək üçün mikrofonu əlinə aldı, İmam Hüseynin(ə.s) şəhadətinə həsr olunmuş məşhur mərsiyələrdən birini hazırlıqsız başladı. Dəstə-

başının sinədən gələn xırıltılı səsindən təsirlənmiş zəvvarlar nəqarət tutdular: "Qoyun qılım namazımı, sonra kəsin boğazımı!"

Mirzəmməd kişi həmişəki kimi kövrəldi:

– Zalım balasının mərsiyələrindən ürəyim hövl eləyir də! – dedi, sonra nıqqıldayıb səkidə oturdu.

Onun sağında durmuş hacı Məftun:

– Sən xəstələnmisən, – dedi. – Qardaşım, birbaşa mehmanxanaya getsən yaxşıdı!

Mirzəmməd kişi halsız halda:

– Bəs, mənim həcc əməllərim nə olsun? – Soruşdu. – Onları yerinə yetirməsəm həc ziyarətim batil olmayacaq ki?

Hacı Məftun onu arxayın salmağa çalışdı:

– Narahat olma, onları sənin əvəzinə lələşin yerinə yetirəcək! – dedi. – Dost deyilik?

Mirzəmməd kişi başını buladı:

– Camaat nə deyər?

Hacı Məftun təəccübləndi:

– Bəyəmləri biz şəriətdən kənara çıxırıq? – Soruşdu, sualının cavabını da özü verdi. – Həcc əməllərini xəstələnmiş zəvvarın yerinə yoldaşlarından biri yerinə yetirə bilər.

Mirzəmməd ağır-ağır dilləndi:

– Bunu bilirəm, hacı! – dedi. – Təklifinə görə minnətdaram. Amma sənə əziyyət vermək istəmirəm, hacı can, günahlarım böyükdü, gərək özüm onlara əncam çəkəm.

Hacı Məftun ciddi-cəhdlə onu inandırmağa çalışdı:

– Sən bir "hə" de, cəmi günahlarını bağışlatdırmaq mənim boynuma! Bu işdə təcrübəmə şübhə eləmə, qardaşım. Bir yol ümrə ziyarətində olmuşam. Bu da mənim ikinci həcc ziyarətimdi.

Mirzəmməd dodaqaltı nəsə mızıldandı, yoldaşlarından aralandı, divarın dibində oturdu. Onun rəftarından narazı qalan hacı Məftun deyindi:

– Bu da bizim ağsaqqalımız...

Bu vaxt Azərbaycan zəvvarlarının daha bir qrupu Şəcərə məscidinin həyətinə varid oldu. Təzə gələnlər ehrama girmiş həmvətənlərini Hacı Sarvanın ucaltdığı Azərbaycan bayrağı ilə tanıdılar. Uzaqdan salamlaşdılar, amma yubanmadılar, dəstəmazxanaya tərəf getdilər. Mirzəmməd halsız halda keçənlərə baxırdı. Onların arasında Mədinədə rastlaşdığı mavi köynəkli kişini gördü, izləmək fikri ilə qımıldandı, amma heyi olmadığından yerindən tərpənmədi.

Balaca da təzə gələnlər arasında tanış simaları görüb Hacı Məftundan aralanmaq üçün bəhanə gəzirdi. Zarafatla onu sancmaq fikrinə düşdü:

– Hacı, bir dəfə ümrə ziyarətinə, iki dəfə həcc ziyarətinə getməyindən məlum olur ki, günahların böyükdü, bağışlatdırıb qurtara bilmirsən.

Hacı Məftunun üzü turp kimi qızardı. Bir az acıqlı:

– Mənim günahlarımı tərəziyə qoymaq sənin kimi günahkar bəndənin işi deyil! – dedi və dərhal da harda

olduğunu yada salıb üzr istədi. – Balaca qardaş, könlünə dəymək istəmirdim...

Balaca incidiyini büruzə vermədi:

– Üzrə ehtiyac yoxdu, hacı, öz cəzamdı çəkirəm! – dedi, onlara tərəf baxan ağ paltarlı qadını göstərdi. – Deyəsən, Şərqiyyə xanımın sənə sözü var...

Şəriətə görə, əyalı ilə həcc ziyarətinə gedənlər müqəddəs məkanda bir-birini bacı-qardaş qismində görməli, təmasdan uzaq durmalıdırlar. Hacı Məftun qadağalara ciddi riayət edirdi. Gün ərzində Şərqiyyə xanımla uzaqdan-uzağa salamlaşmaqla kifayətlənirdi. Yalnız ortaya vacib bir iş çıxanda hamının gözünün qabağında yanaşı oturub dərdləşirdilər.

Hacı Məftun yol yoldaşını tək buraxıb arvadına tərəf tələsdi. Balaca bunu gözləyirmiş kimi yanından ötən Azərbaycan zəvvarlarının yeni dəstəsinə qarışdı.

## -59-
## Qaflanla yeni görüş

Arxasından idman hazırlıqlı "uşaqlar" boylanan yekəpər Qaflan dəstəmazxanada gözləyirdi. Balaca heyrətlə:

– Daha sözüm yoxdu. Böyük xaloğlum sənə də cangüdən qoşub? – Soruşdu. – Bəs, mən niyə cangüdənsizəm? Mənim həyatımın qiyməti yoxdu?

Qaflan enli alnının tərini dəsmalla sildi, sirli-sirli qımışdı:

– Rəis bilər, mən bilmərəm. Yəqin vaxtı çatanda sənə də qoşacaq, – dedi, sözü dəyişdi, ağa bürünmüş həmkarına sataşdı. – Ehram sənə yaraşır, Balaca müəllim!

Balaca da gülümsədi:

– Kəfən kimə yaraşmır ki, Qaflan? Cəmi insanların eybini kəfən örtmürmü? – deyə hazırcavablıqla dilləndi.

Qaflan cavabı qiymətləndirdi:

– Dəyərli kəlamdı! – dedi, sonra işgüzarlıqla mətləbə keçdi. – Sayıqlığın hamımızı valeh eləyib. Mirzəmmədlə hava limanında xudahafizləşən qadının adı Kəmalədir, əvvəl çayxanada çalışıb, indi işləmir, ayrıca evi var. Mirzəmmədin sevgilisidir.

Balaca təəccübləndi:

– Mirzəmmədin aşnası barəsində belə ətraflı məlumat nəyə gərəkdi ki? – Soruşdu.

Qaflan izah elədi:

– Bu xanım Sərhədlə Sərhamın bibisidir. Qəzada ölmüş qardaşının yetimlərini böyüdüb, – dedi, sonra fəxrlə əlavə elədi. – Əflan deyəndə ki, bu qoca bizi harasa çıxarmalıdı, inanmırdım. Gördün qaqaşımın fəhmini?

– Afərin Əflana! – Balaca da təriflədi.

Qardaşının tərifindən Qaflanın üzü işıqlandı:

– Hə, bizi indi Sərham maraqlandırır. Hələ də nə ölüsündən, nə dirisindən xəbərimiz var, – dedi.

– Əflan deyirdi, bəs, həbsxanadadı? – Balaca dəqiqləşdirməyə çalışdı.

Qaflan qayğılı halda:

– İş ondadır ki, dünən Bakı ilə əlaqə saxladım, dedilər, Sərham “Turşulu” zonda yoxdur, – dedi. – Bilmək olmur hara köçürüblər.

Balaca bir az düşünüb Mədinədəki əhvalatı danışdı:

– Mənə elə gəlir ki, Mirzəmməd mavi köynəkli bir adamın dalınca düşmüşdü.

Qaflan boynunun ardını qaşıdı, soruşdu:

– Bir az dəqiq olmazmı? – Soruşdu, rəncidə ilə gülümsədi, mərd-mərdanə boynuna aldı. – Mən sənin üçün Əflan deyiləm. Başım bir az ləng işləyir.

Balaca əllərini yana açdı:

– Bilirəm, Əflan deyilsən. Amma neyləməli, varını verən utanmaz! Hələ ki, olanım budu, – deyə gülümsədi, sonra öz növbəsində soruşdu. – Bəs, Böyük hardadı? Nazir hardadı? Onlar ehrama girməyəcəklər?

– Rəislərimiz qara camaatla bir yerdə ehrama girmək fikrində deyillər, – deyə Qaflan vəcdlə gülümsədi. – Deyirlər, Mədinəyə kral ailəsinin nümayəndəsi gəlməlidir, rəisləri Məkkəyə müşayiət eləməlidir.

Balaca Qaflanın kral ailəsinin nümayəndəsinə heyranlığına şərik olmadı:

– Səudiyyə Ərəbistanında bütün vəzifələr kral ailəsinin əlindədi də. Burda nə var ki? – dedi, ayağını qaçaraq qoydu. – Söylədiyin kral ailəsinin nümayəndəsi

bizim tələbə yoldaşımız Məhəmməd Xələfovdu.

O, Qaflandan ayrılıb məscidin həyətinə döndü, dəstədə yerini tutdu. Maraqlı bir söhbət gedirdi.

## -60-
## Ehramın fəlsəfəsi

Cavanların arasına mübahisə düşmüşdü. Muxtar özündən çıxmışdı, daxili inamdan yaraşıqlı üzü işıqlanmışdı:

– Ehrama girməklə kimi aldatmaq istəyirsən, Zakir kişi? Özünü ölülüyə qoyursan, elə bilirsən günahlarından Allahın xəbəri yoxdu?

Zakirin qısa, ağ saqqallı bu neçə gündə uzanmışdı. Danışanda yellənirdi. Muxtarı sakitliyə çağırdı:

– Bir az hövsələ elə, fikrimi deyim. Ehramın hikməti ondadı ki, Allah-Təalanın yanına kəfən geyib gəlirsən, günahlarını boynuna alırsan. Bağışlanıb, ya bağışlanmayacağını heç kim bilmir, – dedi, kənarda dayanıb qulaq asan Hacı Sarvanı münsifliyə çağırdı. – Düzmü deyirəm, hacı?

Hacı Sarvan boğazını arıtladı, mübahisəyə müdaxilə eləməzdən əvvəl onları təriflədi:

– Hər şeydən əvvəl onu deyim ki, mən sizin kimi mömin cavanlarımızla fəxr edirəm! – dedi, sonra səsinin ahəngini dəyişmədən davam elədi. – Əslində ehramın

hikmətində ölmək yox, yenidən dirilmə, yenidən dünyaya gəlmə var. Allah-Təala öz seçilmiş bəndələrinə, iltimasa gələnlərə, Kəəbəyə pənah gətirənlərə şans verir, çağa kimi tərtəmiz, günahsız, qəbahətsiz yenidən dünyaya gəlmə şansı verir. Deyir, dünya malı gəldi-gedərdi, deyir rəyasət əbədi deyil, deyir həyat qısadır, yaxşı əməllərdən yapışın, pis əməllərdən uzaq durun... Mübarək "Quranda" deyilir: "Mən cinləri və insanları yalnız mənə ibadət eləsinlər deyə yaratdım".

## -61-
## Müqəddəs Kəəbənin ziyarətində

Zöhr namazından sonra Hacı Sarvan dəstəsini yenidən avtobusa mindirdi. Dərhal yola düşdülər. Zəvvarlar aramsız işləyən kondisionerlərin xoş sərinliyində mürgüləməyə macal tapmamış Məkkə şəhərinə varid oldular. Tələsik yerə tökülüşdülər. Mirzəmməd kişinin xəstəliyi əməlli-başlı şiddətlənmişdi. Onun halı Hacı Sarvanın da gözündən yayınmadı. Yaxın gəlib əhvallaşdı, sonra ürək-dirək verdi:

– Döz, ağsaqqal, isti keçən kimi düzələcəksən!

İsti isə keçmək bilmirdi, əksinə, havanın hərarəti durmadan artırdı. Məftun kişi həmişə çantasında gəzdirdiyi termometri çıxartdı. Hamı onun başına toplaşdı. Civə sütununun müsbət əlli beş dərəcə Selsiyə yaxınlaşdığını

görən zəvvarlardan bəziləri əl-ayağa düşdü. Hacı Sarvan Hacı Məftunun məşğuliyyətini bəyənmədi, ərklə onu danladı:

– Əşi, ələngə termometrini gizlət, camaatı küyə salma! – dedi, sonra zəvvarları sakitliyə çağırdı. – Qardaşlarım, boş şeydir, narahatlığa dəyməz! Bəs, necə olmalıdı ki? Ağzınızda Ərəbistan deyirsiniz, Ərəbistan isti olmalıdı da! Bilməlisiz ki, Məkkə şəhəri dağların arasında qərar tutur, müqəddəs Kəəbə isə çökəkdə yerləşir, bura Ərəbistanın başqa yerlərinə nisbətən daha istidir. Nə olsun ki? Burda da adamlar yaşayır, burda da adamlar işləyir! Onlar dözürsə, biz də dözməliyik də!

Dağların arasında yerləşən şəhərin qədim tarixi olsa da axırıncı əlli ildə görkəmi tamam dəyişmişdi. Xarici tikinti şirkətlərinin ucaltdığı binalar Məkkə şəhərinə müasirlik verirdi. Bütün etirazlara baxmayaraq Kəəbənin yüz metrliyində hündür mərtəbəli mehmanxanalar tikilirdi. Kədərli bir mənzərə açılırdı. Hacı Sarvan bir dəfə belə bir mehmanxananın eyvanlarından Kəəbəyə baxmışdı. Ürəyi hövl eləmişdi. Allahın Evi çox kiçik görünürdü. Kəəbəyə qarşı bu etinasızlığı, tikintiyə icazə verən Səudiyyə kralının qərarını anlamaq olmurdu.

Cavanlardan fərqli olaraq yaşlı zəvvarlar bürküdən daha çox əziyyət çəkirdilər. Mürgülü Mirzəmməd kişi şikayət eləmədiyindən yoldaşları onu sorğu-suala tutmur, susqunluğunu normal sayırdılar. Qarşıdakı vacib əməlin siqləti hamını ağır zindan kimi sıxırdı. Zarafat

deyildi, indi onlar Allah-Təalanın evini ziyarət edəcək, cəmi müsəlmanlar içində seçilmişlərin cərgəsində qərar tutacaqdılar. Deyilənlərə görə, zəvvarın bu günə qədər olan cəmi günahları Allah-Təala tərəfindən bağışlanacaq, gələcəkdə özünü qəbahətdən qorusa Qiyamət günü Uca Dərgahda üzü ağ, alnı açıq dayanacaqdı.

Hacı Sarvan əlini Kəəbə evinə tərəf uzatdı, təsirli bir səslə:

– Qardaşlarım, bağladığınız ehramı kəfən bilin, özünüzü ölü bilin. Siz artıq Allah-Təalanın hüzurundasız. Dərgahda sizin cəmi günahlarınız bağışlanacaq, qəbahətlərinizin üstündən xətt çəkiləcək. Təvafdan təzə doğulmuş çağa kimi məsum çıxacaqsınız, yenidən dünyaya gələcəksiz. Elə həcc ziyarətinin fəlsəfəsi də dirilmədi, yenidən doğulmadı. Bundan sonra özünüzü günah-qəbahətdən qorusaz cənnət əhlindən biri olarsız. Bu qədər. – Dedi, səsini endirdi. – Qardaşlarım, gedək, daha durmaq vaxtı deyil.

Müqəddəs Kəəbənin həndəvəri minlərlə su sıçradan sərinkeşlə soyudulurdu. Dəstəbaşının çıxışından təsirlənmiş zəvvarların narahatlığı keçdi, hamı gümrahlaşdı, bircə Mirzəmməd kişi canı ilə əlləşirdi. O, Allah-Təalanın evinə daxil olanda təvafdan sağ çıxacağına artıq inanmırdı, amma qüvvəsini toplayıb ağrını unutmağa çalışırdı.

Elə birinci dövrədə nizamlı dəstə çay kimi axan insan yığnağında əridi, fərdlər fərdiliyini itirdi, vahid bəndə

halında birləşdi. Hamı "Allah Əkbər" sədası ilə çiyin-çiyinə, nəfəs-nəfəsə irəliləyirdi. Allahın qüdrəti sayəsində altıncı dövrəni başa vuranda Mirzəmməd kişi bir az ürəkləndi. Hamının ehramı tər içində idi, elə bil suya basıb çıxarmışdılar. Xanımların vəziyyəti pis deyildi. Təvafa başlayanda tədbirli Hacı Sarvanın tələbi ilə kişilər qol-qola girib qadınları ortaya almışdılar.

Dəstə on minlərlə insanın yaratdığı sıxlığa mətanətlə dözərək addım-addım Kəəbəni dolanırdı. Hacı Sarvan arada arxaya çevrilirdi, qrup üzvlərini bir-bir nəzərdən keçirirdi. Təvafın axırıncı dövrəsində Mirzəmməd kişinin halını görüb çığırdı:

– Cavanlar, ağsaqqalı qadınların yanına ötürün! – dedi. – Yıxılsa tapdalayarlar!

Dəstədəki kişilər aralandılar, Mirzəmmədi qadınların sırasına keçirtdilər. Qaydaya görə təvafın hər dövrəsi Həcərül-Əsvəddən başlayır, Həcərül-Əsvəddə də tamamlanırdı. Zəvvarlar sol çiyni Kəəbəyə tərəf hərəkət eləməli, hər dəfə yaşıl xətti keçəndə "Allah Əkbər!" deməlidirlər. Yeddinci dövrədən sonra yoldaşları yarımcan Mirzəmməd kişini sıxlıqdan çıxartdılar, Həzrəti İbrahimin məqamından xeyli aralı seyrəkliyə sürüyüb gətirdilər, xəstəni mərmər döşəmədə oturtmağa zorla yer tapdılar. Cavanlardan biri qaçdı, plastmas stəkanda su gətirib ona içirtmək istədikdə Hacı Sarvan məsləhət gördü:

– Zəm-Zəm suyunu üzünə çiləyin! – dedi, təşvişlə deyindi. – Ölməsə yaxşıdı.

Zəm-zəm quyusu Allahın Evindən iyirmi metr aralıda idi. Deyilənlərə görə, dərinliyi iyirmi metr idi. Yüz illərdi ki, quyunun suyu azalmır, qurumur, keyfiyyətini də itirmirdi.

Suyun təsirindən Mirzəmməd kişi qımıldandı, çiyninə əyilmiş başı düzəldi. Artıq ətrafında baş verənlərin fərqinə varırdı, söylənənləri eşitməyinə eşidirdi, amma cavab verməyə heyi yox idi. Hacı Sarvanın təlaşı onu şənləndirdi, dodağı qaçdı, ağzını marçıldadıb astadan pıçıldadı:

– Adamı diri-diri basdırmazlar, Hacı Sarvan!

Hacı Məftun onun səsini eşidəndə sevindi:

– Şükür, özünə gəldi! – dedi, sonra Mirzəmməd kişini zarafatla məzəmmətlədi. – Bizi qorxutmaqda məqsədin nədir?

Xəstənin dirçəldiyini görən Hacı Sarvanın da üzü güldü:

– Keçmiş olsun, ağsaqqal! – dedi, sonra şübhə ilə əlavə elədi. – Bir azdan daha bir vacib əməli yerinə yetirməliyik. Səfa və Mərva təpələri arasında yeddi dəfə səy eləməliyik. Gücün yetərmi?

Mirzəmməd kişi dikəldi, Hacı Məftunun köməyindən imtina eləyib oturduğu yerdən, çətinliklə də olsa, özü qalxdı:

– Mənə nə olub ki, şükür Allaha! – dedi və gülümsəməyə çalışdı.

Hamı rahatlıqla köks ötürdü. Dəstə üzvləri Həzrəti İbrahim məqamının yaxınlığında iki rükət namaz qılandan sonra yenidən Hacı Sarvanın dalınca düşdülər.

Səfa və Mərva təpələri arasında yeddi dəfə səy eləmək elə də çətin olmadı. Sərin keçiddə üç kilometrə yaxın məsafəni qət edəndən sonra, təəccüblü də olsa, Mirzəmməd kişi özünə gəldi. Arabir ağrıdan nıqqıldasa da, halı bayaqkından xeyli yaxşı idi. Təqsirdən[1] sonra avtobuslar dəstəni mehmanxanaya yetirdi.

## -62-
## Mirzəmmədlə Balacanın mübahisəsi

Hamı yorulmuşdu, heç kimin səsi çıxmırdı. Otaqlar üzrə bölgü qurtarana qədər kondisionerlərin soyutduğu foyedə yubandılar. Bu da çox çəkmədi. Açarları götürüb hərə öz nömrəsinə qalxdı. Hacı Sarvan qocaların xahişini nəzərə alaraq bir otağa yerləşdirmiş, Balacanı da onlardan ayırmamışdı.

Ehramdan çıxandan sonra Mirzəmməd kişinin xəstəliyi tamam keçdi. Elə bil bir az bundan qabaq canı ilə əlləşən adam deyildi. Balaca Mirzəmmədin işıqlanmış üzünə baxıb gülümsədi:

[1] Baş tükünün, dırnağın qısaldılmasına deyilir.

– Hacı Mirzəmməd, deyəsən, dirildin, axı! – dedi, keçib çarpayısında oturdu, ayaqlarını salladı.

– Hə, Hacı Balaca, kəfəni yırtmışam! – Mirzəmməd razılaşdı. – Halım Şəcərə məscidində ehrama girəndən sonra dəyişdi. Hər nədisə, Allahın mənə rəhmi gəldi, canımı almadı, günahlarımı bağışladı. Elə düz deyirlər, Allah-Təala bilsə ki, Kəəbə evini ziyarət edən bəndəsi gedib yenə qəbahətə batacaq, elə orda da canını alır.

Bu vədə Hacı Məftun qaynar çaydanı gətirdi. Mirzəmməd çantasından bir bağlı çay çıxarıb ona uzatdı:

– Bir az qənaətlə işlətsək, səfərin axırına qədər Lənkəran çayı içərik! – dedi.

Balaca Mirzəmmədin əliaçıqlığını təriflədi:

– Sağ ol, hacı! – dedi. – Ehsanın qəbul olsun.

Həcc ziyarətinin bir hissəsini, Ömrə-təməttünün beş əməlini yerinə yetirən zəvvarlar artıq bir-birinə ağızdolusu "hacı" deyə müraciət edirdilər. Əlbəttə, qabaqda onları yerinə yetirilməli daha on üç vacib əməl gözləyirdi.

Çay dəmləyən Hacı Məftun birdən xısın-xısın güldü:

– Şəriət hökmlərinin izahı üləmaların vəzifəsidir. Şeyx Məhəmməd Fazili Lənkərani Allahın azmış, günahkar bəndələri barəsində belə deyir...

Balaca onun sözünü kəsdi:

– Məhəmməd Fazili Lənkərani də insandı, səhv edə bilər! – dedi, sonra məşhur aforizmlərdən birini təkrarladı. – İnsan ana bətnindən qəbr evinə qədər qəbahət-

dən fəzilətə, səfalətdən varidata doğru addımlayır. İnsanlıq əbədi bir yolun yolçusudu. Əgər belədirsə kim deyə bilər ki, səfalət fəzilətdi və ya varidat qəbahətdi? Heç kim!

Balaca bir neçə cümlə ilə həyatının məğzini açıqladı. Söylədiklərini otaqdakıların heç biri təkzib edə bilmədi, amma razılaşan da olmadı. Çılpaq həqiqət adamı çaşdırırdı. Balaca köks ötürdü. Neçə gün idi anası Fidoranın surəti gözünün qabağından çəkilmirdi.

## -63-
## Balaca ilə Böyüyün həyatı

Əslində Balaca ilə Böyük xaloğlu yox, əkiz qardaş idilər. Atalarının kimliyi məlum deyildi, anaları Fidora söhbətcil deyildi, qapalı qadındı, keçmişi haqqında danışmağı xoşlamırdı. Qardaşların illər keçəndən sonra əldə elədikləri məlumatlar isə natamam idi. Fidora Moldoviyadan Abşerona sürgün edilmiş qaqauz qadınlarından idi. Sovet hökuməti ikinci dünya müharibəsi illərində almanlarla əməkdaşlığına görə atasını güllələmiş, özünü də Abşeron çöllərinə sürgün eləmişdi. Bir müddət daş karxanalarında işləmişdi. Belə həyatdan bezib oğrulara qoşulmuşdu. Sonra övladlarının xətrinə cinayət ortaqlarından aralanmağı qərar vermişdi.

Uşaqlıq xatirələri natamam idi. Amma sovxoza gedən yol Balacanın yaddaşına möhkəm həkk olmuşdu. Təzə şumlanmış nəm torpaq adamın ayağına yapışırdı. Anası boğçası qoltuğunda dil boğaza qoymurdu, əkizləri hey başa salırdı:

– Pis adamlar bizi öldürmək istəyir, onları azdırmaq lazımdı, mən ananız deyiləm, xalanızam, atalarınız neftçi olub, buruqdan yıxılıb ölüblər. Kittanın adı Balacadı, Kessamın adı Böyükdü, siz əkiz deyilsiniz, qardaş deyilsiz, xaloğlusuz, Böyüyün anasının adı Fidora, Balacanın anasının adı Sidoradır, Böyük Balacadan bir yaş böyükdü. Fidora da, Sidora da mənim bacılarımdır. Bir-birinizi həmişə xaloğlu çağırın. Keçən il kilsədə xaçlanmağınızı da unudun, siz müsəlmansız. Mənim adım Fəridədir, xalanızam.

Böyük Balacadan ağıllı və güclü idi. Özünü elə böyük kimi də aparırdı, bəzən başından da yekə danışırdı. Anasının sözünü kəsdi:

– Yəni sən bundan sonra klubun arxasında yaşayan Fəridə xalasan? – Soruşdu.

Fəridə təsdiqlədi.

– Hə də! – dedi. – Fəridə xalayam.

Sovxoza səhər açılanda çatdılar. Tosya xala keçmiş həbsxana yoldaşı Fəridənin adından gələnləri elə də xoş qarşılamadı, amma sığınacaq tapana qədər ailəni yanında saxlamağa razılaşdı.

Nədənsə, Tosya xalanın sovxozda sözü keçirdi. Direktor Fidoranı süpürgəçi götürdü. Malikanədən xeyli aralı tamam başqa məqsədlə tikilmiş, on iki kvadrat metrlik pəncərəsiz taxta mərəyi ailənin ixtiyarına verdi. Həbsxanadan çıxandan sonra Fəridəyə verilmiş arayış, doğurdan da, Fidoranın işinə yaradı.

O, yeni mənzilini bir günə təmizlədi, içəridən yüngül peyin iyi çəkilməsə də, artıq burada yaşamaq olardı.

Uşaqların sevincinin həddi-hüdudu yox idi. Onlar mərəkdə bir vaxtlar donuz saxlanıldığını sonralar öyrəndilər.

Sovxoz direktoru onlara üç adyal, bir neçə alümin qab, elektrik sobası göndərməyi unutmamışdı.

Fidora Tosya xalanın gətirdiyi azuqə torbasını açdı, uşaqları yedirtdi. Sonra onların yerini saldı, özü də uzandı.

Adyalı başına çəkən Böyük:

– Xala, sən namaz qılmadın, axı! – dedi.

Fidora Böyüyə acıqlandı:

– Nə boş-boş danışırsan? – dedi.

Böyük təkid elədi:

– Sən namaz qılmağı unutmamalısan!

Fidora özünü itirdi:

– Mən haçan namaz qılmışam ki? – Soruşdu. – Mən xaçpərəst qızıyam, özüm də xaçpərəstəm, xaçpərəstlər isə namaz bilməzlər.

– Fəridə müsəlmandı, namaz qılmalıdı. Yoxsa sənin Fəridə olmağına inanmazlar.

Fidora çaşqınlıqla Böyüyə baxdı:

– Həə! Amma mən namazın sözlərini bilmirəm, axı! – dedi.

Böyük izah elədi:

– Dəfələrlə qulaq asmışam, Fəridə xala da heç bir söz demirdi, ancaq dodaqlarını tərpədirdi, hərdən də: "Allah Əkbər! " deyirdi.

Uşağın sözü Fidoranın ağlına batdı. Həmin gündən ibadətə başladı. Üzü günçıxana dayanır, yalandan dodaqlarını tərpədir, əyilib-qalxır, "Allah Əkbər!" deyirdi.

Kiçik ailə yalana öyrəşmişdi, bir cür düşünür, başqa cür danışır, bir ayrı cür hərəkət edirdi. Bu ikiüzlülük onların yaşam tərzinə çevrilmişdi.

Məhəllələrinə Tosyadan başqa heç kim gəlmirdi. Arvadın əsil adı Ruşaniyə idi, həmişə müsəlman olduğunu, sadəcə rusa ərə getdiyini deyirdi. Fidora onun söhbətlərindən artıq bilirdi ki, oğlu Vasya əsgərlikdən sonra bir daha Bakıya dönməmiş, Sibir şəhərlərinin birində məskən salıb evlənmişdi.

Daha bir nəfərlə ünsiyyətləri vardı. Əkizlərlə oynamağa Məhəmməd adında bir oğlan gəlirdi. Çox mehriban uşaq idi, qarabuğdayı üzündə ala gözləri parıldayırdı. Ailəsi dənizə enən yolun üstündəki komada yaşayırdı. Ata-anasının məşğuliyyəti balıqçılıq idi. Bütün günləri sahildə keçirdi, balıq tutur, aparıb kənddə sa-

tırdılar. Yaşadıqları yerə yaxınlaşmaq olmurdu, hər yerdən balıq iyi gəlirdi.

Çox vaxt Məhəmməd oynamağa gələndə özü ilə torbada balıq gətirirdi. Fidoradan pul götürməzdi, deyirdi ki, anası pay göndərib.

Dərs ili başlayanda Fidoranın qayğıları artdı, amma oğlanlarına sənəd düzəltmək elə də çətin olmadı. Üç şahidin iştirakı ilə Balacaya da, Böyüyə də doğum şəhadətnaməsi aldı. Fidora uşaqlardan birinə Xanoğlu soyadını verdi, ata qismində Xanın adını yazdırdı, ana qismində Fidoranı qeyd elədi, o birisinə Bəyoğlu soyadını verdi, ata qismində Bəy adını yazdırdı, ana qismində Sidoranı qeyd elədi. Burda qəribə heç nə yox idi, müharibədən sonra ölkədə atasız uşaqların sayı artmışdı. Təkuşaqlı analar sənəddə istədiyi adamın adını valideyn kimi yazdırırdılar. Uşaq, gələcəkdə, yaşıdlarının qınağına çevrilməsin deyə belə eləmək caiz sayılırdı.

“Sovxoz” uşaqları kənddəki məktəbə payi-piyadə gedirdilər. Yol uzaq idi, tezdən durmalı olurdular. Birinci gündən kənd uşaqları ilə əkizlərinki tutmadı. Oxumaq həvəsi başlarına bəla açırdı. Heç nəyin üstündə qapazlanırdılar. Amma bu, əkizlərin oxumaq əzmini qıra bilmirdi. Ən çox canfəşanlıq eləyən Sərhəd adlı bir oğlan idi. İki sinif yuxarıda oxuyurdu. Əkizlərə göz verib, işıq vermirdi. Məhəmməd yanlarında olanda Sərhədin onlara gücü çatmırdı. Bu da çox çəkmədi. Məhəmmədgilin ailəsi “Sovxozdan” köçdü. Əkizlərin qara günləri baş-

ladı. Sərhəd onları təkləyib döyürdü, amma qardaşlar arxa-arxaya verəndə bata bilmirdi.

On il bir göz qırpımında keçdi. Əkizlər instituta girəndə Fidoranın məmnunluğunu dillə ifadə eləmək mümkün deyildi. Oxuyurdu, oynayırdı, ağlayırdı, gülürdü, elə bil qadın dəli olmuşdu.

## -64-
## Əkizlər institutda

Ali məktəbdə dərslər başlayan günü əkizlər Məhəmmədlə dəhlizdə rastlaşdılar. Köhnə dostları qonşu qrupda oxuyurdu. Bu onları sevindirdi. Həmin gündən bir-birindən ayrılmadılar, imkan tapan kimi bir araya gəlirdilər. Bir ay keçmədi ki, üçlüyə Aişə Meməri adında bir qız da qoşuldu. Ali məktəbdə tez-tez keçirilən müsamirələrin birində tanış olmuşdular. Qız Yəmən Demokratik Respublikasından idi, rus bölməsində oxuyurdu. Adi tələbə təqaüdü alırdı, amma evdən də ona bir az pul göndərirdilər. Dediyinə görə, atası mühəndis idi.

Dərsdən sonra gəzməyə çıxırdılar. Bir yerdə olanda vaxtları çox şən keçirdi. Gəzmək xərcini bir qayda olaraq yəmənli qız çəkirdi. Oğlanların etirazını qəbul eləmirdi. Deyirdi ki, ən kasıb yəmənli də sizdən varlıdır.

Aişənin dərisi açıq qəhvəyi rəngdə idi, iri dodaqları vardı. O, elə ilk gündən yaraşıqlı Böyüyə meyl salmışdı,

vurğunluğunu heç gizlətmirdi də. Oğlan Aişənin tələbə yataqxanasındakı təkadamlıq otağında dəfələrlə gecələsə də, qızla münasibətində bundan uzağa getmirdi. Bir dəfə Balacaya şikayətləndi:

– Bu qara pıspısa məndən əl çəkmir, xaloğlu.

Balaca başqa fikirdə idi:

– Yerli pıspısalardansa xarici pıspısa yaxşıdı, – dedi. – Xaloğlu, Aişədən möhkəm yapış.

Birinci kursu bitirdilər. Əkizlərin evdə oturmaqla araları yox idi, bütün yayı dəniz sahilində keçirirdilər. Özlərinə təzə sənət tapmışdılar. Çimərlikdən xeyli aralı kolluqlara çəkilən cütlükləri güdürdülər. İş əndazəni aşanda çimərlikdəki milis məntəqəsinə xəbər verirdilər. Şantajla toplanan pulun tən yarısı onların idi. Əlbəttə, bu qəpik-quruş idi, amma əkizlər üçün böyük varidat idi.

Dərslər başlayanda təcrübələrini institutda sınadılar. Yararlı məkan kimi tələbə yataqxanasını seçdilər. Vaxtını qumar masası arxasında keçirən tələbələrin qəniminə çevrildilər. Milis reydlərinin ardı-arası kəsilmirdi. Bölmədə tələbələri soğan kimi soyub buraxırdılar. Amma bu gəlirli məşğuliyyətdən tezliklə əl çəkdilər.

Bir dəfə Məhəmməd tələbələrin şübhələrini xaloğlularla çatdırdı.

– Reydlərə görə sizi günahlandırırlar, – dedi.

Böyük etinasızlıqla:

– Bəs, Ayın səthindəki ləkəyə görə kimdən şübhələnirlər? – Soruşdu. – O da bizim günahımızdı?

– Sənə söz çatdırmaq olmur! – deyə Məhəmməd fərəhlə gülümsədi. – Doğurdan da, absurd şübhədi.

Artıq üçüncü kursa keçmişdilər. Yenə güdükçülüyə əl atmaq fikrində idilər. Başlarını birtəhər dolandırmalı idilər, ya yox?

Çimərlik mövsümü təzə başlamışdı, hələ bərk istilər düşməmişdi, amma çimən var idi. Bir gün onlar evdən çıxanda Fidora dedi: "Tosyanın nəvəsi Moskvadan gəlib. Vaxt tapıb qarıya gözaydınlığı verərsiz!"

Axşamüstü dənizdən qayıdanda Fidora soruşdu: "Necə oldu, Tosyanın nəvəsini bəyəndiz?" Balaca fikrini gizlətmədi: "Xala, Vera şortuya oxşayır!" Böyük onun sözünə uğundu: "Sən hələ onun çəp gözlərini görəydin, xala!" – dedi. Bununla da məsələ bitdi.

Bir azdan şıdırğı yay gəldi. Onların başı "güdükçülüyə" qarışdı. Bütün günü çimərlikdə itib-batırdılar. Həmin gün növbə çəkən Böyük günorta xilasedicilərin qülləsindən tələsik endi, çətirin kölgəsində mürgüləyən Balacaya dedi: "Ovumuz tordadır! – dedi. – Milislərdən birini səslə, gedək!"

Onlar qayalığa yetişəndə çaşıb qaldılar, sevgililər "işlə" məşğul deyildi, sadəcə qol-boyun oturmuşdular. Oğlan köynəksiz idi, amma şalvarını çıxarmamışdı. Böyük boş əllə geri dönmək fikrində deyildi. Qayalığa bir neçə addım qalmış dedi: "Yaxşı yer tapmısız!" Oğlan

diksinərək ayağa sıçradı. Bu onların köhnə tanışı Sərhəd idi. O, başının üstünü alan milis nəfərinə, milisin "gənc dostlarına" vahimə ilə baxırdı. Günün altında qaralmış bədəni gərildi, sinəsinə uşaq kaloniyasında döydürdüyü şəkil canlı kimi hərəkətə gəldi. Böyük istehza ilə onu xəbərdar elədi: "Özünü yaxşı apar! Bu da məktəb illəri deyil, bizi qapazlayıb aradan çıxasan!" Sərhəd onu dinləmədi, durduğu yerdən bir sıçrayışla köpüklənən suya atıldı. Onun dalınca dənizə baş vurmaq istəyən Balacanı Böyük saxladı: "Hara, səfeh? Görmürsən dalğanı?" Qız hiddətlə: "Stıd i sram! Vot vı çem zanimaytes na plyaje!" – dedi. Bu, Tosya xalanın nəvəsi Vera idi. Böyük özünü itirmədi, lağ elədi: "İzvini, Vera, pomeşali vaşim lyubovnım utexam!" – dedi. Bu vaxt milis nəfərini ratsiya ilə səslədilər. "Məni çağırırlar! Madam ki, tanışsız, özünüz ayırd edin!" – dedi, qaça-qaça uzaqlaşdı. Qız üçlükdə qalan kimi açılışdı. Hiyləgər bir təbəssümlə: "Çto vı za lyudi! Ne dayote çeloveku otdıxat!" – dedi. Balaca istehza ilə dedi ki, sən vaxt itirənlərdən deyilsən. Vera gülümsədi: "Oşibayeşsya, s parnyom tut, na plyaje poznakomilis!" Sonra o, atasının da milisdə işlədiyini bildirdi. Məlum oldu ki, əvvəl Tümendə yaşayıblar. Vera qürurla: "Atam təzəlikdə Moskvaya təyinat alıb, indi generaldı, nazir müavininin köməkçisidir. Məni nənəmin dalınca göndərib", – deyəndə çəp gözləri Böyüyün yaraşıqlı sifətində dolaşırdı.

Həmin hadisədən sonra Vera gündə çimərliyə gəlir, çətirin altında oturub saatlarla Böyüklə söhbət edirdi.

Bir gün Tosya xala qonum-qonşusunu topladı, uzun-uzadı xudahafizləşdi. Mənzilini yaxında yaşayan bacısı Əlfiyə qarıya tapşırdı. Günorta sovxoz direktorunun QAZ-69-u nənə ilə nəvəni dəmiryol vağzalına apardı. Qarı təyyarəyə minməyə qorxurdu.

Bir həftə keçdi. Bu müddət ərzində fikirli dolanan Böyük, nəhayət, qərarını verdi. Balacaya dedi:

– Mən Veranın dalınca uçmalıyam.

– Bəs, Aişə Memәri nə olsun? – Balaca dəqiqləşdirməyə çalışdı.

– Birini tapar, ərə gedər, – Böyük etinasızlıqla dilləndi. – Mən onu sevmirəm.

– Qız sənin dərdindən dəli-divanədir, ay əbləh! – Balaca acıqlandı və şövq ilə arzuladı. – Aişəyə evlənib Yəmənə getməyin gözəl olardı. Bir az pullanardıq, canımızı kasıblıqdan qurtarardıq.

Böyük qardaşına tərs-tərs baxdı:

– Arzuların gözəldi, amma mən o qara pıspısanın dərdindən dəli-divanə deyiləm! – dedi, sonra istehza ilə əlavə elədi. – Onun dərdindən divanə Məhəmməd Xələf dostumuzdu. Görmürsən, Aişənin ətəyini əldən buraxmır...

Balaca bunu bilirdi. Elə həmin gün Böyük təyyarəyə bilet aldı, Moskvaya uçdu.

## -65-
## Böyüyün evliliyi

Böyük Bakıya bir də dərslər başlayanda qayıtdı. Tək deyildi, arvadı Vera da yanında idi. Qardaşından qabaqcadan teleqram alan Balaca Fidoranı da özü ilə aeroportda aparmışdı. Onlardan başqa cavan cütlüyü qarşılamağa iki milis zabiti də gəlmişdi.

Bəylə gəlin çıxışda görünəndə Fidora dözmədi, irəli atıldı. Onları qucaqladı, sevincdən ağlamsındı. Balaca Böyüklə təmkinlə görüşdü. Əhvallaşan vaxt məlum oldu ki, xoşbəxt cütlük sovxozda yaşamaq fikrində deyil. Böyük Balacanın qulağına pıçıldadı: "O donuz damına bir də ayağım dəyməyəcək!" – dedi.

Fidora ilə Balaca taksiyə, yeni evlənənlər dövlət nömrə nişanlı QAZ-31-ə, milis zabitləri UAZ-69-a minib yola düşdülər. Maşınlar mikrorayonda bir binanın önündə dayandı. Böyüklə Vera iki otaqlı, iki eyvanlı bir mənzilə qalxdılar. General qayınatası hər şeyin qayğısına qalmışdı. Otaqlar döşənmişdi, mətbəx də, hamamxana da parıldayırdı. Fidoraya oğlunun mənzili şah sarayı kimi dəbdəbəli göründü, təkrar kövrəldi.

Evlənəndən sonra Böyüyün xasiyyəti tamam dəyişdi, hökmlü, dovtələb bir kişiyə çevrildi. Daha qrup yoldaşlarının zarafatına dözmürdü. İri gözlərini zarafatcıla bərəldir, toppuş şəhadət barmağını üstünə silkələyirdi.

Tezliklə gecə milisinə işə düzəldi. Artıq qabağında geniş üfüqlər açılırdı.

Milis formasında instituta gəlib-getdiyindən daha heç kim onunla məzələnmək fikrinə düşmürdü. Nəinki tələbələr, hətta, müəllimlər də Böyükdən çəkinirdilər.

O, bir daha sovxoza ayaq basmadı. Əksinə, əlinə pul gələn kimi anası ilə qardaşını şəhərə apardı, yaşadığı binanın yaxınlığında onlara kirayə ev tutub dedi: "Donuz damından qurtulmaq vaxtıdı!" Başı o qədər qarışıq idi ki, Balaca ilə söhbət eləməyə vaxt tapmırdı, görəndə anasını soruşmaqla kifayətlənirdi. Bir il keçmədi ki, kiçik zabit rütbəsi aldı. İnstitutu qurtaranda isə artıq baş leytenant idi. Qardaşını milisə işə düzəldəndə: "Mənim hesabıma kef elə!" – dedi. Balaca atmacasını saxlaya bilmədi: "Bəlkə mənə də bir general qızı tapasan!" Böyük irişdi: "Sənin çəpgöz bir şortuya evlənməyinə ehtiyac yoxdu! – dedi, sonra xahiş elədi. – Mənim başım qarışıqdı, sən xalanı tək qoyma".

"Xaloğluların" yüksəlişi başladı.

## -66-
## "Mehriban" ailə

Böyüklə Vera mehriban dolanırdılar, can deyib can eşidirdilər. Evin xanımı ayda iki dəfə Moskvaya uçur, hər dəfə uğurla qayıdırdı. Səfərlərinin nəticəsi göz

önündə idi, Böyük artıq addım-addım vəzifə pillələrini qalxırdı. Xanım çəpgözlüyünə də son qoymaq fikrində idi. Qarşıda bahalı cərrahiyyə əməliyyatı gözlənilirdi. Bir azdan Vera gözəllik ilahəsi kimi gözəlləşməli idi.

Keçən il doğulmuş çağanın səsi kiçik mənzillərini canlandırdı. Altı aylıq doğulan oğlanın adını Vera doğum evində Timur qoymuşdu ki, istəyən Teymur da çağıra bilsin. Xanım-həkim pəncərə altında dayanan Böyüyə, Balacaya, Fidoraya irişə-irişə demişdi ki, uşaq vaxtından əvvəl doğulub, zahıya xüsusi qulluq lazımdı. Əlini qaldırıb saçını sığallayanda barmağında parıldayan almaz qaşlı üzük Fidoraya tanış gəlmişdi, amma harda gördüyünü yada sala bilməmişdi. Bir-iki ay keçəndən sonra anladı ki, həkimin barmağındakı üzük Veranın üzüyüdür. Məlumdu ki, qiymətli hədiyyə böyük xidmət müqabilində verilir. Fidora bu yolları keçdiyindən aldanmadı. Gəlinin ər evinə qarnı balalı gəldiyini anladı. Amma açıb-ağartmadı, tədricən ayağını oğlunun evindən kəsdi. Çəlimsiz Balaca da şübhələnmişdi, daha hündürboy, yaraşıqlı qardaşına üstdən aşağı, həqarətlə baxırdı. Böyük onların münasibətini görmürmüş kimi anası ilə də, qardaşı ilə də bir qaydada rəftar edirdi. Arada qardaşını öyrədirdi: "Yadda saxla, qardaş, düz yola çıxmaq üçün, bəzən, çamurluqdan keçirlər!" Balaca onunla razılaşsa da həqarəti keçmirdi.

Zahılıqdan sonra özünə gələn Veranın Moskva səfərləri yenidən başladı. Əslində heç Bakıda olanda da

evdə tapılmırdı. Timur qoltuğunda burdan vurub-ordan çıxırdı. İstədiyi vaxt gedir, istədiyi vaxt qayıdırdı. Böyüyün başı təzə vəzifələrinə qarışmışdı, Veranın gəzintilərinə barmaqarası baxırdı. Arvadının "Sovxozda" yaşayan nənəsinin bacısı Əlfiyəyə baş çəkməyinə nə deyə bilərdi ki? Veranı qohumcanlığa görə ancaq tərifləmək olardı.

Onlar xidməti mənzildə çox yaşamadılar, tezliklə şəhərin mərkəzinə köçdülər. Veranın başı saat kimi işləyirdi, general atasının köməyi ilə Bakıdakı rəyasət qapılarını asanlıqla açırdı, istəyini yeridirdi. Dördotaqlı mənzilin orderini almaq elə də çətin başa gəlmədi.

Balaca görürdü ki, Böyük Veranın səfərlərinə mane olmur. Nə Moskvaya getməyinə, nə də Bakıda gəzməyinə bir söz deyir, sorğu-suala tutmur, xanımına etibar edir. Hər halda, zahirdə belə görünürdü.

## -67-
## Müqəddəs Məkkədə

Azərbaycan zəvvarlarının qaldığı mehmanxana kompleksi müqəddəs Kəabənin yeddi kilometrliyində, çökəkdə yerləşirdi. Ətrafda, yolların kənarında, döngələrdə, həyətlərdə adda-budda yaşıllıq gözə dəyirdi. Dağları-təpələri qranitdən, mərmərdən olan ölkədə münbit torpaq elə çökəklərdə idi.

Konusvarı çətiri ilə göz oxşayan həmişəyaşıl sidr ağacları, iyirmi metr qəlbiliyə ucalan palmalar, bir sözlə, torpağın-daşın pörşələndiyi bir məkanda yaşıllığın mövcudluğu adamı heyran qoyurdu.

Mehmanxana kompleksi Məkkə şəhərinin olduqca sakit məhəllələrinin birində idi. Yerli əhali, demək olar ki, gözə dəymirdi, küçələr, dalanlar, döngələr gəlmələrin ixtiyarında idi. Gündüz bayır-bacada dayanmaq mümkün deyildi, göyün ortasında sallanan Günəşin qorxusundan hamı ya kölgə tapıb kölgələnir, ya da kondisioner sərinliyi axtarırdı.

Mehmanxana bir neçə müstəqil korpusdan ibarət idi. Hər biri çoxmərtəbəli yataqxananı xatırladırdı. Binalar bir-birindən xeyli aralı olduğundan günorta vaxtı birindən o birinə gedib çıxana qədər adam istidən bir köynək tər tökürdü. Binalardakı şərait bir-birindən fərqlənmirdi. Hər korpusun axırıncı mərtəbəsində camaşırxana vardı. Paltaryuyan maşınlar iyirmi dörd saat ziyarətçilərin ixtiyarında idi.

Zöhr namazından sonra Balaca:

– Gedək, "Osmanlı" qəlyanaltıxanasına, – dedi. – Yeməkxanamızın dadsız yeməklərindən bezdim. Gedək bir doyunca təam edək.

Hacı Məftun dərhal şəpitlərini ayağına çəkdi. Adı çəkilən qəlyanaltıxananı Balaca elə Məkkəyə gəldikləri birinci günü korpusların arasında vurnuxanda bələdləmişdi.

– Qiyamət gününə hazırlaşan müsəlman dünyanın naz-nemətini unutmalıdı, hacı. – Mirzəmməd kişi söz atdı. – Sən isə qarnının hayındasan.

– Tez elə, hacı! Mən o məcnunlardan deyilim! – Balaca darıxmış halda deyindi. – Ac qarnına başım işləmir.

Mirzəmməd kişi dəsmalla tərli yekə burnunu tələsmədən sildi, çarpayıdan düşdü, qapıda onu gözləyən yoldaşlarına qoşuldu.

Səhər-axşam ümumi yeməkxanadakı dadsız, yarıbişmiş, zövqsüz təamlardan bəhrələnsələr də, günorta, bir qayda olaraq, mehmanxanadan xeyli aralı "Osmanlı" kafesinə gedirdilər. Burada yaxınlıqda olan başqa qəlyanaltıxanalardan fərqli olaraq, sulu yeməklər də verirdilər. Türk kafelərinin çoxluğu Səudiyyə Ərəbistanının uzun müddət Osmanlı imperiyasının tərkibində olmasından xəbər verirdi. "Osmanlı"nın sahibi də, qulluq eləyənlər də türk olduğundan tərcüməçiyə ehtiyac qalmırdı. Buradakı yeməklər, baha olsa da, doyumlu və dadlı idi. Onlar xörəkpaylayanları tələsdirmir, təamların masaya düzülməyini səbrlə gözləyirdilər. Kondisionerlərin soyutduğu salonda xeyli otururdular.

## -68-
## Müqəddəs Kəbənin ziyarətində

Dostlar dünən axşamdan söz qoymuşdular ki, müqəddəs məkanın ziyarətinə gedəcəklər. Bilirdilər ki, belə fürsət bir də ələ düşməz. Balaca deyilən vaxtda özünü çatdırdı. Mirzəmməd artıq hazır idi:

– Hacı Məftun gəlsin, tərpənərik! – dedi. – Şərqiyyə xanımla Rəfiqə də bizimlə gedəcək.

Şərqiyyə hündürboy, ətli-canlı, şən bir xanımdı. Hamı ilə hökmlə danışsa da, ərinin yanında suçlu adam kimi dayanırdı. Bu, Balacanın gözündən yayınmamışdı. "Qısır qadınlar sonsuzluqda özlərini günahkar bilir!" – deyə düşünmüşdü.

Üzbəüz otaqda qalan Zakir kişi ilə Muxtar da onlara qoşulmaq istəyəndə Balaca etiraz eləmədi. Həvəssiz:

– Əlbəttə, nə söz ola bilər, – dedi.

Bir azdan hacı Məftunun yumru sifəti açıq qapıda göründü:

– Hacılar, xanımlar bizi foyedə gözləyir! – dedi.

Kondisionerlərin sərinlətdiyi mehmanxanadan qaynar küçəyə çıxdılar. Tutduqları taksi onları Hərəmə çatdırdı. Nəhəng insan axınına qoşulub müqəddəs Kəbənin həndəvərinə çatdılar. Sıx sıralarla Allahın Dərgahını təvaf edən zəvvarların hər biri müqəddəs məkanın divarlarına toxunmağa çalışırdı. Hacı Məftun keçən ziyarətlərdən öyrəndiklərini onlarla bölüşdü:

– Məsləhətimə dursanız, çox asanlıqla Həcərül-Əsvədə qədər gedib çıxacaqsız. Yadınızda qalsın, sıxlığa müqavimət göstərməyin, hamı bir niyyətlə bura gəlib, insan axını özü sizi Həcər daşının həndəvərinə çıxaracaq. Baxın ha, Qara daşa yalnız əlinizi toxundurun, öpmək fikrinə düşsəz ya basıb üz-gözünüzü partladacaqlar, ya da boynunuzu qıracaqlar, – deyə bir də təkrar elədi. – Bir sözlə, özünüzü basırığa tapşırın, müqavimət göstərməyin, onda mütləq istəyinizə çatacaqsınız.

Rəvayətə görə, müşriklərin[1] 15 yerə böldüyü Həcərül-Əsvəd xüsusi sement məhlulu ilə bir-birinə bərkidilib, gümüş çərçivəyə salınmışdı, sonra kub şəklində inşa olunmuş Kəəbənin künclərindən birinə hörülmüşdü. Başqa bir rəvayətə görə, qədimdə ağ rəngdə olan daş günahkar bəndələrin toxunuşundan qaralmışdı. Müsəlman olan şəxs hər dəfə Həcərül-Əsvədin yanından ötəndə onu salamlayıb "Allah Əkbər!" deməlidir.

Kərpicdən tikilmiş Kəəbənin hündürlüyü 15, eni 10, uzunluğu 12 metrdir. Şama, İraqa, Yəmənə istiqamətlənmiş küncləri elə həmin adla da tanınır, yalnız Qara daşın qərar tutduğu künc Rüknəl-Əsvəd adlanır. Hər il Zilhiccə ayının 9-da Kəəbənin qızıl təbəqə ilə örtülmüş qapıları açılır, içi gülab suyu ilə yuyulur, ətirli müşk yandırılır, tozu alınırdı. Daha sonra 150 kiloqramlıq qızıl saplarla işlənmiş ipək örtüyü yenisi ilə əvəz olunurdu. Əvvəllər əllə görülən bu işlər indi artıq mexanikləş-

[1] Bütpərəstlər, islama inanmayanlar.

dirilib. 670 kilo ağırlığında örtük kranların köməyi ilə Kəəbənin üstünə salınır.

Yoldaşları Hacı Məftunla həmişə razılaşmasa da, bir qayda olaraq, məsləhətlərinə dururdular. Qadınları qabağa saldılar. Zakirlə Muxtar cavan idilər, arxada qol-qola girmişdilər, qadınları basırıqdan qorumağa çalışırdılar. Şərqiyyənin ətəyindən yapışmış Rəfiqə cansız qadın idi, hər xırda şeydən kövrəlirdi, çətinə düşən kimi məhzun səslə şikayətlənirdi: "Ay Şərqiyyə, öldüm!..."

Hacı Məftun onları aldatmamışdı, elə birinci dövrədən sonra artıq yeddisi də Kəəbənin divarlarını tuta-tuta irəliləyirdi, ikinci dövrə tamamlananda gedib Həcərül-Əsvədin qənşərinə çıxdılar. İbrətamiz mənzərənin şahidi oldular. Bir gənc zənci nəhəng qollarını Dərgahın divarlarına dayamışdı, heç kim onu oradan ayırmaq qüdrətində deyildi, o, diz çöküb üzünü Həcərül-Əsvədə sürtürdü.

Bunu görən Balacaya təpər gəldi, çiynini-qolunu işə saldı, özünə yol açdı, "Allah Əkbər!" deyərək gümüş sağanaqlı oyuqda gizlənən Həcərül-Əsvədə əlini sürtdü, ürəyinə dolan qüdrətli hissin hökmünə tabe oldu, bir də irəli can atdı. Gözlənilmədən kütlə aralandı, Balaca başların üstündən gümüş sağanağa özünü çatdırdı və öpdü, dərhal da sıxlıq onu qırağa fırlatdıqda: "İlahi, günahlarımı bağışla!" – deyə yalvardı.

Axırıncı dövrədə sıxlıq bir az da artdı. Məlum oldu ki, Afrikanın Nigeriya ölkəsindən gələn müsəlmanlar-

la bir araya düşüblər. Bu, böyük bir dəstə idi. Kişili-arvadlı hamısı hündürboy idi. Güclü zəncilər qalan zəvvarları asanlıqla pərən-pərən salır, özlərinə yol açırdılar. Hələ nigeriyalılar ehmalla tərpənməyə çalışırdılar. Basırığa, istiyə dözmək olmurdu. Zəncilərin başçısı lap uca idi, üzündə də xoş təbəssüm dolaşırdı, təvafda olanlara yuxarıdan aşağı baxırdı. Həzrəti-İbrahim məqamı ilə Hicri İsmayıl arasındakı dar keçiddə yaranan güclü sıxlıq Şərqiyyəni qolundan sallanan Rəfiqədən, kişiləri bir-birindən ayrı saldı. Həbəşlərin qarşısında kim dayana bilərdi ki! Sıxlıqda əski gəlincik kimi çabalayan Rəfiqə üzüntülü səslə çığırırdı:

– Ay Şərqiyyə, hardasan?

Zəncilərin başçısı məhzun-məhzun çığıran balaca qadını tapdaqdan qoruyaraq yol açdı, üzündə təbəssüm, gur səslə onun ağzını əydi:

– Ya Şərqiyyə! – dedi, sonra əl işarəsi ilə Rəfiqəyə Şərqiyyəni göstərib bir də avazla qışqırdı. – Ya Şərqiyyə!

Həmvətənləri, nədənsə, başçılarına xorla vagirə tutdular: "Ya Şərqiyyə! Ya Şərqiyyə! Ya Şərqiyyə!" Gözlənilmədən qalan zəvvarlar da onlara qoşuldu. Bu qadınlara bir-birini tapmaqda kömək elədi. Şərqiyyə xanım Rəfiqənin qoluna girib onu danladı:

– Ay qız, nə həşir salmısan! – dedi.

– Zəncilərdən qorxdum... – Rəfiqə təzədən doluxsundu. – Elə bildim yəcuc-məcucların arasına düşmüşəm.

– Kiri, onlar da bizim kimi müsəlmandı da! – Şərqiyyə güldü. – Başçıları, deyəsən, sənə aşiq olub. Odur, hələ də sənə tərəf baxır...

Nigeriyalı başçı qadınlardan arxayınlaşdı, sonra ağappaq dişlərini göstərərək qüdrətli əzələlərini işə saldı, hələ də "Ya Şərqiyyə!" deyən dəstəsini çəkib apardı.

Bu hadisə Balacanın gözündən qaçmadı. Onunla çiyin-çiyinə irəliləyən Hacı Məftuna sataşdı:

– Hacı can, Şərqiyyə xanımı övliyaların sırasında görmək xoşdurmu? – Soruşdu.

Məftun kişi mülayim bir istehza ilə:

– Allah axırını xeyrə calasın. Xoş olmağına xoşdu, amma bundan sonra hacı xanımla necə dolanacağımı bilmirəm, – dedi, sonra sözünü təşvişlə dəyişdi. – Görəsən, Mirzəmməd kişi harada qaldı?

Zakir kişi gülümsədi:

– Zəncilər tapdalamayıbsa, tapılacaq, – dedi.

Hacı Məftun bir ağsaqqal kimi zarafatyana Zakir kişiyə irad tutdu:

– Nədi, bəd danışmaqdan xoşun gəlir? – Soruşdu, sonra cavab gözləmədən təklif elədi. – Deyirəm, kənara çəkilək, sıxlıqda dayanmağın mənası yoxdu...

## -69-
## Mirzəmməd Məhərlə rastlaşır

Yeddi nəfərlik kiçik dəstə zəncilər tərəfindən pərən-pərən salınanda Mirzəmmədin gözünə yenə mavi köynəkli hündür kişi sataşdı. Həmin adam Hicri-İsmayıldan çıxırdı. Boylana-boylana hərəkət elədiyindən Mirzəmməd onun çöhrəsini aydın gördü. Elə bil onu ildırım vurdu. Daha şəkk-şübhə ola bilməzdi, bu, Məhər idi. Təvafı yarımçıq qoyub adamları yara-yara mavi köynəkli adamın dalınca düşdü. Həzrəti İbrahim məqamından bir az aralı ona çatdı, qolundan sallandı. Həyəcanla dedi:

– Bu dəfə aradan çıxmağı heç ağlına da gətirmə! Mədinə şəhərində əlimdən çıxdın, Şəcərə məscidində sütunların dalında gizlənirdin, onda səni yaxalamağa halım yox idi, elə bilirsən burada məndən qaça bilərsən? Dur, deyirəm sənə!

Məhər yerişinə haram qatmadı, qolundan sallanan qocanı dalınca sürüdü, yalnız nisbətən seyrəkliyə çıxdıqda dayandı. İstehza ilə Mirzəmmədə baxdı, dərhal üzündə səfeh ifadə peyda oldu:

– Hırr! – deyə hırıldadı.

Mirzəmməd əlini qaldırdı:

– Bura sənin üçün dəlixana deyil, müqəddəs məkandı, axmaq hırıltılarını yığışdır, yoxsa əngini əzərəm!

– deyə onu hədələdi. – Hırıltılarınla kimi aldatsan da, məni aldada bilməzsən!

Məhərin çöhrəsindəki səfeh ifadə yox oldu:

– Baş üstə! – deyə atalığını qucaqladı. – Xoş gördük, atam! Qolumu burax, daha aradan çıxmaq fikrim yoxdu.

Mirzəmməd kişi şikayətləndi:

– Başıma nə oyundu açırsan, oğlum? Buralarda neynəyirsən?

Məhər başdansovdu:

– Həccə gəlmişəm, atam! – dedi. – Buralarda daha neyləyirlər ki...

– Bəs, mən niyə bunu bilməmişəm?...

Məhər güldü:

– Belə lazımdı, – dedi.

Mirzəmmədin təəccübü keçmirdi:

– Sən, axı, türmədə idin, bala, – dedi.

– Hə, amma həcc ərəfəsində buraxdılar. – Məhər hələ də özünə gəlməyən atalığına üstdən aşağı baxdı.

– Kim buraxdırdı? Nə təhər buraxdırdı? Belə şeymi olar? – Mirzəmməd heç cür anlaya bilmirdi. – Bu türmənin yiyəsi-zadı yoxdu?

– Türmənin yiyəsi Lotu Faxıdı. Məni o buraxdırıb, – deyə Məhər hırıldadı. – Bilirsən ki, onun bir sözü iki deyil.

– Sən hara, Lotu Faxı hara? – Məhəmməd inanmadı.

– Bura söhbət yeri deyil, – deyə Məhər əlini yellətdi. – Günorta səni "Osmanlı" kafesində gözləyəcəyəm! Get, dövrəni başa vur, yoxsa təvafın yarımçıq qalar.

– Dalınca nə Mədinədə, nə Zul-Huleyfədə çata bildim. – Mirzəmməd heyrətləndi. – Sən belə gözəl gizlənpaç oynamağı həbsxanadamı öyrəndin, oğlum?

– Yox, dəlixanada öyrəndim, atam. Dəlixana da bir yekə məktəbdir. – Məhər hırıldayaraq zəvvarlara qarışdı.

Mirzəmməd bir göz qırpımında yoxa çıxmağı bacaran oğulluğuna heyran qaldı: "Bu da bizim dəlimiz!"

## -70-
## Mehmanxanaya qayıdanda

Kiçik dəstə Həzrəti İbrahimin məqamını ötdü, açıqlıqda bir xeyli gözlədi, amma bu bir nəticə vermədi, Mirzəmməd gəlib çıxmadı.

Çıxışa tərəf getdilər. Yəmən qapılarının önündəki meydançada bir az gəzişdilər. Qadınlarla irəlidə gedən Hacı Məftun arxaya çevrilib dedi:

– Gəldiyimiz yolla qayıdıram ki, bəlkə dostumuzla rastlaşdıq, – dedi, sonra duruxub soruşdu. – Bəs, Muxtar hanı? Nədi, bunu da itirdik?

Zakir kişi dodaqucu güldü. Avtobus dayanacağındakı xırdavat köşklərini göstərdi:

– Muxtar dedi ki, buralarda ucuzluqdu, xəm-xurd almalıyam. Deyir, Bakıda məni qarşılamağa gələnlərə hədiyə verəcəyəm.

Hacı Məftun təəccübləndi:

– Bəs, bayaq mənə şikayətlənirdi ki, pulum tamam qurtarıb, – dedi. – İki daşın arasında pulu necə tapdı?

Zakir bir az sıxılaraq:

– Mən borc verdim, – dedi. – Neçə günüdü yaxamdan əl çəkmirdi.

Balaca Zakirin Muxtarla yoldaşlığının sirrini anlaya bilmirdi. Baxanda, müxtəlif təbiətli adamlar idilər.

– Maşallah, yoldaşlığınız tutur ha! – deyə Balaca söz atdı.

Zakir razılaşmadı:

– Hardan, müəllim, iyirmi dörd saat mübahisə edirik, – dedi.

Balaca aydınlaşdırmağa çalışdı:

– Mübahisələr nə üstədi ki?

Zakir kişi dilini sürüdü:

– Həcc ziyarətinin vacibliyindən söhbət edirik.

– Bəlkə xırdalayasan, ay Zakir kişi! – Balaca dayandı. – Mən üləma deyiləm, axı.

– Xırdalayım da! – Zakir qısa ağ saqqallını sığalladı. – Məni hirsləndirən odur ki, bu adam ehtiyac içindədi, durub həcc səfərinə çıxır.

– Nə bilirsən ehtiyac içindədi?

– Qonşumdu. – Zakir qısaca bildirdi. – Beş uşağı var, qoca ata-anası da üstündədi. Yalındaşdan tikilmiş kiçik bir evdə yaşayır. Ailəni dolandırmaq üçün bütün günü sükan arxasındadır. Borc-xərclə həccə gəlib. Beləsinə nə deyəsən...

– Afərin, yəqin etiqadı güclüdü... – Hacı Məftun təriflədi.

Zakir nədənsə köksünü ötürdü, razılaşdı:

– Hə, söz yox, etiqad sahibidi, – dedi.

Balaca söhbəti dəyişməyə cəhd elədi.

– Bəs, özün necə həccə gəlmisən?

Zakir düşüncəli halda:

– Mən Allahın verdiyi pul-paranın kiçik bir hissəsini Allahın yolunda xərcləmişəm, səfərə çıxmışam. – dedi. – Ailəmə beş illik maddi təminat qoymuşam, hər ay icarə haqqı gətirən mülk saxlamışam. Elə eləmişəm ki, başıma bir iş gəlsə, arvad-uşaq əziyyət çəkməsin. Allah-Təala deyir ki, mənim evimi imkanı olanlar ziyarət eləsin, ac-səfil adamlar yox... Həcc ziyarətinin hikməti budu. Doqquz yaşından namaz qılıram, oruc tuturam, ibadət edirəm. Bu barədə çox fikirləşmişəm.

Onun məntiqi qarşısında nə Hacı Məftun, nə Balaca bir söz deyə bildi. Bu vaxt qadınlar yaxınlaşdılar. Şərqiyyə xanım narazılığını bildirdi:

– Lap bica yerə burda durmuşuq, – dedi. – Mirzəmməd qardaşımız körpə uşaq deyil ki, itib-eləsin. Gəlin, taksi tutaq mehmanxanaya gedək, biz yorulmuşuq.

Heç kim etiraz eləmədi.

## -71-
## Mirzəmmədlə Məhər kafedə

Mirzəmməd təvafın axırıncı dövrəsini vurandan sonra boylandı. Yoldaşlarının Yəmən qapısına getdiyini görəndə o, İraq qapısına tərəf üz tutdu ki, onlarla rastlaşmasın. Avtobusla getsə azacağını nəzərə alıb piyada yola düzəldi. "Osmanlı" kafesinə girəndə yorğunluqdan ayaqları sözünə baxmırdı.

Məhər qapıdan aralı masaların birinin arxasında tək oturmuşdu. Atalığının ayağına qalxdı, narazılıqla:

– Rəhmətliyin oğlu, gəl, çıx da! Acından öldüm ki! – dedi, sonra xörəkpaylayanı səslədi. – Türk qardaş, sifarişimi gətir!...

O, təamı cüssəsinə uyğun sifariş eləmişdi. Aclıqdan çıxan adam kimi yeməyə daraşdı. Mirzəmməd oğulluğunun həvəsinə bir az yedi, amma süfrədən tez çəkildi, onun doymağını gözlədi. Bir azdan Məhər toqqasının altını bərkidib ağzını yuxarı tutdu, yüngülcə gəyirdi. Sonra atalığına lap yaxın oturdu, müqəddiməsiz sözə başladı. Bildiklərinin qısa xülasəsini qocanın qulağına döşədi.

– Bir sözlə, atam, Sərhədin qisasını almalıyam. – dedi. – Böyük Xaloğlu deyilən şərəfsiz ölməlidir. Bilirsən, atam, onların arasında bir arvad söhbəti var idi. Böyük Sərhədin sevgilisi Veranı əlindən almışdı, özünə arvad eləmişdi. Ədavətləri ordan başlamışdı.

– Sonra nə oldu? – Mirzəmməd sevgi macəralarının xiridarı idi.

– Sonra yaxşı oldu. – Məhər gülümsədi. – Canı yanmış Vera neçə il keçəndən sonra özü axtarıb Sərhədi tapdı, yenə başbir oldular.

– Yəni rəhmətlik Sərhəd Böyük dediyin vəzifəli şəxsin arvadını yoldan çıxarıb? – Mirzəmməd dəqiqləşdirməyə çalışdı.

– Elə də demək olar! Onda biz bazarda xəm-xurd satırdıq. Məni, yadımda deyil, nə üstəsə tutub dəlixanaya basmışdılar. Rəhmətliyinsə torbasını tikib həbsxanaya göndərdilər. – Məhər razılaşdı. – Bunların hamısını eləyən o Böyük haramzadədir.

Mirzəmməd onun söylədiklərini eşidəndə çaşdı:

– Qisas alacağın adam bəyəm burdadır? – Soruşdu.

– Hə, Sərhədin qatili də həcc ziyarətindədir. Vacib zəvvarların olduqları üç mərtəbəli binada qalır. Bu gün axşam Məkkəyə gəliblər, – deyə Məhər güldü. – İndi söz mənimdi.

Mirzəmməd onu bu yoldan çəkindirmək üçün:

– İnsanı öldürmək asan məsələ deyil, oğlum, bir fikirləş, – dedi.

– Atam, Böyük insan deyil, baş kəsənin biridi. Onun axırına çıxmalıyam. Bir də “sxodkanın” hökmü belədir.

Lotu Faxının rəhmətlik Sərhədlə iş birliyindən Mirzəmmədin xəbəri vardı.

– Hərəmdə heç milçəyi də öldürmək olmaz, axı! Günahdı! Qəbahətdi! – Mirzəmməd təşvişlə dilləndi.

– Atam, Böyüyü burdan sağ buraxa bilmərik. Bakıda ona gücümüz çatmayacaq. Arxasında Agentlik kimi bir qüvvə dayanır, – dedi, birdən ürəkdən hırıldadı. – Bir də, ay rəhmətliyin oğlu, dəli nə qanır günah nədi, qəbahət nədi.

Mirzəmməd oğulluğunun küfr danışmağından donuxdu, bilmədi nə desin.

## -72 -
## Balaca vəzifə başında

Sosialist əmlakının oğurlanması ilə mübarizə şöbəsində yerini bərkidən Böyüyün əlində rayonun bütün ticarət, iaşə obyektlərinə nəzarət cəmləşmişdi. Balacanı da yanına gətirmişdi.

İnstitutlardan biri Balacanın ərazisində idi. Onu yerli tələbələr yox, sayı çox olmayan xarici tələbələr maraqlandırırdı. Bir dəfə sələfindən qalma sənədləri vərəqləyəndə duruxdu, Kadır adında bir tələbənin adı qayda pozuntusunda bircə kərə də hallanmırdı. Bu, Balacaya qəribə gəldi. Dördüncü kursda oxuyan Kadır Suriya ərəblərindəndi. Yataqxanada qalmırdı, ev kirələmişdi. Ərəbi bir müddət izlədi, amma sualları cavabsız qaldı.

Məsləhətə Böyüyün yanına getdi. Topladığı məlumatı onunla bölüşdü:

– Ərəbin cibindən pul qurtarmır, xaloğlu, – dedi. – Düzdür, sağa-sola xərcləmir, amma kefindən də qalmır. Gəzdiyi qızları tez-tez dəyişir. Bir belə pul hardandı onunçün, anlamaq olmur.

Böyüyün başı qarışıq olsa da, qardaşını diqqətlə dinləyib:

– Ərəb ayda neçə dəfə Dəməşqə uçur? Oradan satmağa nə gətirir? – Soruşdu.

– İki dəfə uçur, amma hər dəfə əliboş gəlir. Çanta çiynində aeroportdan çıxır.

– Bəlkə “qara bazarda” valyuta alverilə məşğuldur? Bu vəzndən yüngül, qiymətdən ağır bir işdi, – deyə Böyük gümanla dilləndi.

– Yox, ərəbi Malakan bağının həndəvərində görən olmayıb. Bilirsən ki, şəhərin valyuta alveri orda cəmləşib. – Balaca biliciliklə dilləndi, sonra başqa mətləbə keçdi. – Hə, sənə təzə bir xəbər verim. Məşhur bacılar yadındadı? Ballı-Xallı bacılarını deyirəm.

Böyük canlandı:

– Çapayev küçəsində zirzəmidə yaşayanları deyirsən? – Soruşdu. – Hə, əlbəttə, iki-üç ildi yoxa çıxıblar.

Balaca fərəhlə gülümsədi:

– Gözün aydın! – dedi. – Mən onları tapmışam.

– Nə yaxşı! – Böyük də dişini ağartdı. – Oturdub maşına gətirə bilmirdin? Dişimizin dibini dəyişərdik...

– Asta ye, boğazında qalar! – Balaca irişdi. – Ballı-Xallı əvvəlki bacılar deyil, aeroportun həndəvərində böyük xəm-xurd bazarı açıblar, kefləri kökdü, pula pul demirlər.

Böyük yada saldı:

– Həə, bir vaxtlar Xallıya evlənmək istəyirdin... – dedi. – Əgər evlənsəydin...

Balaca eyni istehza ilə:

– Mənə ilişirsən? – Soruşdu. – Sən deyildin Ballının dərdindən əriyən?

Böyük qardaşının şənliyinə şərik olmadı, üzünü turşutdu. Balaca əl çəkmədi, onu cırnatmağa çalışdı:

– Bacılar evlərini satıb aradan çıxandan sonra özünə yer tapmırdın... Ha-ha-ha!

Böyük əlini hökmlə qaldırdı:

– Qurtar, xaloğlu, bizim hər yoldan ötən şortuya sərf edilməli vaxtımız yoxdu, birbaşa işimizə qayıdaq, – dedi və əvvəlki söhbətin üstünə qayıtdı. – Bir şeyi bilirəm ki, çirkli pulların mənbəyi ya rüşvətdi, ya oğurluq-qarətdi, ya da alverdi. Güman ki, ərəb dördüncü mənbəni kəşf eləməyib. Sən Kadırı izlə, gör, yerli adamlardan kiminlə təmasdadı.

## -73-
## Böyüyün şübhələri

Böyük polkovnik rütbəsi alanda artıq Azərbaycanın sahibi Vəzirovun qoz əkmək arzuları puç olmuşdu, başına çarə axtarırdı. Bir az da təhəmmül eləsəydi, Veranın köməyi ilə general olacaqdı, amma şərəfsizliyə daha dözə bilmədi. Arvadının əlindən xirtdəyə yığılmışdı, gəzəyənliyinə daha dözmək olmurdu.

Bir dəfə Balacadan xahiş elədi:

– Gör, bu çəpgöz şortu haralarda veyillənir, – dedi. – Amma nəzərə al ki, gəlinbacın hiyləgər şeydi, səni azdıracaq. Başsoyuqluq eləmə, yoxsa əlin boşda qalacaq.

– Baş üstə. – Balacanın Böyüyə olan həqarəti keçdi, heç demə, neçə illərdi qardaşı hesabı içəri verirmiş. Söhbətin biədəbliyinə bir az zarafat qatmaq fikri ilə əlavə elədi. – Şortu gəlinbacımı iş başında yaxalamağa söz verirəm. Sonrasın özün bilərsən...

Amma "gəlinbacını" izləmək bir nəticə vermədi. Vera çox ayıq tərpənirdi, sanki izləndiyini dəqiq bilirdi.

## -74-
## Balaca Veranın sirrini açır

Balaca ərəbi gözdən qoymurdu. Kadırı bir neçə gün qarabaqara izlədi. Tələbənin maşını vardı, amma ərəb

bunu gözə soxmurdu. "Jiqulisini" bir məhəllə aralı saxlayır, instituta piyada gəlib-gedirdi. İki gündən bir aeroporta baş çəkirdi. Saxlanma kamerasından bir bağlı ilə çıxırdı. Sonra maşını onların böyüyüb-başa çatdıqları "Sovxozun" yaxınlığındakı böyük kəndə sürürdü. Tanış bazarın həndəvərində saxlayırdı. Bağlını alver sıralarının birində xırdavat satan bir nəfərə ötürürdü. Həmin adamdan aldığı pulu cibinə qoyub bazardan çıxıb şəhərə qayıdırdı. Balaca heyranlıqla fit çaldı. Qurulmuş mexanizmin səlisliyinə söz ola bilməzdi.

Satıcının kimliyini təyin eləmək çətin olmadı. Bu onların köhnə tanışı Sərhəd idi. Kişi qanunsuz yollarla ölkəyə ayaq açan xarici məhsulların satışı üzrə ixtisaslaşmışdı. Saqqız, alışqan, brellok, siqaret, rəngli polietilen torbalar, rəngli maykalar, "Levis" cins şalvarlar kimi xırdavatın alverini eləyirdi. Qardaşı Sərham da onun əlinin altında çalışırdı.

Ətraflı məlumat toplamaq üçün bir neçə dəfə kəndə baş çəkdi. Sivil geyimdə olduğundan tanınmaqdan qorxmurdu. Bir dəfə təsadüfən Veranı bazarda Sərhədin yanında gördü. Çox məhrəm dayanmışdılar. Aydın oldu ki, Böyüyün şübhələri nahaq deyilmiş. Vera köhnə sevgilisi ilə görüşürmüş.

## -75-
## Böyük Sərhədi cəzalandırır

Balaca Böyüyün yanına qaçdı. Qardaşı öz arvadı haqqında söylənənləri sakit qarşıladı. Sonra iş barəsində məlumatı dinlədi, ona irad tutdu:

– Aeroport bizim ərazi deyil, burnunu ora soxma, – dedi. – Qoy, ərəb qardaşımız saqqızını satsın.

– Bəs, Sərhədi neyləyək? – Balaca soruşdu.

Böyük bir az fikirləşib:

– Dostumuzun torbasını tikə bilərsən! Ərazi üzrə bölməyə zəng vuraram, sənə kömək edərlər. Sərhədin mənzilinə bir-iki oğurluq mal atarsan ki, maddəsi ağır olsun, – dedi. – Qoy, beş-altı il türmədə yatıb ağlı başına gəlsin, bir daha özgəsinin arvadını yoldan çıxarmaq fikrinə düşməsin.

Balaca həqiqət naminə qeyd elədi:

– Mənə elə gəlir ki, özgəsinin arvadı elə Sərhədi yoldan çıxarır, – dedi. – Gəlinbacım az aşın duzu deyil.

– Ola bilər! – Böyük razılaşdı. – Amma bu işin məğzini dəyişmir.

Balaca əllərini bir-birinə sürtdü:

– Əla! – dedi və həvəslə gülümsədi. – Bəlkə ərəbə də bir yüngül qulaqburması verək. Bu gün-sabah institutu qurtarır, Suriyaya gedər, əlimizdən çıxar.

Böyük Balacanın sözünü kəsdi:

– İşin olmasın! Nədi, diplomatik qalmaqal istəyirsən? – Soruşdu.

– Zəhmətimə hayfın gəlmir? – deyə Balaca şikayətləndi. – Neçə aydı, gecəm-gündüzüm yoxdu, onu izləyirəm.

Böyük qalxıb pəncərəni açdı. Azadlıq meydanındakı mitinqçilərin içəri dolan "Topxana! Topxana!" hayqırtısı Bakını lərzəyə gətirirdi.

– Görürsən, aləm bir-birinə dəyib, Bakı qaynayır. Sən də düşmüsən bir saqqız satan ərəbin dalınca ki, iş bilmişəm, – dedi. – Ölkə dəyişiklik ərəfəsindədi...

– Bəs, Vera nə olsun? – Balaca soruşdu. – Onu neyləyək?

Böyük vəd elədi:

– Deyərəm sənə, – dedi. – Əncam çəkəndə biləcəksən, tələsmə.

## -76-
## Cavab

Balaca sualına bir neçə gündən sonra cavab aldı. Sərhədin həbs edildiyini eşidən Vera şələ-küləsini yığışdırıb Moskvaya uçdu. On yaşlı Timuru da özü ilə aparmışdı. Veranı aeroportda görənlər deyirdilər ki, arvadın üz-gözü göm-göy idi. Rinqdən çıxmış boksçudan seçilmirdi.

Vera o gedən getdi, bir daha Bakıya qayıtmadı. Qardaşlar rahat nəfəs aldılar. Fidoranın incikliyi keçdi, Böyüyün dörd otaqlı mənzilinə köçdü.

## -77-
## Fidoranın ölümü

Amma rahatlıqları çox çəkmədi. Bakının qarışıq vaxtı idi. Doxsanıncı ilin yanvarında rus ordusu Azərbaycana soxuldu. Fəth olunmuş Bakı qorxmadan İyirmi yanvar şəhidlərini dəfn eləyirdi. Həmin günlərdə illər xəstəsi olan anaları dünyasını dəyişdi. Dərddən başını itirmiş Balaca keşiş dalınca getmək istəyəndə Böyük istehza ilə:

– Yaman ağıllısan ha! – dedi. – Molla çağır.

– Xala müsəlmanlığı qəbul eləməmişdi, axı! – Balaca çaşqınlıqla döyükdü. – Xaçpərəst idi, axı!

– Nə olsun? Deyirsən keşiş çağıraq? Onda həmkarlarımıza nə deyək? Qonşularımızı necə başa salaq? – deyə Böyük soruşdu. – Hamı anamızı müsəlman bilirdi, axı... Namaz qılırdı, oruc tuturdu.

– Tüpürüm sənin qonşularına da, həmkarlarına da! – Dərddən lap başını itirmiş Balaca çımxırdı. – Biz haçandan başqalarının sözü ilə durub-oturmuşuq ki!

– Başa düş, qardaş, hamı bizi ikiüzlülükdə günahlandıracaq! Bunu istəyirsən? – Böyük səbrlə soruşdu.

– Bəs, xaçpərəstin biri müsəlman kimi dəfn olunsa, onun o dünyasını kim verəcək? Anamız qəbirdə rahat yatacaqmı, ay əbləh? – Balaca birinci dəfə Böyüyün üzünə qayıtdı, onu təhqir elədi.

Böyük təhqiri eşitmirmiş kimi məsləhət gördü:

– Özünü gicliyə qoyma, Balaca! Nə üləmasan, nə də müctəhid! – dedi. – O dünya-bu dünya deyib haray-həşir salma! Dünya bir dənədi, o da yaşadığımızdı, qalan əfsanə söhbətlərdi...

Balaca bir az sakitləşdi:

– Deyirsən xalanı müsəlman kimi dəfn eləyək?

Böyük başını tərpətməklə kifayətləndi. Xaçpərəst Fidoranı müsəlman kimi dəfn elədilər.

## -78-
## Axırıncı reys

Azərbaycandan axırıncı reyslə Mədinəyə gələn zəvvarları tanımaq çətin deyildi. Qadınlı-kişili, hər biri totuq-motuqluğu ilə seçilirdi. Lap işım-işım işıldayırdılar. Onların arasında yemək-içməkdə özünə korluq verən tapa bilməzdin. Hər birinin hərəkəti arxayın, duruşu inamlı, söhbəti ləngərli idi. Baqajları əl arabasına zorla yerləşirdi. Avtobuslara tərəf tənbəl-tənbəl addımlayırdılar. Yəqin ki, yerbəyer olmaları xeyli çəkəcəkdi.

Səfəri gizli saxlanılan Mizi Mətişoğlu məiyyəti ilə axırıncı reyslə gəlmişdi. Onlar təyyarəni tərk elədilər. Komitə sədri Agentliyin əməkdaşlarının əhatəsində hava limanından çıxdı. Bayırda bürkü olsa da təhlükəsizlik qaydaları pozulmadı, nizamlı yerişlər dəyişilmədi. Bö-

yük sağında, Əflan solunda, cangüdənin ikisi arxada, ikisi qabaqda, nazir ortada dayanacağa çatdılar.

Azərbaycan zəvvarlarını şəhərə aparan avtobusların axırıncısı dayanacaqdan təzəcə uzaqlaşmışdı. Kənarda dayanmış mikroavtobusdan bir nəfər ərəbi geyimli kişi düşdü, komitə sədrinin məiyyətinin qabağına gəldi. O, anlaşıqlı rus dilində dedi:

– Уважаемые господа, представитель королевской семьи Саудовской Аравии приветствует Вас на святой земле! – dedi, sonra ingilis dilində əlavə elədi. – Dear sirs, representative of the royal family of Saudi Arabia welcomes you to the holy land, – dedi, daha sonra təmiz azərbaycanca ingilis və rus dillərində dediklərini təkrarladı. – Cənablar, Səudiyyə Ərəbistanının kral ailəsinin nümayəndəsi sizi müqəddəs torpaqda salamlayır. Xoş gəlmisiniz.

Böyük irəli keçdi, kral ailəsinin nümayəndəsilə qucaqlaşdı, sonra onu Mizi Mətişoğluna təqdim elədi:

– Cənab nazir, bu dostum Məhəmməd Xələfdir, əslən Bakıdandır, tələbə yoldaşımdı, indi Yəmən vətəndaşıdı. Ziyarət zamanı bələdçimiz, tərcüməçimiz, hamimiz olacaq, – dedi, sonra dostuna özü ilə gələnləri tanıtdı. – Bu dəsgahlı, “eyvanlı” kişi bizim nazir Mizi Mətişoğludu, yemək-içməklə arası sazdı, amma gözü tox kişidi. Qalanları mənim əməkdaşlarımdı, hər biri nazirin təhlükəsizliyinə cavabdehdir.

Qısa əhvali-pürsanlıqdan sonra nazirin məiyyəti mikroavtobusa mindi. Mizi Mətişoğlu keçib arxada üç nəfərlik oturacağı zəbt elədi. Sindepon doldurulmuş yumşaq yastıqlara söykəndi, gen-bol yayxandı.

Binədən qarabuğdayı olan Məhəmməd Ərəbistanın havasından tamam qaralmışdı. Yalnız ala gözlərindən tanımaq olurdu. O, keçib sürücü ilə yanaşı oturdu, maşın yerindən tərpəndi.

Məhəmmədin arxasında özünə yer eləyən Böyük soruşdu:

– Aişə xanım necədi?

O vaxtlar Böyükdən əli üzülmüş Aişə Meməri Məhəmmədə meyl salmışdı. Onlar institutu qurtarandan sonra evlənmişdilər. Ər daimi yaşayış yeri kimi arvadının vətənini seçmişdi, Yəmən vətəndaşlığını qəbil eləmişdi.

Köhnə dostunun sualını eşidib arxaya çevrildi:

– Əladı! Sənə çoxlu salamı var! – dedi, ağ dişləri parıldadı, sonra salona göz gəzdirdi. – Bəs, Balaca hardadı?

Böyük gülümsədi:

– Xaloğlu artıq Məkkədədi. Orda bizə qoşulacaq, – dedi. – Sən heç Vətən üçün darıxmırsan?

– Bu il Bakıya gəlmək istəyirik. Qızlarımızı da özümüzlə gətirəcəyik. – Məhəmməd vəd elədi.

On il bundan qabaq valideynlərini dəfn eləyəndən sonra dostu Azərbaycana bir daha üz çevirməmişdi. Böyük maraqlandı:

– Neçə qızınız var ki?

– Beş qızımız var. Böyüyünü ərə vermişik, kiçikləri evdədi. – Məhəmməd fərəhlə gülümsədi.

Böyük qibtə ilə:

– Ay maşallah! – dedi. – Məhsuldar işləmisiz.

Məhəmməd üzr istəyib söhbəti dəyişdi, səfərin proqramını açıqladı:

– Əziz həmvətənlər! Bir azdan Ömreyi-Təməttünün həcc əməllərini yerinə yetirəcəyik. Əvvəl sonuncu peyğəmbərin qəbri ziyarət olunacaq, peyğəmbər məscidində namaz qılınacaq, sonra Bəqi qəbiristanına baş çəkəcəyik. Yolda, Şəcərə məscidində ehrama girəcəyik. Daha sonra Məkkəyə yollanıb Allahın evini təvaf edəcəyik, – dedi, qısa fasilədən sonra hər ehtimala qarşı soruşdu. – Sizdən hansınız gündəlik namazları qılır?

Məlum oldu ki, maşındakı zəvvarların arasında beləsi yoxdu. Məhəmməd istehza ilə soruşdu:

– Bəs, həcc ziyarəti nəyinizə gərəkdi? Etiqadsızın burda nə işi var?

Böyük də istehza ilə:

– Sən köhnə kommunistlərə ilişmə, – dedi. – Etiqadımıza nə gəlib?

Məhəmməd lağ elədi:

– Bu etiqadla cəhənnəmdə yanacaqsız!

Böyük də köhnə tələbə yoldaşına lağ elədi:

– Sən Allah-Təala ilə bəndəsinin arasına girmə, kimi harda yandıracağını özü yaxşı bilir, – dedi.

Məhəmməd Xələf təslim oldu:

– Sən həmişəki kimi haqlısan, Böyük, – deyə razılaşdı, sonra astadan soruşdu. – Nazirin həccə ziyarətinin məqsədi nədir?

Böyük dinmədi. Neçə vaxt idi bu sual onun özünü də düşündürürdü, amma cavab tapa bilmirdi. Sözü dəyişdi:

– Dostum səndən yenə balığ iyi gəlir, uşaqlıqdakı kimi.

Məhəmməd Xələf gülümsədi:

– Vərdiş eləmişəm, balıqsız süfrəyə oturmuram.

## -79-
## Məhəmməd Xələf

Mədinə şəhərindən Məkkə şəhərinə qədər beş yüz əlli kilometr yolu yeddi saata getdilər, yalnız Zul-Huveyladakı miqatda yubanmışdılar, ehrama girmişdilər. Artıq müqəddəs Kəbənin həndəvərində idilər.

Məhəmməd Xələf qonaqlarının ah-zarını eyninə almırdı. Zarafat eləyirdi:

– Cənablar, sizin günahlarınız çoxdu, tər tökün ki, rəhmli Allah da sizi bağışlasın.

Mizi Mətişoğlu əşya torbasını çiynindən çıxarmırdı. Böyük bir neçə dəfə dedi:

– Cənab nazir, sənə əziyyət olar, torbanı ver uşaqlar götürsün.

Mizi Mətişoğlu aforizmə çevrilən bir fikir söylədi:

– Müqəddəs məqamda hamı bərabərdi, Böyük, hər kəs torbasını özü daşımalıdı, – dedi.

Məiyyətindəkilər nazirə hörmətlə baxdılar. Heç kim ondan belə insanpərvərlik gözləmirdi. Mizini yaxşı tanıyan Böyük gülməkdən özünü zorla saxladı, fikrindən keçdi: “Görəsən, torbada nə var ki, əlindən vermək istəmir? Maraqlıdır”.

Məhəmməd müqəddəs Kəəbənin təvafının ən asan yolunu seçdi. Ürəyində düşündü: “Bu Allahsızlara görə o basırığa girməyin mənası yoxdu”. Seyrəklikdə dolanaraq yeddi dəfə Allahın evini təvaf eləyib müqəddəs Kəəbədən çıxdılar. Mikroavtobusa minəndə Məhəmməd təklif elədi:

– Gün yarımdan çox vaxtımız var, – dedi. – İstəsəz Ərafata da gedə bilərik.

Böyük etiraz elədi:

– Məkkədə dincimizi alsaq yaxşıdı. Həm Balacanı özümüzlə götürməliyik, həm də yol naziri əldən salıb, dincəlməlidi. – Sonra zarafat elədi. – Sən, qardaş, hətta günahkar bəndələrin də dincəlmək hüququnu əlindən ala bilməzsən.

Məhəmməd onları mehmanxananın xüsusi qonaqlar üçün nəzərdə tutulmuş baş korpusuna yerləşdirdi. Üçmərtəbəli qədim bina dəbdəbə içində üzürdü. Hər yer

gəlin otağı kimi bəzəkli idi. Bağlı-bağatlı həyəti vardı. Həm içəridən, həm bayırdan Səudiyyə polisi tərəfindən mühafizə olunurdu. Binaya icazəsiz girmək mümkün deyildi.

Qonaqlar üst-başlarını dəyişdilər, sonra iyirmi dörd saat açıq olan yeməkxanaya düşdülər. Aliməqam qonaqlar heyran qaldılar. Yeməklərin çeşidləri göz oxşayırdı, bircə quş südü çatmırdı. Naz-nemətin bolluğundan Mizi Mətişoğlunun kefi kökəlmişdi. Bunu görən Böyük Məhəmmədin qulağına pıçıldadı:

– Sağ ol, dostum, cənab nazirin yanında başımı uca elədin, – dedi.

## -80-
## Mizi Mətişoğlunun həcc hazırlığı

Mədinə şəhərinə uçacaqları gün Mizi Mətişoğlu səhər tezdən iş yerində idi. Bir neçə saatdan sonra Səudiyyə Ərəbistanına səfərə çıxacaqdılar. Yol hazırlıqları bitmişdi. Dünən katibə onun əşyalarını, pal-paltarını çantalarına, iri çamadana yığmışdı.

Onun qarşıdakı səfərinin məqsədindən heç evdəkilərin də xəbəri yox idi. Onsuz da arvadını, oğlanlarını vəzifə olaylarından kənarda saxlayırdı. Maraqlananların suallarının qabağını qabaqcadan almaq üçün şayiə yaymışdı ki, bir neçə günlüyə müalicəyə gedəcək.

Kabinetin qapısında Mizi Mətişoğlu arxasınca gələn sürücüdən kiçik bağlamanı alıb ona dedi:

– Mən Bakıda olmayacağam, bir həftə azadsan. – Kabinetinə girəndə farağat dayanmış katibəyə tapşırdı. – Agentliyin rəisini yanıma çağır.

– Oldu, cənab nazir. – Cavan katibə səsləndi, sonra hələ qəbul otağından olan sürücüdən utanmadan kövrək səslə əlavə elədi: – Sizsiz darıxacağam, cənab nazir.

Mizi Mətişoğlu gülümsədi, amma cavab vermədi. Ona nazir desələr də, nazir deyildi, komitə sədri idi. Xalq cəbhəsi hakimiyyəti dövründə, iyirmi yeddi yaşında vəzifəyə gəlmişdi. Ucaldığı mərtəbədən daha düşməmişdi. Nə onda, nə də sonralar, Ballı, Xallı bacıları onun yolunda pullarını qızırqanmamışdılar. Elə o vaxtdan bu günə qədər vəzifələrdə idi. İyirmi il idi ki, burdan çıxarıb ora qoyurdular, ordan çıxarıb bura qoyurdular, amma onu rəyasət kürsülərindən tamam-kamal kənarlaşdırmırdılar. Başqa cür ola da bilməzdi. Mizi çox əliaçıq kişi idi, onu sıxışdırıb aradan çıxarmaq istəyən səlahiyyət sahiblərini artıqlaması ilə mükafatlandırdı ki, bir də bu fikrə düşməsinlər. Ballı və Xallının milyonları onlar sağ olanda da, indi də xidmətində idi. Bacıları hektarlarla ərazidə yerləşən xəm-xurd bazarlarını, ticarət mərkəzlərini, mülklərini, restoranlarını ölməzdən qabaq onun adına yazdırmışdılar. Mizinin kifayət qədər ağlı vardı, yeni milyonların dalınca düşmürdü, olan varidatını qorumaqla məşğul idi. Yalnız vəzifəsinin sayəsində buna

nail olurdu, yoxsa qurd-quş basıb yeyəcəkdi. Dövlətin vəsaitinə kəm baxmadığına görə gözütox məmur şöhrəti qazanmışdı.

Kabinetə keçəndən sonra özü ilə gətirdiyi bağlını açıb içindəkiləri masaya qoydu. İki ağ torba idi. Onları ehtiyatla əlində vəznlədi. Üstünə Ballı yazılan torba Xallı yazılandan ağır gəldi. Kədərlə gülümsədi: "Elə həyatda Ballı ağır oturub batman gələrdi, Xallı isə bəzən yüngüllük eləyərdi". Mizi neçə illərdi ki, bacılarının vəsiyyətini yerinə yetirə bilmirdi, hər dəfə bir qənbərqulu çıxırdı. Bu il, axır ki, əlinə imkan düşmüşdü. Bilirdi ki, şansı əldən buraxmaq olmaz. Bacıları həcc ziyarətinə getmək istəyirdilər, amma xəstəlik qəflətən onları haqlamışdı. Həmin günlərdə Mizi başını itirmişdi, bilmirdi neyləsin. Ballı ilə Xallı qısa vaxtda tanınmaz hala düşmüşdülər, hər ikisinin quru qaraltısı qalmışdı. Xallı görürdü, eşidirdi, amma dili daha söz tutmurdu. Ballı isə hələ, pıçıltı ilə də olsa, danışırdı. Keçindiyi gün: "Qardaş, başına dönüm, nəşimizi Məkkəyə apararsan. Pula qızırqanma, nə qədər lazımsa, xərclə, milyonlarımız sənin ixtiyarındadı. Allah bəlkə günahlarımızı bağışladı. Biz cəhənnəm odunda yanmaq istəmirik", – deyə göz yaşı tökmüşdü.

Mizi ölüm yatağında olan bacılarına söz vermişdi. Amma vəsiyyəti yerinə yetirmək istəyəndə xeyli problemlə üzləşdi. Üləmalar bir söz deyirdi, dövlət adamları başqa bir söz. Bu işin məqbul yolunu deyən yox idi. Vəsiyyəti yerinə yetirməkdən əl çəkəcəkdi ki, uşaqlıq dos-

tu işin çarəsini tapdı. O, dədə-baba kəndlərindəki qəbiristanda mollalıq edirdi. Mərhumələrin qəbir torpağından torbalara yığıb Məkkəyə aparmağı məsləhət gördü: "Müqəddəs Kəəbəni dolandırıb qaytararsan, mən də nəşlərinin üstünə səpərəm. Bu, elə həccə getməyə bərabərdi", – demişdi. Uşaqlıq dostu qəbirləri açmağı da boynuna götürmüşdü.

Mizi torpaqla dolu torbaları iri çamadandakı pal-paltarın arasına yerləşdirib sonra masasının arxasına keçdi. Selektorun yanıb-sönən düyməsini basdı, katibəni dinləyib buyurdu:

– Qoy, Böyük gəlsin, – dedi.

## -81-
## Böyüklə Mizinin dostluğu

Səfərin təhlükəsizliyini boynuna götürmüş Böyüyü Mizi Mətişoğlu doxsan üçüncü ildən tanıyırdı. Təzəcə yüksək vəzifəyə təyinat almışdı. Böyük hələ adı dəyişdirilməmiş sosialist əmlakının dağıdılmasına qarşı mübarizə idarəsində işləyirdi. Mizinin qəbuluna girib xidmətlərini təklif eləmişdi. Söhbətləri tutmuşdu. Bundan sonra təzə nazir məmnuniyyətlə Böyüyün imkanlarından bəhrələnsə də, içində yer eləmiş şübhələri keçmirdi. Bir dəfə soruşdu:

– Sənin sədaqətinin səbəbi nədir? Qohum deyilik, dost deyilik, bir yerdə oxumamışıq...

Böyük heç nəyi gizlətmədi:

– Mən Ballı, Xallı bacılarını tanıyıram. Bir vaxtlar onlara köməyim dəyib.

Bacılarının cavanlığı Mizi Mətişoğlunun ağrıyan yeri idi. Düzdür, artıq bacıları cəmiyyətdə hörmətli xanımlar kimi tanınırdı, bundan sonra atılan heç bir çamur onlara yapışa bilməzdi. Odur ki, nifrətlə Böyüyə baxdı:

– Demək istəyirsən ki, bacılarımın aşnası olmusan? – deyə soruşduqda biədəb faktı dilinə gətirməkdən qorxmadı.

Böyük çaşmadı:

– Mən elə deməzdim. Bir vaxtlar Balaca xaloğlum bacın Xallıya evlənmək istəyirdi, amma alınmadı. Elə mənim də bacın Ballı ilə bağlı ciddi fikirlərim vardı, – dedi, sonra bacılarla tanışlıqlarından ətraflı danışdı.

İnanmaq çətin də olsa, xəstəxanada canı ilə əlləşən bacıları deyilənləri təsdiqlədilər. Bu kifayət elədi ki, Böyüklə tanışlıqları dostluğa çevrilsin. Tez-tez görüşürdülər. Böyük müxtəlif vaxtlarda onun bir neçə sifarişini yerinə yetirmişdi. Lap yaxınlarda deputatlığa gedən yolda Sərhədi kənarlaşdırmaqda kömək eləmişdi. Düzdür, Mizi bundan bəhrələnə bilməmişdi, rəhbərlik başqa bir namizədə üstünlük vermişdi. Xalq arasında deyildiyi kimi: "Mizi Mətişoğlu yeşikdən çıxmamışdı". Amma o, ümidini kəsmirdi, verdiyi pulları da geri tələb eləmirdi,

oyunun qaydalarını pozmurdu. Bilirdi ki, səbr eləsə, bir gün onun küçəsinə də bayram gələcək, deputat mandatı alacaq. Bir sözlə, Böyüyün sədaqəti illərin sınağından çıxmışdı. Ona arxalanmaq olardı.

– Hə, Böyük, bir şeyi unutmuşuq. – İçəri girən Agentlik rəisini bu sözlərlə qarşıladı. – Keç, otur.

Böyük oturmağına oturdu, amma təəccübünü gizlətmədi:

– Nəyi unutmuşuq, cənab nazir?

Mizinin dolğun sifəti işıq saçırdı, əylənmək fikrinə düşmüşdü:

– Rəngarənglik üçün gərək özümüzlə səfərə zərif cinsin nümayəndələrini də götürəydik, – dedi. – Hərəmizə bir mamlımatan aparsaydıq Məkkəyə pis olmazdı.

Böyük Mizi Mətişoğlunun zarafatını ciddi qəbul elədi, təəssüflə:

– Bir neçə gün qabaq desəydiz, bununla məşğul olardım. Amma daha gecdir, cənab nazir, özümü öldürsəm də, çatdırammaram, – dedi, sonra əllərini bir-birinə həvəslə sürtdü. – Amma nə olardı.

Mizi Mətişoğlu ürəkdən güldü, iri qarnı atılıb-düşdü:

– Adə, zarafat edirəm, həccə də aşna apararlar? Lap müşriksən ki! Elə bir himə bənd imişsən! – Gülməkdən yaşarmış gözlərini silib əsl mətləbə gəldi. – Necə bilirsən, özümüzlə nə qədər nağd pul götürsək, yaxşıdı?

Böyük sualı gözləyirmiş kimi dərhal cavab verdi:

– Nağd pul götürməyə ehtiyac yoxdu, – dedi. – Dostum Məhəmməd Xələfin hesabına böyük məbləğdə pul köçürmüşəm. Hamımıza bəs edər.

Mizi Mətişoğlu hörmətlə ona baxdı:

– Afərin, Böyük, başın saat kimi işləyir! – Təriflədi. – Mənim rəhmətlik Ballı və Xallı bacılarım da sənin kimi dahi idilər.

Böyük fərəhlə gülümsədi, nazirin tərifi canına yağ kimi yayıldı:

– Yox, canım, mən Ballı-Xallı bacılarına çatmaram. Allah onlara rəhmət eləsin, kəllə idilər, – dedi.

Amma bacılar haqqında əsl həqiqət bir az fərqli idi.

## -82-
## Bacıların həyatı

Ballı-Xallı bacıları özlərini musiqiçi sayırdılar. Düzdü, çalmaqlarına, oxumaqlarına, oynamaqlarına valeh olan yox idi, dəvət aldıqları məclislər, adətən, dinləyicisi məhdud kişi yığıncaqları olurdu. Oynamaqlarına, oxumaqlarına, çalmaqlarına xiridar tapmayanda kədərlənmirdilər, başqa keyfiyyətlərini işə salırdılar. Bacılar dovtələb deyildi, təkliflərin maddi tərəfi onları təmin eləyəndə məclis əhlinin arzularını həvəslə yerinə yetirirdilər. Əldə edilmiş vəsait xərclər çıxılandan sonra üç yerə bölünürdü. Bir payını dar günə saxlayırdılar ki, işdi

müştəri tapılmayanda, xəstələnəndə ehtiyaclarını ödəyə bilsinlər. Başqa kömək yerləri yox idi. Ailələri onlardan üz döndərmişdi.

Bakının uzaq kəndində böyümüşdülər. Ataları onları orta məktəbi qurtaran kimi ərə vermək fikrində idi. Qonşudan elçi gəlmişdi, artıq razılıq verilmişdi. Şəhərə mahnı müsabiqəsinə getmiş bacılar evə qayıtmamışdılar. Axmaq hərəkət etdiklərini sonralar anladılar, amma artıq iş-işdən keçmişdi.

Bacılar cavanlıqda harda gəldi, yol maşınlarında, ucuz aşxanalarda, dəniz kənarındakı divarları qamışdan olan çayxanalarda əylənirdilər. Yalnız sanballı müştərilərini Çapayev küçəsindəki xəlvətxanaya, yarızirzəmi mənzillərinə gətirirdilər. Bir dəfə ehtiyatı əldən buraxdılar, zirzəmidən gələn çalğı, gülüş, mahnı səslərinə görə bir paxıl qonşuları mənzillərinə hücum çəkdi, qalmaqal saldı, hətta, milisə şikayət yazdı. Həmin gün bölmə üzrə növbətçi Böyük idi. O, Ballı-Xallı bacılarını milisə dəvət elədi, izahatlarını aldı. Xeyli söhbətdən sonra qalmaqalı yat-küt eləməyə söz verdi. Əlbəttə, bu bacılara havayı başa gəlmədi, Böyük onların Çapayevdəki mənzilinə dadandı. Heç vaxt tək gəlmirdi, özü ilə Balaca adlı xalası oğlunu da gətirirdi. Münasibətləri get-gedə ciddiləşirdi. Balaca Xallıya evlənmək istəyirdi. Elə Böyük də Ballı ilə münasibətini cilalayırdı. Deyirdi ki, arvadı Vera ilə boşanmaq fikrindədir.

Amma xaloğlularla əlaqələr bacıları heç açmırdı, onlar azadlıqlarını əldən vermək fikrində deyildilər. Bir də Balaca ilə Böyük bacıların axtardıqları kişi tipi deyildilər. Xaloğlulardan yataqda istədiklərini ala bilmirdilər. Həmişə öz aralarında zarafat edirdilər: "Bunların özlərinə kişi lazımdı!" Bacılar şirəyə gələn milçəklərdən canını qurtarmaq yolunu bir neçə ay axtardılar. Səksən altıncı ildə Çapayevdəki evlərini xəlvətcə satıb aradan çıxdılar.

Bacıların hər ikisi başlı qadın idi, hər ikisi çiyninin üstündə nazir kəlləsi gəzdirirdi. Azərbaycan Sovet dönəminin Qorbaçov mərhələsini ağır keçirirdi, ölkə qazan kimi qaynayırdı. Daha dünyanın hər yerinə yollar açıq idi, təyyarələr gecə-gündüz xaricdə istehsal olunan rəngarəng mal-məhsulu Bakıya daşıyırdı. Alverçilər evə getmirdilər, gətirdiyini elə aeroportun həndəvərində yaxşı qiymətə satır, malın artığını saxlama kameralarına yerləşdirir, yenidən bilet alıb Türkiyəyə, Hələbə, Dəməşqə, İraqa uçurdular. Mal axınının dalı gəldiyindən bir neçə dəfə genişləndirilmiş aeroportun saxlama kameraları tələbi ödəmirdi. Gözləmə zallarında, mehmanxanada adam əlindən tərpənmək olmurdu. Uçuşlar arası vaxtını aeroportda keçirənlər səmərəli məşğuliyyət axtarırdılar. Amma Ballı-Xallı bacıları artıq düşük əyləncələrdən qaçırdılar. Günlərini aeroportda keçirir, alverçilərlə tanış olur, pul qazanmağın yollarını axtarırdılar. Özləri də yaxınlıqdakı qəsəbədə yaşayırdılar, aeroporta gedib-gəlmək vaxtlarını çox aparmırdı.

Əllərində bir az pul vardı. Risk eləmək fikrinə düşdülər. Bir az şəkkak olan Xallı heç cür razılaşa bilmirdi:

– Neçə illərdi yığırıq, Ballı, olanımız budur, batsa neyləyərik? – deyə soruşdu.

Ballı güldü:

– Yolunu bilirik də, yenə yığarıq, – dedi. – Qocalmamışıq ki!

Xallı da güldü:

– Tökülmüşdü! – dedi, sonra etiraz elədi. – Əvvəl cavan idik, bir qiymətimiz vardı. İndi kimdi bizim tərəfə baxan, kişilər cavan qız axtarır...

Ballı ciddiləşdi:

– Özün daha deyirsən də, bacı! – dedi. – Neyləməliyik? Pulu saxlamaq çətindi, gün-gündən qiymətdən düşür, qorxuram heçə-puça dönsün. Risk eləməyə məcburuq...

Xallı razılaşmalı oldu...

Aeroportdakı yükçülər briqadiri bacıların köhnə aşnalarından biri idi. Onun vasitəçiliyi ilə rəhbərliyin qəbuluna düşdülər. Aeroport bacılara Bakı Dəniz Limanından aldıqları, istifadə müddəti bitmiş dörd konteyneri aeroportun yaxınlığında, şosenin kənarında qoymağa müvəqqəti icazə verdi. Onlar yerə bir-iki maşın çınqıl töküb yaydılar, sahənin ətrafına metal tor çəkdilər. Öz əlləri ilə konteynerləri təmizlədilər, rənglədilər, içinə linolium sərdilər. Sonra saxlama kamerası kimi alverçilərin istifadəsinə verdilər. Elə dərhal əllərinə pul gəlməyə

başladı. Buna bənd imiş kimi malları əlində qalan sahibkarlar elə konteynerlərin yanında yerə mələfədən-zaddan sərir, xəm-xurdunu ortaya töküb satırdılar. Bacılar onlardan cüzi yer pulu alırdı. Aeroporta mal dalınca gələn xırdavatçıların axını başladı. Bir ay keçdi. Artıq hər tərəfdən pul gəlirdi. Su çadırı, yemək çadırı, ehtiyaclar üçün çadır quruldu. Müvəqqəti tikililərə icazə bacılara yaxşı pul gətirirdi. Bir azdan məlum oldu ki, dörd konteyner azlıq edir, yenə lazımdı. Bacılar daha on konteyner almalı oldular. Bazar gün-gündən böyüyürdü. Ballı-Xalllı bacılarının xoş sorağı Bakıya yayıldı. Köhnələrdə əyləndikləri, vaxt keçirtdikləri kişiləri özlərindən uzaqlaşdırmaq üçün hicab bağladılar. Bir azdan xəbər yayıldı ki, bacılar ərə gedib, rəsmi nikaha giriblər. Kəbinlərinin məsciddə, axund tərəfindən kəsildiyini şahidlik eləyənlər vardı. Məlum oldu ki, bacılar yeddi müqəddəs məkanı yeddi dəfə dolanıb tövbə ediblər.

Pulun iyi Bakının o başında yaşayan ailələrinə artıq yetişmişdi. Ataları dünyadan köçmüşdü, böyük qismində anaları qalmışdı. O, qızlarının ailəyə gətirdikləri rüsvayçılığı unutdu. Artıq böyüyüb kişiləşmiş kiçik oğlu Mizi Mətişoğlunu bacılarına baş çəkməyə göndərdi. Ballı-Xallı ailələri ilə barışığa meyil göstərmədilər, amma qardaşlarını qanadlarının altına aldılar. Mizi ordudan təzə gəlmişdi. Pula, dəstəyə ehtiyacı vardı. Ali məktəbi qurtarmışdı. Amma bacılar onu bazara yaxın buraxmadılar. Sovet təfəkkürü hələ çox güclü idi. Ballı dedi:

– Gələcəyini korlama, qardaş, alverin axırı yoxdu, bir də gördün hökumət çomağın başını çevirdi, verdiyi icazələri ləğv elədi. Bizim bir dostumuz nazirlikdə işləyir, pulagir kişidi. Hökumət işi sənin boyuna biçilib. Bir az pul verərik, nazirliyə düzəldərik səni, – dedi və güldü. – Bəlkə gələcəkdə nazir oldun, kim bilir...

Mizi Mətişoğlu dodağını büzdü:

– Məni başınızdan eləmək istəyirsiniz...

– Səfehləmə! Bir gün elədiyimizin xeyrini görəcəksən... – deyə Xallı qardaşını qucaqladı. – Dedik, axı, bazar gəldi-gedər şeydi, vəzifə isə əbədidi.

## -83-
## İmkanlılar korpusu

Məkkədəki mehmanxananın yeddinci korpusu o biri korpuslardan daha səliqəli idi, imkanlı zəvvarlar üçün nəzərdə tutulmuşdu. Döşəmələr başdan-başa xalça ilə örtülmüşdü. Hər addımda təmtəraq gözə çarpırdı. Yeməkxanadakı təamların çeşidi nisbətən geniş idi. Foyedə dolanan nəzarətçilərin gözündən heç nə yayınmırdı. Dəvətsiz gələnləri sorğu-suala tuturdular. Yoxlamalarda texnikanın son nailiyyətindən istifadə olunurdu. Mühafizəçi telefonunun ekranını Balacanın qolbağına tuşladı, bir addım geri çəkildi, onu danışıqsız içəri buraxdı.

Qaflan üçüncü mərtəbədə, iki nəfərlik otaqda qalırdı. Balaca içəri girən kimi soyuducudan iki butulka meyvə şirəsi çıxartdı, alçaq masaya qoydu:

– İç, Balaca müəllim, əla şeydi. Qara ərəblər canlarının qədrini bilirlər! – dedi, sonra mətləbə keçdi. – Bir çətinliyə düşmüşəm. Əflana zəng eləmişdim, dedi ki, səninlə məsləhətləşim.

Balaca həmkarının otağına qibtə ilə nəzər saldı, keçib göstərilən kürsüdə oturdu, meyvə şirəsindən dada-dada onun söylədiklərini diqqətlə dinlədi. Məlum oldu ki, otağın ikinci sakini Məhər adında bir nəfərdi. Qaflan təsvir elədi:

– Əlliyə yaxın yaşı var, hündürboy, əzələli, pəhləvan kimi bir kişidi. Gecələr çarpayısında yatmır, hardasa başqa yerdə qalır, yalnız səhərə yaxın gəlir, çantasında bir az eşələnir, sonra yenə gün uzunu yoxa çıxır, – dedi.

Balaca qalxıb soyuducudan içməyə daha bir butulka meyvə şirəsi götürdü:

– Həqiqətən, gözəl içkidi, – deyə təriflədi, sonra soruşdu. – Rəislər artıq Məkkədədi?

– Hə, bir az var gəliblər, – deyə Qaflan təsdiqlədi. – Baş korpusdadılar. Yol yorğunudurlar, dincəlirlər.

Balaca incik halda:

– Xaloğlu məni tamam yaddan çıxarıb, – dedi.

Qaflan bilmədi Balacaya nə desin, susmağa üstünlük verdi. Balaca uşaq kimi köksünü ötürdü, inciklliyini unutmağa çalışdı:

– Məhərin gecələr harda qaldığı ilə maraqlanıbsanmı?

– Əlbəttə! Amma o bir yerdə qalmır. Gah o korpusda, gah bu korpusda sülənir! Bir də görürsən foyedə səhərə qədər televizora baxır.

– Bu barədə özü nə deyir?

– Söz soruşanda cavab verir ki? Elə səfeh-səfeh hırıldamağı var!

– Nədi, otaq yoldaşın ağıldan kəmdi? – Balaca təəccübləndi.

– Balaca müəllim, iş də ondadı da! Bilmək olmur, bu adam anadangəlmə dəlidir, ya da özünü ustalıqla dəliliyə vuranın biridir! – deyə Qaflan tərəddüdlə dilləndi.

– Bəs, dəlinin biri imkanlıların mehmanxanasına necə düşüb? – deyə Balaca dodağının altında deyindi.

– Yəqin imkanlı dəlidir də! Burda nə var ki! – Qaflan çiynini çəkdi. – Həccə gedənlərin bəyəm hamısı ağıl dəryasıdır?

Balaca ehtiyatla cavab verdi:

– Dəli gəlib Məkkəyə çıxıbsa, deməli, ağlı var! Ya da arxasında onu idarə edən bir ağıllı dayanır, – dedi.

Qaflan çaşqınlıqla:

– Əflana bayaq zəng eləmişdim, o da, təqribən, sən deyəni deyirdi, – dedi. – Dəlinin bir ağıl verəni var.

Balaca durub otağı dolandı, sonra yerinə qayıdıb soruşdu:

– Dəstəbaşınız Məhər barədə nə deyir? Maraqlanmısan?

Qaflan dərhal:

– Əlbəttə, – dedi. – Dəstəbaşı Məhər barədə heç nə bilmir. Deyir ki, onun üzünü təyyarəyə minəndə görüb.

– Yaxşı, otaq yoldaşını necə görmək olar? – Balaca onun sözünü kəsdi.

Qaflan əllərini yana açdı:

– Haçan gəldiyini, haçan getdiyini, güman ki, Allah da bilmir! – dedi, əlavə elədi. – Deyim ki, hər ehtimala qarşı onun şəklini, ad-soyadını votsapla Bakıya göndərmişdim. Dünən cavab gəldi ki, Məhər adında adam dəlixanada yatmayıb.

Balaca bir az fikirləşib:

– Onun sənədlərinin surətini dəstəbaşıdan ala bilərsən? – Soruşdu. – Bakıda bir məlumatlı dostumuz var, Məhərin kimliyini öyrənmək ona çətin olmaz.

– Bilmirəm, dəstəbaşı yad adama zəvvarlardan hansınınsa sənədinin surətini verərmi? – Qaflan tərəddüdlə soruşdu.

## -84-
## Dəli Məhər

Bu vaxt hündürboy cavan kişi hırıldaya-hırıldaya otağa girdi. İçəridəkiləri eyninə almadan çarpayının başında hamam qətfəsini götürdü, sonra elə hırıldaya-hı-

rıldaya da otaqdan çıxdı. Qaflan istehzalı bir təntənə ilə:

– Bu, bizim Məhər idi, – dedi, sonra başını buladı. – Görəsən, beləsinin də ziyarəti qəbul olunacaq?

Balaca könülsüz:

– Bilmirəm, Qaflan, – dedi. – Mən üləma deyiləm.

Qaflan əl çəkmədi:

– Yəni, beləsinə də hacı deyəcəklər?

– Güman ki! Daha mən gedim, gecdi. Sabah səhər-səhər gələrsən, bu məsələni bir də müzakirə edərik, – deyə Balaca ayağa qalxdıqda düşüncəli halda əlavə elədi. – Elə bil bu adamı hardasa görmüşəm. Amma harda, yadıma sala bilmirəm.

## -85-
## Balacaya qəsd olunur

Onlar neçə saat idi ki, zəif işıqlandırılmış zirzəmidə idilər. Gecələr liftin biri söndürülürdü. Xidmət lifti isə yuxarı mərtəbələrdən enəndə mütləq zirzəmiyə "baş" çəkirdi.

Gözləməkdən yorulmuş Domba Rəhim dilləndi:

– Bəlkə gedim yoxlayım, görüm Balaca otağındadı?

– Nə təhər otağına qalxa bilər? – Lotu Faxı onu qınadı. – Lift bir dənədi...

Bu vaxt lift hərəkətə gəldi. Vestibüldə dayandı, yenə hərəkətə gəldi, zirzəmiyə endi, daha yerindən tərpən-

mədi. Kabinədən bir nəfər düşdü. Divardan tutaraq çıxışa tərəf getdi. Düşənin Balaca olduğuna əmin olandan sonra Domba Rəhim əlinin tini ilə onun boynuna bir zərbə endirdi.

Lotu Faxı tir-tab yerə yıxılmış Balacanın hərəkətsiz vücuduna təlaşla baxdı, Domba Rəhimi danladı:

– Ay öküz, öldürdün ki! – dedi. – Demədim asta vur.

– Ölməz! – Domba Rəhim burnunu çəkdi. – Amma imkan versəydin nə öldürərdim!

– Yox, nəbadə! – Lotu acıqlandı. – Ölməli adam bunun xalası oğludu.

– Bəs, Balacanın dalınca niyə düşmüşük? – Domba Rəhim təəccübləndi.

– Böyüyü vahimədə saxlamaq üçün lazımdı, – deyə Lotu əlaltısını başa saldı. – Gedək.

Domba Rəhim üzüyolalıqla:

– Baş üstə! – desə də Balacanın hərəkətsiz vücuduna bir təpik ilişdirməkdən özünü saxlaya bilmədi.

## -86-
## Tibb məntəqəsində

Dəstəbaşı tibb məntəqəsinə özünü yetirəndə Balaca ağrıkəsicidən sonra yatırdı. Hacı Sarvan mehmanxana mühafizə rəisinin söylədiyindən belə başa düşdü ki, nə üçünsə zirzəmiyə enən zəvvara hücum ediblər. Lift

ustaları onu huşsuz tapıb tibb məntəqəsinə çatdırıblar. Özünə gələndən sonra zərərdidə ona hücum edildiyini söyləyib. Mühafizə rəisi polisə xəbər verildiyini bildirdi.

Hacı Sarvanın arxasınca tibb məntəqəsinə gələn köməkçisi:

– Hücum söhbəti boş söhbətdir, – dedi. – Yəqin lift xarab olub, qaranlıq zirzəmidən çıxanda yıxılıb əzilib. Buna görə hay-küy salmağına dəyməz.

– Polis aydınlaşdırar, – deyə Hacı Sarvan dilləndi, molla Gülünün fərziyyəsini qulaq ardına vurdu.

Hacı Sarvan təcrübəli adam idi. Tibb məntəqəsindən çıxan kimi Azərbaycanla əlaqə yaratdı, amma gecə olduğuna görə birbaşa rəisini yuxudan oyatmadı, idarənin növbətçisinə baş vermiş hadisə barəsində məlumat verdi.

## -87-
## Qaflanla Balaca

Səhər saat yeddi idi, növbətçidən başqa foyedə heç kim yox idi. Qaflan Balacaya zəng elədi:

– Gəlmişəm, Balaca müəllim, – dedi. – Yuxarı qalxım?

Balacanın səsi zəif gəldi:

– Gözlə, çıxıram.

Qaflanın xırdavat köşkünün həndəvərində var-gəl etməyi çox çəkmədi. Foyedəki tibb məntəqəsindən bir

nəfər çıxdı, axsaya-axsaya ona yaxınlaşdı. Üz-gözü şişmiş Balacanı əvvəl tanımadı.

– Nə olub, Balaca müəllim, – deyə təşvişlə soruşdu.

– Dünən gecə mənə hücum ediblər, halım pis idi, bir az olar özümə gəlmişəm, – deyə yanaqları soluxmuş Balaca dilləndi.

– Bu necə oldu, axı?

Balaca onun marağını təmin elədi:

– Səndən ayrılıb öz korpusumuza qayıdanda artıq gecə yarı idi. Vestibüldə lifti çağırdıb kabinəyə mindim, nədənsə, lift məni zirzəmiyə endirdi, – deyə nəql elədi...

Balaca lift enə-enə fikirləşdi ki, yəqin düyməni səhv basıb. Lift zirzəmidə dayandı, kabinənin qapıları açıldı, yuxarı qalxmaq üçün təzədən düyməni basdı, lift yerindən tərpənmədi. Balaca kabinədən düşdü. Zirzəmi zəif işıqlandırılmışdı. Pilləkənə tərəf yolu zorla seçmişdi ki, boynunun ardından bir güclü zərbə dəydi, yerə yıxıldı, bir anlıq huşunu itirdi. Kimsə qolundan tutub sürüyəndə huşu üstünə gəldi. Birdən ayaq səsləri, sonra azərbaycanca danışıq eşitdi. Qolunu boşladılar, bu vaxt içini silkələyən bir təpik zərbəsi aldı, yenidən huşunu itirdi. Özünə gələndə liftləri təmir eləyən ustalar onu tibb məntəqəsinə aparırdılar. Həkim göyərmiş yerlərinə buz qoydu, sakitləşdirici vurdu, bundan sonra Balacanın ağrıları azaldı, onu yuxu tutdu.

Söylənilənlər dərrakəyə sığmırdı. Müqəddəs bir məkanda zəvvara hücum olmuşdu. Qaflan tələsik soruşdu:

– Gecəni otağında keçirtdin?

– Yox, elə tibb məntəqəsində, – Balaca dilləndi. – Açığı, ehtiyat elədim, fikirləşdim ki, bəlkə məni güdürlər.

– Düz eləmisən! – Əflan onu təqdir eləyib soruşdu. – Dəstəbaşınız sənə baş çəkib?

Balaca çiyinlərini çəkdi:

– Mən yatmışdım, xəbərim olmayıb, – dedi.

– Bəs, Əflanın xəbəri var? Ona zəng eləmisənmi? – Qaflan sorğu-sualı davam elədi.

– Hələ yox. – Balaca parçalanmış dodaqlarını zorla tərpətdi. – Deyilməli şeydi bəyəm.

Qaflan qətiyyətlə:

– Mütləq deyilməlidi, – dedi. – İndi Əflanı yığaram...

O, telefonu əlinə aldı, bir neçə kəlmə ilə hadisənin məğzini anlatdı, bir az qulaq asıb:

– Oldu, qardaş, – dedi, telefonu qapadı, aldığı göstərişi çatdırdı. – Balaca müəllim, daha burada qala bilməzsən. Yubanmadan mənimlə baş korpusa getməlisən. Rəis səni təcili görmək istəyir. Gedək, şeylərinin dalınca sonra adam göndərərik.

## -88-
## Böyüklə Balacanın müqəddəs Məkkədə görüşü

Balaca ilə Qaflan içəri girəndə divanda yanpörtü oturmuş Böyük yerindən sıçradı, qardaşının qabağına tələsdi, onu qucaqladı, dərhal da danladı:

– Sənə demişdim, axı, özünü gözlə. Neçə dəfə sənə ismarış göndərdim... – dedi. – Sənə o qədər deyilməli sözüm var ki! Neçə vaxtdı sənsiz darıxıram, xaloğlu.

Əflanla Qaflan yerindən tərpənmədilər. Böyük onlara lağ elədi:

– Əşi, getməyin, bizim sizdən gizli sirrimiz yoxdu... – dedi. – Onsuz cikimizi də bilirsiz, bikimizi də...

İstehza işini gördü, qardaşlar otaqdan çıxanda Böyük tapşırdı:

– Nazirin otağında olun, mən də gəlirəm, – dedi, sonra təkrar qardaşını gözdən keçirib ürəyiyanıqlıqla, – yaman bəzəyiblər səni! Ay sənə əl qaldıranın əli qurusun...

Balaca qardaşından aralandı:

– Boş şeydi! – dedi və sinəsinə döydü. – Bilirsən, xaloğlu, düz səkkiz gündü dilimə bir damcı da spirtli içki dəymir. Hələ də dözürəm. Necədir səninçün?

Böyük istehza ilə irişdi, səsini endirdi:

– İstəsən spirtli içki təşkil edə bilərəm, – dedi.

Balaca etinasızlıqla:

– İstədim, ya istəmədim Məkkədə spirtli içki satılmır. Hardan tapacaqsan ki? – Soruşdu.

Böyük ürəkdən güldü:

– Yaşın altmışa yaxınlaşır, amma böyümədin də, Balaca! Hələ də qaqaşının bacarığına şübhə eləyirsən. Bilirsən ki, mən hazırlıqlı adamam, – dedi.

– Bah! – deyə Balaca heyrətləndi. – Yəni sərhəddən araq keçiribsən?

Böyük yenə güldü:

– Dünyadan geri qalırsan, qardaş! – dedi, divandan qalxdı, soyuducudan bir həb çıxartdı. – Buyur, suya sal, qarışdır, iç! Düz yüz qram arağı əvəz eləyir.

– Təzə çıxıb? – Balacanın gözləri iriləndi.

– Elmin inkişafından geri qalırsan! Köhnə kəşflərdəndi. – Böyük başını buladı. – Soyuducudan özünə beş-on həb götürə bilərsən, məndə çoxdu.

Balacanın ağzı açıla qaldı, tərəddüdlə:

– İstəməz! – dedi. – Məni müsaidə elə, xaloğlu, müqəddəs torpaqda günaha batmaq fikrində deyiləm! Mən Allahın evini təvaf eləmişəm, tövbə eləmişəm, təzədən günaha batmaq istəməzdim.

– İmanı kamil adamlar günaha batmaqdan qorxmaz, – deyə Böyük etinasızlıqla dilləndi.

– İş də ondadı ki, mən imanı kamillərdən deyiləm! – deyə Balaca dərhal sərrast cavab tapdı, sonra onu inandırmağa çalışdı. – Tövbəli adamın içməyi lap böyük günah sayılır.

Böyük uğundu, gülməkdən yumru qarnı atılıb-düşdü:

– Ha-ha-ha! Nolar günaha batanda? Yenə həccə gələrsən, yenə günahlarını bağışladarsan. Allahın tövbə qapıları həmişə açıq deyilmi? – dedi, sonra xımır-xımır gülümsədi. – Bir də sənin söylədiklərin müsəlmanlara aiddi, biz ki, xaçpərəstik. Kilsədə xaçlanmışlardanıq. İslamın ehkamlarının bizə aidiyyəti yoxdur.

Balaca qızğınlıqla:

– Mən xristian-zad deyiləm, müsəlmanam. Sən isə özün bilərsən, nə olursan ol! – dedi.

Sadə bir həyat fəlsəfəsinə tapınan Böyük ürəkdən:

– Mənim dini-imanım sənsən, Balaca. Sən müsəlmansansa, deməli, mən də müsəlmanam, – dedi. – Sənsiz bir günüm olmasın, Balaca.

– Bəs, neçə gündü məni özündən niyə uzaqlaşdırmısan? – Balaca incikliyini büruzə verdi.

– Belə lazım idi! – Böyük izah elədi. – Bizə meydan oxuyan Lotu Faxını yayındırdım.

– Məni tələ yemi kimi istifadə edirdin? – Balaca dəqiqləşdirməyə çalışdı.

– Gic-gic danışma! Mənə gələn bəlalardan səni uzaqda saxlamaq istəyirdim. İstəmirdim ki, qaqaşıma xətər toxunsun. – Böyük fikrini tamamladı. – Amma bundan sonra həmişə yanımda olacaqsan.

Balaca sevinclə:

– Minnətdar olaram. Bilirsən ki, səninlə yanaşı özümü təhlükəsiz hiss edirəm, – dedi, qalxıb Böyüyün yanında oturdu, qolunu onun boynuna saldı. – Mənim səndən başqa kimim var ki!

Əkizlər yüz ilin ayrılısı kimi qol-boyun oldular.

## -89-
## Lotu Faxı Məhəri axtarır

Lotu Faxı şamdan sonra otağına qalxmadı, sərin foyedə məskən saldı. Domba Rəhimi burda gözləməyi qərara aldı. Onsuz da küçəyə çıxmalı hava deyildi, bayırdan gələnlər deyirdi ki, qaynar küləyin qaldırdığı toz-torpaq göz açmağa imkan vermir. Lotu çox narahat idi. Əlbəttə, onu təbiətin şıltaqlığı yox, başqa qayğılar darıxdırırdı.

Bayaq Bakıdan ismarış almışdı. Güvəndiyi dostlarından biri olan vəkil Ənnağı yazırdı: "Etibarlı mənbələrdən məlum olub ki, yük Məkkədə, qaldığınız mehmanxananın baş korpusundadır". Bu o demək idi ki, Böyük artıq müqəddəs şəhərdədir. Təkrar-təkrar Məhərlə əlaqə saxlamaq istəsə də, mümkün olmamışdı, əlaltısının telefonu susurdu.

Sabah günorta zəvvarlar yenidən ehrama girməli, Məkkə şəhərini tərk eləməli, Ərafat səhrasına qalxma-

lı, Həcc-Təməttünün qalan əməllərini yerinə yetirməli idilər.

Lotu Faxı Dombanı gecə gözü yeddinci korpusa göndərməli oldu.

Foyedə zəvvar qalmamışdı, hamı artıq otağına çəkilmişdi. Nəhayət, Domba qayıtdı. Lotu səbirsizliklə soruşdu:

– Nə oldu, Məhəri gördünmü? Salamatdımı?

– Xeyr, qədeş, özünü görmədim, amma salamatdı. Növbətçilərdən biri yerlimizdi, Sərhamı dərhal tanıdı, açar yeşiyinə baxıb dedi ki, açar burdadı, sənin hırıldayan dostun otaqda yoxdu. Sonra yerlimiz gülə-gülə dedi ki, Sərham böyük adamlarla oturub-durmaq arzusuna düşüb, bayaq baş korpusun qabağında fırlanırdı.

– Gərək dəstəbaşı ilə söhbət eləyəydin... – Lotu Faxı narazılıqla dilləndi.

– Elə də elədim, qədeş. Dəstəbaşını çağırtdırdım. Ondan dostumuzun yerini soruşdum, o, Sərhamın adını eşidib, üz-gözünü turşutdu. Dedi ki, bu adam bir yerdə oturur ki, onun yerini də bilim. Sonra əlavə elədi ki, səhər yeməkxanada rastlaşdığımdı, deyirdi, telefonumu itirmişəm, gedirəm telefon almağa, ondan sonra Sərhamı görməmişəm.

Əlaltısını dinləyən Lotu Faxı bir az arxayınlaşdı:

– Şükür ki, dostumuz salamatdı, özü də öz işi ilə məşğuldu, – dedi. – Yəqin ki, telefon alıb bizimlə əlaqə saxlayacaq.

Domba Rəhim təsdiqlədi:

– Əlbəttə, qədeş, onsuz da sabah Ərafatda görüşəcəyik, – dedi.

## -90-
## Ərafat yollarında

Mizi Mətişoğlu baş korpusun rahatlığından əməlli-başlı feyzyab ola bilmədi. Zilhiccə ayının doqquzu, sübh tezdən, Məhəmmədin təkidi ilə onlar mehmanxananı tərk eləməli oldular:

– Ərafata beş-altı saat tez getsək yaxşıdı, – dedi, rahatlıq əlindən çıxmış adamları dilə tuturmuş kimi izah elədi. – Arzuladığınız vaxt daxilində həcc ziyarətini başa çatdırmaq istəyirsizsə, dediyimi eləməlisiz. Başqa yolumuz yoxdu.

Kiçik dəstə aşağı düşəndə mikroavtobusun üzügülər sürücüsü artıq maşında idi, pəncərəsi açıq qapıya söykənib siqaret çəkirdi.

Məiyyətin bütün qayğıları Məhəmmədin boynunda idi. Qonaqların rahatlığı vaxtını daha çox alırdı. Telefon qulağından düşmürdü. Ora zəng edirdi, bura zəng edirdi, istəyini almamış əl çəkmirdi. Maşın mehmanxanadan aralananda eyni açılmış halda telefonu qapadı. Qürrələnərək dedi ki, hörmətli qonaqlar üçün Ərafatda

ayrıca ayaqyolusu, hamamı, kondisioneri, soyuducusu olan iki kiçik çadır qururlar.

– Birində hörmətli nazirlə Böyük qardaşımız qalacaq, o birində biz qalacayıq, – dedi.

Balaca narazı halda:

– Niyə mənə xaloğlunun çadırında yer yoxdu? – Soruşdu.

Məhəmməd əllərini yana açdı:

– Qabaqcadan desəydiz, üçadamlıq çadır sifariş verərdim, – dedi. – İndi gecdi, Balaca.

Məhəmmədin nəzər-diqqətindən heç nə yayınmırdı, səfərin ən xırda detallarını unutmurdu. Macərasız yarımdairəvi dağlarla əhatə olunmuş Ərafat səhrasına çatdılar. Səhərin sərinliyi adama can verirdi. Ucu-bucağı görünməyən çadır-şəhərciklər hələ boş idi. Maşını Müzdəlifə səhrasına gedən şosedə saxladılar. On addımlıqda, yaşıl kolluqların arasında, iki kiçik çadır onların yolunu gözləyirdi.

## -91-
## Hacı Sarvanın dəstəsi

Zilhiccə ayının doqquzuncu günü, zöhr namazına az qalmış, mehmanxana kompleksləri boşaldı. Avtobuslar yenidən ehrama girmiş Azərbaycan zəvvarlarını Məkkə şəhərindən iyirmi bir kilometr aralıda yerləşən Ərafat

səhrasına aparacaqdı. Qabaqda onları Həcc-Təməttü-nün vacib əməlləri gözləyirdi.

Hacı Sarvanın dəstəsi Ərafata birinci varid oldu. Ən rahat çadırlardan biri onların püşkünə düşdü. Yaşıl kolların əhatəsində, axar-baxarlı bir yerdə məskən saldılar. Yerləri hündürdə idi, burdan beton cığırların, arxların dağlara dirənənə qədər uzanıb nazildiyini seyr etmək olurdu.

Hər tərəfdən hündür dağlarla əhatələnmiş, sahəsi təqribən yetmiş beş kvadrat kilometr olan səhralıq daha səhra deyildi, abadlaşdırılmışdı, yollar, cığırlar salınmışdı. Tez-tez yağan yağış sularını axıtmaq üçün dərin beton arxlar çəkilmişdi. Yol kənarında, cığırboyu əkilmiş yaşıl kollar göz oxşayırdı.

Zəvvarların yerləşdiyi nəhəng çadır-şəhərcik arxlar boyu qurulmuşdu, ucu-bucağı görünmürdü, dağların ətəyinə kimi uzanırdı. Zəvvarlar zilhiccə ayının doqquzuncu gününü burada ibadətdə keçirməli, məğrib namazından sonra Müzdəlifə səhrasına, oradan da Minaya yollanmalı idilər.

Od saçan Günəş dağların arxasında gizlənən kimi yüngül bir meh qalxdı. Yüz minlərlə zəvvarın müvəqqəti sığınacaq tapdığı Ərafat səhrası hərəkətə gəldi. Çadırlardan bayıra tökülüşən adamlar beton cığırlarda, arxların kənarında gəzişir, yaşıl kolların, ağacların arasında dolaşır, düşən sərinlikdən zövq alırdılar.

Mirzəmmədlə Hacı Məftun Ərafata çatan kimi dəstəbaşıya ilk sualları bu oldu:

– Balaca hara yoxa çıxıb? Onun şey-şüyünü çoxmu daşıyacağıq?

Dəstəbaşı Balaca haqqında verdiyi qısa bir arayışla hər şeyə aydınlıq gətirdi. Sonra otaq yoldaşlarının çamadanlarını daşımaq əziyyətini boynuna götürmüş ağsaqqallara şad xəbər verdi:

– Rəhbərlik Balacanı baş korpusdakı dəstəyə keçirib. Onun çamadanlarını indilərdə gəlib aparacaqlar, – dedi, ağsaqqallara təşəkkür eləməyi unutmadı. – Hər ikinizə minnətdaram... Dostluqda var olasız, sözümü yerə salmadız. Vaxt olanda danışarıq...

Sonra dəstəbaşı tələsik uzaqlaşdı.

Köhnə yoldaşlarının kimliyi dəqiq məlum olandan sonra hər iki ağsaqqal özünü naqolay hiss edirdi.

## -92-
## Mizi Mətişoğlunun gəzmək arzusu

Günortanın istisi keçmişdi. Balaca kölgədə oturub mürgüləyirdi. Üz-gözündəki şişlər yatmışdı. Canı daha əvvəlki kimi ağrımırdı, amma ayağındakı zoqqultu keçmir, axsayırdı. Zəvvar axınından kənar, nisbətən sakit ərazidə məskən salmışdılar. Ərafat səhrasını əhatə edən

dağlar sanki duman içində idi, təkcə siluetləri görünürdü.

Mizi Mətişoğlu çadırdan çıxdı. O, gəzmək arzusuna düşmüşdü. Böyük onun arxasınca çıxdı. Təklif elədi:

– Cənab nazir, bəlkə elə buralarda fırlanaq, uzağa getməyək?

Mizi yekə qarnını sığalladı:

– Gəzməsəm bunu əritmək mümkün deyil, Böyük, – dedi. – İki-üç gündə on kilo kökəlmişəm.

– Pəhrizə keçmək lazımdı, cənab nazir. – Böyük güldü. – Bu qarın gəzişməklə əriyənə oxşamır.

Mizi Mətişoğlu fısıldayıb irəlilədikdə Böyük ona qoşulmalı oldu. Çadırın ətrafında var-gəl edən cangüdənlər kolların arasından boylanan Əflanın işarəsi ilə rəhbərliyin dalınca düşdülər. Qaflan Əflanın izafi ehtiyatkarlığını bəyənmədi:

– Burda bizim rəisə kim neyləyə bilər ki, qardaş? Minlərlə insan çiyin-çiyinə dayanıb...

Əflan qardaşına tərs-tərs baxıb yerindən qalxdı:

– Sən qandığın işlə məşğul ol, mənim işimə qarışma! – dedi və rəislərin dalınca tələsdi.

Mürgülü Balaca Əflanın təhlükəsizlik tədbirlərini mənasız saymadı. Başına gələnlərdən nəticə çıxartdığından:

– Əflan düz eləyir! – dedi və gərnəşdi. – Gərək Böyük səni dəstəndən ayırmayaydı! İndi səninlə bir otaqda qalan dəlidən bir xəbər bilərdik.

– Narahat olma, dəli Məhərdən xəbərim var, Balaca müəllim, – deyə Qaflan dilləndi. – Səhər gəzməyə çıxmışdım. Səninlə bir otaqda qalan Mirzəmmədlə dəli Məhəri arx kənarında söhbət eləyən gördüm. Vaxtında özümü adamların arasına verdim. Məhər Mirzəmməd kişiyə "Atam, atam" müraciət edirdi. Hayıf ki, söhbətlərini eşidə bilmədim. Məhəri izləmək istəsəm də alınmadı, dəli birdən yoxa çıxdı. Məcbur oldum düşəm Mirzəmmədin dalıycan, girdiyi çadırı bələdləyib geri döndüm. Gümanım belədir ki, Məhərlə Mirzəmməd yenə görüşəcəklər. Bir azdan ora gedəcəyəm.

Balaca dərhal nəticə çıxartdı:

– Bəlkə dəli Məhər elə Sərhədin qardaşı, Mirzəmmədin oğulluğu Sərhamdı? – Soruşdu.

Qaflan razılaşdı:

– Əminəm ki, elədir! – dedi. – Ehtiyatlı olmaq lazımdı. Güman ki, qatil onlardı.

Balaca canlandı:

– Dəli Məhər qatillərdən biri ola bilər, söz yox, amma əldən düşmüş qocanın qatilliyinə şübhəm var. Bir neçə gecə bir otaqda qalmışam, Mirzəmmədə dərindən bələdəm, – dedi.

## -93-
## Gəzinti vaxtı qəza

Səhraya axşam toranlığı təzə düşmüşdü, sərinlikdə gəzintiyə çıxan zəvvarlar beton cığırlarda dolaşırdılar. Gözlənilmədən sıxlıq yarandı, arxadan gələnlərin zərbindən qabaqda gedənlər yanları açıq beton arxa dığırlandılar. Nazirlə Böyüyün önündə addımlayan iki cangüdən də onların arasında idi. Əflan qabağa cumdu, Böyüyün qolundan yapışdı, geri dartdı. Ağır çəkili naziri heç sıxlıq da yerindən dəbərdə bilməmişdi. Baş verən hadisə onları qorxutmuşdu. Tələsik geri qayıtdılar. Özünü itirmiş Mizi Mətişoğlunu çadırına apardılar. Böyük çantasından sakitləşdirici çıxarıb ona içirtdi, yerə salınmış döşəyə uzanmaqda kömək elədi, üstünü örtüb bayıra çıxdı. Qaflanı çağırdı:

– Get, gör, bizim uşaqlar necədi, – deyə hadisə yerinə göndərdi. – Həm də, gör, qəzanın səbəbləri barədə nə deyirlər.

Sonra hamını geniş çadıra məşvərətə topladı. Baş verən hadisəni təsadüf saymayan Əflan təklif elədi:

– Çadırların yerini dəyişək, – dedi. – Xəlvəti bir yerdə təzədən quraq.

Böyük bunu mənasız saydı:

– Ərafatda gizlənməli yer axtarmağın mənası yoxdu, – dedi.

Balaca soruşdu:

– Bu necə oldu, axı?

Baş verənlərdə özünü günahkar sayan Əflan hadisəni təsvir elədi:

– Qoyduğumuz qayda ilə hərəkət edirdik. İki cangüdən qabaqda, ikisi arxada, rəislər də ortada, mən gah irəli keçirdim, gah da arxaya qayıdırdım. Cığırlarda zəvvar çox idi, addım-addım gedirdik. Böyük Xaloğlu məni çağırdı, dedi ki, gəl, nazirlə qabaqda get, mən su içmək istəyirəm. Nazirlə addım-adım aralanırdıq ki, qarışıqlıq düşdü, tez geri döndüm, kanalın kənarına sıxışdırılan Böyük Xaloğlunun qolundan zorla tutdum, geri dartdım. Bu vaxt kanala yıxılanların çığırtısı eşidildi.

Nəhayət, Qaflan çadıra qayıtdı. Böyük onu danladı:

– Gəl, çıx da! Uşaqların vəziyyəti necədi? – Böyük uşaqlar deyəndə kanala yıxılan iki cangüdəni nəzərdə tuturdu.

– Vəziyyətləri yaxşı deyildi. Birinin başı partlamışdı, birinin böyrünə armatur batmışdı. Təcili yardıma qoyub Məkkəyə, hospitala apardılar, – deyə Qaflan dilləndi.

Hamı susdu. Əflanın təklifi belə oldu:

– Bizim Ərafatda nə işimiz var, axı, dərhal Minaya yollanmalıyıq.

– Hələ məğrib namazına var, axı! – Balaca etiraz elədi.

– Nə olsun ki! – deyə Əflan dodağını büzdü. – Ömrümüzdə bir dəfə namaz qılmamışıq, dünya dağılmayıb ki! Bir-iki namazı da ötürsək, nə olasıdır?!

Böyük başını buladı, Əflana buyurdu:

– Məhəmmədi çağır, – dedi. – Biz gəzməyə çıxanda mikroavtobusda dincəlirdi.

## -94-
## Məhəmməd Xələfin məsləhəti

Məhəmmədi çağırmağa ehtiyac qalmadı, o, hadisədən xəbər tutub özünü yetirmişdi. Birinci sözü bu oldu:

– Məndən heç nə gizlətmə, Böyük, yoxsa sizi layiqincə qoruya bilmərəm, – deyə dostuna müraciət elədi. – Açıq danışsan yaxşıdı.

Böyük daha gizlətməyi mənasız saydı, baş verənləri əvvəldən axıra qədər dostuna danışdı. Məhəmmədin ağzı açıla qalmışdı, qulaqlarına inanmırdı:

– Cinayət aləmi sənə müharibə elan edib? Oğru toplantısı sənə ölüm hökmü çıxarıb? Lap kinodur ki!

Böyük başını tərpətdi:

– Hə, lap kinolardakı kimi! – dedi.

Məhəmməd xeyli düşündü. Uzada-uzada:

– Görürəm, vəziyyət kifayət qədər ciddidir, – dedi, sonra döş cibindən qatlanmış bir vərəq çıxardıb ortalıqda açdı. Bu əl ilə çəkilmiş yığcam bir xəritə idi. – Mənə elə gəlir ki, bizim Minadakı çadırlara girməyimizin yeri yoxdu, Camarata üst yolla getsək yaxşıdı. Qatili aldat-

mağa çalışaq. O, elə biləcək ki, biz Azərbaycan zəvvarları ilə birgə hərəkət edirik.

Böyük təklifi bəyəndi:

– Ağıllı fikirdir, – dedi, şübhəsini də gizlətmədi. – Bəs, dalımızca düşsələr?

Məhəmməd Xələf fikrini əsaslandırmağa çalışdı:

– Bu mümkün deyil! Xüsusi icazə olmadan Ərafata heç bir maşın buraxılmır. Dediyin adam bura ancaq avtobuslarla gələ bilər. Bizim ayağımızın altında isə ayrıca maşınımız var. Qatili həmişə qabaqlamaq imkanımız var. Gözləmək olmaz, dərhal Ərafatdan çıxmaq lazımdı.

## -95-
## Məhər Böyüyü axtarır

Hadisə yerinə çağırılmış təcili yardım həkimlərinin səyinə baxmayaraq zərərdidələrdən yalnız ikisi özünə gəldi, qalanlarını huşsuz halda yuxarı qaldırdılar, təcili yardım vertolyotuna və maşınlarına yerləşdirdilər.

Qarışıqlıqda dayanmağı daha mənasız görən Məhər burdan uzaqlaşmağı qərara aldı. Girəvə əldən çıxmışdı, təsadüf Böyüyün qanının arasına girmişdi. Məhər hadisə yerindən aralanarkən adətkərdəliklə hırıldadı:

– Hırr! Bu dəfə əlimdən çıxdın, – deyə dodaqaltı mızıldandı.

Dəstələrinin qaldığı çadıra qayıtdı. İçəridə heç kim yox idi, yəqin ki, hamı hadisə yerinə getmişdi. Xalçanın üstünə uzandı, əşya torbasını başının altına çəkib gözünü yumdu, bir az çimir elədi, amma yata bilmədi. Ağlına nə gəldisə yerindən dik qalxdı, tək-tük dəstə üzvlərinə fikir vermədən bayıra çıxdı.

O, kiçik çadırlara tərəf üz tutdu. Ehramda, möminə yaraşmayan iri addımlarla getməyi ətrafdakıların təbəssümünə səbəb olsa da, yerişini dəyişmədi. Uzaqdan gördü ki, kiçik çadırların ətrafında hərəkət yoxdu, amma ehtiyatı əldən vermədi. Tələsmədən yaxına getdi. Çadırlar boş idi. Məhər əl-ayağa düşmədi. "Yəqin maşındadırlar!" – deyə fikirləşdi. İzlədiyi adamların mindiyi mikroavtobusun şosedə dayandığını görmüşdü. Həmin tərəfə addımladı, amma maşın yerində yox idi. Məhər çaşqın halda döyükdü. Sonra adətkərdəliklə öz-özünə hırıldadı: "Hırr! Axır əlimə keçəcəksən!" Amma hırıltısında bir inamsızlıq vardı. Neyləyəcəyini bilmədiyindən şosenin kənarında xeyli vaxt mənasız yerə var-gəl elədi.

## -96-
## Lotu Faxının Məhərlə görüşü

... – Qardaşım, bu dəfə ovu əldən buraxdın.

Arxadan gələn tanış səsi lap qulağının dibində eşidən Məhər fövrən geri döndü. Bu onun hamisi Lotu Faxı

idi. Oğrubaşının bozarmış donuq sifətində təbəssüm gəzirdi. Yüz ilin ayrılısı kimi qucaqlaşdılar. Bir az aralıda dayanmış Domba Rəhim də gülümsəyərək yaxınlaşıb onunla görüşdü. Məhər adətkərdəliklə hırıldadı. Arxayınlıqla dilləndi:

– Hırr! Əlimdən çıxa bilməz! Çadırları bir-bir gəzəcəyəm, Böyüyü tapacağam.

– Mən sənə kömək edərəm. – Domba təklif elədi. – Mənim də Balaca haramzadə ilə öz haqq-hesabım var.

Lotu Faxı əlaltılarının sadəlövhlüyünə güldü:

– Ay haqq-hesab çəkdiz ha! – dedi. – Güman ki, onlar artıq Ərafatı tərk ediblər.

– Olsun, onda Müzdəlifədə çatıb dərsini verərəm, – deyə Məhər inad elədi.

– Qardaş, bir az başını işlət, onlar avtobusla getmirlər, ayrıca maşınları var, – deyə Lotu Faxı izah eləməli oldu. – Sən heç Müzdəlifədə də onlara çata bilməyəcəksən.

Məhər inamsızlıqla:

– Bəs, Minada necə? Onları haqlaya bilərik? – Soruşdu.

Lotu Faxı arxa cibindən xəritə çıxartdı:

– Bunu mənə Bakıda bilən adamlar veriblər. Məlumunuz olsun ki, Müzdəlifədən Camarata iki yol var. Biri Minadan keçir, o biri birbaşa gedir, ona üst yol deyirlər, – dedi, xəritəni açmadan cibinə qoydu. – Onların hansı yolla getdiyini biz bilmirik.

– Bəs, məsləhətin nədi? – Domba Rəhim soruşdu.

Lotu Faxı bir az fikirləşdi. Sonra dedi:

– Belə eləyək. İndi Məhər qayıdar çadırlarına, öz dəstəsi ilə hərəkət eləyər, Mina yolu gedər. Biz isə Domba ilə yol maşınlarından birinə minib Müzdəlifəyə, ordan da üst yolla Camarata gedərik. Onda Böyük əlimizdən çıxa bilməz. Hansımızın rastına çıxar, orda da işini bitirərik.

– Harda görüşürük? – Məhər soruşdu.

– Salamat qalsaq qurbangahda görüşərik. – Lotu Faxı etinasızlıqla cavab verdi, sonra Məhəri qucaqladı. – Dostum, özünü qoru.

## -97-
## İki səhra arasında

Mikroavtobus Ərafatdan aralanandan sonra hamı rahat nəfəs aldı. Təhlükədən canını qurtarmış Böyüyün kefi kökəldi, yol boyu Məhəmmədlə zarafatlaşırdı. Arada salondakı əməkdaşlarına da sataşırdı.

Məhəmməd qayğılı idi, Böyüyün zarafatlarına cavab vermirdi, dodaqucu gülümsəməklə kifayətlənirdi.

Maşın gecənin aydınlığında səhradakı şose ilə irəliləyirdi. Baş verən hadisənin həyəcanı keçəndən sonra nazir oturduğu yerdə mürgüləyirdi. Bir xeyli getmişdilər ki, Məhəmmədin göstərişi ilə sürücü maşını şosenin

kənarına verib saxladı. Burdan eniş başlayırdı. Məhəmməd izah elədi:

– Ərafat səhrası bu təpədə qurtarır, irəlidə Müzdəlifə səhrasıdır, – dedi.

– Nə olsun, dostum? – Böyük anlamağa çalışdı.

Məhəmməd başa saldı:

– Məğrib namazının vaxtıdı, – dedi. – Bu namaz mütləq Ərafatda qılınmalıdı.

Belə şərtiliklər Böyüyü narahat eləmədiyindən əlini yellətdi:

– Dostum, sür gedək, namaz qaçmır ki! Abad bir yerə çatıb qılarsan, biz də tamaşa edərik!

Məhəmməd etiraz elədi:

– Yox, yox, bu namazı yubatmaq olmaz. Kəffarəsi böyükdü, – dedi. – Günaha bataram.

Dostunun təkidini görüb Balaca heyrətləndi:

– Adə, haçandan belə qatı dindar olmusan? – Soruşdu. – Sən deyildin ki, pionerə götürülmədiyinə görə ağlayan?

Məhəmməd çəkinə-çəkinə:

– Onlar keçmişdə qaldı, Balaca qardaş, onda uşaq idik, anlamırdıq, – dedi, sonra əsəbi halda. – Allaha tapınmış bir adamı yolundan sapdırmaq günahdır.

– Yaxşı, dəstəmaz almağa su hardan tapacaqsan? – deyə Böyük başqa bir bəhanə gətirdi. – Ətrafımız çöllü-biyabandı ki!

Məhəmməd ayağını yerə döydü.

– Ay nadan dost, su olmayanda torpaqla təyəmmüm eləmək, dəstəmaz almaq şəriətdə caizdir.

Balaca güldü:

– Qardaş, bilirsən ki, biz köhnə kommunistlərdənik. Bizi dağa-daşa salma. Qoy, yolumuzu gedək.

Məhəmməd əl çəkmək istəmirdi. Səbirsizliklə bildirdi:

– Həcc əməlini axıra qədər yerinə yetirməyənin daşı şeytana dəyməz. Lap dəysə də, xətər yetirməz.

Ona qulaq asanlarda can qalmadı, maşına qəhqəhə düşdü. Əflan uğunaraq:

– Ay yerli, onsuz da daşımızın şeytana dəyməsini istəmirik.

Qaflan qəşş elədi:

– Özümüz özümüzə daş atmayacağıq ki! Ha-ha-ha!

Böyük yoldaşlarının şənliyinə qoşuldu:

– Bəli, Məhəmməd! Biz şeytana daş atanı özümüz daşlamağa hazırıq! – Dedi və yerindən qalxdı. – Mizi Mətişoğlu məni çağırır, məsləhətləşib gəlirəm.

Böyük nazirin yanına keçdi, xeyli pıçıldaşdılar. Axırda nazir bərkdən dedi:

– Məhəmməd Xələf qardaşımız, kəffarəsini mən ödəyərəm, sür, – dedi.

Məhəmməd kəffarənin veriləcəyini eşidəndən sonra sakitləşdi. Təklif elədi:

– Madam dayanmışıq, yamacda daş yığa bilərik. Yolun sağı Müzdəlifə vadisi sayılır. Şeytana atılan daş burda toplanmalıdı.

Böyük torbasından bir polietilen torba ayırıb ona verdi:

– Məhəmməd, bu işi sürücüyə tapşır, – dedi. – Qoy, hamımızın əvəzinə daş yığsın!

Məhəmməd sürücüyə buyurdu. Ərəb başını tərpədib maşından düşdü, yamaca qalxdı. Bir azdan bir torba daşla qayıdıb sükanın arxasına keçdi.

Bir neçə kilometrdən sonra maşın yenə dayandı. Böyük narazılıqla:

– Yenə nə oldu, Məhəmməd?

Məhəmməd izah elədi:

– Bundan o yana piyada getməliyik, Camaratda maşınların hərəkətinə icazə verilmir.

Sərnişinlər yerə endilər. Möhtəşəm bir mənzərənin şahidi oldular. Ucu-bucağı görünməyən iki insan axını ala-toranlıqda irəliləyirdi. Metal torlarla ayrılmış yolun biri Camarata, o birisi Minaya uzanırdı. Məhəmmədin məsləhəti ilə üst yolu seçdilər.

– Maşın bizi Minada, Qurbangahın qabağında gözləyəcək. Böyük Şeytanı daşlayandan sonra altdakı yolla Minaya qayıdacağıq, qurban kəsəcəyik. Bir gün Minada qalacağıq. Orda Şeytanı daşlayacağıq. O biri gün səhər kiçik Şeytanı daşlayıb Məkkəyə yola düşəcəyik. Kəabəni təkrar təvaf eləyib Ciddədəki aeroporta gedəcəyik. Ba-

kıya birbaşa reyslər yoxdu. Ya Türkiyəyə, ya Dubaya, ordan da doğma Azərbaycanımıza uçarsız.

## -98-
## Məhər Müzdəlifə səhrasında

Həmkarlarından ayrılandan sonra çadıra qayıdan Məhər şam namazını qıldı, əski-üsküsünü iri çantasına yığdı, dəstəbaşılar zəvvarları avtobuslara minməyə çağıranda Məhər Hacı Sarvanın dəstəsi gedən avtobuslardan birinə oturdu. Dal qapıdan qalxdı, elə arxada özünə yer elədi. Ala-toranlıqda ona fikir verən olmadı.

Hacı Sarvanın dəstəsi Müzdəlifə səhrasına yarım saata çatdı. Zəvvarlar şey-şüyünü yığıb avtobusdan düşdülər. Bundan o yana piyada gedəcəkdilər. Hamı səhraya səpələndi. Şeytanı daşlamaq üçün daş yığacaqdılar. Ziyarətçilər şose ilə hərəkət edən maşınların işığında bu vacib əməli yerinə yetirməyə başladılar.

Mirzəmmədlə Hacı Məftun topladıqları 49 ədəd "noxuddan böyük, fındıqdan kiçik" daşdan əlavə ehtiyat üçün beş-altı daş da götürdülər. Onları yarım litrlik plastmas qaba doldurub torbalarında gizlədəndən sonra rahat nəfəs aldılar. Hacı Sarvan belə öyrətmişdi: "Camaratda olduğumuz birinci gün yalnız Böyük Şeytan, sonrakı iki gün Böyük, Orta, Kiçik Şeytan, hər dəfə, yeddi daşla daşlanmalıdır. Sıxlıq vaxtı daşın hansısa Şeytana dəyməyə bilər, onda ehtiyat daş karınıza gələcək".

Məhər yolun kənarındakı qayanın üstündə oturub siqaret tüstülədir, daş yığan zəvvarlara tamaşa edirdi. Plastmas qabı çantasına qoyan Mirzəmməd qayanın yanından keçəndə oğulluğunu ala-toranlıqda tanıdı. Heyrətlə çığırdı:

– Məhər, bala, sən burda neyləyirsən? Niyə öz dəstəndə deyilsən? – Soruşdu.

– Səhvən sizin avtobusa minmişəm, atam. – Məhər yalan danışdı.

Hacı Məftun diqqətlə cavana baxdı:

– Mirzəmməd kişi, bu qardaş kimdi ki?

Mirzəmməd ağızucu dedi:

– Tanış ol, bu mənim oğlumdu, – dedi.

– Oğlunun həcc ziyarətinə gəlməyini, bəs, məndən niyə gizlətmisən ki? – Hacı Məftun təəccübləndi.

– Gizlətmək nədi, əşi! Özüm də təzəlikdə bilmişəm. Məndən gizli gəlib. – Mirzəmməd əndişə ilə gülümsəyib otaq yoldaşının qulağına astadan pıçıldadı. – Oğlum bir az səydi, hacı.

Hacı Məftun çaşıb qalmışdı, deyilənləri dərrakəsi heç cür həzm eləmirdi. Məhərin qulağı darı dəlirdi, atalığının astadan dediyini eşidib hırıldadı, onu dilə tuturmuş kimi:

– Səy nədi, atam, bir kərəmlik dəli desənə, – dedi, izah elədi. – Dəstənizə qoşuldum ki, darıxmayasan.

– Hacı Sarvan bilirmi? – Mirzəmməd soruşdu.

– Allah bilsə bəsimdi, dəstəbaşı bilməsə də olar! –

Məhər hırıldayıb ona ürək-dirək verdi. – Sən narahat olma, atam, Hacı Sarvanla özüm dil taparam.

Mirzəmməd köks ötürdü:

– Yaxşı, niyə, bəs, daş yığmırsan. – Soruşdu.

– Hırr! Mənə daş lazım deyil!

– Bəs, Camaratda Şeytanlara nə atacaqsan?

Məhər toranlıqda dişini ağartdı:

– Şeytanlara atdıq daşı mən özümlə Bakıdan gətirmişəm.

Mirzəmməd heyrətlə:

– Azərbaycandan özünlə daş gətirmisən?

– Hə...

– Niyə? – deyə Mirzəmməd özünü saxlaya bilmədi. – Ay axmaq, burda bəyəm daş azdı?

Məhər təhqirə biganə qaldı, atalığının üzünə qayıtmadı:

– Hırr! Şeytanlara öz daşımızdan atacağam, atam.

– Niyə? Daş daş deyilmi? – Mirzəmməd oğulluğunu anlamağa çalışdı.

– Hırr! Belə deyirlər ki, Şeytanlar ərəb daşına artıq öyrəşiblər, atam, zərbindən yayınırlar. Biri də dəymir. Bizim daşımızdan isə Şeytan yayına bilməyəcək! Dəyən kimi bir qıçı yox, lap hər iki qıçı sınacaq.

Ağsaqqallar ağzı açıla qalmışdılar, dəli Məhərin sözündə bir həqiqət vardı. Ağıllı desəydi ikisi də əl çalardı, dəli dediyinə görə heç birinin inanmağı gəlmədi.

## -99-
## Hacı Sarvanın dəstəsi Minada

Müzdəlifə vadisində daş yığandan sonra Hacı Sarvanın dəstəsi Minaya gedən zəvvar axınına qoşuldu. Hamı yüklü olduğundan addım-addım gedirdilər. Arada zəvvar axını tamam ləngiyirdi. Yolun kənarında, gecələr də açıq olan, köşklərin qabağında alış-verişə dayananlar hərəkətə mane olurdular. Dəstəsini tələsdirməyən Hacı Sarvan müxtəlif bəhanələrlə özü də onların ləngiməyinə şərait yaradırdı ki, vaxt keçsin. Dediyi kimi də alındı. Gəlib Minadakı çadırlara yetişəndə gecə yarını keçmişdi. Yerbəyer oldular, yuyundular, beş-on dəqiqə dincəldilər, sonra geriyə, Müzdəlifə səhrasının sərhədinə, Mina körpüsünün həndəvərindəki meydançaya üz tutdular. Şiə təriqətinə mənsub olan zəvvarlar şəriətə görə sübh namazını burada, Müzdəlifə vadisində qılmalı idilər. Hamı yaxındakı su kranlarının ətrafına yığışıb dəstəmaz aldı. Hacı Sarvan ibadətdən sonra zəvvarlara dedi:

– Bu günü bərk isti deyirlər. Nə qədər ki daşda, torpaqda, havada səhərin sərinliyi qalır, getməliyik.

Qadınların arasında özünə yer eləmiş dəli Məhər hırıldadı:

– Hacı, xanımlar dincəlmək istəyirlər, axı! – dedi.

Hacı Sarvan Mirzəmmədin xətrinə Məhərin onlara qoşulmasına etiraz eləməmişdi. Onun dəstəbaşısına zəng edib məsələni yoluna qoymuşdu.

Dəli Məhər özü ilə şənlik ab-havası gətirmişdi. Dəstədəkilər onunla məzələnməkdən yorulmurdular. Qadın zəvvarların isə sevimlisinə çevrilmişdi.

Fikrində Camarata qədər yolu vaxta görə bölən Hacı Sarvan qətiyyətlə dedi:

– Dincəlmək nədi, heç bir dəqiqə də dayanmaq olmaz, yoxsa istiyə düşəcəyik, – dedi, sonra meydandan keçən seyrək zəvvar izdihamını göstərdi. – Bir azdan buralarda iynə sancmağa yer tapmayacaqsız.

Daha heç kimin səsi çıxmadı. Hacı Sarvan məmnun halda qabağa düşdü, zəvvarları dalınca çəkib apardı. Gedə-gedə təlimatını təkrarladı:

– Daşı şeytana atmazdan öncə "La ilahə iləllah!" deyilməlidi. Yadınızda qalsın. Divara dəyən daşın çıqqıltısı gələndə isə "Allah Əkbər" deyilməlidi. Dəyməyən daşın əvəzinə yenisini atın. Əməli yerinə yetirəndən sonra sağa dönün, bir az gedin, pəncərənin önündə dalğalanan bayrağımızı görəcəksiniz. Ətrafında toplaşarsız ki, pərən-pərən düşməyək, nizamla geri qayıdaq.

Muxtar əndişə ilə soruşdu:

– Hacı, eyni vaxtda yüzlərlə adam şeytana daş atır. Atdığımız daşın şeytana dəydiyini hardan biləcəyik?

Dəstəbaşı qətiyyətlə dedi:

– Biləcəksən! – İzah elədi. – Mömin daşı əlində qaldıranda ətrafdakı bütün səslər kəsilir, atılan daşın çıqqıltısını aydın eşidir. Yeddinci daş atılana qədər belə davam edir. Buna Allah-Təala ilə rabitə deyilir.

Muxtar inamsız halda:

– Birdən səs kəsilməsə? Birdən rabitə yaranmasa? – Soruşdu.

Hacı Savalan köksünü ötürüb sadəcə dedi:

– Onu daha bilmirəm... – dedi. – Orasını üləmardan soruşarsan.

## -100-
## Camarat yolunda

Müzdəlifə vadisində maşını tərk eləyəndən sonra Əflanın qayğıları birə beş artdı. Nazirin bərkdə dözümü yox idi, ahı-zarı, şikayəti bitib-tükənmirdi. Canı boğazına yığılmış Əflan Böyükdən qorxmasaydı, onun nazına dözməyəcəkdi.

Onlar çoxsaylı İran zəvvarlarının arasına düşmüşdülər. Çoxu əslən Azərbaycanlı idi. Asanlıqla dil tapdılar. Bir-birini sorğu-suala tutdular. Böyük dinməz addımlayırdı, Balaca onun qolundan sallanmışdı. Zirzəmidə aldığı zədədən hələ də axsayırdı. Əflan nazir su istəyəndə çantadan su, yemək istəyəndə yemək çıxarırdı. Cangüdənin ikisini Ərəfatda itirdiklərindən indi qabaqda biri, arxada da o biri addımlayırdı. Qaflanın da bir gözü rəislərdə irəliləyirdi.

Gecənin sərinliyində xeyli yol getdilər. Səhərə yaxın Camarat görünəndə hamı şənlənirdi, bircə ayaqlarını

dalınca zorla sürüyən nazirin üzü gülmürdü. Baş barmağı qançır elədiyindən deyinirdi. Məhəmməd Xələf onun köməyinə gəldi. Zədəli barmağını yodlayıb bağladı, sonra onun rezin şəpitlərini əlləşdirdi, ilişib qalmış iynə kimi nazik qraniti tapıb çıxartdı. Canı rahatlanmış nazirin deyintisi keçdi, amma eyni açılmadı. O, hərdən, yol uzunu çiynində daşıdığı əşya torbasını yerə qoyub dincəlirdi. Əflan onun yükünü yüngülləşdirmək üçün Qaflana dedi:

– Cənab nazirin əşya torbasını götür.

Amma Mizi Mətişoğlu əşya torbasını vermədi, hirslə çiyninə atdı:

– Yüngüldü, özüm apararam, – dedi, açıq deməsə də, artıq ziyarətə gəlməyinin peşmançılığını çəkirdi.

Camarata çathaçatda insan axınının hərəkəti ləngiməyə başladı. Artıq zəvvarlar addım-addım gedirdilər. Qabaqda çıxan maneə barədə məlumatsız idilər. Daha bir axın əks istiqamətdə hərəkət edir, tunelə girirdi. Axınları bir-birindən beş yüz metr uzunluqda hündür metal tor ayırırdı.

Ərdəbildən olan bir zəvvar onunla yan-yana addımlayan Balacaya:

– Ağayi Balaca, bu mənim ikinci həcc ziyarətimdi, – dedi. – Keçən dəfə də belə oldu. Qabağımızı kəsdilər. Dedilər, şahzadə Camaratdadı.

Balaca ərdəbillidən soruşdu:

– Deyirsən, bu dəfə də şahzadə Camarata şeytanı daşlamağa gəlib?

Ərdəbilli biliciliklə dedi:

– Elə olar, ağa! Onlar Camarata maşınla girirlər. Daş atandan sonra maşınla da Məkkəyə qayıdırlar.

– Belə şeymi olar? – Arxalarında gedən bir təbrizli heyrətləndi. – Bu ziyarət olmadı ki! Maşında gələsən, maşında gedəsən.

– Bu şeytan toxumuna kim qadağa qoya bilər ki, baba! – deyə ərdəbilli təsdiqlədi. – Ölkə özlərinin deyilmi?

Balaca gülümsədi:

– Biz deyilik rəiyət, bizlərə nə şəriət!

– Ağayi Balaca düz buyurur. Onlar Camaratdan çıxana qədər bizi burada saxlayacaqlar. Keçən dəfə də başımıza bu oyunu açdılar... Tora tərəf gedək, orda bir az hava var, bir azdan burda nəfəs ala bilməyəcəyik, – deyə ərdəbilli təklif elədi.

Balaca ərdəbillinin yanındakı on-on iki yaşlı oğlan uşağına işarə elədi:

– Oğlundu?

– Bəli, ağa, kiçik oğlumdu. – Ərdəbilli təsdiqləyib buyurdu. – Gədə, Qasım, get, ağalara şirə gətir.

Yol boyu iri polietilen çəmbərlərə rast gəlmək olurdu. Buzla soyudulan şirə butulkaları zəvvarların ixtiyarında idi. Məhdudiyyət yox idi, kim nə qədər istəsə götürüb içə bilərdi. Çəmbərlər boşalmaq bilmirdi, xidmətçilər tərəfindən mütəmadi doldurulurdu.

Oğlanın gedib-gəlməyi çox çəkmədi. Şirələri paylayıb atasının qulağına nəsə dedi. Ərdəbilli Balacaya müraciətlə:

– Ağayi Balaca, oğlum deyir ki, çəmbərin yanında iki nəfər şurəvidən gələn zəvvarları soruşurdu, – dedi. – Yəqin yoldaşlarınızdır.

Balaca gözünü oğlan uşağının göstərdiyi səmtə çevirdi. Beş-altı metr aralıdan onlara tərəf baxan iki nəfəri gördü. Üzü öd rəngində olanı da, div görkəmlisini də dərhal tanıdı. Hər ikisinin, adlarını bilməsə də, onunla bir dəstədə olduğunu yaxşı xatırlayırdı. Burda rastlaşmalarına təəccübləndi, beynindən nəsə keçdi, amma birdən yaranan sıxlıq hər şeyi unutdurdu, arxadan gələnlər boşluqları sürətlə doldurdular. Açıq havada olmalarına baxmayaraq nəfəs-nəfəsə duran adamlar tər içində idilər. Dəmir tora yaxınlaşmağa müvəffəq olan kiçik dəstənin vəziyyəti pis deyildi, burda nəfəs almaq asan idi, amma bu çox çəkmədi.

Səhər Günəşi dağların arasından şığıyanda hamının halı gərginləşdi. Sıxlıq daha da artdığından tora yaxın olanlar zərbə altına birinci düşdülər. Nəhəng bir qüvvənin təsiri altında tor gərildi, gərildi və qırıldı, çığırtılar, daha sonra fəryad səsləri eşidildi. Yalvarış, ah-nalə, inilti göyə bülənd oldu. İki axın üz-üzə gəldi, fəlakət baş verdi...

## -101-
## Hacı Sarvanın dəstəsi Camaratda

Böyük Şeytanı daşlayandan sonra dəstə eskalatorlarla aşağı düşdü, açıq havaya çıxdı. Hamının çöhrəsində körpə çağa səadəti vardı. Cəmi bəlaların baiskarı olan Böyük Şeytan cəzasını almışdı, yüz minlərlə insanın atdığı mərmər və qranit qırıntılarının ağrısından yəqin ki, qaçıb gizlənmişdi, yəqin ki, bir daha insanlığı yoldan çıxarmağa cürət etməyəcəkdi.

Eskalatorlar onları aşağı endirdi. Camaratdan bir az uzaqlaşmışdılar ki, göydəki tül rəngli buludları yırtan Günəş dağların arasından boylandı. Sərin tunelə hələ bir kilometr məsafə qalırdı. Qəflətən şığıyan Günəş tonqal kimi od saçırdı, hərarəti adamın cızdığını çıxarırdı. Zəvvarların canından bir üşütmə keçdi. Yaşlılar büzüşdü, cavanların rəngi saraldı. Havanın temperaturu əlli dərəcə selsidən çox olardı ki, az olmazdı.

Mirzəmməd sərxoş adam kimi səndələdi, əlini daz başına apardıqda yanaşı addımlayan Hacı Məftun mane oldu:

– Dost, kölgələnmək olmaz... – dedi.

Mirzəmməd inildədi:

– Təpəm od tutub yanır, elə bil bu saat deşiləcək...

Uzaqdan atalığının halını pis görən Məhər adamları yararaq özünü ona çatdırdı, qoluna girdi.

– Atam, qorxma, yanındayam... – dedi.

İsti hamını bir neçə dəqiqənin içində şil-küt eləmişdi. Dinən-danışan yox idi, cansız müqəvva kimi irəliləyirdilər. Öküz kimi güclü Məhərin isə heç nə vecinə deyildi, üzündəki səfeh ifadə çəkilmirdi.

Üst yolla Böyük Şeytanı daşlamağa gedən zəvvar axınını Camaratdan çıxıb geri qayıdan zəvvar axınından yarım kilometr uzunluqda, qalın məftillə toxunmuş, hündür metal tor ayırırdı. Dözümlü Məhər gördü ki, torun o tərəfində vəziyyət yaxşı deyil, hərəkət dayanıb, bir-birinə sıxılmış adamların üzündə bir gərginlik var. Tora lap yaxın irəliləyən Məhər birdən Mirzəmmədin qulağına dedi:

– Hırr! Atam, dostumuz Böyük də burdadı ki! Baho! Hırr, odur ey, otaq yoldaşım Qaflan da onların yanındadır. Gör, onlar nə gündədir! Bəs, o top kimi dığırlanan kimdi? Həə, yəqin nazirdi, – deyə güldü.

Mirzəmmədin başını döndərməyə halı yox idi, canının hayında idi. Məhər birdən Lotu Faxının kömür kimi qaralmış donuq sifətini, Dombanın hədəqədən çıxmış qanlı domba gözlərini gördü:

– Vayyy! Siz də burdasız? – deyə dəhşətlə səsləndi, amma artan uğultu səsini batırdı.

Torun o tərəfində eşidilən qarışıq səslər artırdı. Polad tor sıxlıqdan gərilməkdə idi. Birdən çığırtı qalxdı, sonra ah-nalə səsləri eşidildi. Bir-birinin tapdalayan adamların ehramları açılmışdı, çılpaq bədənləri bayırda qalmışdı. Dizi üstə çökmüş Qaflanın başı torpağa söykənmişdi.

Balaca ilə Böyük yerdə çabalayırdı. Üzü qan içində olan Əflan yerə yıxılmış nazirin yekə vücudunun üstünə çıxmışdı. İnilti, zarıltıdan Məhərin tükü ürpəşdi. Dayanıb baxmaq istədi, amma axın onu irəli sürüklədi, durmağa imkan vermədi.

Hacı Sarvan qabaqda gedirdi, nə baş verdiyini bilməsə də, arxaya çevrilib dəstəsini tələsdirdi:

– Tez olun! Tez olun! – deyə təşvişlə qışqırdı. – Dayanmaq olmaz. Deyəsən, fəlakət baş verəcək...

Onlar vaxtında tunelə girdilər. Arxada torun qırıldığını, iki axının üz-üzə gəldiyini, bir-birini tapdaladığını onlar görmədilər. Dəstə üzvləri addımlarını yavaşıtmaq istəsələr də axın imkan vermirdi, fəryad səsləri tunelin ortasına çatana qədər onları izlədi.

## -102-
## Hacı Sarvanın dəstəsi Qurbangahda

Camaratda baş verən faciə dəstədəkilərin gözünü qorxutmuşdu. Hadisə yerindən xeyli aralanandan sonra da sakitləşə bilmirdilər. Yalnız yeri-göyü yandırıb-yaxan Günəş təpələrinə döyəndə özlərinə gəldilər. Qabaqda onları qurbanlıq mərasimi gözləyirdi. Qarşıdakı qayğılardan düşüncələri bir az ayazıdı. Dəstəbaşı dəstəni qurbangaha apardı.

Tuneldən çıxandan sonra telefon Hacı Sarvanın əlindən düşmürdü, namüəyyənlik ona əziyyət verirdi, amma zəngləri fəzada itib-batırdı, deyəsən, mobil rabitə kəsilmişdi.

Mirzəmmədin başı Məhərə qarışmışdı. Aramsız hırıldayan oğulluğu daha heç nə dərk eləmirdi, bulanıq gözləri göyə dikilmişdi. Deyəsən, olan-qalan ağlını da itirmişdi.

Qurbangahda çox qalmadılar. Qurbanlıq üçün lazım olan məbləği xəzinədara ödədilər. Qəbzi minlərlə qoyun saxlanılan mərəyin qapıçısına verdilər, amma kəsim yerinə keçmədilər. Dəstə üzvləri Minadakı çadır-şəhərciyə özlərini yetirib təqsir elədilər, ehramdan çıxdılar, yuyunub yaxalandılar. Günəşin istisi, yaşanan həyəcan, yorğunluq öz işini görmüşdü. Gətirilmiş yeməklərə əl uzadan olmadı, plastmas qablar açılmamış ortada qaldı. Başları yastığa dəyən kimi əldən düşmüş adamları yuxu apardı. Hətta, Mirzəmmədin böyründə uzanmış Məhərin aramsız hırıltıları da dəstə üzvlərinin yuxusuna haram qata bilmirdi.

## -103-
## Fəlakət barədə məlumatlar

Namüəyyənlik zöhr namazına kimi çəkdi. İdarənin Məkkə şəhərindəki nümayəndəsi Minaya varid oldu. Dəstəbaşılar onun çadırına toplaşdılar. Nümayəndə baş

verənlərə aydınlıq gətirdi. Onlara həm rəsmi açıqlamanı, həm də KİV-nin məlumatlarını çatdırdı.

"Səudiyyə Ərəbistanı Krallığı, Ər-Riyad şəhəri.

Rəsmi xronikadan:

201.... il, 25 sentyabr, 10:00-da

Hicri tarixlə, 144.... il zilhiccə ayının onunda səhər saat doqquz radələrində Camaratın girişində naməlum səbəblərdən qarışıqlıq düşmüşdür. Hadisə zamanı yüz əlli zəvvar xəsarət almışdır. Ölən və yaralanan yoxdur".

"KİV-nin məlumatlarından:

201...il, 24 sentyabr, saat 13:20-də.

Səudiyyə Ərəbistanı Krallığı, Məkkə şəhəri.

Hicri tarixlə 144...il zilhiccə ayının onunda Mina dağında vacib həcc əməllərini yerinə yetirən zaman yaranan izdihamda zəvvarlar arasında ölənlərin sayı 753 nəfərə çatıb. Hadisə vaxtı daha 863 ziyarətçinin xəsarət aldığı bildirilir. Şeytanı daşlama əməlindən sonra Camaratdan çıxan zəvvarlar eskalatorla aşağı enərək Minaya qayıdanda yolda qarışıqlıq yaranıb, faciə baş verib. İddiaya görə, yollardan biri bağlı olub".

"KİV-nin məlumatlarından:

201...il, 24 sentyabr, saat 15:30-da

Səudiyyə Ərəbistanı Krallığı, Məkkə şəhəri.

Hicri tarixlə 144...ilin zilhiccə ayının onunda Mina dağında vacib həcc əməllərini yerinə yetirən zaman zəv-

varlar arasında ölənlərin sayı ilkin məlumatlarda deyildiyi kimi 733 nəfər yox, daha çoxdur. Dəqiqləşdirilməmiş məlumatlara görə, ölənlərin sayı 2530 nəfərdir. Xəsarət alanların sayı isə 1200 nəfəri ötür. Deyildiyi kimi, Minaya gedən iki yoldan biri naməlum səbəblərdən bağlı olub."

"KİV-nin məlumatından:

201...il, 26 sentyabr, 12:00-da.

Səudiyyə Ərəbistanı Krallığı, Məkkə şəhəri.

Hicri tarixlə 144...il zilhiccə ayının onunda Mina dağında ölən zəvvarların böyük əksəriyyəti iranlılar olduğundan hadisə İran İslam Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında diplomatik qalmaqala səbəb olub. İİR Səudiyyə Ərəbistanını ziyarətin təşkilatçılığında səriştəsizlikdə və səhlənkarlıqda günahlandırıb, beynəlxalq məhkəmə ilə hədələyib, Birləşmiş Millətlər Təşkilatını hadisəni araşdırmağa çağırıb".

Qəribə də olsa, nə onda, nə də sonralar Azərbaycan zəvvarlarının itkiləri barəsində məlumata ciddi yanaşan olmadı, söylənilənləri şayiə adlandırdılar.

# MÜNDƏRİCAT

Müəllifdən ........................................................................7
Hədislər ............................................................................9

**Şeytana daş atanlar**

(roman)

1. Dəstəbaşı Hacı Sarvan ........................................................13
2. Yeni gələnlər ........................................................................18
3. Neytral zonada ......................................................................21
4. Balaca ...................................................................................24
5. Balaca və Əflan .....................................................................25
6. Fəxrəddin və Rəhim................................................................30
7. Domba Rəhimin həyatı...........................................................35
8. Domba Rəhim kaloniyada .....................................................38
9. Damba Rəhim həbsxanada .....................................................40
10. Qırğı bəd xəbərlə gəlir...........................................................42
11. Çaydan sonra .........................................................................48
12. Domba Rəhim Balacanı tapır.................................................50
13. "Turşulu" zonda görüş...........................................................51
14. Lotu Faxı................................................................................52
15. Məhər Sərhədin ölümündən xəbər tutur...............................56
16. Ölüm fitvası ...........................................................................57
17. Lotu Faxı və polkovnik .........................................................58

18. Lotu Faxı ilə Məhərin görüşü ....................................................62
19. Lotu Faxının həyatı ....................................................65
20. Hacı Sarvanın dəstəsi Mədinə şəhərində ....................................................70
21. Üçlük ....................................................72
22. Balacanın ilk namazı ....................................................72
23. Rəislə müşavirinin mübahisəsi ....................................................74
24. Milyonçu Sərhəd Agentlikdə ....................................................76
25. Əflanla Qaflanın idman klubu ....................................................79
26. Qardaşlarla xaloğluların qiyabi tanışlığı ....................................................82
27. Xaloğluların qardaşlarla tanışlığı ....................................................85
28. Lotu Faxı və mürdəşir Gülü ....................................................87
29. Sərhədin ölümü və ya Agentliyin süqutu ....................................................90
30. Agentliyin yenidən bərpası ....................................................92
31. Səfər xəbəri ....................................................93
32. Səfərə hazırlıq ....................................................96
33. Lotu Faxının Məkkə səfəri dəqiqləşir ....................................................98
34. “Üçlük” Mədinədə şəhərində ....................................................99
35. Cavan və qoca möminlər bir arada ....................................................101
36. Hacı Məftunun həyatı ....................................................103
37. Hacı Sarvan və mürdəşir Gülü ....................................................104
38. Hacı Sarvanın həyatı ....................................................106
39. Sarvan molla yanında ....................................................108
40. Qaflan ....................................................110
41. Gecikənlər və ya “hacı” pivəsi ....................................................112
42. Mürdəşir Gülü və Balaca ....................................................113
43. Mirzəmmədin iltiması ....................................................115

44. Sərhədin arzusu....................................................................115
45. Üçlük vida namazında ........................................................120
46. Mirzəmmədlə Məhər..........................................................123
47.Mirzəmmədin həyatı ..........................................................124
48. Mirzəmmədin çayçılığı ......................................................126
49. Mirzəmmədin sevdası.........................................................129
50. Sərhəd bazarda....................................................................131
51. Sərhədin xaloğlularla birinci "görüşü".................................133
52. Sərhədlə xaloğluların ikinci "görüşü" .................................136
53. Sərhəd həbsxanada ..............................................................138
54. Camaşırxanada.....................................................................140
55. Lotu Faxının həyatı..............................................................141
56. Lotu Faxı ilə Dəli Məhərin dostluğu ....................................146
57. Dəstə üzvləri ehrama girirlər ...............................................149
58. Müqəddəs Məkkə şəhərinə doğru........................................151
59. Qaflanla yeni görüş..............................................................155
60. Ehramın fəlsəfəsi.................................................................158
61. Müqəddəs Kəəbənin ziyarətində..........................................159
62. Mirzəmmədlə Balacanın mübahisəsi ...................................164
63. Balaca ilə Böyüyün həyatı...................................................166
64. Əkizlər institutda ................................................................171
65. Böyüyün evliliyi .................................................................176
66. "Mehriban" ailə...................................................................177
67. Müqəddəs Məkkədə ............................................................179
68. Müqəddəs Kəəbənin ziyarətində..........................................182
69. Mirzəmməd Məhərlə rastlaşır..............................................187

70. Mehmanxanaya qayıdanda ..........189
71. Mirzəmmədlə Məhər kafedə ..........192
72. Balaca vəzifə başında..........194
73. Böyüyün şübhələri..........197
74. Balaca Veranın sirrini açır ..........197
75. Böyük Sərhədi cəzalandırır ..........199
76. Cavab ..........200
77. Fidoranın ölümü ..........201
78. Axırıncı reys..........202
79. Məhəmməd Xələf..........206
80. Mizi Mətişoğlunun həcc hazırlığı..........208
81. Böyüklə Mizinin dostluğu ..........211
82. Bacıların həyatı..........214
83. İmkanlılar korpusu ..........219
84. Dəli Məhər..........222
85. Balacaya qəsd olunur..........223
86. Tibb məntəqəsində..........224
87. Qaflanla Balaca..........225
88. Böyüklə Balacanın müqəddəs Məkkədə görüşü..........228
89. Lotu Faxı Məhəri axtarır ..........231
90. Ərafat yollarında..........233
91. Hacı Sarvanın dəstəsi ..........234
92. Mizi Mətişoğlunun gəzmək arzusu ..........236
93. Gəzinti vaxtı qəza..........239
94. Məhəmməd Xələfin məsləhəti ..........241
95. Məhər Böyüyü axtarır ..........242

96. Lotu Faxının Məhərlə görüşü ........................................243
97. İki səhra arasında ........................................245
98. Məhər Müzdəlifə səhrasında ........................................249
99. Hacı Sarvanın dəstəsi Minada ........................................252
100. Camarat yolunda ........................................254
101. Hacı Sarvanın dəstəsi Camaratda ........................................258
102. Hacı Sarvanın dəstəsi Qurbangahda ........................................260
103. Fəlakət barədə məlumatlar ........................................261